**ŞƏHİD SEYYİD ƏBDÜLHÜSEYN DƏSTĞEYB**

# TÖVHİD

**TƏRCÜMƏ EDƏN:** RASƏT ƏLIYEV

| | |
|---|---|
| **Kitabın adı:** | **Tövhid** |
| **Müəllif:** | **Şəhid Seyyidf Əbdülhüseyn Dəstğeyb** |
| **Tərcümə edən:** | **Rasət Əliyev** |
| **Nəşr edən:** | **«Məhdiyyə» nəşriyyatı** |
| **Kompütərə yığan:** | **S. Ağayeva** |
| **Tiraj:** | **3000** |
| **Cap növbəsi:** | **Birinci. 2000 Bahar** |

**ISBN 964-92766-1-0**

بسم الله الرحمن الرحيم

# ÖN SÖZ

***(Hər kəs Şeytanı [və ya bütləri] inkar edib Allaha iman gətirərsə, o, artıq [qırılmaq bilməyən] ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah [hər şeyi olduğu kimi] eşidən və biləndir!)*** [1] (Kim yaxşı əməl sahibi olub özünü [səmimi qəlbdən] Allaha təslim edərsə, o artıq ən möhkəm ipdən, [Qurandan, imandan] yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır! [Buyuruq Allahdandır])[2]

# NİCAT ÜÇÜN MÖHKƏM VASİTƏ

Allah-Təala yuxarıdakı iki ayədə möhkəm ipdən yapışmağı həlak olmaqdan nicat tapıb yüksək dərəcəyə çatmaq vasitəsi kimi tanıtdırmışdır. Bu möhkəm vasitəni ən gözəl ifadə ilə ***«Allaha müxtəlif mərhələlərdə iman gətirmək»*** kimi adlandırmışdır. Quran da öz növbəsində kamil fəsahət və bəlağətlə haqqa iman gətirməyin və ***«Ürvətul-vüsqa»***dan yapışmağın müxtəlif və saysız mərhələlərini qeyd etmişdir. Bütün möminlər Allaha iman gətirməyin ilk mərhələsində şərikdirlər və bu məqam onların hamısından daha ümumi və əhatəlidir. Lakin onun birinci ayədə qeyd olunan ilk mərhələsindən ikinci ayədən başa düşülən ən kamil mərhələsinə qədər olan məqamlar arasında geniş fərqlər vardır.

---

[1] «Bəqərə» surəsi, ayə 256.
[2]

## TÖHİD ŞÜARINDA İNKAR VƏ İSBAT

İmanın ilk mərhələsi «tağuta», zülm və zülümkarlara qarşı çıxmaq və Allaha təslim olmaqdır. ***«La İlahə illəllah»*** tövhid şüarı hesab olunub, Allahadan başqa bütün məbudları inkar etmək deməkdir. Məlum olduğu kimi, əgər bir kəs öz əli və xəyalı ilə düzəltdiyi bütə sitayiş edib, Allahdan qeyri varlıqları ehtiyaclarının yerinə yetirilməsində müstəqil amil bilərsə, həmin şəxs qorxulu cəhalət və qaranlıq bataqlığında qərq olmuşdur. O, heç bir vaxt nur və feyz mənbəyini, mövcudların yaradanını tanımamışdır. Qurani-Məcid bu cür bədbəxtlərin hallarını müxtəlif yerlərdə və cəlbedici bəyanlarla qeyd etmişdir.

## KAFIR VƏ MÜŞKİRLƏRİN MÜSİBƏTLİ VƏZIYYƏTİ

***«Allaha şərik qoşan kimsə göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə «məxluqə» bənzər».***[1]

***«Allahın vəhdaniyyətini danan, Quranı yalan hesab edən kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O öz əməlinin yanında ancaq Allahın cəzasını tapar. Allah da onun cəzasını layiqincə verər. Allahda onun cəzasını layiqincə verər. Allah tezliklə haqq hesab çəkəndir».***[2]

«Yaxud onların əməlləri əngin dəninizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, bu [ikinci] dalğanın üstündən də qara bir bulud örtək. Zülmət zülmət

---

[1] «Həcc» surəsi, ayə 31.
[2] «Nur» surəsi, ayə 29.

üstündə qərarlaşar. O, əlini çıxartdıqda, demək olar ki, onu görməz, Allah bir kəsə işıq verməsə [elm, mərifət və iman], onun işığı olmaz»[1] [küfr, şəkk və heyrət içində ölər]»

Möminlər bu cür fəlakətli vəziyyətdən nicat tapıb, kufr ilğımı və şirk qaranlığının əvəzinə, iman nuru və tövhid elminin vasitəsilə nurlar mənbəyi olan «Ürvətul vusqadan» yapışmışdır. Tağuta və Allahdan başqa bütün məbudlara kafir olub, Haqq-Təalaya təslim olmuşdur.

## SƏMİMİ QƏLBDƏN TƏSLİM OLMAQ VƏ ONUN MƏRHƏLƏLƏRİ

İman və tövhidin bütün məqamlarla olan ilk mərhələsi Allah-Təalaya səmimi qəlbdən təslim olmaqdır. Təslim olmaq imanın zəruri məsələlərindəndir. Bu ifadə əvvəldə qeyd etdiyimiz ikinci ayədə çox gözəl bəyan olunmuşdur: ***«Hər kim yaxşı əməl sahibi olub özünü səmimi qəlbdən Allaha təslim edərsə, o, artıq ən möhkəm ipdən - Qurandan, imandan yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır».***[2]

Səmimi qəlblə təslim olmaq imanın vacib məsələlərindəndir. Hər kim Allahın varlığına, Onun yeganə yaradan və pərvəriş verən olmağına, bütün nemətləri onun ixtiyarında qoymasına etiqad bəsləsə, həmin şəxsdə belə bir Allaha qarşı razılıq və təvazökarlıq hissi yaranar. Allahdan razı olub, onun qarşısında təvazökarlıq göstərmək səmimi qəlbdən təslim olmaq adlanır. Məlumdur ki, hər kəsin imanı nə qədər çox olsa, onun mərifəti də bir o qədər gedişlənər, Allahı daha əzəmətlə dərk edək. Bu hiss getdikcə o qədər artar ki, həmin şəxs özünü Allaha kamil sürətdə və səmimi qəlblə təslim edər.

---

[1]

[2] «Loğman» surəsi, ayə 22.

Artıq onun üçün heç bir mənlik və qürur qalmaz, bütün hərəkət, sükunət və varlığı, qəlb, əqidə, düşüncə, xəyal və əməlləri Allaha görə olar. Quranın təbirincə desək: «***Və huvə möhsin»***, - yəni o, tam mənada yaxşı əməl sahibinə çevrilər. Bütün mərhələlərdə yaxşı əməl sahibi olub, Allaha səmimi qəlbdən təslim olmaqla xatircəmlik və düşüncə rahatlığı əldə edər, həmişə Allahla ünsiyyətdə olar, hədəf və məqsədi ona yaxınlaşmaqdan başqa bir şey olmaz.

Quran bu kamil insanlar haqqında belə buyurur: ***«O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da, Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər və deyərlər: «Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizim cəhənnəm odunun əzabından özün qoru!»*** [1] Onların qəlbləri oyaq olub, öz məhbubları və Onun yaratdıqları barədə düşünərlər.

## ŞƏRAFƏT ALLAHIN TƏKLİYİNİ BAŞA DÜŞMƏKDƏN ÖTRÜDÜR

Bütün mövcudlar Allah-Təalanın varlığından bəhrələnib, Onun bərəkətindən istifadə edirlər. Amma əsas məsələ bundadır ki, onlar ilahi varlıq haqqında mərifət kəsb etsinlər və başa düşsünlər ki, insanın şərafət və nəcibliyi ona özündən də yaxın olan Allahı tanımaqdadır. ***«Biz ona şah damarından da yaxınıq!»***[2]

Onun mübarək vücudu hər yeri, o cümlədən bütün mövcudları əhatə edir, ***«şərq də, qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz Allah oradadır. Şübhəsiz ki Allahın***

---

[1] «Ali-İmran» surəsi, ayə 191.
[2] «Qaf» surəsi, ayə 16.

***mərhəməti genişdir və O, hər şeyi biləndir!»***[1] «***Belə bir Allaha qovuşmaq arzusu, kamil səadət və ən yüksək məqsəddir ki, bundan üstünü yoxdur».***[2]

Yaradılışın hədəfi Allahı həqiqi surətdə dərk edib, Onun sifət və işləri ilə tanış olmaqdan ötrü elm əldə etməkdir. Qurani-Məcid bu barədə buyurur: ***«Yeddi qat göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər bir şeyə qadir olduğunu, hər şeyin öz elmi ilə etiva etdiyini bilirsiniz deyə, Allahın əmri onların arasında nazil olar».***[3]

Göylərin və yerlərin yaranışından, ilahi əmrlərin onlara nazil olmasından məqsəd, insanların Allah-Təalanın öz elm və nəhayətsiz qüdrəti ilə hər bir şeyə qadir və agah olmasını dərk etməsidir. Həyatda olan hər bir şey Haqq-Təalanın isim, sifət və felinin bəhrəsidir. Tanrının isim, fel və sifəti bütün varlıqların adlarından başlayaraq onların vücud mənbələrinə qədər hər bir yerdə tətbiq olunur. Quran bu barədə çox aşkar və gözəl bəyanla buyurur: ***«Bütün işlər axırda Allaha qayıdacaqdır».***[4]

## TƏZƏKKÜR VƏ XATIRLAMA İMAN VƏ MƏRİFƏTİN İNKİŞAFINA SƏBƏB OLUR

Qeyd etdiyimiz kimi, bütün varlıqlar, xüsusilə insan həmişə Allahın nemətləri ilə bəhrələnir və bunların hamısı Tanrının isim, sifət və felinin bəhrəsidir. Lakin həqiqi və mənəvi bəhrələnmənin ləzzəti maddi hisslərdən yüksək olub, hər an iman və mərifət nurunun artmasına səbəb olur. Bu nemətləri və onların əta edəni həmişə yad etmək, şəxsiyyət və şərafətin artmasına və mərifətin ibtidai mərhələlərindən daha yüksəklərə

---

[1] «Bəqərə» surəsi, ayə 115.
[2]
[3] «Talaq» surəsi, ayə 12.
[4] «Fatir» surəsi, ayə 4. «Ali-İmran» surəsi, ayə 109.

tərəqqi etməsinə səbəb olur. İman, elm və yəqin mərhələləri də məhz bu nahiyədən vücuda gəlir.

Deməli, Allahın isim, sifət və felini nə qədər çox xatırlasaq, iman və mərifətimiz də bir o qədər çoxalar və bu da, Allahın «Urvətu-vusqasın»dan daha da möhkəm yapışmağa səbəb olar. Quranda çox az mövzu tapmaq olar ki, ona, Allahı daim zikr edib, Onun nemətlərini səhər-axşam yad etmək qədər əmr olunsun. ***«Onu [Allahı] səhər axşam təqdis edib şəninə tariflər deyin!»***[1]

## ZİKRLƏRİN ƏN ƏHƏMİYYƏTLİSİ QƏLB İLƏ ONU YAD ETMƏKDİR

Məlumdur ki, iman və onun mərhələlərinin etibarına görə qəlblə olan zikrin çox əhəmiyyəti vardır. Dil ilə zikr etmək qəlb zikrinin yaranmasından ötrü bir müqəddimədir. Çox zikr etmək barəsində olan saysız-hesabsız tövsiyələr içərisində qəlb ilə olan zikrin xüsusi yeri vardır. Bu məsələyə Quranı-Məcidin bir çox ayələrində də toxunulur: ***«O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz».***[2]

Onların dili alış-verişlə məşqul olmasına baxmayaraq, qəlbləri həmişə Allahı yad etməklə məşquldur.

Bununla da, belə bir nəticəyə gəlirik ki, təzəkkür və qəlblə Allahı yad etmək imanın qüvvətlənməsinə, ***«Ürvətul-vusqaya»*** daha da möhkəm bağlanmağa səbəb olur.

---

[1] «Əhzab» surəsi, ayə 41-42.
[2] «Nur» surəsi, ayə 37.

## ƏLİNİZDƏ OLAN BU KİTAB ALLAHIN NEMƏTLƏRİNDƏNDİR

Allahın nemətlərindən biri də əlinizdə olan bu kitabdır ki, bizim bu günkü cəmiyyətimiz üçün böyük mənəvi dəyər mənbəyi sayılır. Ümüd edirəm ki, onun böyük təsiri olacaqdır. Kitabın mündəricatına nəzər salıb, onun sərlövhələrini mütaliə etmək bizim sözümüzü təsdiq edir. Bu kitab Allahın saysız-hesabsız nemətlərini yad etmək, onun isim, fel və sifətləriylə tanış olmaq və ***«Ürvətul-vusqa»***ya pənah aparmaqdan ötrü ən yaxşı hidayətçidir.

1980-ci ilin may ayının əvvəlləri radio-televiziya şirkəti Şiraz şəhərinin imam cüməsi həzrəti Ayətullah Hacı Seyid Əbdülhüseyn Dəstiğeybdən ümumi kütlənin istifadəsi üçün **«Etiqadlar»** mövzusunda çıxış etməsinin xahiş etdi. Bu çıxışlar maqnitafon lentinə yazılaraq, mübarək Ramazan ayında ümumi camaatın hidayət və islam maarifi ilə tanış olmalarından ötrü radio-televiziya vasitəsiylə efirə buraxıldı.

Bu dərslər İran İslam televiziyasının Şiraz mərkəzi tərəfindən mübarək Ramazan ayının axşamlarında, Tehran radiosu tərəfindən isə həmin ayın səhərlərində ümumi camaat üçün yayıldı. Şirazın qədim cümə məscidi kitabxanasının mətbuat şöbəsi bu mətləbləri tənzim etdikdən sonra kitab halına salıb, əziz oxucuların ixtiyarında qoyduğuna görə iftixar edir.

## YÜKSƏK MƏTLƏBLƏR AYDIN BƏYANLARDA

Bu kitab Allah-Təalanın müqəddəs isim, fel və sifətlərindən bəhs edir. Tövhiddən başlayaraq Allahın **«Sane»** (Yaradan), **«Əsmaul-husna»** (ən gözəl adlar) və **«Ülya»** (ən uca) sifətləri

haqqında elə bəhs olunub ki, hər bir oxçu ondan öz istedadı qədərində istifadə edə bilər. Müəllifin tədris və bəyan usuluna əsasən, kitabın ən çətin mətləbləri belə, sadə şəkildə çatdırılmışdır.

Əgər bəzi yerlərdə elmi terminlərdən istifadə olunubsa da, onlar yerindəcə izah edilib aydınlaşdırılmışdır.

Ümid edirik ki, həmişə haqqı arayıb-axtaran əziz oxucular müəllifin başqa kitablarını hörmətlə qəbul etdikləri kimi, bu dəyərli kitabdan da kifayət qədər bəhrələnsinlər və onu öz dost-tanışlarına təqdim edib, bu nəşriyyatın hədəflərinin həyata keçməsinə yaxından kömək etsinlər.

*Hacı Seyyid Məhəmmədhaşim Dəstqeyb*

## ŞƏHİDLƏR DİRİDİR, ALLAHU ƏKBƏR!

Ömürləri boyu Allahı yad edən övliyalar üçün haqq yolunda şəhidlik məqamına yüksəlməkdən böyük səadət yoxdur. Şəhid Ayətullah Dəstğeybin ömrü, Tövhid haqqında söhbətlərinin çapını öz gözləri ilə görməyə vəfa etmədi. O, özünün həmişəlik arzusu olan məhbubunun görüşünə tələsib, əbədi səadətə qovuşdu. Onun qəlbləri sarsıdan ayrılığı bizlər üçün çox çətindir və onun yerini doldurmaq heç vaxt mümkün olmayacaqdır. Aramızda olmamasını hər an hiss edirik, o, getdi və bütün vəfalı dostlarını da özü ilə apardı. Amma xatirəsi həmişə qəlbimizdə, səsinin ahəngi qulaqlarımızda və mələk kimi çöhrəsi xatirimizdə həmişəlik qalacaqdır. Nəyə görə də qalmasın?! Bir halda ki, o, kiçik qarışqaya belə əziyyət etməz, onu sevənlərə çoxlu faydalar verib, müqabilində isə heç nə tələb etməzdi. Bir ömür Allah razılığı üçün yaşayıb, Onun bəndələrinin tələblərinə həmişə

imkan daxilində müsbət cavab verən bu ilahi şəxsiyyət heç vaxt unudulmayacaqdır.

***Mövti cismanim ilə sanma mənim ölməyimi,***
***Seyyida ölmərəm aləmdə sisim var mənim!***

# BİRİNCİ DƏRS

Həzrəti Əmirəl-möminin Əli (ə) «Nəhcül-bəlağə» kitabının birinci xütbəsində buyurur: ***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi Onu təsdiq etmək, təsdiq etməyin kamilliyi Onu vahid bilmək, vahid bilməyin kamilliyi isə Ona qarşı tam xalislikdir».***[1]

## İNSAN ÖZ FİTRİ ANLAYIŞLARI İLƏ KAMİLLİYƏ DOĞRU GEDİR

İlahi dinlərin ibtidası, peyğəmbərlərin ilk çağırışı və ilahi məktəblərin birinci proqramı Allahı tanımaqdır. Beşərin ilk ideoloji və fikri hərəkəti Allah haqqında olmalı, buradan da fitri mərifət icmali surətdə kamala doğru yüksəlib, Allahı tanımaqdan ötrü geniş mərifətə yol tapmalıdır. Yəni bilməlidir ki, bu aləm vücuda gəlmişdir və hər bir mövcudun da bir vücuda gətirəni, mütləq yaradanı olmalıdır. Bu, fitri mərifətin hüdud və ilk anlayışlarındandır ki, hər bir bəşər bu mənanı öz zatında tapa bilər. Heç bir şey səbəbsiz yaradılmır. Əgər normal ağıla malik olan uşağın da arxa tərəfindən qarşısına bir şey qoyulsa, o, həmin şeyə əl uzatmazdan əvvəl, gətirənin kim və ya nə olduğunu bilməkdən ötrü arxaya baxır. Əvvəldə mövcud olmayan şey, birdən gözə görünürsə deməli, onu gətirən olmalıdır. Çünki, ***«gətirmək»*** özü bir yaradılışdır.

Dərrakəli insanlar hər bir varlığı görən kimi, öz fitrətləri əsasında dərk edirlər ki, onun mütləq yaradanı və xaliqi vardır. *«Düzəldilmiş şeylər»* yaradılmış olduğu üçün, onu bir xəlq edən lazımdır. Onlar öz bədənlərinə diqqət edib, onun hər bir

---

1

hissəsində özünə məxsus nəzm və hikmət müşahidə edir və bununla da onun xaliqinin alim və qadir olmasını başa düşürlər. Bu ibtidai və icmali olan fitri anlayışları təfəkkür və mərifətlə inkişaf etdirmək lazımdır ki, təsdiq mərhələsindən tutmuş, yəqinlik məqamı və qəlbin arxayınlıq dərəcəsinə qədər yüksəlsin. Elə bir məqama ucalsın ki, daha onun üçün heç bir şəkk-şübhə qalmasın.

## BİZİM HAMIMIZIN BƏDƏNİ TORPAQDAN YARANMIŞDIR

Mübarək «Rum» surəsinin Allah-Təalanın felləri barəsində bəhs edən ayələri Onun hikmət və qüdrətini yada salıb, insanın bədəni haqqında söhbət açır. Bu əzəmətli ayədə belə buyurulur: ***«Sizi torpaqdan yaratması, sonra da sizin bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir».***[1] Adəm və Həvvadan çoxlu insanlar yaradıb, onları yer kürəsinin ətrafında yaydı.

Geriyə qayıdıb ilk əvvəllər nələr baş verdiyini təsəvvür edin. Aləmdə olan zərrələr pərakəndə şəkildə torpaq, hava və suda qərar tutmuşdu. Bu zərrələr ilahi qüdrətlə yeməli olan buğda, düyü və heyvanların yediyi ot-ələfdə cəm olunmuşdu. Ata və analar bu qida maddələrini yedikdən sonra onlar dərd həzm mərhələsindən keçərək artığının bir hissəsi xaric olur, digər bir hissəsi də atanın belində və ananın rəhmində yerləşir.

Deməli hamımız əvvəldə torpaq idik, müəyyən bir qüdrət bizi ata və ananın bədənində yerləşdirib, sonradan ananın rəhmində təkmilləşdirdi. Bura qədər torpaq halında olan bu maddələr həmin mərhələlərdən keçir. Görəsən bu dəqiq mərhələləri torpaq özü yerinə yetirir və ya o hansısa şüurlu bir

---

[1] «Rum» surəsi, ayə 20.

qüdrət tərəfindən baş verir? Yaxud da ki, nəhayətsiz elm və qüdrət sahibi özünə məxsus tədbirə cansız torpağı bu həddə çatdırır?

## EŞİTMƏ VƏ GÖRMƏYİMİZDƏN ÖTRÜ MİLYONLARLA HİSSƏLƏR LAZIMDIR

Yaxşı olar ki, öz vücudumuza nəzər salıb, Quranın buyurduğu tapşırıqlara əməl edək: ***«Elə isə insan bir daha nədən yaradıldığına bəsirət gözü ilə baxsın! O, axıb tökülən bir sudan, nutfədən yaradılmışdır. O su kişilərin bel sümüyündən, qadınların isə sinə sümüyündən çıxar!»***[1]

Bu bədəndə mövcud olan bir dənə damar və ya sümük də hikmətsiz deyildir. Elm inkişaf etdikcə məlum olur ki, insanın bədən üzvləri son dərəcə dəqiqliklə, böyük hikmət və məsləhət əsasında yaranmışdır. Axır zamanlarda olunan kəşflər sübut edir ki, qulaqda üç milyon hüceyrə fəaliyyət göstərir. Əgər bunların bir hissəsi olmasa eşitmək qabiliyyəti naqis olar. Görmək hissini kamilləşdirməkdə ötrü gözdə, insanı heyrətə gətirən milyonlarla hüceyrədən təşkil olumuş yeddi təbəqə vardır. Bədənin hər bir üzvü belədir. Bütün varlıqlar barəsində təfəkkür etmək lazımdır. Gecə-gündüz ən azı bir saat Allahın yaratdıqları haqqında fikirləşib ibrət götürmək və bu qayda ilə də, içmali mərifətdən geniş mərifətə və nəhayət təsdiq məqamına çatmaq olar.

***«Allahı tanımağın kamalı Onu təsdiq etməkdir».***[2] Elə bir məqama yetişmək olar ki, qəlb Allaha yaxın olub, özünü Ona təslim edər. Şəkk etməkdən uzaqlaşıb, yəqin mərhələsinə mərhələsinə çatar, Allahın varlığına zərrə qədər də vəsvəsə və şübhə etməz. Elm yəqinliyindən (elmül-yəqin) daha yüksəyə

---

[1] «Tariq» surəsi, ayə 5-7.
[2] «Nəhcü- bəlağə» xütbə 1.

ucalıb, yəqinliyin özünə (eynul-yəqinə), bir qədər də çalışıb yəqinliyin haqqında (həqqul-yəqinə) çatar. Elə bir yerə yetişər ki, Allahla birlikdə olması onun üçün hər şeydən aydın və aşkar olar.

## BİRLƏŞMƏDƏN VƏ HALDAN-HALA DÜŞMƏDƏN HƏR MÖVCUDLA BİRLİKDƏ OLMAQ

***«Məiyyət»***-in mənası Allahla birlikdə olmaqdır ki, Allah-Təala Quranda bu barədə buyurur: ***«Siz harada olsanız, O sizinlədir».*** [1] Harda olursan ol, Allah səninlədir. Bu varlıq aləmini möhkəm saxlayan Odur. Bizim hamımız ona söykənir və Onunla da öz varlığımızı davam etdiririk. Məgər kölgə sahibi olmasa, kölkə ola bilərmi?

Əli (s) «Nəhçul-bəlağə»nin əvvəldə qeyd etdiyimiz xutbəsində buyurur: ***«Allah hər mövcudla birlikdədir, amma onlarla birləşmək və xarici yaxınlaşmaq yolu ilə yox».*** Heç bir mövcudun varlığı ondan ayrı fərz oluna bilməz. Hər bir şey o vaxt varlıq olur ki, Allah-Təala ona vücud bəxş etmiş olsun. Xülasə, ***«Allah yaxınlaşmadan hər şeylə birlikdədir»***. Əgər Allah-Təala nəzərini bir varlığın üzərindən götürsə, o varlıq yox olar. Hər bir mövcud zati etibarilə heç dərəcəsindədir. Lakin onun mövcudluğu, Allahın ona bəxş etdiyi varlıq cəhəti ilədir.

Əmirəl-möminin Əli (ə) aşağıdakı cümlədə buyurur: «***Bir şeyi görəndə, Allahı ondan qabaq, ondan sonra və onunla görürəm».*** [2] Hər nə gördümsə, Allahı onunla gördüm. İnsan gərək elə bir həddə çata ki, Allahı bəsirət gözü ilə görmək onun üçün adiləşə. Ən azı elm yəqinliyi mərhələsinə çatmasa da, bilməlidir ki, hər bir varlığın vücudu birləşmə və ittihad

---

[1] «Hədid» surəsi, ayə 4.

[2]

olmadan, Allahdandır. Çünki, hülul və ittihad Allah barəsində küfr və ilhad sayılır (dindən çıxmaq). Allah heç bir kəsdə və heç bir şeyin daxilində deyildir. Bu o mənaya deyil ki, hər bir varlıq Allahdan ayrılaraq özü üçün mürəkkəb və müstəqil bir varlıq olur. Əksinə, hər bir varlığın vücudu Ondandır və heç bir kəsin müstəqil vücudu yoxdur.

***Ey nuri səmavatı zəmin gərçi nihansan,***
***Amma nəzəri arifi danada əyansan***
***Batin gözünün görməyə yox səndə qüsuru***
***Zahir gözü görməz səni əlbətdə nihansan.***

Bizim hamımız əvvəlcə bir ovuc torpaq idik. Amma indi isə varlıq olub başa düşür, eşidir və görürük.[1] Bu cür aşkar olmaq bizim öz iradəmizlə və ya torpağın qüdrəti ilədir? Əlbəttə yox! Bəs haradandır? Həmin Allahdandır ki, bu varlıqları aşkar edir. ***«Allahı tanımağın kamilliyi Onu təsdiq etməkdir»*** cümləsindən məlum olur ki, insan gərək əvvəldə peyğəmbərlərin dəvətini qəbul etsin, öz mərifətini inkişaf etdirməkdən ötrü Allahın ayələrində təfəkkür edib, özünü və başqalarının varlığını başa düşsün.

## HƏR ŞEY AYDIN VƏ AŞKAR OLANDAN SONRA İNKAR ETMƏ NƏYƏ LAZIMDIR?!

Bu məsələ insanı ən çox düşündürən suallardan biridir. Hər varlığın vücudu bir və ya bir neçə dəlillə isbat olunur. Aləmdə olan varlıqların, çöllərdəki toz-torpaq, yağış damcıları və insanın bədənində olan tük, damar, sümüklər və nəhayət yaranmışların hamısı Allahın varlığına şəhadət verir. Sədi bu barədə deyir:

---

1

***Ağacın bir yarpağı aqilin nəzərində,***
***Hər biri bir kitabdır, Tanrı mərifətlərində.***

Varlıq aləmində gözə gələn və saymaqla qurtarmayan hər bir şey Allahın varlığını isbat edir. ***Əgər yerdəki bütün ağaclar qələm, dəryalar isə mürəkkəb olsaydı, yenə də Rəbbimin sözləri tükənməzdir. Həqiqət, Allah yenilməz qüdrət və hikmət sahibidir!*** Bütün gözə görünən və görünməyən hər bir şey Onun varlığına dəlildir. Bəs necə olur ki, çoxları Allaha inanmırlar? Onu qəbul edənlərin bəzisi də, şəkk və vəsvəsə ilə qəbul edir, yəqin və həqiqi təsdiq mərhələsinə çata bilmirlər.

## QƏLBİN GÖZÜNDƏ HİCAB

Çox təəssüf ki, onlar üçün aləmlərin Pərvərdigarı bu qədər saysız-hesabsız ayət və nişanələrlə yenə də gizlidir. Elm və təsdiqin yeri qəlbidir, insan hiss ilə deyil, qəlbin gözü ilə görə bilər. Bəsirət gözü maddi göz deyil, maddi göz ancaq cismi görə bilər. Allah cismi yaradıb, amma O, maddi gözlə görünməkdən münəzzəhdir. İnsanın düşüncələridir ki, Ona inanıb sevir və pərəstiş edir. Elə bir məqama çatır ki, özünü Allaha fəda edir. Nəfs və xüdbinlik qəlb aynasının üzərinə çəkilmiş bir pərdədir ki, Allahı böyük görməyə mane olur. Nə vaxta qədər ki, insan özünü görür, onun Allahı görməsi qeyri mümkündür. Nəfsani istəklərin ardınca gedən adam Allahı axtarıb tapa bilməz. Nə qədər ki, öz xoşbəxtliyini istəyir, Tanrının razılığını istəməsi qeyri mümkündür. Nə vaxta qədər ki, dünya, məqam və malı çox sevir, bütün aydın və aşkar dəlilləri qəbul etməyəcəkdir. Şəhvət və nəfsin hisslərinə xidmət edən adam üçün, Allahın varlığını isbat edən ən aşkar əmrlər belə, həmişə gizli qalacaqdır. Özü ilə

qəlbi arasında hicab olan şəxs Allahını neçə dərk edə bilər?! Əgər gözün qarşına bir parça çəkilsə, bu işıqlıqda olan günəşi necə görə bilər? Hərislik, məqampərəstlik və dünyaya meyilli olmaq da belədir. Özünü istəməklə Allahı sevmək bir yerdə cəm ola bilməz.

## ÖZÜNÜ İSTƏMƏ ƏN QARANLIQ HİCABLARDANDIR

Xüdbin şəxslər Allah görün ola bilməzlər. Çünki xüdbinlik Allahı görüb, ona iman gətirməyə icazə vermir. Dildə ***«La İlahə İllallah»*** demək kifayət etməz, gərək qəlb ilə Allaha iman gətirib, Onun razılığını əldə etməyə çalışasan. İmanın məkanı qəlbdir. ***«İlahi qəlbim hicablanmışdır!»*** duasını xatırlayın. Nə vaxta qədər ki, qəlb öz düzəltdiyi hicab və pərdələrlə örtülüb və gündən-günə möhkəmlənib bərkiyir, Allahı tanıya bilməz. Özünü istəmək və xüdbinliklə edilən işlər ilahi mərifətin qarşısına sədd çəkib ki, Ondan uzqaq olmağa, hətta Onu inkar etməyə səbəb olur. Cahil bəşəriyyətin işi o yerə çatır ki, deyir: Mən varam, amma Allah...? Bu qəlbin qaranlıq hicablarla örtülməsinin nəticəsidir. Əgər «mən» və «mənəm-mənəm» demək daha da qüvvətlənsə, bəşər əvvəl torpağdan, nütfədən yaranmasını, uşaq vaxtı zəif olamasını, daha sonra qocalıb əldən düşməsi, xəstələnməsi və nəhayət zəifləyib ölməsini də yaddan çıxarar.

İmam Sadiq (ə) buyurur: **«Allahla bəndə arasında heç bir hicab, nəfs və həvəs hicabı qədər qaranlıq və qorxulu deyildir».**[1] Bunların hamısı özünü istəməkdəndir ki, belə bir halda Allah pərəstliyə yer yoxdur.

---

1

## QƏLBİ BÜRÜYƏN ZÜLMƏTLƏRİN ARADAN GETMƏSİNİN ÇARƏSİ, GECƏ-GÜNDÜZ OYAQ QALMAQDIR

Qəlbi əhatə edən hicab və pərdələrin aradan getməsindən ötrü nə etmək lazımdır? Bir halda ki, onun olmasıyla Allaha qarşı elm, iman və məhəbbətin yaranması qeyri mümükündür. Hicabı aradan götürməyin çarəsi insanın öz əlindədir. Yuxarıda qeyd etdiyimiz hədisdə İmam Sadaiq (ə) bunun carəsini bəyan edir:

Qəlbi bürüyən hicabı kökündən kəsib atmaq və bu səddi sındırmaqdan ötrü gündüzlər aç və susuz olmaqdan, yəni - ***«oruc tutmaq»***, kecələr isə oyaq qalıb aləmlərin Pərvərdigarına ibadət etməkdən yaxşı silah yoxdur.

Nəfsi ram etməkdə, onun istəklərini aradan aparmaqda oruc tutmağın çox böyük rolu vardır. Bu hal qürub vaxtı yaxınlaşanda daha yaxşı hiss olunur, bəziləri mümkündür ki, bunu yaxından müşahidə etmiş olsunlar. Həzrəti Rəsuli-Əkrəm (s) Şəbaniyyə xütbəsində buyurur: ***«Şeytanlar zəncirlənmişdir».*** Bəlkə bu həmin mənayadır ki, camaat nə qədər çox ***oruc*** tutarsa, cinayət və günahlar bir o qədər azalar.

Sübh tezdən oyanmağın nəfsin cəhalət səddi və onun hicablarının aradan ketməsində böyük təsiri vardır. ***«Və o bəndələr ki, səbr edən, doğru olan, Allaha itaət edən, mallarından fəqirlərə verən və sübh vaxtı Allahdan bağışlanmaq diləyənlərdir».*** [1] Allah-Təala Quranda bu yolu möminlərə tanıtdırmışdır. Gecənin üçdə bir hissəsinin sonuncusunda oyanıb İlahi dərgaha üz tutmaq elə bir dərmandır ki, onun həqiqi təbibi aləmlərin Rəbbi olan Allahdır. Allaha

[1] «Ali-İmran» surəsi, ayə 16.

etiyaclı olmaq ***«Və o bəndələr ki, sübh vaxtı Allahadan bağışlanmaq diləyənlərdir»*** və bütün hallarda Ona üz tutmağa adət etmək xudbinliyi tamamilə aradan aparır. Gecə yarısı hamı şirin yuxuya qərq olarkən, Allahın lütf nəzəri üzərilərində olanlar böyük ehtiyacla Ehtiyacsızın dərgahına əl açırlar.

«Nəhcül-bəlağə»nin ***«Həmmam»*** xütbəsində Əli (ə) pərnizkarlar haqqında buyurur: ***«Gecə vaxtı gündüz etdikləri işlərinin haqq-hesabını çəkirlər. Əgər öz işlərində bir nöqsan müşahidə etsələr, o anda təqsirlərinin bağışlanmasından ötrü Allah-Təalanın dərgahına nalə edirlər. Gündüz etdikləri işlərini haqq-hesabını hər gecə çəkib, üst-üstə yığılmasına razı olmurlar».***[1]

---

[1] «Nəhcül-bəlağə» «Həmmam» xütbəsi

## İKİNCİ DƏRS

## HƏRƏKƏTLƏRİN KƏMİYYƏT VƏ KEYFİYYƏTİNƏ NƏZARƏT AQİL BİR MÜHƏRRİKİN NİŞANƏSİDİR

***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etməkdi».***

Allahı tanımaq fitri bir anlayışdır. Əsərin təsir edənə, yaradılmışın yaradana, illətin məlula dəlalət etməsi əqli baxımdan aşkar bir məsələdir. Ağıl hərəkət edəni görən kimi o dəqiqə onu hərəkətə gətirənə diqqət edir. Sayısız-hesbsız ulduzların onlar üçün müəyyən olunmuş mehvərdə dəqiq və nizamlı şəkildə dövr etmələri, elm və qüdrəti sonsuz olan böyük iradə və hərəkət sahibindən xəbər verir. Həmçinin varlıqlarda müşahidə olunan keyfi, kəmmi və inni hərəkətlər də bu qəbildəndir. Məsələn, üzüm dənəsi əvvəldə kiçik və yetişməmiş olduğu vaxt, öz kəmmi və keyfi hərəkətlərini başlayır. Kəmmi hərəkət: Üzüm dənəsi tədriclə böyüyərək bəzi vaxtlarda barmağın başı boyda və ya ondan da böyük olur.

Keyfi hərəkət: Əvvəldə həddindən artıq turş olan üzüm dənəsi tədriclə öz şirinliyini artırmağa və həmçinin əvvəldə yaşıl olan rəngini get-gedə dəyişməyə başlayır.

Bütün varlıqlarda az-çox nəzərə çarpan kəmmi və keyfi hərəkətlər bunlara tam şəkildə təsir edən bir qüvvənin olmasına dəlalət etmirmi? Bu məsələnin hədəfi hərəkətin mühərrikə, əsrin təsir edənə və yaranmışın yaradana dəlalət etməsidir.

## SURƏTİN ŞƏKLİ VƏ GÖZƏ DİQQƏT EDİLMƏSİ

Əgər vərəqdə gözəl bir xətt yazılmış olsa, o dəqiqə onu yazana diqqət edib, onun necə yaradıcı, səliqəli, bilici və qüdrətli olmasını düşünürük. Xəttin gözəlliyi yazanın istedadlı olmasına dəlalət etməsi fitri bir məsələdir ki, insan o dəqiqə ona diqqət edir. Rəssam bir surəti çəkib, onu başqa birinə göstərsə, həmin kəs o dəqiqə rəssamın necə qüdrətli və bilici olması haqda düşünəcəkdir. Görəsən adicə bir rəsm əsərinin bacarıqlı rəssamı olmasına dəlalət etməsi böyük bir işdir, yoxsa bizim hamımızın surət və çöhrəmizin çəkilməsi? Təbii boyalarla işlənmiş adicə bir rəsm əsrinə təəccüb və diqqətlə baxıb onun rəssamının kim olması barədə maraqlanırıq, amma Allahın bizə bəxş etdiyi gözəl sima, qiyafə, əl-ayaq və gözə diqqət etmirik.

Göz badam formasındadır, əgər dörd bucaq və ya başqa şəkildə olsaydı, nə qədər eybəcər olardı?

Gözün badam formasında olmasının xüsusiyyətlərindən biri də budur ki, xaricdən gələn toz-torpağın daxilindən çıxan rütubət vasitəsiylə onun yanlarına ötürülməsidir. Əgər göz bu formada olmasaydı, onda olan bu xüsusiyyət də olmazdı. Deməli, gözün rəssamı nə qədər də Alim və Qüdrətlidir.

## QAŞ, KİPRİK VƏ ONLARIN ARXASINDA OLAN DƏRİ ADAMI HEYRƏTƏ GƏTİRİR

İnsanın qaşlarına nəzər salsaq görərik ki, qaşın gözün yuxarısında qövsvari olması, insanın çöhrəsini gözəlləşdirmək-dən əlavə, alından axan tər damlalarının gözə tökülməsinin qarşısını da alır. Tər damlaları axaraq, qaşın yanlarına tökülür. Bundan əlavə, qaşların qara rəngli olması kölgəlik rolunu

daşıyıb, günəşin şüalarının gözə, bir-başa düşməsinin qarşısını kəsir.

Kirpiklərin quruluşu da insanı heyrətə gətirir, onlar bir-birlərinin arasında qərar tapmışdır. Belə ki, gözü yuman zaman kirpiklər bir-birinin arasına daxil olub, toz torpağın gözün içinə dolmasının qarşısını alır.

Qara kiprik və qaşların başqa bir xüsusiyyəti, gözün yaxşı görməsindən ötrü onların nuru tənzimləmələridir. Əgər nurun qarşısında qara bir şey olmasa, nur yayıla bilər. Uzaqda olan obyekti yaxşı görməkdən ötrü, gözün nuru səpələnməyib, düz həmin obyektə catmasına görə əlmizi gözün gözün üzərinə qoyuruq.

Kipriklərin bir dənəsinin düşməsinin və ya onların arasında artır bir tükün bitməsinin necə bəla olduğunu təsəvvür edə bilərsinizmi? Bəzən, bəzi fərdlər bu cür bəlalara düçar olurlar ki, başqalarına da ibrət olsun.

Göz yuxarı, aşaqı, sağ və sol hərəkətlərinə malikdir. O, bu hərəkətləri başı tərpətmədən yerinə yetrir. Yeriyəndə, başı aşaqı əymədən, gözün hərəkətlərinin vasitəsiylə ayaqların qarşısında nə olduğunu görmək olar. Gözün bu dörd tərəfli hərəkəti, dərd əcəb sisteminin nəticəsidir. Əkər onlardan biri aradan getsə, gözün həmin hərəkəti də məhv olar.

## DODAQ, AĞIZ VƏ DİŞLƏR HAQQINDA DÜŞÜNMƏK LAZIMDIR!

Dodaqlara diqqət edin! Onlar necədə zərifliklə yaradılmışlar. Bir-birlərinə qovuşaraq, ağızda olan xörəyin xaricə tökülməsinin qarşısını alırlar. Hərf və kəlmələrin xaric olma məkanı ağız olmasına baxmayaraq, bəzi həriflər dodaqların vasitəsilə tələffüz olunur.

Ağızın daxilinə nəzər salın! Dişlərin hər biri öz vəzifəsinə uyğun işlər görür, qabaq dişlər xörəyi parcalamaq, dəyirman dişləri isə onu əzməkdən ötrü yaradılmışdır. Bu kiçik fəzaya – ağız boşluğuna diqqət edin ki, böyük Yaradan, yenilməz Rəssam öz sonsuz qüdrət və elmiylə onu necə də dəqiqi yaratmışdır.

İnsaniyyətin parlamasına səbəb təfəkkür olduğu kimi, insanı heyvandan ayıran onun mərifətidir. Ət, dəri, sümük, damar və əsəb sisteminə görə insan və heyvan müştərəkdirlər. Elm, mərifət və təfəkkür isə insana məxsusdur. İnsan bu qüvvələrin vasitəsiylə icmali elmdən geniş mərifətə çatır. Mərifətə çatmaqdan ötrü zəhmətə ehtiyac vardır. Elmə yetişməkdən ötrü dəlillər fayda verməsə, insan bir şübhə ilə bu işdən kənara düşə bilər.

## ELM OLMAZSA İNSAN ŞÜBHƏLƏR QARŞISINDA DİZ ÇÖKMƏLİ OLAR

Allahı inkar edənlər dəlil gətirməyib ancaq şübhə doğuran sözlər işlədirlər. Məsələn, deyirlər: **«Ulduzların hərəkəti cazibə qüvvəsinin təsirindəndir».** Elm nuruna yetişməyən kəs, mümkündür ki, bu fikirlə razılaşsın. Amma bizim sualımız bundan ibarətdir ki, bəs cazibəni kim yaradıb? Cazibə yaradılmışdır və deməli onun da bir yaradana ehtiyacı vardır ki, onu bu nizamlı aləmdə qərar vermişdir.

Bir çoxları Darvinin təkamül nəzəriyyəsini öz meyillərinə uyğun olaraq təfsir edib insanın meymun olub, getdikcə təkamül və təbiətin seçməsi nəticəsində insan surətinə düşməsi kimi şübhələr yaradırlar. Onlar bu iddialarına heç bir dəlil və sübut gətirməyib, təkcə ehtimal və şəkdən istifadə edirlər. Elm nuruna çata bilməyən şəxs bu yerdə dayanıb, deyir: «Bəlkə onlar düz deyirlər». Halbuki, yuxarıda deyilmiş nəzəriyyənin heç bir elmi

əsası yoxdur. Birinci buna görə ki, artıq elm sübu etmişdir ki, genlər heç bir vaxt dəyişə bilməz və bir məxluq digər bir məxluqa çevrilə bilməz. Həmçinin əgər meymun kamilləşmişsə onda gərək meymun nəsli yer üzündə qalmasın. Əgər bir meymun kamala çatırsa, başqa meymunlar necə olmalıdır?

İkincisi isə təbiətin seçmə məsələsidir.

Bu çox əsassız bir sözdür. Çünki seçmək, ixtiyari bir feil olub, şüur nəticəsində həyata keçir. Halbuki onlar özləri etiraf edirlər ki, təbiət şüurlu deyildir.

***«Ənisul-elam»*** kitabında yazırlar: Bəzi materialistlər pələngin dərisinin rəngi haqqında belə deyirlər: **«Pələng meşədə ağacların altında böyüdüyünə, yarpaqların arasından günəş işığının onun üzərinə düşdüyünə görə dərisinin rəngi zolaqlı olmuşdur».**

Onlara demək lazımdır ki, təzə doğulub, hələ də kifayət qədər ağac yarpaqlarının altında oturmayan pələng balalarının dərisi niyə zolaqlıdır? Onların işi təkcə söz deyib, şübhə yaratmaqdan ibarətdir.

Əgər puç və mənasız sözlərə elm kəsb etmək istəsələr, gülünc vəziyyətə düşüb həqiqi elmdən uzaq düşərlər. Onlar bununla özlərini qane etsələr belə, bəs qəlbləri nə vaxt iman gətirib, sakitləşəcəkdir? ***«Allah-Təala möminlərin qəlblərinə təskinlik verdi».*** [1] Elmə çatandan sonra elm nurunun yoxlamasından ötrü daimi şəkildə çalışmaq, əvvəl elmül-yəqinə və daha sonra zəhmət çəkərək eynül-yəqinə çatmaq lazımdır. Bu tərtiblə elə maqama yetişmək olar ki, bütün insanlar onun ziddinə getsələr də, onun əqidəsində heç bir naqislik baş verə bilməz.

Şəkk və əqidədə təqlid etməkdən xilas olub, Allahın qəlbin gözüylə görər. Elə buna görə də, bu qədər təkid olunmuşdur ki,

---

[1]

uzun-uzadı yollar keçməklə olsa da, elm və mərifət kəsb edin! **«Elm Çində də olsa onun ardınca gedin».**[1] O zamanlar Çin ən uzaq ölkə kimi tanınırdı.

Allah-Təala bizim hamımıza elm nuru əta etsin və mərifətə çatmaqda müvəffəqiyyət versin!

---

1

## ÜÇÜNCÜ DƏRS

***«Yeddi qat göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi öz elmi ilə əhatə etdiyini biləsiniz deyə, Allahın əmri onların arasında nazil olar».***[1]

## YARADILIŞ, ALLAHIN QÜDRƏTİNİ BİLMƏKDƏN ÖTRÜDÜR

Yuxarıda qeyd etdiyimiz ayədə Allah-Təala yer, göy və onların arasında olan varlıqların yaranma məqsədini bəyan etmişdir.

Yaradılışından məqsəd, bəşərin agahlıq tapıb Pərvərdigarın qüdrət və nahayətsiz eliminə yəqin etməsidir. Elə buna görə də, insanın və bütün əşyaların yaradılmasının hədəfi elmə çatmaqdır. Bəşərin icmalı və fitri mərifəti kifayət etməz, kamala çatması lazımdır. Əmirəl-möminin (ə) buyurur: **«*Allahı tanımağın kamilliyi onu təsdiq etməkdir*».** Allahı təsdiq etməkdən ötrü icmalı mərifətdən yəqinə çatmaq lazmdır.

Yəqinin nəticəsi budur ki, onun etiqadında zəiflik və süstlük yaranmasın. Yəqin nurunun bərəkətiylə qəlbi o qədər işıqlansın ki, onda ruh yüksəkliyi, şadlıq və vüsala qovuşmaq arzusu yaransın. O nurunu işıq saçdığı qəlbin bəzi təsir və nəticəsi haqda ***«Üsuli-kafi»***nin bu rəvayətində belə nəql olunmuşdur:

Yəqinin dövr şöbəsi vardır:

**1.** İti yaddaş;

**2.** Gələcək haqqında düzgün ölçü götürmək;

**3.** Hər şeydən ibrət götürmək;

---

[1] «Talaq» surəsi, ayə 12.

**4.** Sələflərin əməllərinə diqqət etmək;

O cümlədən onun təsir və nəticələrindən biri də, hadisələrin həqiqətinə varmaq, maddi aləmi kiçik sayıb, axirət aləmini böyük hesab etməkdir.

## ÖZÜNÜ İSTƏYƏNİN HAQQ ÖLÇÜSÜ ONUN ÖZÜDÜR

Zəhmət çəkmədən xəzinə əldə etmək olmaz. Elmə çatmaqdan ötrü zəhmət çəkilməlidir. Yəqinin mərkəzi qəlbdir, qəlbdə elm nuru yaramasından ötrü, onun qapısını açıq qoymalısan. Qarşısında sədd çəkilmişdir qəlbin maneələri sındırılmalıdır. Məlum olduğu kimi, insanın elm, yəqin və şühud məqamına çatıb, Allahşunas olmasına və insani kamilliyyə çatmasına mane olan şey, özünü sevmək və mənəm-mənəmlik səddidir. Xudbin olub, öz nəfsini, mal, cah-cəlal və məqamının inkişafını istəyən adamın Allahı görüb, Onu sevməsi qeyri mümkündür. Belə şəxslər özünü haqq ölçüsü kimi qələmə verib, meylinə uyğun gələn şeyləri haqq, nəfsinin ziddinə olanları isə batil bilir.

Ən pis işləri yaxşı bilib onları yerinə yetirir. «***O kəslər ki, onalrın dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini zənn edirlər».***[1]

Bu, məsum İmamların (ə) bizə tanıtdırdığı ən böyük hicabdır.

Əbu Həmzə Somali duasında Həzrət Səccad (ə) nalə edərək Allaha ərz edir: ***«Pərvərdigara, sən yaratdıqlarından gizlin deyilsən. Amma bəndələrin Səndən başqa şeylər haqqında etdikləri arzular, onlar üçün hicaba səbəb olub».*** Həzrət İmam Hüseyn (ə) Ərəfə duasında buyurur: ***«Pərvərdigara! Kor olsun***

---

[1] «Kəhf» surəsi, ayə 104.

***o, gözlər ki, Səni görə bilmir. Alllah gizli deyil, aşkardır. Amma nə etmək olar? Nə qədər ki, mənəm-mənəmlik var, insanlar zülmət hicabında qalacaqdır».***

Mərifət əhli buyurur:

***Bu yolun çoxlu xətaları varmış vüsala qədər,***
***Yolun yarısında qalmışam neçə ildir.***

Çox gözəl deyibdir, atdığı ilk qədəmdə də, özünün paklanmasını düşünür. Özündən keçib, daxilindəki «məni» aradan apara bilsən, haqqa çata bilərsən. Özünü görməsən Allahla sənin aranda olan hicabı götürərlər. Hicabların çoxlmasından ötrü çalışmaq lazımdır.

## CAVANLARDA MƏNƏM-MƏNƏMLİK AZDIR, ONLARI İSLAH ETMƏK DAHA ASAN OLUR

Cavanlar fitrətə yaxın olduqlarına görə, hicabları da azdır. Onlarda «mənəmlik» güclü olmadığına görə Allahı xatırlatmaqla onları tez islah etmək olar. Allah yolunda cihad edən cavanlar göz yaşları içində müharibəyə getməyi tələb edib, hər şeylərini Onun yolunda fəda etməyə hazırdırlar. Bu onlarda olan hicabın az olmasına dəlalət edir.

Amma arzu və nəfsin istəkləri çoxaldıqca, «mənəmlik» də günbəgün çoxalıb şiddətlənir. Bu hal insanda elə bir həddə çatır ki, o deyir: Mən varam, Allah isə yoxdur. Özünün müstəqil bir varlıq olduğunu düşünür. Allah onların haqqında buyurur: ***«Müşriklər isə Onu qoyub heç bir şey yarada bilməyən, əksinə özləri yardılan, özlərinə nə bir xeyir, nə də bir zərər belə bilən, diriltməyə, öldürməyə və (öləndən sonra qiyamət günü) yenidən diriltməyə gücləri çatmayan bütləri özlərinə tanrı***

***qəbul etdilər».*** [1] Gərək əsl həqiqəti insan dərk edib, Allah qarşısında aciz olduğunu etiraf etsin.

Özünə ürəyi yanan adam, hicab və maneələrin güclənməsinə icazə verməməlidir.

Qorxulu şey nə cindir, nə də Şeytan. Ən qorxulu şey insanın öz nəfsidir. Vay olsun öz nəfsinə itaət edən kəslərə! Nəfsin istəklərinə itaət etmək hər an hicabların qüvvətlənməsinə səbəb olur. İnsaniyyətin kamalı nəfsə pərəstiş etməklə bir yerə sığışa bilməz. İnsan ya özünə pərəstiş edən olmalıdır, ya da Allah pərəst. Nəfsinin bütün istəklərinə itaət edən kəs öz qəlbində Allaha necə yer verə bilər? Savadlı olmasına baxmayaraq, qəlb agahlıq tapmasa, istidlallar da ona kömək edə bilməz.

## ZƏHMƏT VƏ MÜHACATLA HİCAB VƏ MANEƏLƏRİ AZALDIN

Əmirəl-möminin (ə) «***Nəhcül-bəlağə***»nin axırlarında buyurur: ***«Mən öz nəfsimi çətinliyə salıb onu tutur və istəklərinin qarşısını alıram»*** [2] Biz isə nəfsani istəklərimizin qarşısını almamış, mərifətin ali dərəcəsinə çatmaq istəyirik.

Deməli, ən böyük hicab insanın öz nəfsidir. Onu aradan götürməkdən ötrü çalışmaq lazımdır.

Elmül-yəqin dərs oxumaqla hasil olmur və yalnız «mənəmlik» hicabını aradan götürməklə ələ gəlir.

Nəfsi sındırmağın qaydası ona itaət etməməkdədir.

Hicabların azalmasından ötrü Allahla münacat etmək, Allahla danışmaq, Ona dua və raz-niyaz etmək, sirr və hacətləri yalnız Ona demək lazımdır. Münacat üçün ***«Şəbaniyyə»*** və başqa məxsus dualardan istifadə etmək olar. Dualarla özündən

---

[1] «Furqan» surəsi, ayə 3.
[2] «Nəhcü- bəlağə»

Allahına şikayət et! ***«Pərvərdigara! Nəfsim məni həlak edibdir, Şeytan və nəfsim it kimi üzərimə hücum çəkərək, məni rahat buraxmırlar».***[1] Əgər bir kəs həqiqi mənada Allahdan köməklik istəsə, Allah-Təala mütləq ona kömək edəcəkdir.

Sabah duasının axır səcdəsində deyilir: ***«İlahi qəlbim hicablı, nəfsim isə eyiblidir».*** [2] Başqalarının eyiblərinə fikir verməyib, ancaq öz eyibləri ilə məşğuldur.

Müqəddəs Ərdəbilinin (r.ə) həyatından nəql edilir ki, o qırx il ayaqlarını uzatmadı. Ömrünün son anlarında Allaha ərz elədi: «Pərvərdigara! Mən hey çalışdım ki, Sənin hüzurunda ayaqlarımı uzatmayam. Amma indi ayaqlarımın uzatmağı Sənin əmrinlədir.

İlahi, bizə kömək et ki, nəfsimizlə cihad edib, onun istəklərinin ardınca getməyək. Nəfsimizin razı qalmasını tərk edib, təkcə Sənin rizayətini istəyək».

Əli (ə) «Nəhcül-bəlağə»də Allahın sevimli bəndələrini tanıtdırıb deyir: ***«Onlar bütün arzulardan xilas olublar, arzu və qəmləri ancaq Allahı tanımaqdan ötrüdür».***[3]

Amma əksər adamlar nə qədər ki, nəfəs çəkirlər, müxtəlif cür arzular edirlər. Qurban olaram o kəsə ki, təkcə Allahı arzu etmək saədətinə nəsib olub.

---

[1] «Məfatihul- cinan»
[2] «Məfatihul- cinan» Sabah duasının.
[3] «Nəhcül-bəlağə» xütbə

# DÖRDÜNCÜ DƏRS

***Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etməkdir.***

## CÜZİ İŞLƏRLƏ (SUBYEKT VASİTƏSİLƏ) KÜLLİ İŞLƏRİ (OBYEKTİ) TAPMAQ İNSANA XAS OLAN XÜSUSİYYƏTLƏRDƏNDİR

Qeyd etdiyimiz kimi, Əmir-möminin (ə) ***«Nəhcül-bəlağə»***nin xütbəsində dinin əvvəlinin, peyğəmbərin çağırış və proqramlarının başlanğıcının Allahı tanıtdırmaq olduğunu buyurmuşdu. İnsanın əql qüvvəsindən qabaq zühur edən xisləti heyvanda olan xüsusiyyətlərlə şərikdir. Heyvanın idrakı onun hissiyatına bağlıdır və bu xüsusiyyətdə insan heyvanla müştərəkdir. İnsanın idrakı kulli işləri dərk edərək, təsir vasitəsilə təsir edənin olduğunu başa düşür və bununla da heyvandan seçilir. Əgər insan (dəlil və sübuta ehtiyac olmayan yerlərdə) istidlali və əqli mərifət olan bədihi məsələləri dərk etməsə, heyvan səviyyəsində qalacaqdır. Onun idrakı eşitmək, görmək və bu kimi başqa hisslərlə məhdudlaşacaqdır. Amma əqlini işlətməklə, cüzi şeylər vasitəsilə külli işləri tapsa, başqa sözlə desək, yaranmışları müşahidə etməklə yaradanı dərk etsə artıq heyvandan fərqlənəcəkdir.

## TƏSİRİN VASİTƏSİYLƏ TƏSİR EDƏNİN OLMASINI BAŞA DÜŞMƏKDƏN ÖTRÜ SAVAD LAZIM DEYİLDİR

Bu elə bir fitri anlayışdır ki, onun haqqında dərindən düşünmək, dərs oxumaq, savad əldə etmək və zəhmətə

qatlaşmağa ehtiyac yoxdur. İnsan hər hansı bir təsiri gördükdə, dərhal burada bir təsir edənın olmasını başa düşür, məxluqun mütləq bir Xaliq tərəfindən yaradıldığını dərk edir. Varlıq və vücudu öz zatı vasitəsilə olmayan şeylər ***«mümkünül-vücud»*** hesab olunur. Yəni, belə şeylərin vücuda gəlməsi ilə yoxluğu eyni səviyyədə mümkündür. Amma əgər o şey vaxtda gəlibsə, deməli mütləq onun bir yaradanı və vücuda gətirəni vardır.

Qurani-Kərim bir çox ayələrdə bəşər övladına bu məsələni xatırladır, sanki onun fitrətində qoyulmuş bu anlayışa diqqət yerinə yetirməyi tövsiyə edir. ***«Rüm»*** surəsının bir neçə ayəsi insanın torpaqdan neçə yaranması haqda söhbət açır. Bu barədə əvvəlki bəhslərdə danışdığımız üçün, artıq onu təkrar etməyi lazım bilmirik.

## QURAN İNSANIN YARANMASINI DÖNƏ-DÖNƏ XATIRLADIR

Torpaq müxtəlif mərhələləri keçərək, nütfə halına düşür. Bu anda nütfə kəmmi və keyfi hərəkətlərə məruz qalaraq, müxtəlif üzvlər və hisslərdən təşkil olunmuş bədən çevrilir. Əgər bu üzvlərdən biri olmasa və ya normal şəkildə yaranmasa bəzən naqis hesab olunur.

İnsanın bədənində 248 ədəd sümük vardır ki, əgər bunlardan biri olmasa bədən nəqisdir. Sizi torpaqdan neçə yaratdığımız diqqət edib. Sizin yaranışınız necə bir sonsuz qüdrət vasitəsilə baş vermiş və necə bir qüdrətli rəssam tərəfindən işlənib hazırlanmışdır.

Rəssamın işləməsindən ötrü açıq fəza, bərk cisim və səthi düz olan parça, kağız və ya digər şeylər lazımdır. Amma O qüdrət sahibi öz işini üç güşəli qaranlıq bətnin daxilində, bir qətrə su olan nütfənin batinində aparmışdır. Deməli qüdrət sahibi

rəssama lazım olan hər üç şəraitdən məhrum olduğu halda özü işini ən yüksək kamilliklə həyata keçirmişdir.

Döş qəfəsində yerləşən üzvlərin forması nə qədər və təəccüblüdür. Ürək, qara cigər, ağ cigər və başqa üzvilərin özünə məxsus formada olmasının hökuməti vardır. Üzvlərin zahiri forması qüdrətli bir rəssamın mütləq bacarığına dəlalət edir. Diqqət edin ki, Allah-Təala bəzən üzvlərini necə də kamil və münasib yaratmışdır.

## QADIN-KİŞİ VƏ HƏYAT YOLDAŞINI SEVMƏK İLAHİ NİŞƏLƏRDƏNDİR

***«Rum»*** surəsinin digər bir ayəsində Allah-Təala buyurur: ***«Sizin üçün onlarla ünsiyyət edəsınız deyə, öz cinsinizdən olan zövcələr xəlq etməsi, aranızda dostluq, sevqi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibarət vardır!»***[1]

Erkək-dişi, qadın və kişi mövzusuna diqqət edin. Onların yaradılışı bir-birləri arasında olan fərqlər, hamiləlik dövrü, uşağın əmələ gəlməsi, neçə doğulub, neçə tərbiyə olunması haqqında düşünün.

Qadın, kişinin rahatlıq və sakitliyi üçün bir vasitədir. Kişidə baş verən iztirablar zövcəsi ilə ünsiyyət edən kimi aradan gedir. Mümkündür ki, onlar evlənməmişdən qabaq bir-birlərini heç görməyiblər. Amma Allah-Təala onların arasında elə bir mehr-məhəbbət yaradır ki, artıq bir-birlərinə ürək bağlayır və bir-birlərindən ayrı qala bilmirlər. Həqiqətən də bu, mərifət kəsb etmək üçün ən böyük ilahi nişanələrdəndir.

---

[1] «Rum» surəsi, ayə 21.

## YUXU VƏ ONUN FÖVQALADƏ TƏSİRLƏRİ

Başqa bir ayədə Allah-Təala öz nişanələrindən olan yuxu barəsində buyurur: ***«Gecə və gündüz yatıb dincəlməyiniz, gecə istirahət etməyiniz, gündüz çalışmağımız, nemətindən ruzi axtarmanız da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən burada öyüd-nəsihət eşidənlər üçün ibrətlər vardır».***[1]

Çox vaxt adam yatmaq istəmədikdə belə, yuxu ona qələbə çalır. Bunun hikməti odur ki, bədən yorulub, artıq o, bir az istirahət etməlidir.

Yuxu prosesi olmasa bədən məhv olub aradan gedə bilər. İnsan gecə-gündüz ərzində müəyyən qədər yatmalıdır. Bunu da qeyd etmək lazımdır ki, bəşər bu məsələdə ixtiyarsızdır. Çünki, mümkündür insan hərislik, əsəbilik və ya başqa səbəblərə görə yatmaq istəməsin. Bu səbəbdən də, bəzən tədriclə məhv olub, aradan gedə bilər.

Mümkündür ki, insan gələcəkdə baş verəcək hadisələri qabaqcadan yuxuda görsün. Bu, ruhun bədəndən xaric olub mələklər aləminə yüksəlməsi ilə baş verir ki, o da, Allahın böyük nişanələrindəndir.

## ULDUZLAR VƏ BULUDLAR ONUN İRADƏSİYLƏ RAM OLUNMUŞLAR

Əngin səmalarda hərəkət edən ulduzlara nəzər salın. Kütlə və həcmlərinin həddindən artıq böyük olmasına baxmayaraq, onların hər biri müəyyən olunmuş mehvərlərdə hərəkət edirlər. Allah-Təala bunları hər birinə məxsus olan orbitlərdə neçə hərəkətə gətirmişdir? Bir halda ki, kiçik bir təsadüf və toqquşma bunların hamısını aradan apara bilər.

---

[1] «Bəqərə» surəsi, ayə 164.

İlahi nişanələrdən biri də buludlardır: ***«Göylə yerin arasında Allahın əmrinə tabe buludların hərəkətində ağıl və düşüncə sahibi olan insanlar üçün əlamətlər vardır».***[1]

Nəhəng buludların hərəkətinə diqqət yetirmisinizmi? Bütün səmanı gəzməyinə baxmayaraq yerə bir qətrədə su tökülmür. Amma Allahın əmri yetişdikdə, şiddətli leysan yağışları başlayır. Çünki buludlar öz ixtiyarında deyil, onlar hərəkətə gətirən başqa bir qüdrətin, yəni Allahın ixtiyarındadırlar.

Allah-Təala ***«Ali-İmran»*** surəsinin axırıncı ayələrində buyurur: ***«Həqiqətən göylərin və yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsi ağıl sahibləri üçün qəti dəlillərdir».***[2]

Rəvayət olunurur ki: ***«Bu ayəni oxuyub, onun haqqında düşünməyənlərə vay olsun!»***[3] Təkcə oxumaq kifayət etməz, düşünmək və təfəkkür etmək lazımdır.

## HƏR BİR ŞEYƏ ALLAHIN NİŞANƏSİ NƏZƏRİYLƏ BAXMAQ LAZIMDIR

Bir saat təfəkkür etmək bir illik ibadətən əfzəldir. Yaradanın varlığını sübut etmək üçün hər şeyin mənbəyinə diqqət edib düşünmək kifayətdir. Bir şeyə baxanda onun Allah tərəfindən yaradıldığı nəzəriylə baxmaq lazımdır. Zahiri baxışların faydası yoxdur, çünki heyvanlar da əşyaların zahirini görürlər. Bizim əşyaları görməyimiz Allahın nişanələri nəzərindən deyildir. Əgər bir şeyi görürüksə, deməli onu yaradan vardır, xəlq olunmuşlara hikmət nəzəriylə baxmaq lazımdır. Çünki onların vasitəsiylə Xaliqin sonsuz elm və qüdrət sahibi olması aydınlaşır. Hər bir

---

[1] «Bəqərə» surəsi, ayə 164.
[2] «Ali-İmran» surəsi, ayə 190
[3]

şeyə Allahın ayə və nişanəsi nəzəriylə baxmağın çox faydası vardır.

İnsanların oxuyub diqqət etmələrindən ötrü Qurani-Kərimdə Allahın qüdrət nişanələri haqqında çoxlu ayələr vardır. Bunları təkcə oxumaq kifayət etmir. Əlbəttə oxumaq çox yaxşıdır, amma əsas nəticə təfəkkür və düşünməklə ələ gəlir.

İmam Rza (ə) buyurur: ***«Mən üç gün ərzində bir Quran xətm edirəm. Quranı bundan da az bir vaxtda xətm edə bilərəm, amma məqsədim onu diqqət və təfəkkürlə oxumaqdır».***

## YARADILIŞIN ƏZƏMƏTİ HAQQINDA BİR SAAT DÜŞÜNMƏK

Bütün vaxtını ancaq həyatın maddi işlərinə sərf edib, heyvani və nəfsani istəklərini yerinə yetirmək insan layiq deyildir. Çünki belə olan surətdə o, özünü zəlil edib şərəfli və uca insaniyyət məqamından aşağı sala bilər. Lakin ən azı vaxtın bir hissəsini düşüncə, təfəkkür və bu kimi qiymətli işlərə sərf etmək insanı böyük iradə sahibi edər. Məsələn, bir saat varlıq aləmi haqqında düşünmək, insanın Allah haqqında mərifətini artırar, insanlığını yüksəldər.

Yer kürəsindən bir milyon üç yüz min dəfə böyük olan günəşə fikir verin. Günəşin yerlə fasiləsi doxsan milyon mildir. Bu sistemdə doqquz planet vardır və onlardan biri də bizim yaşadığımız yer kürəsidir. Hər planet bir neçə peykə malik olub, günəşin ətrafında fırlanır. Bu günəş sistemi yüz min milyon ulduza malik olan qalaktikanın yalnız bir hissəsidir ki, o ulduzlardan bəziləri günəşdən neçə milyon dəfə böyükdür. Təqribi hesablamalara görə bu qalaktikanın dimetri 220.000 km. işıq ilidir. Bu qalaktikadan başqa da milyonlarla qalaktikalar

vardır ki, onların ən yaxın olanının bizimlə fasiləsi 650.000 km. işıq ilidir. Bir ildə on iki ay, hər ayda 30 gün, hər gündə 24 saat, hər saatda 60 dəqiqə və hər dəqiqədə 60 saniyə vardır. (İşıq ilindən məqsəd budur ki, işıq bir saniyədə 300.000 km. məsafə qət edir. Deməli bir ildə 9331200000000 kilometr işıq ili vardır).

Bizimlə fasiləsi ən uzaq olan ulduz dörd milyard işıq ili qədər bizdən uzaqdır. Misirli alim Təntavi «Nəçm» surəsinin təsfirində qeyd edir ki, kainatda olan ulduzların sayı təqribən 2000000000000000000000000 qədərdir.

***«Ya mən fissəman əzəmətuhu!»***

## GÖRƏSƏN ULDUZLARIN HƏRƏKƏTİ TƏSADÜFİDİRMİ?

Daim hərəkətdə olan ulduzlar haqqında düşünmək lazımdır. Çünki bunların hərəkəti hədəf və məqsədsiz deyildir. Yer üzündə zəif məxluqlardan sayılan qoyun da ot-ələf və su dalınca gedəndə özünə məxsus bir hədəflə gedir. Görəsən gecə-gündüz öz ətrafında saniyədə dörd fərsəx və həmçinin günəşin ətrafında dəqiqədə dörd fərsəx məsafəni qət edən yer kürəsi hədəfsizdirimi? Yer kürəsinin fırlanmasından başqa düşülən hikmətlərdən biri də gecə-gündüz və dörd fəslin yaranmasıdır.

Yer kürəsi kimi başqa planetlər də, çox dəqiq və nizamlı hərəkətə malikdirlər. Bu məsələ axır zamanlarda daha da aşkar olmuşdur. Astrofiziklər bir peyki müəyyən planetə göndərməkdən ötrü həmin planetin hərəkəti ilə yanaşı ora göndəriləcək peykin də sürətini hesablayırlar. Məsələn, Mars planetinin və ora göndəriləcək peykin sürətini dəqiqləşdirirlər. Fərz edək ki, əgər peyk müəyyən bir sürətlə getsə dörd aydan sonra Marsa çata bilər. Peyki Marsın 4 aydan sonra çatacağı yerə

yollayırlar. Görün nə qədər dəqiq məsələdir, nəticədə peyk arxayınlıqla onun 4 ay sonra çatacaqı yerə göndərilir.

## İNSAN MADDƏNİN FÖVQÜNDƏ DAYANAN BİR VARLIQDIR

Təfəkkür məsələsi və bu böyüklükdə işləri görən düşüncələrə diqqət edəndə, məlum olur ki, insan yalnız maddi varlıq deyildir. Çünki maddi mövcudun təkcə başqa mövcudları deyil, hətta maddi varlıqları əhatə edib, onların həqiqət və vəziyyətlərindən xəbərdar olması qeyri mümkündür. Deməli varlıqlara qeyd olunan şəkildə musəllət olan insan, müxtəlif cihaz və peyklər ixtira edib asimanları fəth edən bir varlıq özü və ətrafı haqqında dərindən düşünməli, yaranmışları tədqiq etməklə Yaradan haqqında öz mərifətini artırmalıdır.

Sözün qısası, insan öz varlığının həqiqətini dərk etməli, cism və ruhdan təşkil olunmuş bir məxluq olmasını başa düşməli və nəhayətdə fani olan bir mövcud kimi, yox ali bir məqsəd üçün yaradıldığını unutmamalıdır.

## FƏRDLƏRİN BİR-BİRİNDƏN SEÇİLMƏSİ VƏ İÇTİMAİ NİZAM

***«Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər üçün nişanələr vardır!»***[1] Dillərin müxtəlifliyi də böyük və ilahi nişanələrdəndir. Yer üzündə altı milyarddan çox olan bəşər yaradılış cəhətindən bir deyildirlər. İnsanlar içərisində hətta iki nəfər də bir-biriylə eyni deyildirlər. Bunun hikməti bəşər içtimaiyyətinin nizamını qorumaqdan ötrüdür. Əgər belə

---

[1] «Rum» surəsi, ayə 22.

olmasa fəsad törənə bilər, məsələn, Zeyd Öməri öldürür. Qatili həbs etmək istəyən vaxt onun eyni oxşarını tutub cəzalandırırlar. Bu məsələ barəsində borclu olmaq, evlənmək və başqa misalları çəkmək olar.

Bəşəri bir-birindən fərqləndirən amillərdən biri də dillərin müxtəlifliyidir. Hər bir kəs sifət, göz, qaş və başqa şeylərə malikdir. Amma buna baxmayaraq, hər bir fərdin özünə məxsus müxtəlifliyi vardır. Səs xaric olan nəfəs borusunun təxminən bütün insanlarda bir olmasına baxmayaraq, danışıq ahəngi bir-birlərindən fərqlənir. Hətta bir nəfərin səsini telefonda eşidəndə, o özünü təqdim etməmiş danışanın kim olduğunu ayırd etmək olur.

## BARMAQLARIN BAŞINDA OLAN XƏTLƏRİN YARADILMASI İLAHİ QÜDRƏT NİŞANƏLƏRİNDƏNDİR

Allah-Təala ***«Qiyamət»*** surəsində buyurur: ***«Bəli, Biz Onun barmaqlarını da, dünyada olduğu kimi düzəltməyə qadirik».***[1] Bütün insanların barmaqlarının təqribən bir ölçüdə olmasına baxmayaraq, hər bir kəsin barmaq izləri bir-birindən fərqlənir. Hətta iki nəfərin belə, barmaq izləri eyni deyildir. Bəzi hadisələrdə kiminsə şəxsiyyətini müəyyən etmək üçün barmaq izini götürmək beynalxalq bir metod sayılır. Çünki saxta imza və möhür düzəltmək olar, amma saxta barmaq izi düzəltmək mümkün deyildir. Buna görə də barmaq izi möhür və imzadan daha etibarlıdır.

İnsanın həqiqəti onun əbədi qalan elm və idrakıdır. Onun zatında zühur edən və əbədiləşən şey əql və idrakdır ki, bəşərin insaniyyəti ondan ibarətdir. Buna görə də, varlığımızın əql və

---

[1] «Qiyamət» surəsi, ayə 4.

idrakının artırılmalı, bu qəlbdən olan ayələr haqqında dərindən düşünüb, təfəkkür etməli və öz ilahi mərifətimizi yüksətməliyik.

## BEŞİNCİ DƏRS

***«Göylərdə və yerlərdə olanlar Allahı təsbih edib zikr deyirlər».*** [1]

### TƏKVİNİ VƏ QEYRİ İRADİ OLAN ZİKRLƏR ALLAHIN HİKMƏTİNƏ BİR ŞAHİDDİR

***«Təkvin*** – yaratmaq, bir şeyə varlıq bəxş etmək».

«***Təsbih*** – Allahı müqədəs və pak bilib, Onun şəninə tariflər demək».

Quranın bir çox ayələrində məxluqatın təsbih etməsi barəsində söhbət açılmışdır. Quran ərşdən yerə qədər bütün aləmlərin Allahı təsbih və zikr etməsini bəyan edir. Xilqətin bütün təbəqələri Allaha pərəstiş edir. Bizim istidlali mərifətimizə aid olan təkvini və əqli təsbih aləmdə olan hər bir məxluqun qüdrətli bir varlıq tərəfindən yaradılmasına şəhadət verir. Hər məxluqun vəziyyət və xasiyyəti onları yaradan varlığın qeyri naqis kamil olmasına ən yaxşı şahiddir. Xaliq cansız aləmi, bitki və heyvan aləmini, ümumiyyətlə hər bir şeyi ən kamil surətdə və öz yerində qərar vermişdir.

### YER QOVUN VƏ QARPIZIN ÇİÇƏYİ ÜÇÜN DAYƏDİR

Əgər qovun bir meyvə kimi ağacda bitsəydi, budaqlar onun ağırlığına dözə bilməyib sına bilərdi. Buna görə də yerin səthi qovun və qarpız üçün dayə olamlıdır ki, onların çiçək və kolu yerin köməkliyi ilə qorunub saxlansın.

---

[1] «Hədid» surəsi, ayə 1.

Bəzi ağacların kökləri eninə, bəziləri isə yerin altında uzununa inkişaf edir. Yağış yağan vaxtı, kökləri eninə inkişaf edən ağaclar yaxşı su içirlər. Elə buna görə də, Allah-Təala bu növ bitkilərdən olan ağ turp, keçi tərəsi və başqa bitkilərin budaqları ətrafında olan yarpaqları novdan şəklində üzü yuxarı inkişaf etdirmişdir. Yağış həmin yarpaqların üzərindən aşağıya doğru süzülərək həmin bitkinin köklərinə tökülür. Bu bitki öz Xaliqinin sonsuz qüdrət və hikmət sahibi olmasına şəhadət verir.

## HƏR NÖV HEYVANLARIN DİŞ VƏ MƏDƏLƏRİ ONLARIN ÖZLƏRİNƏ MÜNASİB YARADILMIŞDIR

Allah-Təala ot və ət yeyən heyvanların hər birinə yedikləri şeylərə münasib olan diş və mədə vermişdir. İt kimi sümük yeyən heyvana kəsici sümük əzən diş və onu həzm edə bilən güclü mədə əta etmişdir.

İnsanın qabaq dişlərini xörəyi parçalamaqdan ötrü iti, ətraf dişlərini isə xörəyi əzməkdən ötrü enli yaratmışdır.

Ağızda olan dilin çox fövqalədə xüsusiyyəti vardır. Dilin xörək yeməkdə ən əhəmiyyətli vəzifələrindən biri də budur ki, əvvəl tikəni ağız boşluğunun ətrafına, daha sonra isə daxilə ötürür.

Diqqət edin ki, xörəyin dişlərlə əzilməsindən ötrü alt çənə hərəkət etməlidir. Üst çənə deyil, məhz alt çənənin hərəkət etməsi Allahın hikmətlərindədir. Təsəvvür edin ki, yemək yeyən anda üst çənənin hərəkətiylə insanın bütün başı hərəkət etsəydi nə qədər eyibli olardı? Yemək vaxtı xörəyin əzilməsindən ötrü çənənin açılıb bağlanması kifayət etmir. Xörəyin ağızda əzilməsindən ötrü ən yaxşı vasitə onu ağız boşluğunda fırlatmaqdır. Amma elə ki, çənə xörəyi tənzimlə dişlərin altında hərəkətə gətirir, bu anda xörəyi daha yaxşı əzməkdən ötrü onu o

tərəfə ötürən mühərrik bir qaşığa ehtiyac vardır. Ağızda bu işi dil yerinə yetirir. Dil, bizim diqqətimizə ehtiyac olmadan öz işini görüb, dişlərin arasında tələyə düşüb əzilmir. Amma bəzi vaxtlarla bizim bu böyük nemətin qədrini bilməyimizdən ötrü dişlərin arasına keçib əzilir.

Dil və dişlər Allaha təsbih edərək öz Xaliqinin alim və mütləq qüdrətə malik olduğunu təsdiq edirlər. Təkvini və qeyri-iradi təsbihin bu növünü hər kəs öz əqli ilə dərk edə bilər, amma bundan ötrü təfəkkür və düşüncəyə ehtiyac vardır.

## MƏLƏKUTİ (BATİNİ) TƏSBİHİ ZAHİRİ QULAĞI EŞİTMİR

Mələkuti təsbih yuxarıda dediyimiz ***«əqli təsbihdən»*** qeyridir. Təkvihi ***«fitri və ixtiyarsız»*** təsbihdə bir şeyin varlığı onu yaradana, aləmin varlığı isə onun Sahibinin tam şəkildə naqislikdən uzaq olmasına dəlalət edir. Amma başqa təsbihlərdən biri də bəşərin mələkut diliylə olan təsbihidir. Bu təsbihdə vücud aləminin bütün hissələri, hətta bədənimizin zərrələri belə Allahı bizim eşidə bilməyəcəyimiz mələkut tərzi ilə təsbih edirlər. Biz mülk və dünya aləmindəyik. Mülk aləminin zahiri cəhəti samit, batini isə zakirdi. Yəni həmişə Allahı zikr edir. Allah-Təala Quranda buyurur: ***«Yeddi göy, yer və onlarda olan bütün məxluqat Allahı təqdis və təsbih edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükr etməsin, lakin siz onların dillərini bilmədiyiniz üçün təqdisini də anlamırsınız. Allah, həqiqətən, həlim və bağışlayandır!»***[1] Bu əqli təsbihi əqlən başa düşmək mümkündür. Əgər bir kəs mülk aləmindən çıxıb mələkut aləminə daxil olsa, bütün varlıq

---

[1] «İsra» surəsi, ayə 44.

aləminin necə uca səslə Allahı zikr edib, Ona təsbih və həmd etmələrini başa düşər.

Mötəbər rəvayətlərdə daş qırıntılarının Peyğəmbər (s) əlində təsbih etmələri barəsində buyururdu: ***«Peyğəmbər (s) ovcundakı təsbih edən daş qırıntılarını səhabələrə göstərdi. Səhabələr daşların təsbeh etmələrini eşitdilər».***

Daş, torpaq, kəssək və digər cansız aləm də Allahı təsbih edirlər. Amma onların təsbih səslərini səhabələrə eşitdirmək Peyğəmbərin (s) möcüzələrindəndir. Mülk aləmində olanlar, mələkut aləminin səsini eşidə bilməz. Lakin Peyğəmbər (s) möcüzənin qüdrətiylə mələkut aləminin səsini mülk və zahir qulağına eşitdirdi. Hiss olunmadığına görə mələkut təsbehinin inkar etmək olmaz. Bəşərin elmi, bilmədiyi şeylərlə müqayisədə dərya müqabilində bir damla qədərdir. İnsan bəzi şeyləri bildiyinə görə qürurlanmamalıdır. Hər şeyi başa düşdüyünü xəyal edib, dərk etmədiklərini inkar etməsinə ehtiyac yoxdur. Çünki başa düşmədiklərini inkar etməklə onların cahilliyi məlum olur.

## QARIŞQA VƏ TELEQRAF DİRƏYİ İNSAN VƏ BAŞQA ALƏMLƏRƏ

Tədqiqatçılardan biri maraqlı bir misal gətirir: Teleqraf dirəyinin kənarından ötən qarışqa qarşısındakı dirəyin böyük bir cisimdən başqa bir şey olduğunu bilmir. Görəsən qarışqa bu dirəyin insan əliylə yerləşdirildiyini və onun üzərində olan məftillərin şəhərlər arsında rabitə bərqərar etməsini bilirmi? Bir halda ki, çoxlu ictimai, siyasi və iqtisadi ehtiyaclar bu teleqraf dirəklərin öhtəsinə qoyulmuşdur. Qarışqa isə bu işlərdən xəbərsiz olub, ancaq onun zahirini dərk edir.

İnsan da belədir. O, maddədən yüksəkdə olan ruh aləmi, onların bir-biri ilə rabitəsi, necə yaşayıb və necə həyat sürmələrindən xəbərsizdir. İnsan mələklər aləmindən xəbərsiz olub ancaq şeyin zahirini və sürətini görür. Amma əqlin hökmünə görə, bir şeyin nişanəsini tapmamaq, onun yoxluğuna dəlalət etmir. Bir şeyi bilməyən aqil onu heç vaxt inkar etməz.

Həqiqi və təkvini təsbih batini aləmə aiddir. Bizim zahiri qulağımız o səsləri eşidə bilməyib, ancaq havada sürtünmə nəticəsində əmələ gələn sədaları eşidə bilir.

## BƏŞƏRİN KÜFR VƏ CƏHALƏTİ MÜQABİLİNDƏ ALLAHIN SƏBRİ

Allah-Təala yuxarıda qeyd etdiyimiz ***«İsra»*** surəsinin 44-cü ayəsinin axırında buyurur: ***«Elə bir şey yoxdur ki, Allaha tərif deyil Ona şükr etməsin, lakin siz onların dillərini bilmədiyiniz üçün təqdisini anlamazsınız. Allah, həqiqətən, həlim və bağışlayandır».*** Görəsən bu qədər mətləbi zikr edəndən sonra niyə məhz Allahın həlim və səbrli olmasından danışır? Bunun sirri nədədir? Bəlkə də insan mələküti təsbihi eşitsəydi həlak olardı. Çünki bu səsi eşitməyə insanın taqəti çatmaz. Əgər hər bir kəs öz bədən üzvlərinin mələküt səsini eşitsəydi, yaşaya bilməyib məhv olardı. Amma mütləq səbr sahibi yalnız Allahdır.

İlahi qüdrət öz hökmü ilə mələküt və batin aləmini insana elə başa salır ki, o, həmin hüduddan təcavüs edib, mənəm-mənəmlik məqamına gəlməsin. Amma mələkütün səsini eşitmək əql və həyatı ilə uyğun gəlmədiyinə görə Allah bu səsi insana eşitdirmir. Allah-Təala həlimdir, bəşərin küfr etməsinə də səbr edir. İnsanın bədən zərrələrinin ***«Subhanəllah»*** deməsinə baxmayaraq, özü Allahı inkar edir. Buna görə də Allah-Təala

mələkutu səbrli şəklidə insana anladır. Pərvərdigar bəşərin küfr etməsinə də səbr edir.

Çox təəccüblü məsələlərdən biri də budur ki, bütün ömrünü Allaha arxa çevirib öz şəhvətinə uyan bəşər övladı tövbə edib, Allah dərgahına əl açan kimi Allah-Təala onu bağışlayır. ***«İslam keçmişdəki şeylərin üstünü örtür».***[1] Deməli Allahın rəhməti çox genişdir. ***«Allah həqiqətən, həlim və bağışlayandır!»***[2] Allah-Təala bəşərin zəifliyinə rəhm edib, onun üzrünü qəbul edir. Belə bir Allaha tərəf gəlməyən insanlar necə də bədbəxtdir.

## İBRAHİM (Ə) VƏ SONRADAN ALLAHPƏRƏST OLAN KAFİR QONAQ

Əllamə Məclisinin (r.ə) ***«İrşadul-qulub»*** kitabında İbrahim Xəlilullah (ə) haqqında belə bir hədis nəql olunur: İbrahim (ə) heç vaxt qonaqsız xörək yeməzdi. Bəzi günlərdə hətta qonaq tapmaqdan ötrü ətraf yerləri gəzərdi. Günlərin bir günündə o həzrət yenə də qonaq axtarmağa gedərkən bir nəfərə rast gəlib, onu nahara dəvət elədi. Süfrəyə oturduqları vaxt İbrahim (ə) ***«Bismillah»*** dedi. Qonaq isə Allahı yad etməyib əlini süfrəyə uzatdı. İbrahim (ə) buyurdu:

Niyə Allahın adını çəkmədin? Qonaq dedi: Allah kimdir, mən Allah-zad tanımıram. İbrahim (ə) buyurdu: Qalx ayağa və get burdan! Mən Allahı inkar edən adamla bir süfrə başında otura bilmərəm. Qonaq ayağa durub getdi. İbrahim (ə) tək qaldı. Həmin anda Allah tərəfindən vəh nazil oldu: ***«Biz bu şəxsə illərlə ruzi verdik və ruzimizə görə də heç vaxt ona minnət qoymadıq.Təkcə bu gün onun ruzisi sənə həvalə olunmuşdu. Sən isə onu qovdun».***

---

[1]

[2] «Ali-İmran» surəsi, ayə 155, «Bəqərə» surəsi, ayə 235.

İbrahim (ə) tez ayağa qalxıb, həmin şəxsin ardınca getdi. Çox xahiş minnətdən sonra kafir dedi: Bir şərtlə qayıdaram, de görüm məni qovandan sonra nəyə görə dalımca gəlib, qayıtmağımdan ötrü bu qədər təkid edirsən?

İbrahim (ə) həqiqəti açıb buyurdu:

Səni qovduğuma görə Allah-Təala məni danladı.

Şəxs dedi:

Vay olsun mənə ki, bu cür mehriban Allahdan üz döndərmişəm. Ey İbrahim, məni Allahımla tanış et. Həmin şəxs nəhayətdə mömin və Allahpərəst oldu.

İnsan bir az düşünsə görər ki, Allah ona maddi nemətdən tutmuş mənəvi nemətə qədər hər şey vermişdir. Bunun müqabilində hansı ibadəti yerinə yetirmiş və hansı mərifəti əldə etmişdir?

***«Ma əbədnakə həqqə ibadətikə və ma ərəfnakə həqqə mərifətikə!»***

# ALTINCI DƏRS

***«Dini əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu vahid bilməkdir».***

## ƏQLİN HÖKMÜNƏ GÖRƏ ALLAHI TANIMAQ VACİBDİR

Allahı tanımaq anlayışı əqlin qəti və zəruri məsələlərindəndir. Hər bir aqilin əqli ona nemət bağışlayan Xaliqini tanıyıb Ona şükr etməyin vacib olduğuna hökm verir. Mərifət barəsində Quranda gələn ***«Baxın, diqqət edib, düşünün, təfəkkür edin»*** və başqa hidayətedici əmrlər əqlin hökmü əsasındadır. Əgər Quranda gələn bu hökmlər olmasaydı da, Xaliqini tanıyıb Ona şükr etmək əqlin müstəqil vaciblərindən sayılardı. Əqlin ilahi nişanələr və mövcudlar üzərində düşünüb təfəkkür etməsi barəsində Qurani-Kərimin bir çox ayələrində mühüm məqamlar zikr olunmuşdur.

## ÖZ YARANIŞINA VƏ QİDALANMAĞINA DİQQƏT ET

***«Elə isə insan nədən yaradıldığına bəsirət gözü ilə bir baxsın![1]»*** Allah-Təala bir qətrə sudan bu əzəmətli bədəni necə yaratmışdır?

***«İnsan hələ bir yeməyinə baxsın! Görsün ki, ona neçə ruzi verdik».***[2] İnsan gərək yediyi xörəyinə diqqət edib heyvan kimi bütün marağını maddi şeylərə və qarın ləzzətinə sərf etməsin.

[1] «Tariq» surəsi, ayə 5.
[2] «Əbəsə» surəsi, ayə 24.

Bütün vücudu ilə maddi aləmə və heyvani ləzzətlərə bağlanan insanın heyvanla nə fərqi var? Xörək yeyəndə diqqət etməlidir ki, bu xörəyin əsli nə olmuş və onu nə vaxt hazırlamışdır? Yediyi çörək əvvəl nə olmuşdur?

***«Həqiqətən, biz yağışı bol yağdırdıq».***[1]

Yağışın bu cür damla-damla yağdırılması necə və gözəldir. Bəs hansı əllər bu buğdanı çörək halına salır? Bunlar hamısı ilahi nemətlərin təzahürüdür. Sədi bu barədə deyir: Bulud, külək, günəş, və fələk sənin xidmətindədir, sən çörəyi ələ alıb, onu yeyəndə qafiı olma!

Bu içilən suyun tərkibində nələr qoyulmuşdur, onda nə qədər hikmətlər gizlənmişdir. Amma insan bu şeylərə fikir vermədən onu asanlıqla içib, həzm edir və artığını da dəf edir. İnsan gərək bu məsələlər haqqında düşünüb, ona nemət verən Xaliqini tanısın.

## HEYVAN XÖRƏKDƏN ÖTRÜ BAŞINI AŞAĞI SALIR

Hər bir heyvan öz yeməyini yeyərkən başını aşağı salır. Amma Allah-Təala insana xörək yeməkdən ötrü iki əl vermişdir. İnsan başını aşağı dikmədən, əli ilə tikəni götürüb, asanlıqla ağzına qoyur.

Bu bəşər üçün bir başqa şərəf və hörmətdir. ***«Biz, Adəm övladını şərəfli və hörmətli etdik».***[2] İdrak mərkəzi olan baş xörək yeyən anda aşağı əyilməməlidir. Bu əziz və şərəfli olan baş ancaq aləmlərin Rəbbi üçün əyilməlidir. Bəşər aləmlərin Rəbbi qarşısında əyilib, əziz və şərəfli başını təvazökarcasına sadə torpaqlar üstünə qoymalıdır.

---

[1] «Əbəsə» surəsi, ayə 25.
[2] «İsra» surəsi, ayə 70.

## DƏVƏNİN YARADILIŞI ÇOX TƏƏCCÜBLÜDÜR

Allah-Təala başqa ayələrdə buyurur: ***«Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdı? Səmaya baxmırlar ki, necə ucaldılmışdır? Dağlara baxmırlar ki, necə dikəldilmişdir? Və yerə baxmırlar ki, necə döşədilmişdir?»***[1]

Dəvənin yaradılış kefiyətinə niyə diqqət etmirsiniz? Hər bir heyvanın ayaqlarında bir dizi, amma dəvənin hər bir ayağında isə iki dizi vardır. Dəvə oturan vaxt ayaqları iki dəfə bükülür. Onun boy-buxunu necə də gözəl və qəribə yaradılmışdır.

Əflatuna xəbər verdilər ki, Ərəbistanda uzun ayaqlı və hər bir ayağında iki dizi olan heyvan vardır. Dedi: Belə heyvanın xörək yeməkdən ötrü uzun boynu da olmalıdır. Çünki gərək boynu, ayağı ilə mütənasib olsun.

Onun xörəyi də həmçinin öz yaşadığı mühitə münasib yaradılmışdır. Ərəbistan məntəqəsinin qızmar səhralarında ot-ələfdən xəbər yoxdur. Buna görədə Allah-Təala tikanlı qanqalları onun xörəyi qərar vermişdir. Yəni dili, ağzı və mədəsi bu cür tikanlı bitkiləri yeyib həzm etməkdən ötrü çox münasibdir. Baxın görün ki, dəvə narahat olamadan bu tikanlı bitkiləri necə ləzzətlə yeyir.

Dəvə yaşadığı mühitlə uyğunlaşmasından ötrü susuzluğa da dözümlüdür. O, on gündən artıq susuzluğa dözə bilir. Boğazının altında suyu qoruyub saxlamaqdan ötrü tuluğa oxşar bir şey vardır.

---

[1] «Gasiyə» surəsi, ayə 17-20.

## KAİNATDA OLAN PLANETLƏR VƏ YERİN YAŞAYIŞ ÜÇÜN UYĞUNLUĞU

Başımızın üzərində bizdən milyon kilometrlərlə fasiləsi olan nəhəng planetlərə nəzər salaq! Bu planetlər elə nəzmlə bir-birlərinin ətrafında dövr edirlər ki, heç zaman bir-birlərinə toxunmurlar.

Ayağının altında olan yerə də diqqət et! Kürə şəkilli olub daim hərəkətdə olmasına baxmayaraq, Allah-Təala onu necə də insanın yaşayışına uyğun yaratmışdır ki, qütblərdən bir qədər batıqdır, bina tikmək və əkinçilik etmək üçün olduqca münasibdir. Allah-Təala yeri üzərini insanın yaşayış və istifadəsi üçün elə yaratdı ki, orada əkinçilik, bina salmaq və başqa işlər görmək mümkün olsun. Əgər hddindən artıq yumşaq olsaydı üzərində hərəkət etmək və əgər həddindən artıq bərk də olsaydı heç bir şey əkib-becərmək mümkün olmazdı.

Dağlara da diqqət edin! ***«Yeri ağır daşlarla möhkəmləndirdi. Və onun hər bir guşəsini münasib şəkil və rənglərdə qərar verdi».***[1] Dağlar yerin dağılıb səpələnməsinin qarşısını alır. Dağlar sanki yerin səthinə vurulmuş mıx kimidir, yer kürəsi bir tərəfdən başqa tərəfə hərəkət edəndə dağılıb parçalanmasının qarçısını alsın. Həmçinin əgər dağlar olmasaydı güclü tufan külələri insanlara yaşamaq imkanı verməzdi, tarlalar, əkin yerləri məhv olub gedərdi. Bu uca dağlar şəhərlərin su mənbəyi, çayların, bulaqların qaynaqlandığı xəzinələrdir. Onlar qış fəslində qar-yağış sularını öz qoynunda yerləşdirir il uzunu tədriclə onu çaylara və insanların istifadəsinə qaytarır.

---

1

## ŞƏKK İLƏ ARADAN GETMƏYƏN YƏQİNƏ EHTİYAC VARDIR

Aləmdə olan hər bir şey Allahın ayət və nişanələrindəndir. İnsan hər bir şeyə Pərvərdigarı aləmin nişanəsi kimi baxmalıdır. Aləm onun üçün Allahı görməkdə bir vasitə olmalıdır. Bu cahana ona görə aləm deyirlər ki, onun vasitəsilə Allah haqqında elm əldə olunur.

Bütün aləm Allahın kitabıdır, onun üçün aləmdə olan bütün varlıqlar Yaradanın elm və qüdrətinə şəhadət verir. Əlbəttə bu istidlali və əqli mərifət Allahı tanımaqdan ötrü naqisdir. Yaradanı tanımaq üçün kamala çatmaq lazımdır. İnsan əqli elmi sübutlarla gümandan artıq bir şey əldə edə bilmir. Amma əvvəldə bunlardan istifadə etmək olar, lakin bununla kifayətlənməyib yəqin mərtəbəsinə çatmalıdır ki, onun nəticəsində arxayınlıq əldə edib özündə heç bir şəkkin yaranmasına yol verməsin.

İnsan, Allahı istidlali və əqli mərifətlə deyil, elmlə tanımalıdır. Tanrını tanımaqdan ötrü olan elm şəkk ilə aradan getməyən idrakdan ibarətdir.

Bu mərtəbədə olan idrak bəzən elm, bəzən də yəqin adıyla ifadə olunmuşdur. Allah-Təala bu elmi əldə etməyə çox təkid etmişdir.

## MÜSTƏQİL VƏ İNİKASİ NƏZƏR

Güzgüyə iki cür baxılır.

1- Müstəqil baxış;

2- Mirati və ya inikasi baxış.

Müstəqil baxış, güzgüyə alıcı nəzəriylə baxmaq deməkdir. Alıcı ancaq güzgünün həcmi, pas atmaması, ağırlığı, ölçüsü və keyfiyyətinə diqqət edir. Bu anda alıcı güzgüdə öz əksinə fikir vermir. Sadə dillə desək «ancaq güzgünü özünə baxır».

İnikasi baxış, güzgüdə öz sürətini görmək üçün edilən nəzərdir. Varlıq aləminə alıcı nəzəriylə baxan kimsə, heç vaxt Allahı görə bilməz.

Əmirəl-möminin (ə) bu barədə buyurur: ***«Əgər hər bir kəs dünyaya bəsirət və ibrət gözüylə baxırsa və cahanı mərifət, insaniyyət məqamına çatmaqdan ötrü vasitə bilirsə, Allah ona bəsirət gözü verib insaniyyət məqamına ucaldar. Amma dünyaya aldanıb ona bağlanan şəxslərin isə bəsirət gözünü kor edib haqq yolundan azdırar».***[1]

Dünyanı sevmək, şəhvətə uymaq, sərvət tələb etmək və günah etmək insanı mərifət məqamından aşağı salar, çünki günahların hər biri bəsirət gözünə tuşlanmış bir oxdur.

Günah qəlbin gözünü çox nurlu olan həqiqəti görməkdən məhrum edir, günahkar qəlb Allahı neçə tapa bilər?

Bunun mənasını yaxşı dərk etməkdən ötrü İmam Sadiq (ə)-dan nəql olunan rəvayətdən istifadə edirik. İmam (ə) buyurur: ***«Haram şeyə baxmaq iblisin zəhərlənmiş oxlarındandır».***[2]

***Çirkli gözlə baxmaq olmaz, cananın çöhrəsinə,***
***Gər baxmaq istəsən, pak ayna ilə bax onun gül üzünə.***

Əgər çoxlu günah etmək nəticəsində insanın qəlbi zülmətə bürünsə, nəticədə ilahi ayələri inkar edib, Allahın varlığını təsdiq edən ən aşkar həqiqətləri belə rədd edəcəkdir.

---

1

2

***«Sonra da, Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqda pislik edənlərin aqibəti lap pis oldu!»***[1]

Öz səadətinin arzusunda olan şəxs günahdan uzaq olmalıdır. Əgər təsadüf nəticəsində günah etsə, o anda tövbə etməlidir. «Pərvərdigara! Bizləri tövbə edib, paklananlardan qərar ver!»

Keçən söhbətlərin nəticəsində niyə bəziləri üçün Allahın varlığının günəşdən də aşkar, digərləri üçün isə qeyri məlum və şübhəli olması anlaşıldı. Zəhmət çəkməmiş xəzinə əldə etmək olmaz. Mərifət xəzinəsinə çatmaqdan ötrü günahdan uzaqlaşmağın əziyyətinə və haqq yolunda olan çihadın zəhmətinə dözmək lazımdır.

Allah-Təala Quranda buyurur: ***«Ey iman gətirənlər, Allaha iman gətirin!»***[2]

Allah-Təala bu ayədə iki imana əmr edir. Birincisi buyurur ki, hər kəs əqlin hökmünə görə Rəbbinin alim və qüdrətli olduğunu başa düşüb müsəlman olar və hər bir aqil bu mənanı dərk edə bilər. Amma bu cür iman gətirmək kifayət deyildir.

İmanın ikinci dərəcəsi olan qəlbin iman gətirməsinə ehtiyac vardır. İnsan cürbəcür vəsvəsə və şübhələrdən amanda olmaqdan ötrü qəlbiyilə iman gətirməlidir.

***«İman gətirib imanlarını zülmə qarışdırmayanlar əmin amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!»***[3] ***«Möminlərin iman üstündən iman artırmaları üçün onların ürəklərinə öz dərgahından xatircəmlik, rahatlıq və mənəvi möhkəmlik göndərən Odur».***[4] Bunun nəticəsi Xaliqlə müxalifət etməkdən qorxmaq və Allaha itaət edib, ona ümid bağlamaqdır. Başqa bir ayədə buyurur: ***«Görəsən möminlərin qəlblərinin qorxub, Allahı və Onun tərəfindən göndərilmiş haqq kəlamı və***

---

[1] «Rum» surəsi, ayə 10.
[2] «Nisa» surəsi, ayə 136.
[3] «Ənam» surəsi, ayə 82.
[4]

***nəsihətləri yad edib kövrəlməklərinin vaxtı çatmayıbmı?»*** [1] Nəsihət və haqq kəlamı deyəndə Qurani-Kərim nəzərdə tutulub.

İbn Məsud deyir: Bu ayə bizim müsəlman olmağımızdan üç və ya dörd il sonra nazil oldu. ***«İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan [Quran] üçün yumşalması vaxtı gəlib çatmadımı?!»***[2] Burada nəzərdə tutulan iman əql və fitrətin hökm etdiyi imandır. İndi isə artıq qəlbin iman gətirməsinin vaxtı çatmışdır. Çalışıb və istidlali əqidədən qəlbdə olan sabit iman əldə etməlidir ki, heç cür vəsvəsə və şəkk onun qəlbinə yol tapa bilməsin. Allaha asi olmaqdan qorxub, onun qarşısında təvazökar və zəlil olmaq məqamına çatıb, nemət verən Xaliqini sevməli və Onun yolunda fədakarlıq etməlidir. Allahın razılığını əldə etməkdən ötrü hər şeyindən keçib, bütün varlığı ilə Allaha sığınmalı, özünü yalnız ona təslim etməlidir.

Müsəlman olub namaz qılmasına baxmayaraq, nə qədər ki, qəlbində iman gətirməyib, boş-boş xəyallara uyacaq, nəfsinin razılığını əldə etməkdən ötrü çalışacaqdır. Amma bu naqis imandır.

***«Allahı tanımağın kamilliyi onu təsdiq etməkdir».*** İnsan təsdiq mərhələsinə çatıb, Allahın varlığına öz qəlbində etiraf etməlidir. Adam nəyə meyilli olsa, həmin şeyin dalınca gedib ona iman bağlayar. İnsanın meylı Allaha olmalıdır. Səhərdən axşama qədər boş-boş xəyalların fikrində deyil, ancaq Allahın fikrində olmalı və onun razılığını əldə etməyə çalışmalıdır.

***«Allahı tanımağın kamilliyi onu təsdiq etməkdir».*** Nəzəri və istidlali mərifətdən qəlbdə olan elmə çatmaq lazımdır ki, onun nəticəsi qəlbdə yaranan (xuşu) qorxu hissidir. Rəvayətlərdə, qəlbdə olan xuşu nur kəlməsi ilə ifadə

---

[1]

[2] «Hədid» surəsi, ayə 16.

olunmuşdur. İnsan öz qəlbində həmin nurun saçmasından ötrü var gücü ilə çalışmalıdır.

## ALLAHIN QƏLBLƏRDƏ İŞIQLANDIRDIĞI NUR

Bəsridən nəql olunan hədisdə Həzrəti İmam Sadiq (ə) buyurdu: **«Bil ki, elm çox oxumaq və çox öyrənməklə deyildir. Elm elə bir nurdur ki, Allah-Təala onu hidayət etmək istədiyi bəndəsinin qəlbinə əta edir».** Buradakı elmdən məqsəd qəlblə iman gətirməkdir. Bütün elmləri, hətta tövhid elmini öyrənməklə dərk etmək mümkündür. Bütün öyrənməli elmlər bəşərin ixtiyarındadır. İnsan nə qədər çox zəhmət çəksə, həmin elmləri kəsb edə bilər. Deməli hədisdəki elmdən məqsəd, öyrənmək və öyrətmək deyil, qəlbdə Allaha olan mərifət və bütün hadisələri dərk etməklə haqqa şahid olan elmdir. Bəndəsinin qayğısına qalıb elm nurunu onun qəlbində işıqlandıran ancaq Allahdır. Qəlbi nur saçan bəndə həqiqətləri olduğu kimi görür. **«Pərvərdigara mənə həqiqətləri olduğu kimi başa sal»**. Şeyin həqiqətini dərk etmək, zahiri elmləri kəsb etməklə ələ gəlməz. İnsan qəlbində təsdiq və imanın yaranmasından ötrü öz batinini həmin nuru qəbul etməyə hazır etməlidi.

## MANİƏLƏRİ ARADAN APARMAQ İNSANIN VƏZİFƏSİDİR

Nurun qarşısını tutub, qəlbi bəsirət gözünün görməsinə mane olan hicabları aradan aparmaq hər bir insanın öz vəzifəsidir. Qurani-Kərimdə qəlbin gözü barəsində çoxlu söhbətlər olunmuşdur. İnsanda olan zahiri göz heyvanda da vardır. Onunla ancaq çismin zahirini görmək olar. Təkcə bəsirət

gözünə malik olan insan varlığın əsil həqiqətini görüb dərk edə bilər. Zahiri gözlərinizin qarşısında pərdə çəkiləndə bir şey görə bilmədiyimiz kimi, həmçinin qəlb gözünün, yəni bəsirət gözünün qarşısında də hicab çəkilsə, bu qəlbin nuranilışməsinə və varlıqların həqiqətini dərk etməsinə mənə olacaqdır. Qəlbdə elm nurunun və haqqı təsdiq etməyin işıqlanmasından ötrü insan özü bu hicabı aradan aparmalıdır.

## HAFİZ, SƏN ÖZÜN-ÖZÜN ÜÇÜN HİCABSAN ARADAN QALX

Görəsən həqiqəti görüb, dərk etməyə mane olan bu hicab nədir? Keçən söhbətlərimizdə bu hicabın mənəm-mənəmlik olduğunu açıqladıq. Əgər insan onu incələşdirib yavaş-yavaş aradan apara bilsə, özünün kamal səaətinə yetişə bilər. Haqqı görməyə mane olan qəlb hicabı həmin nəfs və mənəmlikdir. Əgər bu hicab daha da qüvvətlənsə, insan ancaq özünü və ona tabe olanları həqiqət hesab edər, Allaha layiq olan şeyləri isə özününkü biləcəkdir. Boş-boş şeylərə uyan şəxsin hicabı günü-gündən bərkiyib bir həddə çatar ki öz mənfəətindən başqa heç bir şey fikirləşməz. Belə bir adamın qəlb ilə haqqı təsdiq etməsi qeyri mümkündür. Onun qəlbi ancaq özünü təsdiq edir, özündən başqa heç kəsi görmür. Bu məsələ Şeytanın ***«Mən Adəmdən üstünəm»***[1] məsələsiylə eynidir.

İnsan günü-gündən nəfsani istəklərini azalda bilsə, qəlbində Allaha olan iman və məhəbbəti çoxalacaqdır.

Allah-Təala mübarək ***«Şəms»*** surəsində səkkiz şeyə and içəndən sonra buyurur: ***«Nəfsini günahlandıran təmizləyən şəxslər mütləq nicat tapacaqdır!»***[2]

---

1

2 «Şəms» surəsi, ayə 9.

## YEDDİNCİ DƏRS

## İSLAMDAN İMANA YETİŞİN

Dinin əvvəli Allahı tanımaqdır. Müsəlman olan şəxsin mütləq Allaha ibtidai və əqli mərifəti vardır. Bu ümumi mənada olan islam kifayət deyildir, islamın ən xüsusi mənasına, yəni iman və qəlbi etiqad mərhələsinə çatmaq lazımdır. Qurani-Kərim bu barədə buyurur: ***«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün!»***[1] Bu ayədən məqsəd, həmin qəlbi imandır. Bu iman yaranmayana qədər insanın kamilliyi zühur etməyəcəkdir. Qəlbində Allaha mərifəti olub Ona tərəf yol tapa bilən adam kamala yetişəcəkdir.

Allah ***«Hucurat»*** surəsində buyurur: ***«Bir dəstə ərəb «Biz iman gətirdik»-dedilər. Ya Peyğəmbər! Onlara de ki: «Siz qəlbən iman gətirmədisiniz!» Ancaq: «Biz islamı müəyyən şəxsi məqsəd, mənfəət naminə qəbul etdik!»-deyin. «Hələ iman sizin qəlblərinizə daxil olmamışdır».***[2]

Bu ayədə bəzi ərəblər təzə müsəlman olmaqlarına baxmayaraq, iman gətirdiklərini iddia edirlər. Allah-Təala onlara müraciətlə müsəlmanlıqlarının kamala çatmaqdan ötrü müqəddimədən başqa bir şey olmadığını qeyd edərək buyurur: Bəli, sizin müsəlmanlığınız əqli istidlal və icmali mərifətdən artıq bir şey deyildir. Siz ancaq müsəlman olmağın hökmünü yerinə yetiribsiniz. Çalışın qəlbinizdə iman yaradıb, kamala qovuşasınız. ***«Allahı tanımağın kamilliyi onu təsdiq etməkdir».*** Qəlbinizdə olan bu iman Allahı təsdiq etməyinizə və Onun müqabilində müti və təvazökar olmağınıza səbəb olacaqdır.

---

[1] «Ali-İmran» surəsi, ayə 102.
[2] «Hucurat» surəsi, ayə 14.

İnsan nə qədər ki, öz varlığını müstəqil hesab edir, heç vaxt Allahı dərk edə bilməz.

Bu səhv aradan qaldırılmayınca həqiqət aşkar olmayacaqdır. İnsan özünün mümkünəl-vücud olmağını, yəni öz varlığının mütləq vücuddan mütləq asılılığını dərk etməlidir. Varlığı eyni zat olan ancaq Vacibəl-vücuddur, yəni Allahdır. Allahdan başqa bütün məxluqlara nə qədər ki, varlıq əta olunmayıb, zati cəhətdən heçdirlər. Bu mənanı dərk etməyib hələ də özünü müstəqil bir varlıq hesab edən kəs necə Allahşünas ola bilər?

## ÖZ ACİZLİYİNİ YADA SALMAQ XUDBİNLİYİN ƏLACIDIR

Hicab və səhv düşüncələri aradan aparmaqdan ötrü nəfs ilə cihad etmək lazımdır. ***«Mən»*** gəlməsinin nə olduğunu başa düşmək üçün çoxlu zəhmət və məşəqqətlərə dözmək lazımdır.

Mən nə öz ixtiyarımla dünyaya gəlmişəm və nə də öz iradəmlə dünyadan köçəcəm.

Xeyir, ziyan, ölüm, həyat, qüdrət və zəiflik heç biri mənim ixtiyarımda deyil. Görəsən özümü həmişə cavan və sağlam saxlayıb, ölümün qarşısını ala bilərəmmi? Bu şeylər olmadığı halda insan öz acizliyi və zatının fəqirliyini dərk etməməlidir.

***«Ey insanlar! Siz Allaha möhtacsınız».***[1] Hər bir şey Allaha möhtacdır qüvvə, qüdrət, idrak və hər bir şeyin mənşəyi olan həyat Allahdandır.

Mənəmlik hicabını aradan aparmaqdan ötrü mümkünəl-vücud olan insan öz zatının fəqirliyinə inanıb, ona çarə qılmalıdır.

[1] «Fatir» surəsi, ayə 15.

## İSTEDAD VƏ ÇALIŞMAQ SƏVİYYƏSİNDƏ OLAN MƏRİFƏT

Allahı tanımağın kamilliyi Onu təsdiq etməkdir. İman və təsdiqdə yaranan elm və yəqinin nəticəsi təvazökarlıq və müti olmaqdır. Bu hal insanda birdən-birə yaranmayıb, məhdud da deyildir. Allah-Təala məhdud olmadığı kimi, Onu tanımaq da məhdud deyildir. Yəqinliyini gündən-günə artırmaqdan ötrü hər kəs Allah verən isdetatlı dərəcəsində çalışmalıdır.

Birinci həfs ilə cihad edib, Allahdan ötrü aciz olmalıdır ki, elm mərtəbəsinə çata bilsin. Bu anda həfsini çətinliyə, yəni öz meylinin əksinə alışdırmaqdan ötrü Allahın qayğısına da ehtiyac vardır.

Elm məqamına çatan anda orada dayanmaq lazım deyildir. Çünki hicablar hələ də aradan getməyibdir, onların aradan getməsi hələ uzun çəkəcəkdir.

## ƏN BÖYÜK HİCABLARDAN BİRİ DƏ ELMDİR

Bəzi dahilər deyiblər: «**Elm ən böyük hicabdır**». Elm bəzi vaxtlarda insan üçün hicab və maneəyə çevrilə bilər. Bu o vaxt baş verir ki, şəxs oxuduğu elmləri əzbərləyərək onlarla qürrələnir. Həmin elmlərə arxalanıb, hadisələrin həqiqətinə çatdığını zənn edir. İş o yerə çatır ki, Allah göstərməsin, özünü başqalarından üstün hesab edir. Sözün qısası, nə qədər ki, ancaq özünü və elmini görür, qürur və səhv fikirlər hicabında qərq olur. Amma elmin ***«Hicabi-əkbər»*** ən böyük hicab olmasına gəldikdə isə, mümkündür ki, şəxs başqa hicablara diqqət edib onları aradan aparmaqdan ötrü çalışsın. Lakin elmin hicab olmasını görmək çox çətindir. İnsanı bu fəlakətdən qurtaran

ancaq Allahin lütf qayğısıdır ki, bu məsələni ona dərk etdirib nicat verir.

Günahkar olan bəndə əgər günahı tərk etməyib tövbə etməsə və hicabda ola-ola onu aradan aparmaqdan ötrü çalışmasa, buna pis vəziyyət, pis hal və bədbəxtçilik deyilir.

Lakin əgər bəndə özünün günahkar və hicablanmış olduğuna etiraf etməsə, buna ən pis hal, ən pis vəziyyət və ən böyük bədbəxtçilik deyilir.

Birincinin bu fəlakətdən xilas olub nicat tapmasına ümid vardır.

Amma Allahın qayğısı olmasa ikincinin nicat tapmasına heç ümid yoxdur.

Başqa ifadə ilə desək, birinci «Cəhli bəsit» (sadə cəhl), ikinci isə «Cəhli mürəkkəb» (mürəkkəb cəhalət) adlanır.

Elmin hicab olmamasını istəyən adam, elm öyrənməklə yanaşı nəfsini də paklamalıdır ki, kamala çatmaqdan ötrü elm ona kömək etsin.

## QƏLBLƏ GÖRMƏK VƏ ELMIN YOXLUĞU

Kamala çatmaq istəyən şəxs ***«elmul-yəqin»***[1] dərəcəsindən ***«eynül-yəqin»***[2] mərtəbəsinə çatmalıdır. Bu mərhələyə başqa ifadəylə ***«qəlblə görmək»*** də deyirlər. Bu həddə çatan adam bununla kifayətlənməyib daha da yüksəyə qalxmalıdır. Elə bir yerə ucalmalıdır ki, Qurani-Kərim bu barədə buyurur: ***«Allah öz istədiyini dərəcələrə yüksəldir. Hər bilik sahibinin fövqündə ondan üstün bir bilici də vardır!»***[3]

---

1

2

3 «Yusif» surəsi, ayə 76.

Allah-Təala Qurani-Kərimdə Peyğəmbərə (s) əmr edərək buyurur: ***Ey Peyğəmbərim! Məndən öz elminin çoxalmasını istə. «Cəbrail (ə) tərəfindən sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və Pərvərdigara! Mənim elmimi artır! De».***[1]

Sonrakı dərəcə haqqa çatmaqdır.

«Həqqul-yəqin» [2] mərtəbəsini elmi sözlərlə ifadə etmək olmaz. «Həqqul-yəqin» zehində həqiqətlərlə daha da yaxından tanış olmaqdır. Bu dərəcə hiss mərtəbəsindən yüksəkdir.

## TÜSTÜNÜ GÖRMƏKDƏN ODDA YANMAĞA QƏDƏR

Mühəqqiq Tusi (r.ə) elmül-yəqin, eynul-yəqin və həqqul-yəqin mərifətinin dərəcələrini aydınlaşdırmaqdan ötrü belə bir misal çəkmişdir: Uzaqda müəyyən bir yerdən tüstü qalxdığını görən şəxs, orada nə isə bir şeyin yandığını bilir. Bu elmül-yəqin mərtəbəsidir. Sonra yaxınlaşıb həmin tüstünün həqiqətən də atəş olduğunu müşahidə edir. Bu elmül-yəqindir. Daha da yaxınlaşaraq atəşin istiliyini hiss edir, bədəni yanır və artıq bu həqqul-yəqin mərtəbəsidir. Bizim nəzərimizə görə bundan yaxşı misal çəkmək olmaz. Hər şeydən zəruri şəxsin inkişaf etməkdən ötrü çalışması və nə qədər də yüksəyə ucalsa həmin yerdə dayanmamasıdır. Elmə çatmağın çox əhəmiyyəti vardır. Qurani-Kərim də öz növbəsində bu işə əmr etmişdir: ***«Bil ki, Allahdan başqa Allah yoxdur».*** Təkcə icmali və əqli mərifətə deyil, həqiqi elmə çatmaq lazımdır. Elə bir elmə ki, onda heç bir şəkk qalmayıb kamil xatircəmliyə səbəb olsun. Əgər yer üzündə Allahı tanıyan təkcə özü olsa belə, bu onun qəmlənməsinə deyil,

---

[1] «Taha» surəsi, ayə 114.

[2]

həqiqi əmniyyətinə və qəlbinin kamil sakitliyinə səbəb olacaqdır. Elmül-yəqindən daha da yüksəklərə ucalıb, hal-hazırda özünü ruhani behiştlərdə görür. Bu məqamda məhbubu olan Allahı həmişə görür artıq Onu dərk edir.

## ALLAHA YAXINLAŞMAQ AŞİQLƏRİN ARZUSUDUR

Kumeyl duasında oxuyuruq: ***«Ey mərifət əhlinin ən yüksək arzusu. Bəli, onların ən yüksək arzusu Allaha qovuşmaq və Ona yaxınlaşıb vüsala çatmaqdır».***

İmam Zeynalabidin (ə) öz münacatlarının birində Allaha ərz edir: «Pərvərdigara! Mənim arzu və istəyim sənə həqiqi surətdə yaxınlaşıb, Sənə qovuşmağımdır. Sənin vüsalına qovuşmaq mənim arzum, Sənin dostluğuna eşq bəsləmək və Səninlə görüşmək mənim gözümün işığıdır. Ey mənim nemət və behiştim, ey mənim dünya və axirətim».[1]

Məlumdur ki, İmam Səccad (ə) Allaha yaxınlaşmağını zahiri gözlə deyil, qəlbin gözüylə arzu edir. Həqiqi yaxınlıq odur ki, «Siz harda olsanız, Allah da sizinlədir».[2]

İmamın istədiyi bu yaxınlığın etiqadi azğınlıq olan «Hülul» və «İttihad»la heç bir rabitəsi yoxdur. Əksinə, bu anda Allahla insanın arasında olan bütün pərdələr aradan götürülür və o, dərk edir ki, özü və bütün adlar Allahın nişanələridir. Bununla da onun qəlbində xatircəmlik yaranaraq Allahdan başqa bütün varlıqların qeyri müstəqil olduğunu və onların vücudlarının ancaq Allahla bağlı olduğunu başa düşür. «Allah göylərin və yerlərin nurudur».

1

2

«Allahdan başqa heç bir tanrı yoxdur, əzəli və əbədi varlıq Odur». Bütün mövcudların varlığı Allahdandır. İlahi varlığa aid etdiyimiz sözlərin hamısı maddi aləmlə bağlı olan ifadələrdir, çünki bu kəlmələr hiss etdiyimiz şeylər haqqında yaranmışdır. Mücərrəd və mütləq varlıq barəsində məcazi mənada işlədilir. Bu yolda qədəm götürüb Allahı tanımaqda aləmlərin Rəbbi özü bizə kömək olsun!

# SƏKKİZİNCİ DƏRS

## VARLIQLA ƏŞYALAR VÜCUDA GƏLİR

Keçən söhbətlərimizdən belə bir sual ortaya çıxdı: Allahdan başqa bütün varlıq aləmi mümkünəl-vücuddur. Mümkünün mənası yoxluqla varlığının eyni səviyyədə olub zat cəhətindən mütləq asılılıqdır. Mümkün öz sayına nisbətdə yox və heç dərəcəsindədir. Sonradan varlıq ona «ariz» olunanda o vücuda gəlir. Burada belə bir sual soruşurlar:

«Ariz» və «məruz» iki varlıq mərtəbəsi ola-ola neçə toxluq hesab olunurlar. Bir halda ki, «ariz» olmaq onların təsir və nəticəsidir.[1]

*Cavab:* Burada qeyd etdiyimiz vucud və mahiyyət üzərində baş verən ariz və məruz prosesi cisimlərin üzərində baş verən cəryan deyil. Çünki cisimlər üzərində baş verən bu prosesdə ariz və məruz hər ikisi də, varlığın iki mərtəbəsi hesab olunur.[2]

Amma mahiyyət üzərində baş verən proses belə deyildir. Çünki mahiyyəti öz zatına görə heç bir varlığı olmayıb vücudun həddi hesab olunur. Əgər mahiyyət vucuda gəlirsə, onun var olması vücud tərəfindədir.[3]

Yaddan çıxarmaq lazım deyil ki, bu cür təsəvvürlər əqlin varlıqlar üzərində təhlilindən başqa bir şey deyildir.

---

1
2
3

## BÜTÜN ALƏM ALLAH TƏRƏFİNDƏN OLDUĞUNA GÖRƏ ONA AŞİQƏM

İnsan çalışıb Allaha mərifət tapmaqda elə bir məqəma çatmalıdır ki, onun qəlbində Allaha qarşı təsdiq hasil olsun. Təsəvvür edin ki, bir kəs elmul-yəqin mərtəbəsinə çatmışdır. Bu mərtəbənin nəticəsi həmin şəxs Allaha qarşı kamil əlaqə və məhəbbətin yaranmasıdır. Eynul-yəqin məqamına çatan şəxsin isə Pərvərdigara olan əlaqə və məhəbbəti daha da şiddətlənir - ***«İnsan ehsanın quludur»*** - Fərz edin ki, bir kəs sizə ehsan etmişdir. Məsələn: bir təbib sizin ağrıyan gözünüzü müalicə edib, sağaldır. Sizin o təbibə qarşı məhəbbətiniz nə qədər çoxalır? Bir halda ki, bizə təmənnasız olaraq sağlam gözlər bağışlayan Allahı yaddan çıxarırıq. Görün insan bütün varlıq aləmini yaradan Allahına necə məhəbbət bəsləməlidir? Hər nəyi sevsə, onu Allahdan ötrü sevməlidir.

Haraya nəzər etsən, Allahın yaratdığı varlıq aləmini və onun nəticəsini görərsən. Bütün bunlar Allaha qarşı olan məhəbbətin və Onun huzurunda olan ləzzətin şiddətlənməsinə səbəb olur. İnsan hicabları azaltmalı, Allahla olan rabitəsini daha da yaxınlaşdırmalıdır. Allahı hər yerdə hazır və nazir bilərək, bir küncə çəkilib, Ondan çoxlu elm istəməkdən ötrü münçat etməlidir. ***«Və qul rəbbi zidin elmən».***

## PƏRVƏRDİGARA! ÖZÜNÜ MƏNƏ GÖSTƏR!

Eynul-yəqin qəlbin bəsirət gözüylə görməkdir. Bu dərəcə elmul-yəqin mərtəbəsindən yüksəkdir. İnsan əgər bu məqama çata bilsə onun bir çox gözəl nəticələri vardır ki, onları aşağıdakı hədisdə nəqil edirik. Qurani-Kərim Həzrəti Musa (ə)-ın yəqin

elimini əldə edib ***«təklim»*** (Allahla danışıb, söhbət etmək) məqamına çatması barəsində buyurur:

Və Allah Musa (ə) ilə sözlə arada heç vasitə olmadan danışdı. Musa (ə) Allahın kəlamını qəlbiylə eşitdi. ***«Onu Ruhul əmin Cəbrail (ə) cənin qəlbinə endirdi».***[1] O təklim məqamına çatıb şərafətli qəlbi Allahla danışmaq istedadı əldə edəndən sonra Pərvərdigarına müraciətlə ərz etdi: ***«İlahi! Özünü mənə göstər».*** Musa (ə) Allahı zahiri gözlə deyil, qəlbin gözüylə görmək istədi. Zahiri gözlər ancaq cisimləri görə bilər. Cisim düzəldən Allah özü necə cism ola bilər. Bir halda ki, əgər cism olsa tərkib olunmalıdır.

Cisim hadis və mükünəl-vucuddur. Cismi və bütün aləmləri yaradan Allah bütün bu şeylərdən uzaqdır. Deməli, Musanın (ə) Allahı görmək istəməsi bu zahiri gözlərlə deyildir.

## DAĞ NƏHƏNGLİKDƏ «MƏNƏMLİK» PARÇALANIB ARADAN GETSƏ, BƏSİRƏT TAPILAR

Allah-Təala buyurur: ***«Sən məni əsla görə bilməzsən».*** Ehtimal vardır ki, Allah-Təalanın - Sən məni əsla görə bilməzsən – buyurmasından məqsəd ***«Musa (ə) nə qədər hicabdan təmizlənməyib onun Allahı görməsi qeyri mümkündür»*** olsun. Çünki Musa (ə)-ın ***«İlahi, Özün mənə göstər»*** ifadəsində işlənən «mən» kəlməsinin özü hicabın bir əlamətidir. Əlbətdə bu mətləb bizim əqlimizin idrakından yüksəkdə olan dəqiq və incə bir həqiqətdir.

Allah-Təala ***«lakin bu dağa bax, əgər o yerində dura bilsə, sən də məni görə bilərsən,-deyə buyurdu».***[2]

---

[1] «Şuara» surəsi, ayə 195.
[2] «Əraf» surəsi, ayə 143.

Ehtimal vardır ki, bu ayədə işlənən «dağ» kəlməsindən məqsəd, insanın nəfsindəki dağ nəhənglikdə olan «mənəmlik» iddiası olsun. İnsan öz bəzirətini mənəmlik dağılıb aradan gedəndən sonra əldə edə bilər.

***«Rəbbi dağa təcəlli etdikdə, Allahın nuru dağa saçıldıqda onu parça-parça etdi. Musa da (ə) huşunu itirib yıxıldı».***[1]

Əlbətdə biz bu ayəni irfani surətdə təhlil etdiyimizə görə əsl mənası belə olmaya da bilər. Lakin mənəmlik hicabının bu proseslərin baş verməsiylə aradan getməsi bizim ayə barəsində etdiyimiz təhlillə uyğun gəlir. Bu proseslər nəfsdə olan hicabların məhv olması və insanın eynül-yəqin mərtəbəsinə çatmasından ötrü bir hazırlıqdır. İnsan bir az da zəhmət çəksə, mənəmlikdən əsər olmayan həqqul-yəqin mərtəbəsinə çata bilər.

## MƏN KİMƏM Kİ, SƏNİ TƏRİFLƏYƏM

Bu məqamın ən kamil dərəcəsini İslam Peyğəmbərində (s) müşahidə edə bilərik. Onun Allahla danışıqlarında «mən» kəlməsindən əsər-əlamət yoxdur. Həzrəti Peyğəmbər (s) səcdə duasında ərz edir: «Pərvərdigara! Mən kiməm ki, Sənə həmdsəna deyim və sitayiş edim. Bir halda ki, Sən özün-özünə həmd-səna edirsən. Sən ancaq özün-özünə səna edə bilərsən».

İslam Peyğəmbəri (s) Şəban ayının ortasında oxunan duanın səcdəsində buyurur: ***«Pərvərdigara bədənim, xəyalım və qəlbim sənə iman gətirib, bütün varlığım sənə səcdə edir».***[2]

Pərvərdigara! Səni layiq olduğun qədər tanıya bilmədik. Mümkünəl-vücud nə qədər inkişaf etsə də yenə də mümkünəl-vücuddur. Əlbəttəki, bəndə bəndədir, Allah da Allah!

---

[1] «Əraf» surəsi, ayə 143.
[2]

Peyğəmbərimizin (s) Allah dərkanına bu qədər yaxın olması və həqiqətlərin ondan başqa bir kəs üçün bu dərəcədə kəşf olmamasına baxmayaraq, o, özü də Allah ola bilməz.

Pərvərdigara! Pərəstiş olunmağa layiq olduğun qədər Sənə pərəstiş edə bilmirik. Bu mərtəbələri icmali surətdə bəyan etməkdə məqsədimiz Allah yolunda inkişafa doğru qədəm atmaqdır. Amma bu kifayət deyildir. Allahın köməkliyi ilə çalışıb daha da uca məqamlara çatmaq lazımdır. Sonrakı məsələ budur ki, hansı bir həddə oluruqsa olaq, məğrur olmaq lazım deyildir. Çünki hələ qarşıda fövqəladə və çox yüksək məqamlar vardır.

***«Hər bilik sahibinin fövqündə ondan üstün bir bilici də vardır!»***

## DOQQUZUNCU DƏRS

***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etməkdir».***

### XATİRCƏMLİK ƏLDƏ ETMƏK ÜÇÜN ELM KİFAYƏT ETMƏZ, İMAN DA LAZIMDIR

Mətləb çox mühüm olduğuna görə tez-tez təkar olunmalıdır ki, zehinlərdə heç bir şübhə qalmasın. Allahı tanımaqdan ötrü istidlali əqli mərifətin kifayət etməsinə güman etməyin. Allah, nübuvvət və məadı əqlin hökmüylə tanımaq naqis olduğu kimi, bu növ dərk üslubu da naqisdir, çünki bu mərifət, şəkk və vəsvəsə ilə qarışıqdır. Belə bir şeylə şəkk etmək insanı həlakətə apara bilər. İnsanın xatircəmliyinə səbəb olan şey, qəlbdəki imandır. Əql tanıdığı şeyə, qəlb də inansa, bu vaxt imanın əlamətləri aşkar olacaqdır. Məsələn, əgər bir kəsin qəlbi aləmlərin Rəbbinin qadir və nemət bağışlayan olduğunu qəbul etsə, həmin anda onun qəlbində Allaha qarşı məhəbbət yaranacaqdır. Bu məhəbbət onun bütün günahlardan çəkinməsinə səbəb olacaqdır. Bir çox adamlar bütün ömürlərini bu mətləblərə sərf edib əqli istidalalları yaxşı bildiklərinə baxmayaraq, qəlbləri halədə bu mətləblərə inanmamışdır. Bildikləri, quru sözlərdən başqa bir şey deyildir. Onlarda mərifət və həqiqətdən əsər-əlamət yoxdur. Onların elm, iman və qəlbləri dünyaya bağlanıb, yalnız maddi inkişaflarını düşünürlər. Deməli, hər dərs oxuyan adamın qəlbində elm yarana bilməz. Onun bildikləri, əqli terminlərdən başqa bir şey deyildir.

## ÖLÜM HAQQINDA OLAN YƏQİNLİK ŞƏKKƏ OXŞAYAN BİR ŞEYDİR

Bildiyiniz kimi, əqlin qəti surətdə qəbul etdiyi bir çox məsələləri, o cümlədən dünyanın faniliyi və ölüm məsələsini ürək qəbul edə bilmir. Hər bir aqil bütün mürəkkəb varlıqların nəhayət də parçalanıb aradan gedəcəyini dərk edir. Bizə aydın olduğu kimi, hər bir mövcud nəhayətdə bir məqsəd üçün yaradılmışdır. Həmin məqsədə çatandan sonra artıq o, ölümlə üzləşir. Bir kəsin bu dünyada əbədi qalmayacağını bizim təcrübi əqlımız də sübut edir. Yüz il bundan əvvəl yaşayan adamlardan indi heç əsər-əlamət də yoxdur. Bununla da əql yəgin edir ki, daha yüz il də keçəndən sonra indiki adamlar da yer üzündə olmayacaqlar. Əqlin sübut etdiyi bu məsələni ürək qəbul edib, inana bilmir.

Əli (ə) buyurur: ***«Heç bir yəqinliyin ölüm haqqında olan yəginlik qədər şəkkə bənzəməsini görmədim».*** Yəni ölüm barəsində bu qədər əqli dəlillərin olmasına baxmayaraq ürək ona inana bilmir. Elə buna görə də dünyanın məhv olub aradan getməsini və ölümü yadına salmayıb ürəyi istədiyi qədər mal və sərvət toplayır. Bir halda ki, bu mallardan istifadə etməyə ondan kifayət etmədiyini bilir. İnsanın bəsirət gözü bağlı olduğuna görə həmişə qəflətdə olub, həqiqəti görə bilmir. Allah belə kəslər haqqında buyurur: ***«Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!»***[1]

Başqa bir misal: Məqampərəst adam beş günlük vəzifə və kabinetdən ötrü bütün rahatlıq və azadlığını kənara atıb, müxtəlif

[1] «Bəqərə» surəsi, ayə 7.

zəhmət və məşəqqətlərlə qarşılaşır. Nəhayət insanı taxta tabutda aparan səltənət taxtının nə faydası ola bilər?

Ey insan! Həyatını dərk et, zəhmət çək. İnsanın qəlbi hicablı olduğuna görə ölüm və faniliyə inana bilmir. Öz nəfsani istəklərini yerinə yetirib ibrət götürməyən adam həqiqətdə heyvan səviyyəsindədir.

***Əvvəl qurddu bircə-bircə bu sürünü dənləməkdə,***
***Bu sürüyə bir nəzər sal, asudəlik və qəflətdə.***

İnsan hicabdan yaxa qurtara bilsə qəlbi işıqlanıb, haqqı görə bilər. Bu anda Onu tələb edib, ancaq Onun razılığını əldə etməkdən ötrü çalışar. Amma nə qədər ki, qəlbi hicab örtüb, o qəlbin haqqı istəməsi qeyri mümkündür.

## ALİM OLMAQDAN ÖTRÜ, ƏVVƏL RUHANİ OLUN

Şəhid Süni (r.ə) özünün ***«Muniyətul-mürid»*** kitabında Həzrəti İsadan (ə) belə bir hədis nəql edir: Elm göydə deyil ki, sizə nazıl olsun, yerin altında deyil ki, üzə çıxsın. Elm sizin qəlbinizdə olan bir çeşmədir, lakin hicab və maniələr bu çeşmənin üzərini tutmuşdur. Onun qaynamasından ötrü bu maniələri aradan aparmaq lazımdır. Elmə sahib olmaq üçün ruhani ədəbini əldə edin.

Nə qədər ki, mənəvi və ruhani insanlar deyil, dünyapərəst adamların üslublarından istifadə edirsiniz, həqiqi elm və mənəviyyatdan uzaq düşəcəksiniz. Həqiqi elm əldə etməkdən ötrü qəlbinizdəki hicabları aradan aparıb, mənəvi insanlar kimi, ədəb və mərifətlə silahlanın.

## ALLAHA BƏNDƏLİK ETMƏKDƏ İXLAS VƏ HİKMƏT ÇEŞMƏLƏRİ

Başqa bir rəvayətdə Allahın Rəsulu (s) buyurur: ***«Hər kəs Allaha qırx gün xalis bəndəlik etsə, onun qəlbindən dilinə hikmət keçməsi cari olar».*** Bir şəxsin rəvayət, təfsir və müəyyən mətləbləri əzbərləyib maqnitafon kimi zəhnində saxlaması mümkündür. Amma qəlbdən çeşmə kimi qaynamayan elmin faydası yoxdur. Onun danışanda işlətdiyi sözlər elmi terminlərdən başqa bir şey deyildir. Həqiqi elm, dediyiniz insanın qəlbindən cari olmalıdır. Allahı həqiqi elmlə tanıyan adam heç vaxt Onun razılığının əksinə bir iş görməz. Əbu Həmzə Somali duasında oxuyuruq: ***«Pərvərdigara! Məndən baş verən bu günah, azğınlıq və Sənin əzabını kiçik hesab etmək üzündən olmamışdır. Bu bir sürüşgənlikdir ki, məndən baş verib».***[1]

Bu duadan insanın tez peşman olub tövbə etməsi məlum olur. Allahı hər yerdə hazır və nazir görən adam üçün xəlvətdə və aşkarda olmasının fərqi yoxdur. Harda olsa özünü Allahın hüzurunda hiss edib heç vaxt Onun əmirinin ziddinə bir iş görməz. Əlbəttə ki, elmin özünün və mərtəbələri vardır.

Böyük hicab olan «mənəmliyi» aradan aparmaqdan ötrü nəfs ilə cihad etmək lazımdır. Qəlbdə «mənəm-mənəmlik» varsa orada Allah ola bilməz. Şeytan kimi «Mən» deyərək öz varlığını müstəqil hesab edib haqq dərgahında həmişəlik qovulmağı Allah göstərməsin.

---

1

## HƏQİQƏTDƏ MƏRİFƏT CƏHALƏTLƏ CƏM OLA BİLMƏZ

Allahın yolu cəhalətlə uyğun gəlmir. Özünü hələ də Allahın müqabilində bir şey hesab edən kəs, ilahi mərifətə neçə yol tapa bilər? Mənəmlik və müstəqillik iddiası edib, öz yoxluğundan qəflətdə olmaq cəhalətin bəhrəsidir. Allahın tövhidiylə həqiqi surətdə tanış olmaqdan ötrü birinci bu hicabı aradan aparmaq lazımdır. Allahsevər olmaqdan ötrü cihad etməklə ***«mən»*** və ***«xüdpəsəndlik»*** aradan götürülməlidir. Ən pis batini şirklərdən olan ***«Allaha şərik qoşmaq»*** bir növ öz varlığını özündən hesab edib, Allahı görməməkdir. Bir haldakı insanın varlığı Allah feyzindən bir an belə qət olunsa, onun varlığından heç bir əsər-əlamət qalmaz. Bütün mövcudların var olması Allaha aiddir. Bu mənanı dərk etmək insanın imanı üçün zəruri və vacibdir.

***«Pərvərdigara! Əşyanın həqiqətini olduğu kimi bizə göstər. Bu qəlbin nicablarını Öz qüdrət qəhrinlə təmizlə».***[1]

Allahdan başqa heç bir yerə qaçmaq olmaz. Pənah yeri ançaq Allahdır. Elə isə Ona pənah aparın. ***«Ya Məhəmməd (s)! Bu insanlara de ki, Allah tərəf qaçın! Allah qəzəbindən qacıb Onun mərhəmətinə sığının, küfrü atıb imana gəlin!»***[2]

---

[1]

[2] «Zariyat» surəsi, ayə 50.

## ONUNCU DƏRS

***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etmək və təsdiq etməyin kamalı isə onu vahid bilməkdir».***

## ZATI, SİFATİ VƏ ƏFALİ TOHİD

Mərifət kamalının istidlali elmlə deyil, qəlbin təsdiq etməsi və inamla olduğunu qeyd etdik. Qəlbi təsdiq və onun mərtəbələri olan ***«elmul-yəqin»***, ***«eynul-yəqin»*** və ***«həqqul-yəqin»*** barəsində keçən söhbətlərimizdə bəyan etdik. Həm də bu təsdiq o vaxt kamil olar ki, Allahın vəhdaniyyətinə «təkliyinə» heç bir şərik qoşulmasın. İnsan hər şeydə Allah və Onun təcəllisini görməlidir.

Tövhidin də mərtəbələri vardır: Zatı, sifati və əfali.

**Tövhidi zatı**: Allahdan başqa Allah yoxdur.

**Tövhidi sifati**: Allahın bütün sifətləri eyni zatı olub, başqa bir yerdən Ona əlavə olunmamışdır.

**Tövhidi əfali**: Bütün işləri Allaha aid olmasını və Onun həqiqi fail olmasını dərk etməkdir.

Tövhidi zatıyə başqa sözlə ***«vacibəl-vücud»*** deyilir. Allah təkdir, əzəli və əbədidir. Yəni həmişə olmuş və həmişə də olacaqdır. Ona heç bir şey əlavə olunmayıb, hər şeyi zatidir və təkdir. Vacibəl-vücudun vəhdaniyyəti əql mərtəbəsinə yüksəlməklə dərk olunur. İnsan əqli dəlillərlə aləmin mənbəyinin tək olduğunu dərk edir. Bu barədə çoxlu əqli dəlillər gətirilmişdir. Onların bəziləri aşağıdakılardan ibarətdir.

# VACİBƏL-VÜCUDUN BİR NEÇƏ ƏDƏD OLMASI QEYRİ MÜMKÜNDÜR

Əgər məbdə (hər şeyin ibtidası, mənbəyi) iki olsa onun tərkib olunması lazım gəlir. Bir halda ki, əgər vacibəl-vücud mürəkkəb olsa, hər mürəkkəbin də öz tərkib hissəsinə və onu tərkib edənə ehtiyaclı olduğunu nəzərə alsaq vacibəl-vücudu möhtac və nəyəsə ehtiyaclı sanmalıyıq. Hər bir mürəkkəb olan şey mümkünəl-vücud olub öz hissələrinə və failinə (mürəkkəb edən, işi görən) möhtacdır. Deməli əgər vacibəl-vücud mürəkkəb olsa, o daha vacibəl-vücud hesab olunmaz. Bəlkə ona mürəkkəb və ona möhtaç olan mümkünəl-vücud deyilər. Fərz edək ki, vacibəl-vücud çox saydadır. Əgər O ikidənə olsa, yəqin edin ki, iki müştərək şeyin arasında mütləq imtiyaz olmalıdır. Yəni müştərək və müxtəlif cəhətlərin bir-birlərinə nisbətdə fərqləri və üstünlükləri olmasa onda onlar iki dənə deyildir. Bu da bizim fərziyəmizə ziddir. Deməli bunların hər biri iki şeylə mürəkkəb oldular. Biri onların müştərikliyi, digəri isə bir-birlərinə nisbətdə olan fərqli olmaqlarıdır. İki şeydən təşkil olunmaq da mürəkkəbliyə aiddir. Mürəkkəb isə möhtac və mümkündür. Elə buna görə də vacibəl-vücud deyildir.

Əql bu dəlillərin əsasında məbdənin iki deyil, ancaq bir olduğunu hökm edir. Məbdə iki dənə ola bilməz. Əgər iki ədəd olsa heç biri vacibəl-vücud olmayacaqdır. Çünki hər biri onları yaradıb, tərkib edənə möhtacdırlar.

## ÇOXLUQ FƏSADA VƏHDƏT İSƏ İSLAHA SƏBƏBDİR

Allah-Təala bu barədə Quranda dəlil gətirərək buyurur: ***«Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də müvazinətdən çıxıb pozulardı».***[1]

Şübhəsiz ki, Xaliq və varlıq aləminin məbədəsi iki dənə olsaydı belə gözəl nizam hasil olmazdı. Bu aləmdə gözəl nizamın olmasına səbəb, onun bir mənbədən xaric olmasıdır. Allah-Təala başqa bir ayədə buyurur: ***«Onunla yanaşı ibadət ediləcək heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda hər tanrı öz yaratdıqları ilə əlahiddə gedər, öz məxluqatını ayırıb aparar və onların bir qismi dünyadakı padşahlar kimi digərinə üstün olmağa çalışardı. Allah müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə kənardır!»***[2]

Bu ayəyə istinad edərək deyə bilərik ki, bütün fəsad və pozğunluqlara səbəb «çoxluqdur». Amma harda düzgünlük və islah varsa, vəhdaniyyət və təklikdəndir. Allah bir varlıqdır ki, bütün məxluqların zahir olması Onun səbəbi ilədir. Bu məsələ ancaq qəlbin nuru ilə dərk oluna bilər.

## BAŞA DÜŞMƏDİYİNƏ GÖRƏ MÜXALİFƏT EDİR

Kim Allahı inkar edə bilər? Bir halda ki, hara baxsan Pərvərdigarın təsiri və nişanələrini görə bilərsən. Yer, göy, heyvan, insan və başqa varlıqlar hamsı Allahın məxluqlarıdır. Bu varlıqların heç birini Allahın nəzərindən ayrı düşünmək mümkün deyildir.

---

[1] «Ənbiya» surəsi, ayə 22.
[2] «Muminun» surəsi, ayə 91.

Ancaq nəfs ilə cihaddan sonra bu mətləbləri dərk etmək mümkündür. İnsanın qəlbi hicaba örtüldüyünə görə bu məsələləri inkar edir. Çunki o, bilmədiyi şeyin düşmənidir, belə adamlar özlərini bilikli, digərlərini isə nadan hesab edirlər. Öz hallarından xəbərsiz olaraq tövhidə küfr edib (Allahın təkliyini inkar etmək) başqalarını cahil adlandırırlar. Allah-Təala Quranda buyurur: ***«Allah göylərin və yerin nurudur».***[1]

Göyləri səma dərəcəsinə çatdıran, insanı insan edən və bütün başqa məxluqları var edib onlara həyat bağışlayan ancaq Allahdır. Əgər Allah varlıqları geri götürsə, heç bir şeydən əsər-əlamət qalmaz. Mahiyyət özü özlüyündə heç nədir. Allahdır ki, onu heçlikdən varlıq həddinə çatdırmışdır. Məxluqları var edib, aşkara çıxaran Allahdır. Bu genişlikdə varlıq və vəhdət heç bir an Allahdan ayrı deyildir. Əgər ayrı olsa varlıqdan əsər-əlamət qalmaz. İnsan bu məsələni qəlbin nuru ilə dərk etsə, Allaha yaxınlıq və Onunla birlikdə olduğunu yaxşı başa düşər.

## ZAMAN VƏ MƏKAN ÇƏRÇİVƏSİNDƏ OLAN YAXINLIĞIN HEÇ BİR ÜSTÜNLÜK VƏ ŞƏRAFƏTİ OLA BİLMƏZ

Əli (ə) «Nəhçül-bəlaqə»nin əvvəldə qeyd etdiyimiz xutbəsində buyurur: Allah hər mövcudla bir yerdədir. Çünki hər mövcudun varlığı Ondadır. Amma Onun yaxınlığı cisimlərin bir-birlərinə olan məkan və zaman yaxınlığı kimi deyildir. Bir barmağın o biri barmağa nisbətdə olan yaxınlığı məkan çərçivəsində olan yaxınlıqdır.

Zamana görə bu gün dünənlə müqayisədə bizə yaxındır. Allahın özündən başqa varlıqlarla olan yaxınlığını rütbə yaxınlığı kimi də fərz etmək olmaz. Həmçinin əgər, Allahın

[1] «Nur» surəsi, ayə 35.

müqabilində müstəqil mövcud hesab olunurlar. Xaliqlə məxluq arasında olan yaxınlıq nə məkan nə zaman və nə də ki, rütbə və şərafaət yaxınlığıdır.

Əli (ə)-ın Həzrəti Peyğəmbərə (s) olan nisbət və yaxınlığı dərəcə və şərafət yaxınlığıdır. Heç bir məxluq öz Xaliqi ilə bu şəkildə yaxın deyildir. Allah-Təala bu cür nisbət və yaxınlıqlardan pak və münəzzəhdir.

Pərvərdigarın məxluqlar ilə yaxınlığı barəsində heç bir misal çəkmək olmaz. Çünki, Onun misli yoxdur. Bizim danışıq və əbədi dilimizdə yaxınlıq haqqında nə qədər terminlər varsa, Allah bunların hamısından pak və ucadır.

## HÜLUL VƏ İTTİHAD KÜFRDÜR

Əli (ə) buyurur: ***«Allah hər bir şeylə yaxın olmadan onunla bir yerdədir».***

Pərvərdigari-aləmin şeylərlə ittihad və birləşmə nəzəri küfrdür. Əgər bir kəs məxluqla Xaliqin müttəhid və birləşmiş olduğunu desə, o artıq Allaha şərik qərar vermişdir. Həmçinin ***«Hülul»*** da küfr hesab olunur. Məsələn, suyun qaba daxil olduğu kimi-Allah da, bir şeyin içinə daxildir deyilsə, bu, Allaha hülul nisbəti vermək hesab olunur.

Hal varlıığın vəziyyəti, məhəl, məkan və yer ayrı-ayrılıqda iki varlıqdırlar.

***«Allah sizinlədir***»-deyiləndə, Allahı və özünüzü ayrı-ayrılıqda olan varlıq kimi təsəvvür etməyin. O hər şeydən ayrıdır. Amma nəinki Allah ayrı bir varlıq, məxluq da başqa bir varlıq hesab oluna. Bu mətləblər çox incə və dəqiq olduğuna görə adi fikirlə başa düşülə bilməz. Əli (ə) başqa bir yerdə buyurur: ***«Allahdan ayrı təssəvür olunmadan, məxluq onunla ayrılıq şəklindədir».***

Qəlbin tövhid nuru ilə işıqlanmağından ötrü insan bütün ömrünü cihadla keçirib, bəsirət səfasını öz istedadı dərəcəsində Allahın həqiqi vəhdaniyyətini dərk etməyə yüksəltməlidir. Məhəmməd və Ali Məhəmmədin (s) yetişdiyi tövhidin kamil mərtəbəsinə - həqqul-yəqinə çatmalı, Allahdan qeyri şeylərdən uzaqlaşıb, ancaq ona bağlı olmalıdır.

## ALLAHIN VERDİYİ GÖZ, QULAQ VƏ ƏLLƏRLƏ İŞ GÖRÜLÜR

***«Üsuli-kafi»***də belə bir hədis nəql olunur: Görən gözlər, eşidən qulaqlar və əta edən əllər hamısı Allahındır. Əgər bir kəs bu məsələni dərk edə bilsə, Allah qarşısında öz faniliyini başa düşüb, hər yerdə Allahı, Onun təcəlli və zühurunu görəcəkdir. Allahın təcəlli və zühuru Quran və hədislərdə çox işlənmişdir. Misal üçün, Quranın «Əraf» surəsindəki ***«Pərvərdigarı-aləm dağa təcəlli etdikdə»*** ayəsinin və Həzrəti Peyğəmbərin (s) ***«Məbəs»*** duasında işlətdiyi ***«Pərvərdigara! Mən Səndən Sənin ən böyük təcəllini istəyirəm»*** kəlməsini gətirmək olar. Adam bu kəlmələrdən dəhşətə gəlib, qorxuya düşməməlidir. Sözsüz ki, xudpəsənd adamlar bu ifadələrdən qorxmalıdır. Amma o mən, sən və başqa varlıqlar Allahdan ayrı təsəvvür etdikdə heç olduqlarını dərk edən kimi daha qorxusu qalmayacaqdır. Əlbəttə bunu dərk etmək müşkül məsələdir. Amma cavanlar bunun öhdəsindən tez bir zamanda gələ bilərlər. Özünüzə rəhm edib, nəfsinizin qarşısını alın ki, bu məsələlər sizin üçün çətin olmasın. Şəriətin düzgün qanunu ilə nəfsinizlə cihad edib, öz mənəviyyatınızı artırın. Bu yolda sizin üçün Allahdan tofiq və xeyir istəyirik.

## ON BİRİNCİ DƏRS

***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etmək və təsdiq etməyin kamilliyi isə Onu vahid bilməkdir».***

### BÜTÜN MƏXLUQLAR VAHİD OLAN ALLAH TƏRƏFİNDƏN YARADILMIŞDIR

Pərvərdigari-aləmin təkliyi haqqında elm əldə edən şəxs, Allaha olan mərifətinin naqis olmamasından ötrü Onun vəhdaniyyətinin ahəngində olmalıdır. Yəni tövhidin ***«Allah təkdir və heç bir şəriki yoxdur»*** məsələsinin zati, sifati və əfali surətdə dərk edib Onun ibadət və pərəstiş məqamına ucalmalıdır.

***Tövhidi-zati*** - Allahın müqəddəs zatının bütün varlıq aləminə məbdə olması deməkdir. Yəni varlıq aləmində baş verən bütün hadisələr və yaranan bütün mövcudlar Onun vasitələridir və qaydışları da ona tərəfdir. O, həmişə olmuş və həmişə də olacaqdır. Ondan başqa olan hər bir şey yaradılmışdır. Vücudu varlıq təsəvvürünə görə üç qismə bölürlər:

***1 – Vacibəl-vücud;*** - Yəni, olması vacib və zəruri olan varlıq.

***2 - Mümkinəl-vücud;*** - Yəni, olması ilə olmaması eyni və mümkün olan varlıq.

***3 - Mümtəniəl-vücud;*** - Yəni, olması və vücuda gəlməsi mümkün olmayan mahiyyət.

Əgər vücud və varlıq bir şeyin zatının eyni olsa, buna vacibəl-vücud deyilir. Amma əgər vücud bir şeyin zatının eyni olmayıb, ona başqa yerdən əlavə olunsa buna mümkünəl-vücud deyilir. Yəni onun yaranıb-yaranmaması mütləq deyildir. Mümtəniəl-vücudun yaranmasının qeyri mümkün olduğuna əql

mütləq surətdə hökm verir. Yəni onun yaranması qəti surətdə qeyri mümkündür. Misal olaraq, Allahın şərikini qeyd etmək olar. Əgər zühnimizdə Allaha şərik təsəvvür edə bilsək, onun xarici aləmdə varlığının olması qeyri mümkündür.

## ALLAHIN ŞƏRİKİNİN OLMASI QEYRİ MÜMKÜNDÜR

Vacibəl-vücud bir deyil, iki olduğu halda onların bir-birlərindən fərqlənməsi lazım gəlir. Bütün cəhətlərdən eyni olan şeylər iki dənə ola bilməz. İki dənə olan şeylərin mütləq aralarında müxtəliflik olmalıdır. Əgər müxtəliflik olmasa, ikilikdən söhbət ola bilməz. Müştərək və müxtəlif olan cəhətlərin tərkib olunmağa mütləq surətdə ehtiyacları vardır. Hər mürəkkəb olan şey öz tərkib hissəsinə və onu tərkib edənə möhtacdır. Bu anda inqilab, yəni, bir şeyin bir halda başqa hala düşməsi lazım gəlir. Yəni vacibəl-vücud mümkünəl-vücud olur. Çünki mürəkkəb və möhtac olan şey mütləq mümkün olub, onu, vücuda gətirən vacibə ehtiyaclıdır. Bu dəlil və nəzəriyyə ilə Allahın şərikinin mumtəniəl-vücud yəni, mütləq surətdə qeyri-mümkün sübut olması olur.

Əgər başqa bir vacibəl-vücud da olsa və aləmin məxluqlarının iki məbdə və iki illətdən yarandıqları fərz olunsa, bu əvvəlki söhbətlərimizdə qeyd etdiyimiz fəsad və hərc-mərcliyə səbəb olacaqdır. Çünki vacibəl-vücudun məxluqları yaratması vacibdir. Belə olan halda vacibəl-vücudların hər biri ayrı-ayrılıqda məxluqlar xəlq edəcək, onların özlərinə məxsus ayrıca aləmləri olacaqdır. Bu zaman onlardan hansı biri digərinə qələbə çala bilər? Əgər qələbə çala bilməsələr bu açizlık əlamətidir və Allah da aciz ola bilməz. Yox, əgər qələbə çala bilsələr, onda fəsad və hərc-mərcliyin olması lazım gəlir. Allah

Quranda buyurur: ***«Əgər belə olsaydı, onda hər bir tanrı ələhiddə öz yaratdıqları ilə gedər və onların bir qismi digərinə üstün olmağa çalışardı».***[1] Biri digərinə üstünlük əldə edə bilsə bu fəsadın yaranmasına səbəb olacaqdır. Məğlub olan isə artıq vacibəl-vücud deyildir. Çünki Allah heç vaxt məğlub olmur.

Quran ayələri və əqli dəlillərlə Allahın şərikinin mümtənil-vücud olması aşkar olur.

## XİLQƏTİN VƏHDƏTİNDƏN XALİQİN VƏHDƏTİ MƏLUM OLUR

Xilqətin vəhdətinin keyfiyyətindən Allahın vəhdətini başa düşmək olar. Məsələn, altı milyarddan artıq olan bəşər hamısı nütfədən yaranmışdır. Deməli bizim hamımız O, yaratmışdır. Hamının yaranışı keyfiyyət cəhətdən birdir. Bu məsələ heyvanlarda da eynidir. Deməli, insan və heyvanların Xaliqi bir olan Allahdır. Bitkilər aləmində də bu məsələni müşahidə etmək olar. Bitkilərin hamısı toxumdan əmələ gəlir, narın inkişafında gördüyümüz qüdrət nişanəsini eynilə alma, armud və başqa bitkilərdə də müşahidə edə bilərik.

Məxluqların hamısı bir qüdrətdən olub eyni zamanda da bir hikmətə aiddirlər. Filin yaranışında işlənən qüdrət və hikmət ağacaqanadın yaranışında da sərf olunmuşdur. Ağcaqanadın nazik incə xortumu filin xortumundan heç də geri qalmır. Bəlkə filin xortumundan çox zərif və itidir. Allah-Təala ağcaqanada əlavə olaraq iki qanad da vermişdir. Filin böyüklüyünə baxmayaraq onda olan eşitmə, görmə dadbilmə, hazimə və başqa üzvlər ağcaqanadda da vardır. Görəsən xilqətin bu vəhdətindən Xaliqin vəhdətini başa düşmək olmur? Bir halda ki, fili yaradan Allah ağcaqanadı da yaratmışdır.

---

[1] «Muminun» surəsi, ayə 91.

## TOHİD VƏ MƏXLUQLARI YARATMAĞIN HƏDƏFİ

Vəhdəti dərk etməyin yollarından biri də məxluqların yaradılış hədəfini və onların arasında olan rabitəni başa düşməkdir. Şübhəsiz hər yaradılan mövcudun yaradılmasında müəyyən məqsəd və mənfəətlər vardır. Hər bir varlıq müəyyən bir cəhətə görə başqa bir varlığa aid olur. Bütün məxluqların bir-birilərinə nisbətdə rabitələri vardır. Məsələn, qoyunun dişləri ot yeməkdən ötrü, mədəsi isə onu həzm etməkdən ötrü yaradılmışdır. Deməli, qoyunun və onun bədən üzvlərinin Xaliqi, onun yediyi ot-ələfin də Xaliqidir. Bu məsələ ət yeyən heyvanlarda da eyni ilə bu şəkildədir. İtin diş və mədəsinə fikir verin. Onun mədəsinə bu hərarəti verən Allah, onun diş və yediyi sümüyüdə yaratmışdır.

Allah-Təala heyvanlara şirinlik, turşuluq və acılığı bilməkdən ötrü dadbilmə orqanı da vermişdir. Onlar bu orqanın vasitəsilə müxtəlif dadlarda olan qidaları bir-birindən ayırırlar.

Deməli müxtəlif meyvə və xörəkləri yaradan Allah, həmin dadbilmə orqanını da yaradan Allahdır. Bunların hamısı Xaliqin vəhdaniyyətini başa düşməkdən ötrü bir vasitədir.

İybilmə orqanlarında da həmin məsələni müşahidə etmək olar. Allah, qoxuları bir-birindən fərqli olan gül-çiçəkləri yaratmışdır ki, insan iybilmə qüvvəsilə onların bir-birlərindən ayıraraq Pərvərdiğarını tanıyıb Ona şükürlər etsin.

Bu orqanların başqa bir xüsusiyyəti də budur ki, insan onların vasitəsilə zərərli şeyləri xeyirli şeylərdən ayıra bilsin. Məsələn, ətin qoxusundan onun iylənməsini bilib onu yeməkdən çəkinirlər.

Sözün qısası, məxluqların arasında olan rabitə, onların ancaq bir Xaliq tərəfindən yaradıldıqlarını başa düşməkdən ötrüdür.

## GÜNƏŞ VƏ AYIN BULUD, TARLA VƏ BAŞQA ŞEYLƏRLƏ RABİTƏSİ

Allah-Təala yeri və başqa mövcudları dirildib, inkişaf etdirməkdən ötrü günəş nurunu doxsan milyon mil məsafədən yollayır. Bitki və heyvanların həyatı ona bağlıdır. Üç yüz min kilometr məsafədən yerə gəlib çatan ay nurunun yer kürəsi üçün on doqquz xüsusiyyəti vardır. Onlardan biri günəş nuru vasitəsi ilə hərarətlənən bitki və başqa mövcudların tempraturlarını aşağı salmaqdır. Görəsən Allah-Təala günəş və ayın nurunu yerlə necə uyğunlaşdırmışdır?

Pərvərdikari-aləm bunu elə nizama salıb ki, nə həmişə yandırıcı istilikləri olan gündüz olur, nə də gecə. Allah Quranda buyurur: ***«Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağış yağdıraraq yenidən diriltməsində, növbə-növ heyvanları onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində, göylə yer arasında Allahın əmrinə tabe olan buludların hərəkətində ağıl və düşüncə sahibləri üçün əlamətlər vardır».***[1] Deməli, buludları öz əmrinə tabe edib yağış yağdıran həmin Allahdır ki, yer üzündə bitkilər də bitirir. Allah-Təala günəşi yaradandan sonra onun istiliyi nəticəsində əmələ gələn buxar, milyon tonlarla suyu havada hərəkətə gətirir.

---

[1] «Bəqərə» surəsi, ayə 164.

Bu dəlillər vasitəs ilə Allahın vəhdaniyyətini başa düşmək olar.

Buludun yaradılmasından məqsəd qışın soyuğu və yayın yandırıcı istisinin təsiri ilə aradan getmiş yerlərlərin, bitki aləminin yenidən dirilməsidir. Bu qədər dəlil və sübutlardan belə bir nəticəyə gəlirik ki, bulud və yağışın Xaliqi bitkilərin də Xaliqidir. Bitkilər yaradan Allah, heyvanlarınn mədə və müxtəlif həzm sistemlərini də yaratmışdır. Bu sistemləri yaradan Pərvərdigar xörəkləri köməkdən ötrü ğöz də xəlq etmişdir. Bütün bunları yaradan Allah xörəyi hazırlayıb, ağıza qoymaqdan ötrü əl də yaratmışdır.

İcmali bir nəzərlə bütün mövzuların müəyyən bir hissədə bir-birlərilə rabitədə olub, Allahın vahdaniyyətinə şəhadət vermələrini başa düşürük.

***«Bir olan Allahdan başqa Allah yoxdur, O, təkdir və heç bir şəriki yoxdur».*** Varlıq aləminin Əlim (əl elmli), Həkim (ən hikmətli) və Qədir (ən qüdrətli) olan ancaq bir məbdəsi vardır. Bu məbdə, yəni Allah hər bir şeyi müəyyən bir hədəfdən ötrü yaratmışdır.

# ON İKİNCİ DƏRS

## ƏGƏR BAŞQA MƏBDƏLƏR DƏ OLSAYDI, ONLAR DA PEYĞƏMBƏRLƏR GÖNDƏRƏRDİLƏR

Əli (ə), İmam Həsənə (ə) etdiyi vəsiyyətində töhid haqqında bu cümləni buyurmuşdur: **«Oğlum, bunu da bil ki, Allahın şəriki olsaydı, o, da peyğəmbərlər göndərərdi».** Əgər insanların maddi cəhətdən idarəçiliyini iki rəbbin tərəfindən olduğunu təsəvvür etsək, onda məxluqların ruhi və mənəvi idarəçiliyə də onların öhdəsində olmalıdır. Elə buna görə də, fərz etdiyimiz ikinci Allah yaratdıqlarını öz tərəfinə dəvət etməkdən ötrü peyğəmbərlər göndərməlidir. Çünki, öz Xaliqinə yaxın olmaq, bəşərin kamalı hesab olunur. Əgər fərz etdiyimiz şərik, peyğəmbərlər göndərməsə onda onun Allah olmağı aşkar olmayacaqdır. Bir halda ki, həzrəti Adəmdən (ə) Xatəmə (s) qədər bütün peyğəmbərlər bir olan Allah tərəfindən gəlib, bütün bəşəriyyəti töhidə dəvət etmişlər. Peyğəmbərlərin hər biri **«Həqiqətdə mən, aləmlərin Rəbbi tərəfindən gəlmişəm»** deyiblər. Deməli, əgər başqa bir Allah da olsa, o da mütləq, peyğəmbərlər göndərməlidir. Amma bütün peyğəmbərlər heç bir şəriki olmayan bir olan Allah tərəfindən gəlmişlər. Bununla da məlum olur ki, Allah-Təalanın həqiqətən də heç bir şəriki yoxdur.

## ALLAHIN ŞƏRİKİNDƏN HEÇ BİR ƏSƏR-ƏLAMƏT YOXDUR

Əli (ə) yuxarıda qeyd etdiyimiz vəsiyyətnamənin davamında buyurur: **«Sən onun (ikinci Allahın) bacarıq və qüdrətinin**

**əsərlərini görərdin, onun işlərini də, sifətlərini də tanıyardın».** Bir halda ki, bütün varlıq aləmində olan şeylərin bir-birlərilə rabitələri vardır. **«Elə bil ki, bütün varlıq aləmi bütöv bir vahid şəklindədir».** Aləmdə olan bütün şeylər kiçik işlərin əmələ gətirdiyi böyük bir işdən ibarətdir. Təsəvvür edin ki, böyük bir zavod, içərisində çarxlar, pərlər, motorlar olan dəzgahlardan təşkil olunmuşdur.

***«Ancaq özünü vəsf etdiyi kimi, O, tək Allahdır».***[1] Allah-Təala Quranda da öz təkliyini vəsf etmişdir.

***«Qüdrətdə Ona qarşı dura bilən bir varlıq yoxdur».***[2] Aləmdə nə varsa, Onun yaratdığıdır. Heç bir kəs Onun ziddinə kedə bilməz.

***«O, zavala uğramaz, əbədidir».***[3] Həmişə olmuş və həmişə də olacaqdır. Heç vaxt aradan gedən deyildir.

## BÜTÜN MƏXLUQLARIN YARADILIŞI ALLAHDANDIR, QAYIDIŞ DA ONA TƏRƏFDİR

Əli (ə) həmin vəsiyyətin davamında buyurur: **«Allah hər şeydən əvvəldir, onun əvvəlinə heç bir əvvəl ola bilməz».** Bütün varlıqlar onun tərəfindən yaradılmışdır. Çünki əgər Allah-Təala haqqında ilkinliyə laiq olsaq, yəni Ona ***«hadis»*** desək, Onun sonradan yaranması lazım gəlir. Bəlkə **«huvəl-əvvəl»** mənası, bütün mövcudlar Onun tərəfindən yaradılmışdır və ***«huvəl-axir»*** mənası isə, bütün məxluqların qayıdışı Ona tərəfdir deməkdir.

1
2
3

**«Hər şeydən sonradır, sonuna bir son ola bilməz».** Özünün sonu olmadan, bütün şeylərin qayıdacaq yerləri və axırı Odur.

## İKİ ŞEYƏ PƏRƏSTİŞ EDƏNLƏR NƏ DEYİRLƏR?

***«Sənəviyyə»*** adı ilə məşhur olan bir dəstə, tövhidi-zatinin əksinə çıxaraq çoxallahlığa qaildirlər. Bu əqidəli insanlardan Hindistanda hələ də vardır. İki məbdəyə inanmaqların səbəbi haqqında belə deyirlər: Bir varlıq aləmində xeyir olan inək, qoyun və şər hesab edilən ilan, əqrəb və yırtıcıları müşahidə edirik. Heç vaxt xeyir və şər məbdəsi bir ola bilməz. Deməli, iki məbdə olmalıdır. Biri xeyir məbdəsi olan nurdur ki, ona fars dilində ***«yəzdan»***, digəri isə şər məbdəsi olan ***«İblisdir»*** ki, ona zülmət deyirlər.

Əlbəttə onlar naqis əqillərinə uyğun olaraq bu cür dəlillər gətirmişlər.

## DEMƏLİ ALƏMDƏ MÜTLƏQ ŞƏR YOXDUR

Bu dəstənin dediyinə görə, bu aləmdə elə şərlər vardır ki, onların xeyir məbdəsindən olması qeyri-mümkündür. Bir halda ki, bu aləmdə heç bir cəhətdən xeyri olmayıb, mütləq və xalis olan şər yoxdur. Hara baxsanız xeyir həmişə xalis və qalib olduğunu, şərrin isə o şeyə müqayisəli şəkildə başa düşüldüynü və sonradan daxil olduğunu görərsiniz.

Zəhərli olan ilan və əqrəbi faydasız heyvan hesab edib, onların haqqında misal çəkirlər. Görəsən bu heyvanların şər olmaqları onların yaradılışındadır? İlan özünün gözəl dərisilə nəyə görə şər olmalıdır? Əgər onların şər hesab olunmaqları zəhərlərinə görədirsə, belə nəql edirlər ki, bu heyvanların zəhərli

olmaqları havada olan zəhərləri, zərərli qazları cəzb etdiklərinə görədir. Nəticədə onlar bizim yaxşı tənəffüsümüzdən ötrü havanı təmizləmiş olurlar.

Bundan əlavə zəhərin özü çox mənfəətli bir şeydir. Ondan dərman düzəldib bəzi xəstəliklərin müalicəsində istifadə edirlər. Deməli bu heyvanlar havanı təmizlədiklərinə və zəhərləri bəzi xəstəlikləri sağaltdığına görə xeyirli hesab olunurlar. Bundan əlavə bu heyvanların bədənində zəhərin ziddinə olan maddələr də vardır. Əqrəbin bədəninin ortasından kəsib onun sancdığı yerə qoysaq, orada olan zəhəri çəkib çıxaracaqdır. Eyni zamanda onun yağı zəhərlənmiş yerlər üçün çox mənfəətlidir. Əgər bir nəfər öz səhvi və diqqətsizliyi ucbatından əqrəbin sancmasına məruz qalırsa, bu əqrəbin şər olmasına dəlil deyildir. Bəlkə bu təbii bir hadisədir. Başqa bir misal, əgər bir nəfər evin damından yıxılıb əl-ayağı sınsa və ya ölsə, bu evin damının pis olmasına səbəb deyildir. Çünki hündür yerin təbii qaydası belədir.

Ehtiyatsızlıq edib, sürətlə maşın sürən adamın avtomobil qəzasına uğramaq ehtimalı daha çoxdur. Bu anda maşının şər olması haqqında heç bir şey demək olmaz. Deməli heyvan və zəhərin şər olması onların yaradılışında deyildir.

Əgər bir yeri od tutub, yandırsa, bu odun şər olmasına sübut deyildir.

Biz başa düşsək də düşməsək də, aləmdə olan bütün varlıqlar xalis xeyirdir. Buna misal olaraq xeyiri həmişə qalıb olan mələikəni və ya bütün maddi varlıqların adını çəkmək olar. Bununla da, ***«sənəviyyə»*** və ya ***«ikiallahlı»*** dəstənin xeyir və şər haqqında dediyi əsas şübhə bətil olur. Özünə məxsus məbdəyi olan mütləq şər yoxdur.

Bir varlığın xeyiri qalıb olmayınca heç vaxt yaradılmır. Demək olar ki, bütün varlıqların xeyirləri daha çoxdur. Hər hansı bir surətdə hasil olan şər də Allahın izni ilədir. Zəhərli heyvanın

sancıb öldürməsi Allahın təqdiri əsasında olan bir məsləhətdir. Buna görə də müqayisəli şəkildə baş düşülən şərlərin batinində məsləhətlər gizlənmişdir ki, onların həqiqəti də xeyir olub Allahın təqdiri ilə baş verir.

Bunun əsasında xeyir və şəri Allaha nisbət verib, ***«ey xeyir və şərin Xaliqi»*** deyirlər. Şər kimi başa düşülən şeylər də məsləhət əsasında baş verir və onlar içtimaiyyəti və şəxsləri sınamaqdan ötrüdür.

## ALLAHIN VƏHDANİYYƏTİNƏ ELM SAHİBLƏRİNİN ŞƏHADƏT VERMƏSİ

Təfəkkür və əqli dəlillər çox yaxşı və lazımlı bir şeydir. Amma əgər bir kəs bu dəlillər vasitəsi ilə iman gətirib, batini elm əldə etsə, öz şübhələrinə cavab tapmış olacaq. Allahın vəhdaniyyəti barəsində xatircəmlik əldə etməkdən ötrü mərifət dərsində dediyimiz şeyləri əldə etmək lazımdır. Bəsirət gözü ilə Allahın təkliyini görməkdən ötrü çalışıb nəfsin qarşısında olan hicabları aradan aparmaq lazımdır.

Allah Quranda buyurur: ***«Allah özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq, O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər».***[1]

Elm sahiblərinin elmi əqli dəlillərlə əldə olunan elm deyildir. Bəlkə o elm insanın qəlbində olan bir nurdur. Əgər əqli dəlillər qəlbdə olan elmi əldə etməkdən ötrü bir müqəddimə olsa çox yaxşı olar. Əks halda onların özləri də faydasız olacaq və bu işlər üçün ancaq nəfsin paklanmasına ehtiyac vardır.

Allah-Təala bu barədə buyurur: ***«Allah möminlərə lütf və mərhəmət göstərdi. Çünki onların öz içərisindən özlərinə***

---

[1] «Ali-İmran» surəsi, ayə 18.

***Allahın ayələrini oxuyan, onları pis əməllərdən pak edib, təmizləyən, onlara kitabı, Quranı və hikməti öyrədən bir peyğəmbər göndərdi».*** [1] Bu ayədə Quranın təlimindən əvvəl paklanıb, təmizlənmə zikr olunmuşdur. Bir kəsin əqli dəlilləri yaxşı bilməsinə baxmayaq, nəfsi pak olmasa heç vaxt həqiqi elm məqamına çata bilməyəcəkdir. Bəsirət gözü hicablı olan şəxs, həqiqəti nə vaxt görəcəkdir?

«Şəhadət verirəm» kəlməsi «şahidlik» mənasındadır. İnsan bu şəhadətlə Allahın vəhdaniyyətinə və Onunla bir yerdə olmasına şahid olmalıdır.

Dərs oxuyan adamın hamısına elm sahibi demək olmaz. Çünki o qədər dərs oxuyan adam vardır ki «elm sahibi» deyildir. Amma əksinə bəzi bisavadlar «elm sahibi»dirlər. Qəlbdə haqqın zühur etməsindən ötrü, insanın qəlbini nurlandıran elm, günəşdən də işıqlıdır. Bu elmə sahib olan kəs, özünün daim Allahla bir yerdə olduğunu dərk edir. ***«Siz harada olsanız O, da sizinlədir».***

## QORXU VƏ ÜMİDİN ANCAQ ALLAHA AİD EDİLƏMƏSİ, HƏQİQİ ELMİN BİR NİŞANƏSİDİR

Allah-Təala həqiqi elm haqqında buyurur: ***«Məgər axirətdən qorxan, Rəbbinə ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecəni ibadət içində keçirdən müti bəndə kafirlərlə birdirmi?! De ki: heç bilənlərlə bilməyənlər, alimlə cahil eyni ola bilərmi?! Allahın ayələrindən, dəlillərindən yalnız ağıl sahibləri ibrət alar!»*** [2] Həqiqi elmin təsirindən belə şəxslərin qəlblərinin nuraniliyi aşkar olub.

---

[1] «Ali-İmran» surəsi, ayə 164.
[2] «Zumər» surəsi, ayə 9.

Amma dünyada öz gəlir və vəzifəsinin itirməkdən qorxan adamın ümid və qorxusu ancaq dünyada olan bu və başqa səbəblərdəndir. Əqli elmləri yaxşı oxuyub bilməsinə baxmayaraq, bu şəxs cahıl və nadandır.

Əlbətdə bizim məqsədimiz elmləri inkar etmək deyildir. Amma bu elmlər yalnız nəfs paklanandan sonra faydalı ola bilər. Mühtəhid olmaq istəyən tələbə oxuduğu dərslə yanaşı nəfsini də paklaya bilsə, bu anda o, Peyğəmbərdən (s) nəql olunan bu hədislə uyğun gələr. ***«Mənim ümmətimin alimləri Bəni-israil peyğəmbərlərindən fəzilətlidir».*** Amma əgər əksinə olsa, Bələmi-baurun vəziyyətinə düşməsinə mümkündür.

***«Pərvərdigara! Qəlbimizə elə bir nur əta et ki, hicablarımız aradan gedib, bəsirət gözümüz işıqlanmaqla Sənin zühürünü görə bilək».***

## ON ÜÇÜNCÜ DƏRS

***«Dinin əvvəli Allahı tanımaq, Allahı tanımağın kamilliyi isə Onu təsdiq etmək və təsdiq etməyin kamalı isə Onu vahid bilməkdir».***

## KÖKSÜN GENİŞLİYİ VƏ ONUN NİŞANƏLƏRİ

Allahın təkliyinə etiqad qəlbin təsdiq etməsi ilə olmalıdır. İnsan qəlbinin həqiqətlərdən xəbərdar olması onun qəlbinin nurlanmasına səbəb olur. Xatircəmlik və Allah eşqi nuraniliyin əlamətlə nişanələrindəndir. Rəvayətə əsasən bunlar qəlb nuranilәşəndə baş verər. «Elm nurdur», «İman nurdur». Allah-Təala Quranda buyurur: «***Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü islam üçün açıb genişləndirər».*** [1] Məcməul-bəyan tərəfindən nəql olunur ki, Peyğəmbərdən (s) köksün genişliyi haqqında sual etdilər. Həzrət (s) bu sualın cavabında buyurur: O, bir nurdur ki, Allah-Təala onu möminin qəlbində qərar verir. Yenə də soruşdular: Ya Rəsulallah (s) onun əlamət və nişanəsi vardırmı? Köksün genişliyini və nurun əta olunmasını haradan başa düşək? Peyğəmbər buyurur: Köksü genişlənmiş adam qəlbini dünyadan üzüb, bütün şövq və diqqətini Allah və axirətə bağlayıb. Ölümün vaxtı çatmamış ona hazır olur. Qəlbində nur yarananda Allahdan başqa bütün şeylərin fani və heç olduğunu dərk edir. Allahdan başqa bütün varlıqları nəzrindən keçirib onların sırf asılı və aciz olduğunu başa düşür. Bərəkətin və hər bir şeyin mənbəyinin Allah olduğunu dərk edir. Elə buna görə də qəlbini Allahdan başqa bütün şeylərdən kəsib, yalnız Allaha bağlanır. Rəvayətə əsasən

---

[1] «Ənam» surəsi, ayə 125.

Əli (ə) və bütün İmamlarımız (ə) Şabaniyə duasını oxuyurmuşlar. Bu duada belə bir cümlə zikr olunur: ***«Pərvərdigara! Səndən başqa şeylərdən əl üzüb, yalnız Sənə diqqət etməyimi mənə əta et!»***

İnsanın kamil səadəti, ancaq Allaha bağlı olmaqla ələ gəlir. Belə insanlar Allaha təvəkkül edib, ancaq Ondan qorxur və Ona da ümid bəsləyırlər. Ən böyük istəkləri Allahın razılığını əldə etmək olur. Nəticədə Əli (ə)-ın «Nəhçul-bəlaqə»də dediyi məqama çatırlar. «Təsdiq etməyin kamalı Onu vahid bilmək, vahid bilməyin kamalı isə Ona qarşı tam xalislik məqamına yetişməkdir».

## ELMDƏN FAYDALANMAĞIN ŞƏRTİ, NƏFSİN PAKLANMASIDIR

***«Elm nurdur»*** deyəndə, həmişə təkrarladığımız əqli dəlillər deyil, qəlbin nuru nəzərdə tutulur. Tövhid və fiqh elminin terminlərinin əzbərlənməsinə baxmayaraq, əgər qəlb bunlardan xəbərdar olmasa, o qəlbdə nur yarana bilməz. Bu elmlər nəfsi paklanmaqla yanaşı olsalar, o anda nura çevrilə bilərlər. Hədis təfsir və başqa elmlər də nurdurlar. Amma nə qədər ki, qəlbin qarşısını hicab tutub, o nurdan əsər-əlamət olmayacaqdır. Bunlar həmin elmin səviyyəsinin alçalmağına səbəb olmaz. Bəlkə bu elmlərin nuraniyyətindən səbəb olmaz. Bəlkə bu elmlərin nuraniyyətindən faydalanmaq hicabların aradan qaldırılmasında şərtlənmişdir. Əgər alim elm öyrənməklə yanaşı nəfsin də paklaya bilsə, bu zaman Peyğəmbərin (s) buyurduğu ***«alimlər peyğəmbərin varisləridir»*** hədisi ilə uyğun gələr. Buna görə də hər bir elmi öyrənib, ona əməl etmək yalnız Allah xatirinə olmalıdır ki, həmin elm insan üçün nur olub onun qəlbini işıqlandırsın.

## ALLAH XATİRİNƏ ELM ÖYRƏNMƏYİN NİŞANƏLƏRİ

Əyri işlərini düzgün qələmə verib, mal, sərvət və vəzifə əsiri olan kəs özünü Allah adamı adlandırıb deyir: Mənim mal və sərvət toplayıb vəzifəyə çatmağımdan məqsədim, xalqa xidmət edib onları çətinlikdən nicat verməkdir. Bu böyük məqsədə catmaq üçün mal və vəzifəni bir vasitə hesab edirəm. Həqiqətdə belə insanlar qürur və özünüsevmək xəstəliyinə düçar olublar.

Amma mal və vəzifəni uca məqsədlərdən ötrü vasitə bilib, onların ardınca gedən kəslər isə bu şeyləri əldə etsələr də, etməsələr də onlar üçün fərqi yoxdur. Bunların əldə edəndən sonra sevinməyib mal və vəzifəyə çatmazdan əvvəl necə idilərsə, həmin anda da elə qalırlar. Əksinə mal və vəzifəni əldə edəndən sonra təvəzökarlıqları və Allah yolunda xalqa xidmət etmələri əvvəlki ilə müqayisədə daha da çoxalır. Belə insanların mal və vəzifəni həqiqətən də vasitə üçün istəməkləri məlum olur.

Amma bəziləri mal və vəzifəyə çatandan sonra onların hərislik və paxıllıqları daha da çoxalır. Xalqı özlərindən alçaq hesab edib, özlərindən yuxarıdakı vəzifələrə göz dikirlər. Xalqa kömək edib onların əlindən yapışımaqda səhlənkarlıq edirlər. Belə insanlar həlak olmamışdan əvvəl mütləq özlərini islah etməlidirlər.

## ALLAH RİZASINA ÖZ MALINI BAŞQASINA FƏDA ETMƏK

Mal əldə etməkdə Allaha xatir başqalarını özündən qabağa salmaq fədakarlığın nişanələrindəndir. Belə adamlar başqasının Allah verdiyi sərvətə daha çox ehtiyaclı olduğunu gördükdə, o

adamı özlərindən üstün hesab edərək həmin sərvəti ona bağışlayırlar. Məsələn, ailəli bir şəxsin evi olmadığı halda özünün iki evindən birini minnət qoymadan ona təqdim edir. Yaxud da, bir vəzifəyə keçəndən sonra başqasının o vəzifəyə daha layiqli olduğunu və işin öhdəsindən gözəl gələcəyini görüb həmin vəzifəni ona tapşırır.

Bu tədbirlə sadiq adam yalançı adamdan seçilir. İnsan özünü bu vaxtlarda daha yaxşı tanıya bilər. Çox az adamlar paxıllıq, həsəd və təkəbbürlük kimi xəstəliklərdən nicat tapıb, bu cür çətin imtahanların öhdəsindən gələ bilərlər.

Bu məsələni daha yaxşı izah etmək üçün Allahın saleh bəndələrinin biri haqqında hekayə nəql edirik.

## DƏRS DEMƏK KÜRSÜSÜNÜ BAŞQASINA TAPIŞIRDI

Məhrum Ayətullah Seyyid Hüseyn Türk, şiə məzhəbinin böyük alim və mərçəi-təqlidlərindən olmuşdur. 1844-ci ildə Nəcəfül-əşrəfdə vəfat etmişdir.

O Kərbəlada böyük alimlərdən dərs aldıqdan sonra Nəcəf şəhərinə hicrət edir. Tələbələr onun ətrafında toplanaraq, ondan dərs almağa başlayırlar. Günlərin bir günündə dərs dediyi ***«İmran»*** məscidinə vaxtından əvvəl gəldi. Onun şagirdləri hələ gəlməmişdilər. Bir küncdə oturub gördü ki, tanımadığı bir ruhani şeyx alim, məscidin o biri küncündə bir neçə tələbəyə dərs deməklə məşğuldur. Seyyid şeyxin söhbətlərinə qulaq asıb onun elminə təəccüb etdi.

O biri gün şeyxin dərsinə qulaq asmaqdan ötrü bilə-bilə məscidə vaxtından əvvəl gəldi. Beləliklə bir neçə gün şeyxin dərslərinə qulaq asandan sonra, yəqin etdi ki, şeyx ondan elmli və fəzilətlidir. Şeyxin dərslərindən istifadə etmək qərarına gəldi.

Bir qədər axtarışdan sonra bu şeyxin Mürtəza Ənsari olduğunu müəyyənləşdirdi. Məlum oldu ki, şeyx dörd illik İran səfərindən yenicə qayıtmışdır.O, İranda böyük və şərafətli alim Hacı Molla Mehdi Nəraqinin hüzurunda olmuş və onun elmindən çoxlu istifadə etmişdir.

Seyyid öz şagirdlərinin yanına gəlib onlar dedi: Şeyx Ənsari (r.ə.) məndən elmli və fəzilətlidir. Onun dediyi dərslər sizin üçün daha mənfəətli ola bilər. Bu gündən etibarən mən də sizinlə birlikdə onun dərslərinə gedəcəyik.

Həmin gündən şeyxin şöhrəti yüksəldi, yavaş-yavaş müsəlmanların mərcəi-təqlidi oldu. Şeyx də öz növbəsində seyyidə böyük ehtiram göstərib bəzi dərsləri onun öhdəsinə qoyurdu. Şeyx 1854-cü ildə vəfat edəndən sonra dərs demək kürsüsü Seyyidə tapşırıldı.

Görün nə qədər imanlı və sadiq adamdır. Özü ustad və mərcəi-təqlid ola-ola Allahın razılığını əldə etməkdən ötrü öz vəzifəsini şagirdinə tapşırır.

Bunu yalnız elm və iman sahibləri başa düşə bilərlər.

Buna görə də əgər insanın işləri və elm öyrənməsi həvəs üzündən deyil, həqiqətən də Allaha xatir və xalqa xidmət etməkdən ötrü olsa, həmin elm onun qəlbində nura dönəcəkdir.

## ÖZLƏRİNƏ ZÜLM EDƏNLƏR, ORTA MÖVQE TUTANLAR VƏ ÖNDƏ OLUB ALLAHA YAXIN OLANLAR

Bu məsələnin daha yaxşı izah etmək üçün Quranın bu ayəsi haqqında İmamın (ə) etdiyi təfsiri qeyd edirik. ***«Sonra kitabı bəndələrimizdən seçdiklərimizə miras qoyduq. Onlardan kimisi özünə zülm edər, kimisi mötədil və orta mövqeyi tutan olar,***

***kimisi də Allahın izni ilə yaxşı işlərdə irəli keçər. Bu böyük lütfdür».***[1]

Bu ayə haqqında çoxlu izah və təfsirlər olmuşdur. ***«Məaniul-əxbar»*** kitabında İmam Sadiqdən (ə) nəql olunan təfsir daha məqsədə uyğundur.

İmam (ə) buyurur: Bütün nəfsani istəklərinin dalınca gedən kəs özünə zülm edəndir. Onun məbudu yalnız özüdür. Nəfsi istədiyi şeyləri can bahasına da olsa yerinə yetirir. Nəfsinin qarşısında zəlil olub onun istəklərinin yerinə yetirməkdən ötrü xəyanət etməyə də hazırdır. Müsəlmandır, amma özünə zülüm edir. Bütün istək və arzuları Allah əvəzinə, dünyadan ötrü olanlar nəfsani istəklərinə uyan kəslərdir. Onlar öz sayələrini saraylar tikdirib axırıncı model maşınlar almaqdan başqa bir şeyə sərf etmirlər.

Əlbəttə biz ev almaq, yaşayış ləvazimatlarını əldə etmək və vacibi-kifayi olan hökumət vəzifələrini inkar etmirik. Bəlkə biz əsil hədəfin Allah olduğunu və bu şeylərin isə Ona çatmaqdan ötrü bir vasitə olmağına təkid edirik.

Əgər nəfs vəzifə kürsüsü istəyirsə, onu heç vaxt qəbul etmə. Amma əgər bu vəzifəyə səndən laiqlisi tapılmayıb sənə məsləhət olunsa, sən də müsəlmanların işlərini qaydasına salmaqdan ötrü onu qəbul et. Bu anda onların müşkül və çətinliklərinə dözüb onları sahmana salmaqdan ötrü çalış.

Əgər camaat bir müctəhidə təqlid etməkdən ötrü onun risaləsinin çap olunmasını ondan xaiş etsə qəbul etməsi məsləhətdir. Amma əgər mərcəi-təqlid olmağı onun nəfsi istəsə, onda bu işi qəbul etməsi məslət deyildir. Çünki bu anda öz nəfsinin qulu olacaqdır.

---

[1] «Fatir» surəsi, ayə 32.

## ŞEYXUL ÜLƏMA VƏ ŞEYX ƏNSARİNİN MÜCTƏHİDLİYİ

Şeyxul Üləma mərhum Hacı Mirzə Hüseyn, Nəcəfül-əşrəfdə vəfat edəndən sonra, Nəcəf hövzəsinin alim və böyük şəxsiyyətləri Ağa Mirzə Məhəmməd Təqi Şirazinin hüzuruna gəlib dedilər: Mərhum Mirzə Hüseyn dünyadan köçmüşdür, hamı sizin ələm olmağınızı təsdiq edir. İzn verin sizin risalənizi çap etdirək.

Ağa Mirzə Şirazi (r.ə) buyurdu: Çox təəccüblüdür! O qədər alim qıtlığı oldu ki, axır mənim ələm olmağımı təsdiq edirsiniz? Zərurətdə və carəsizlikdən ölü heyvanın ətini yemək halal olduğu kimi, mənim risaləmi də çap etməyin eybi yoxdur.

Məşhur «Cəvahir» kitabının müəllifi vəfat edəndən sonra Nəcəfin böyük şəxsiyyətləri Şeyx Mürtəza Ənsarinin ətrafına toplanıb, onun mərçəiyyət və ələm olmağını təsdiq etdilər və ondan risaləsinin çap olunmasına izn verməsinini istədilər.

Şeyx onlara müraciət edərək buyurur: Mən dərs oxuduğum illərdə Səidul-üləma Mazandarani adında bir təhsil yoldaşım var idi. O, dərs oxumaqda məndən də çalışqan və bilikli idi. Onun yanına getməyiniz daha məsləhətlidir. Alimlər dedilər: O, Mazandarandadır, yol da çox uzaqdır. Şeyx buyurur: Mənim axır sözüm budur. O, məndən çox çalışqan və bilikli idi. O, ola-ola mənim risaləmin çap olunması yaxşı deyil.

Alimlər naçar qalıb Səidül-üləmanın xidmətinə gedirlər. Ayətullah Mazandaranı buyurur: Cənab şeyx doğru buyurmuşdur. Mən Nəcəfdə onunla bir yerdə dərs oxuyanda ondan irəlidə idim. Amma İrana qayıdandan sonra dərsdən ayırılmışam. O, isə Nəcəfdə hələ də dərs oxumaqla məşğuldur, onun mərcəiyyəti daha məqsədə uyğundur.

Alimlər qayıdıb bu məsələni şeyx Ənsariyə çatdırdılar. Şeyx buyurdu:

- İndiki Səidul-üləma mənim ələm olmağımı təsdiq etdi, risaləmin çap olunmasının eybi yoxdur.

Biz bu misallarla risalə çap olunmasına müxalif deyilik. Amma risalə çap etdirməklə özünü hamıdan qabağa atmağı inkar edirik. Çünki mərcəiyyəti nəfsindən ötrü istəyən alim özünə zülm edən adamdır. Amma bu iş Allaha xatir olsa onun bəhrəsini axirətdə də görəcəkdir.

Ölkə başçısı, nazir, vəkil və müdir kimi hökümət vəzifələrində də nəfsani istəklərin ardınca getmək çox təhlükəlidir. Amma əgər bu cür vəzifələr qarşıya gəlsə, müsəlmanların işlərini qaydaya salmaq üçün onu qəbul etmək lazımdır. «Özünə zülm etməyin» səbəbi nəfsani istəklərin dalınca gedib ona itaət etməkdir. Bu məsələ haqqında alimlərdən biri gözəl buyurmuşdur: Özünüzü irəliyə atmayın. Amma əgər sizi qabağa çəksələr heç vaxt naz etməyin. Ən yaxşı işlər belə, əgər həfsani istəklə görülsə batildir. Bu məsələ o qədər dəqiqdir ki, adam özü də çaşıb qalır. Nəfs allahlıq iddiası edib insanı başa düşmədiyi bir işə vadar edir.

İnsan nə qədər ki, özünə zülm edir, elm sahibi olması və qəlbinin nurlanmasına səbəb olan iman, geniş köks, qəlb təsdiqi, xatircəmlik və kamillik kimi məqamlardan məhrum olacaqdır.

Amma nəfsinin hicablı olduğunu başa düşüb onu paklamaq fikrində olanlar mötədil şəxsiyyətlərdir. Bunlar qəlbin nuranilə şməsinə hicabların çox böyük mane olduğunu dərk edirlər. Həqiqi elmə çatmaqdan ötrü nəfsləri ilə hicad edərək daim qəlblərini paklamağa çalışırlar. Bunlar həmin kəslərdilər ki, nəfslərinə itaət etməyib, hicabların daha qəliz və zülmətli olmasının qarşısını alırlar.

Əmirəl-möminin (ə) ***«Nəhcül-bəlağə»***də möminlər haqqında buyurur: **«Mömin gecə-gündüz özü haqqında narahat olaraq, daim nəfsini paklamaqla məşğuldur. Şeytan min-bir cildə girib onun nəfsini aldatmasın deyə, fikrini həmişə sayıq saxlayır. Niyyətin sırf Allaha xatir olmasından ötrü hər bir işi görməmişdən əvvəl yüz dəfə ölçüb-biçir. Həmişə özünü çətinliyə salıb cihad edib, gündən-günə nəfsi ilə mübarizəni daha da artırır».**[1]

1

## ON DÖRDÜNCÜ DƏRS

## MÜTLƏQ VARLIQ BİR NEÇƏ OLA BİLMƏZ

***«Tövhidi-zati»*** əql üçün ən aşkar məsələlərdən biridir. Məxluqlara azacıq diqqət etməklə bunun aşkarlığı məlum olur. Varlıq aləmindəki bütün məxluqlar hamısı yaradılmışdır. Yəni əvvəldə olmayıb sonradan vücuda gəlmişlər. Onların varlığı müstəqil deyildir. Başqa ifadə ilə desək, varlıq onlara ariz olunmuşdur. Deməli bu məxluqlarda olan varlığın əsli, vücudu zatının eyni olan mütləq varlıqdandır. O, əzəli və əbədidir, Onun qüdrət və qüvvəti eyni zatıdır.

Mütləq vücudun qarşısında olan bütün varlıqlar hamısı yaradılmışdır. Aləmdə olan məxluqların varlığı öz zatlarından deyil, varlıq onlara başqa bir yerdən ariz olunmuşdur. Yəni mütləq bir varlıq onları vücuda gətirmişdir. Buna görə də aləmdə bütün cəhətləri bir-birinə uyğun olan iki mütləq varlıq ola bilməz. Mütləq varlıq olan Allahın bir neçə ədəd olması qeyri-mümkündür. Bu aləmdə bir Allah vardır və bir də Onun təcəlli və bəhrələri. Aləmdə olan bütün mövcudların varlıq və davamiyyəti yalnız mütləq varlıq olan Allahdandır. Elə buna görə də vacibəl-vücudun şərikinin olması qeyri-mümkündür.

## ALLAH BÜTÜN VARLIQLARLA DAİM BİR YERDƏDİR

***«Allah bütün varlıqlara yaxınlaşmadan daim onlarla birlikdədir».*** [1] Allahın məxluqlara yaxınlığını öz naqis

---

1

təsəvvürümüz əsasında fərz etsək, bu anda batil fikrə qapanmış oluruq: ***«O hər şeylə bərabər deyil. Hər şeydən qeyridir».***[1] Amma məxluqlardan ayrı olduğu halda da onların varlığı müstəqil deyildir.

Bu əhəmiyyətli və müşkül məsələni az da olsa dərk etməkdən ötrü, ruhun bədəni necə əhatə etməsi misalını çəkmək olar. Əlbəttə Allahın məxluqlarla birlikdə və onlardan qeyri olmasına misal çəkmək qeyri-mümkündür. Amma biz bu misalı təsəvvürlərdə azacıq da olsa məlumat yaransın deyə, qeyd etdik. Bir halda ki, Onu heç bir şeyə bənzətmək və oxşatmaq mümkün deyildir. Çünki Onun heç bir misli yoxdur.

## RUHUN BƏDƏNLƏ MÜQAYİSƏSİ ALLAHIN MƏXLUQLARLA BİRLİKDƏ OLMASINA ÇOX GÖZƏL MİSALDIR

Ruh başdan tutmuş ayaq barmaqlarının ucuna qədər bədəni əhatə edir. Amma onun əhatə etməsi bir cismin digər bir cismin içinə daxil olması kimi deyildir. Belə olan surətdə görəsən ruh bədənin daxilindədirmi? Bir cəhtdən bu suala müsbət cavab vermək olar. Çünki bədənin ən kiçik zərrələri belə canlı və hissiyatlı olub həmişə fəaliyyətdədir. Ruh bədəndən xaricdədir. Amma onun bədəndən xaricliyi əşyaların bir-birindən xaric olması kimi deyildir. Ruh bədənlə birlikdə olub, onu kamil əhatə etmişdir. Bədənin bütün üzvlərindən xəbərdar olaraq, iş görməkdən ötrü onlara əmr verir. Əgər insanın ayağına tikan batsa, ruh onu o dəqiqə hiss edir.

Ruhun qabiliyyətlərindən biri onun eyni zamanda bir neçə işi yerinə yetirməsidir. Məsələn, həzm prosesinin uzun bir vaxtda baş verməsinə baxmayaraq, onun tənəffüs sisteminə heç

1

bir maneçiliyi yoxdur. Hafizə sistemi işləyən halda əql qüvvəsi, qulaq və göz də öz işini görür. Biz qulağımızla eşidib gözümüzlə gördüyümüz halda, xoş ətirli iyləri də qoxlayıb müəyyən şeyləri hiss edə bilirik.

Pərvərdigara! Sənin bir işi görməyin, digər bir işi yerinə yetirməyinin qarşısını ala bilməz.

İnsanın ruhu məxluq, aciz bir məhdud olduğu halda, bu qədər işləri görə bilirsə, bəs xaliq və qadir Allah aləmləri əhatə edə bilməzmi?

İmamdan (ə) soruşurdular: **«Allah-Təala qiyamət günü əvvəl-axır insanların hesabını necə çəkəcəkdir?** İmam (ə) bu suala çox incə bir cavab vermişdir: **Allah hər bir məxluqun halından qafil olmadan, onların hər birinin ruzisini necə verirsə, qiyamətdə də o cür hesab çəkəcəkdir».**[1]

## RUHUN BƏDƏNİ ƏHATƏ ETMƏSİNDƏN ALLAHIN ALƏMLƏRİ ƏHATƏ ETMƏSİNİ BAŞA DÜŞÜRÜK

Bizim mücərrəd varlıqlar haqqında dərk qabiliyyətimiz məhdud olduğu üçün misal çəkməklə mətləbi aydınlaşdırırıq: **«Öz nəfsini tanıyan Allahını da tanımışdır».** Qeyd etdiyimiz kimi, əgər insan ruhun bədəni əhatə etməsini dərk etsə, Pərvərdigarın da bu aləmi əhatə etməsini dərk edəcəkdir. Ruh bədənə rəhbərlik edərək, onun bütün işlərinin tədbirini tökür. Bədənin bütün müdafiə və müalicə işlərini yerinə yetirir.

Bu kiçik misallar Allahın aləmləri necə əhatə etməsindən ötrüdür. Allah-Təala həmişə diridir, Onun qüdrət və qüvvəti öz zatındandır. Bütün məxluqların qüvvət və davamiyyəti yalnız Ondandır.

1

## ALLAHIN NİŞANƏLƏRİNİ TANIYIB AXTARAN LAZIMDIR

Bir adam lazımdır ki, Pərvərdigarın varlıq aləmində olan ayət və nişanələrini axtarıb onları dərk etsin. Başqa ifadə ilə desək, insan gərək bütün məxluqların yaradılışının bir mütləq varlığa dəlalət etməsini başa düşsün. Aləmdə olan bütün varlıqlar müstəqil olmayıb, bir olan Allahın məxluqlarıdır. Bütün bu dəlillər yalnız Allahın vəhdaniyyətini dərk etmək istəyən insan üçündür. Amma çox təəssüf ki, insanların əksəriyyəti yerdə və göydə olan Allah nişanələrinin yanında etinasız keçib, onlara fikir vermirlər. Allah-Təala Quranda buyurur: ***«Göylərdə və yerdə Allahın birliyini sübut edən neçə-neçə əlamətlər, nişanələr vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər».***[1]

Bu insanlar aləmlərin Pərvərdigarını tanımaq istəmirlər. Əgər istəsələr, yerdə və göydə başa düşməli ayələr çoxdur. İnsanın özü xarici aləmlə birlikdə böyük bir əlamətdir. Əgər bəşər əlamət və nişanə tanıyan olsa, Allahın haqq olduğunu mütləq başa düşəcəkdir. «Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə, kainatda, göylərin və yerin ətrafında, həm də onların öz daxilində mütləq göstərəcəyik».[2] Həqiqi vücud yalnız Allaha məxsusdur, Ondan başqa olan hər bir şey, Onun təsir və bəhrəsidir.

[1] «Yusif» surəsi, ayə 105.
[2]

## SƏHRA FIRTINASI DA İLAHİ NİŞANƏLƏRDƏN İDİ

Amerika hava qüvvələrinə mənsub olan bir neçə bombardmançı qırıcı təyyarənin Təbəs səhrasında fırtınaya düşüb məhv olmasını hamı eşidib. Bu hadisəni hansı zahiri tərəfə yozmaq olar? Dünyanın ən böyük qüdrəti, ən müasir və modern texnikaları uzun müddətli hazırlıqdan sonra bu səhrada baş verən tufan nəticəsində məhv olur. (Bu təyyarələr gecə ikən qəfildən İrana hücuma keçərək bu ölkə rəhbərliyini terror etmək məqsədi güdürdü. Lakin səhra fırtınası nəticəsində bu təyyarələr bir-birləri ilə toqquşaraq dəhşətli şəkildə məhv oldular. *Red.*)

Allah-Təala Əbabil vasitəsi ilə Fil əshabının başına gətirdiyi hadisəni, tufan vasitəsilə bu qoşunun da başına gətirdi. İranda baş verən bu hadisədən Allahın haqq olduğu məlum olmurmur? İlahinin qeybi qüdrəti həmişə öz işini görür.

Həmçinin İraqın bizimlə etdiyi müharibəni də misal çəkmək olar. Məsələnin zahiri budur ki, İraq qoşunları hegemon qüdrətlərin fitnəsi ilə islam inqilabından sonra İrana hücuma keçərək bu ölkəni bir həftə ərzində məğlub etmək istəyirdi. Bunun üçün həqiqətən də lazımı qüdrət və arxayınlıqları var idi. Sözsüz ki, arxayın olmasaydılar belə bir işə qol qoymazdılar. Amma artıq dünyanın bütün qüdrətlərinin və qonşu dövlətlərin onlara kömək etməklərinə baxmayaraq, əllərindən bir şey gəlmir. Cəbhəyə gedib-gələn qardaşlar mənim üçün nəql edirlər ki, bizim islam qoşunumuza köməklik edən yalnız Allahın qeybi qüdrətidir. Bu həmin qüdrətdir ki, inqilab zamanı İran millətini boş əllə pəhləvi rejimi üzərində qələbəyə çatdırmışdı.

## CAVANLARIN BİRDƏN-BİRƏ DƏYİŞMƏSİ ALLAHIN AYƏLƏRİNDƏNDİR

Bu millətin birdən-birə dəyişməsi, xüsusən də cavanların dinə marağı doğuran da Allahın böyük nişanələrindəndir. Bundan əvvəlki dövrlərdə 50-60 yaşlı adamlarda baş verməyən dəyişikliklər, bu dövrdə 20 yaşdan aşağı olan cavanlarda baş vermişdir. Şəhvətin ən yüksək dərəcədə olan cavan bütün dünya ləzzətlərinə arxa çevirib, şəhadət arzusuyla, top və güllələrin yağış kimi yağdığı cəbhəyə gedir. Bu sirri başa düşmək istəyirsinizsə, təfəkkür edin. Görəsən kim bu cavanların ruhiyyəsini dəyişdirdi? Birdən-birə nə oldu ki, bu insanlar özlərini İmam Xomeyniyə (r.ə) fəda etdilər? Onların ruhiyyələrinin tez bir zamanda dəyişməsi və İmama bu qədər məhəbbət bəsləmələri sözsüz ki, Allah tərəfindəndir. Fitrətri pak olan insanlar həmişə belədir. İmam da öz növbəsində dini rəhbər olaraq onların ruhundakı Allah verdiyi pak fitrəti daha da oyatdı. Cavanlarda olan bu ruhiyyə və dəyişiklik yalnız və yalnız Allahın lütf və iradəsi sayəsindədir.

Yuxarıda qeyd etdiyimiz ***«Fusilət»*** surəsinin həmin ayəsinə diqqət edərək, Allahın xarici aləmdə və öz varlığımızda qərar verdiyi nişanələrinə fikir verək.

## QƏRARLARIN POZULMASI ALLAHI TANIMAQDAN ÖTRÜ BİR VASİTƏDİR

Hər bir varlığın ruhiyyəsi özünə nisbətdə həmişə dəyişməkdədir. Əli (ə) buyurur: ***«Allahı, qərarların pozulması, iradə və səylərin dəyişməsi ilə tanıdım».***[1]

---

1

Hər bir kəsdə baş verən iradə dəyişikliyi mütləq bir səbəb üzündəndir. Amma bəzən iradələrin dəyişməsi səbəbsiz də olur.

Özünü paklamaq məqamında olan şəxs üçün insanın öz varlığında olan Allah nişanələri və ayələrin uca mərtəbələri daha maraqlıdır. Ruhunun dəyişməsini daimi olaraq ona göstərirlər. Bunun əlamətlərindən biri Allahın hər məxluqla daim bir yerdə olmasını dərk etməkdir.

Agah insanlar üçün Allahın haqq olmağı həmişə məlum və aşkardır. Mərifət əldə edib Allahı tanımaqdan ötrü, aləmlərin Pərvərdigarından tofiq istəyirik!

## ON BEŞİNCİ DƏRS

## PƏRVƏRDİGARA! SƏN NƏ VAXT GİZLİ OLMUSAN Kİ, SƏNİ TAPMAQDAN ÖTRÜ DƏLİL VƏ SÜBUTA EHTİYAC OLSUN

Tövhiddən ötrü gətirilən əqli dəlillər asandır, amma kifayət deyil. İnsan çalışıb şühud mərhələsinə çatmalıdır ki, onun üçün heç bir şəkk və şübhə qalmasın. O, bu məqamda Allahın müstəqil bir varlıq və bütün məxluqların mənşəyi olduğunu dərk edəcəkdir. Bu mərtəbənin məkanı məkanı yalnız qəlbdir ki, şühud oradan hasil olur.

Bu məqamda olan şəxs bütün işlərin həqiqətini dərk edir. Mərifət fəslində qeyd etdik ki, batini şühuda sahib olmaq istəsən, qəlbindəki bütün hicabları aradan aparıb məhəm-məhəmlik və xudpəsəndlik xəstəliklərindən təmizlənməlidir.

Tövhidin əqli dəlilləri lazımi şəkildə sübuta yetsə də, nə qədər ki, insan öz vücudunu müstəqil sayıb Allaha layiq olan şeyləri özü üçün hesab etsə, onun mütləq varlıq olan Pərvərdigarı dərk etməsi qeyri mümkündür.

Nəfsinin istəklərinə itaət edən kəs nə vaxt şühud mərhələsinə çata bilər? İnsan nəfsini paklamaqla, nəfspərəstlikdən uzaq olsa, yavaş-yavaş həqiqəti görəcəkdir. Bu surətdə Allahı tanıyıb, daxilindəki «mənəmliyin» boş xəyaldan başqa bir şey olmadığını başa düşəcəkdir. Amma bu xəyalı aradan aparmaq üçün zəhmət və nəfs ilə cihada ehtiyac vardır. Bu məqamda müvəffəq olan şəxsin qəlbi işıqlanaraq Allahın zühur etdiyi məkana çevrilir. Bütün məxluqların Allahdan olub və Ona tərəf də qayıdacaqlarını dərk edir. Ümid edirik ki, həqiqəti tapmaqda Allah-Təala bizə də kömək etsin.

Həzrət İmam Hüseyn (ə) Ərəfə duasında buyurur: ***«Pərvərdigara! Görəsən bu aləmdə Səndən başqa zühur edən varmı? Aləmdə olan bütün varlıqların mənşəyi Sənsən, İlahi! Sən nə vaxt gizli olmusan ki, Sənin var olmağın üçün sübuta ehtiyac olsun?*»**

Elə bir məxluq tapa bilərsinizmi ki, onun zühür və varlığı özündən olsun?

Aləmdə bütün mövcudların zühür mərkəzi yalnız Allahdır!

## MADDİ LƏZZƏTİ TƏRK ETSƏN, HƏQİQİ LƏZZƏTİ BAŞA DÜŞƏRSƏN

İnsanın qəlbi xəbərdar olmasa, şühudun bu mərtəbəsini dərk etməsi qeyri mümkündür. Hicablar aradan getdikcə, insan öz mətləbinə bir o qədər yaxınlaşacaqdır.

Nəfsinizin ziddinə getməyinizi yəqin ki, təcrübə etmisiniz. Öz nəfsani istəyinizə qarşı çıxan kimi, özünüzə diqqət edin. Sizdə necə xoş əhval ruhiyyə yaranır? Əlbəttə bu vəziyyəti həmin həddə imtahan edin.

İmam Sadiq (ə) naməhrəmə baxmağın təsiri haqqında buyurur: **«Əgər bir kəsin gözü naməhrəmə sataşanda, Allahdan bağışlanmaq istəyib, bir daha baxmayacağına söz verib gözünü yuxarı və aşağı diksə, həmin halda imanın şirinliyini dadacaqdır».**

Elə bu dərəcədə də nəfsani istəkləri tərk etmək, imanın ləzzətlini dərk etməyə səbəb olur. Bu anda insan şühud mərtəbəsinə çatır. Eləcə də öz qəzəbini boğa bilən adam həmin anda köksünün genişliyini görüb, özünü xoş əhval-ruhiyyəsini hiss edəcəkdir.

Mətləbin xülasəsi budur ki, Allaha yaxınlaşmaq istəyən kəs, mütləq öz nəfsani istəklərinin tərk etməlidir. Amma insan

nə qədər ki, nəfsinə itaət edir, getdikcə Allahdan uzaqlaşacaqdır. Bu mətləbləri hər bir şəxs imtahandan keçirə bilər.

İnsan nəfsani istəklərini ələ almaqla, yavaş-yavaş qəlbin hicablarını aradan aparır. Amma bir şərtlə ki, nəfs sonradan başlı-başına buraxılmasın. Çihad nə qədər müvəffəqiyyətli olsa, insan bir o qədər mərifət sahibi olub, elə bir məqama çata bilər ki, Quranın buyurduğu bu ayələrin ***«Siz harada olsanız, O sizinlədir»*** [1] və ***«Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Allahdır. Onlar bundan az da, çox da olsalar və harada olsalar, Allah yenə onların yanındadır»*** [2] mənalarını çox asan və aydın şəkildə dərk edə bilər.

## QƏYYUMİYYƏT HƏMİN RƏHMANİYYƏTDİR

Allahın məiyyətini qəyyumiyyəti (daim, davamlı surətdə, həmişə) bütün varlıqlarda vardır. Amma məiyyət-rəhimiyyəsi Allahın xüsusi bəndələrinə aiddir. Quran bu barədə buyurur: ***«Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir!»***[3]

Məiyyəti qəyyumiyyə olan rəhməti rəhmaniyyə bütün məxluqlara aiddir. İstər musəlman, kafir, fasiq və adil olsun, istərsə də heyvan, bitki və başqa varlıqlar olsun. (Məiyyəti-qəyyumiyyə yəni, varlıqlara vücud və davam bəxş etməsi; Məiyyəti-rəhmaniyyə yəni, davam rəhmət nəzəri altında olmaq; *Red.*)

Bütün varlıqların yaradılış və həyatlarının davamı yalnız Allaha bağlıdır.

---

[1] «Hədid» surəsi, ayə 4.
[2] «Mücadilə» surəsi, ayə 7.
[3] «Nəhl» surəsi, ayə 128.

Amma möminlər üçün Allahın xüsusi lütf və mərhəməti vardır. Allah onları bütün çətinliklərdə qoruyub, qələbəyə çatdırır. Allah həmişə Onun dininə köməklik edən kəslərlədir. Yəni Pərvərdigarın xüsusi rəhməti ancaq təqvalı olub, haqqa yaxınlaşan möminlərə aiddir.

## BƏNDƏLƏR MÜSTƏHƏBBİ İŞLƏRIN BƏRƏKƏTİ İLƏ ALLAHA DAHA DA YAXINLAŞIR

Allaha yaxınlaşmağın özünün də dərəcə və məqamları vardır. Bizə məlum olduğu kimi, ibadətdə ***«qürbətən ilallah» «Allaha yaxınlaşmaqdan ötrü»*** deyilən zaman, burdakı yaxınlıq zamanı və məkan çərçivəsində deyilirdi.

Yaxınlıq məqamında bizimlə Peyğəmbər (s) və onun xalis tərfdarları arasında yerdən göyə qədər fərq vardır. Bu barədə aşağıdakı rəvayətə diqqət edin: ***«Bəndəm müstəhəbbi işlərin bərəkətiylə davamlı surətdə Mənə yaxınlaşaraq elə bir həddə çatır ki, Mən onun görən gözü, eşidən qulağı və verən əli oluram....»***[1]

Adı fərdlər üçün bu məsələləri təsəvvür etmək belə çox çətindir. Bunlar sözlə deyiləsi deyil, bu məsələlərə malik olmaq lazımdır. Nəfsini paklamaq və qəlbinin hicablarını təmizləmək yoluna düşən şəxs elə bir məqama çata bilər ki, daim özünü Allahın hüzurunda görsün. Bu məqamdan da kecə bilsə, Pərvərdigarının ətrafında seyr edib, yaxşı işlərdə həmişə irəlidə olan qabaqcıllardan olar.

Allah eləsin biz  bu məqamları arzu edənlərdən olaq. Əgər bir kəs ciddi şəkildə bu məqamlara çatmaq istəsə, Allah-Təala heç vaxt onu məhrum etməyəcəkdir. Ciddi istəməyin əlamətlərindən biri, bu mətləblərin ardınca getməkdir. Çünki

1

Allah Quranda belə kəslərə vədə vermişdir: ***«Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq».*** [1] Həmçinin rəvayətdə də belə kəslərə müjdə verilmişdir: ***«İxlası sevən kəs....»*** [2]

Maraqlı məsələlərdən biri də budur ki, rəvayətdə «ixlas edən» deyil, məhz «ixlası sevən» kəs buyurmuşdur. Əlbəttə «axtaran tapar» deyiblər. «Əgər bir qapını döysən, əvvəl-axır cavab alacaqsan».[3]

Pərvərdigara! Nəfsimizə qələbə çalmaqda bizə kömək et! İlahi! Bizi şühud aləmindən bəhrələndir.

---

[1] «Ənkəbut» surəsi, ayə 69.

[2]

[3]

## ON ALTINCI DƏRS

## ALLAHIN BÜTÜN SİFƏTLƏRİ ONUN ELM VƏ QÜDRƏTİNƏ QAYIDIR

***«Tövhidi-zatı»*** fəslində müəyyən mətləbləri açıqladıq. Amma ***«tövhidi-sifati»***, yəni Allahın sifətlərinin vəhdəti barəsində birinci bunu qeyd etmək lazımdır ki, Onun sifətləri zatının eynidir. İnsan öz nemət verənini tanıyıb Onun sifərlərinin yalnız iki şeyə aid olduğuna diqqət etməlidir. Biri Onun ***«Sifəti-sübutiyyə»*** adlanan elm və qüdrətidir. Yəni Allah, alim, qadir, həyy (həmişə diri), murid (çox iradəli), müdrik, səmi (eşidən), bəsir (görən) və mütəkəllimi-sadiqdir (düz danışan). Bundan əlavə Quranda və dualarda zikr olunan azim (böyük, əzəmətli), rəyim (çox rəhm edən), qədim və başqa bu kimi ad və sifətlər də Onun elm və qüdrətinə qayıdır.

Məsələn, əgər Allah «Səmidir» desək, yəni Onun eşidilən şeylərə elmi vardır, deməkdir. Amma «Bəsirdi» desək, bu, Onun görülən şeylərə elmi vardır, mənasındadır. Allah «eşidən» və «görəndir» deyəndə, bu Onun alim olmasına işarədir.

Onun elm və qüdrəti iki şey deyil və Zatına da əlavə olunmamışdır. Əvvəl ikiliyi özümüzdə təsəvvür edək. Bizim hər birimizdə bir zat və bir də elm vardır, həmçinin bir zat və ondan əlavə qüdrətimiz də vardır. Elm və qüdrət eyni zatımız olmayıb, bizimlə bir yerdə olan iki şeydir. Biz əvvəldən alim və qüdrətli deyildik, bu sifətlər bizə sonradan ariz oldu. Gələcəkdə qüdrət və elmin bizdən geri alınması mümkündür.

Amma Allah-Təalanın elm və qüdrət Onun zatından ayrı deyildir. Allahın zatı bəsit və mücərrəd varlıq olduğu üçün bütün əmr və qüdrətlər Ondan başlayır.

Bu məsələni əqlin nuru ilə başa düşmək lazımdır. ***«Sifati-səlbiyyə»*** də təxminən bu şəkildədir. Allahın sifətləri Onun zatına artırılmamışdır. Çünki Onun sifətləri zatına başqa yerdən əlavə olunmuş olsa, onda çoxluğa və tərkibə ehtiyac olacaqdır. Əgər bu sifətləri qədim və müstəqil hesab etsək, qədimlərin çoxalması lazım gəlir. Belə olan sürətdə də çoxlu suallarla qarşılaşacağıq.

Vacibəl-vücudun varlığı vacib olduğu kimi, onun sifətləri də vacibdir. Yəni zatı ilə sifəti eynidir. Əli (ə) ***«Həhcül-bəlağə»***də buyurur: **«Allahı bir bilməyin kamalı, Ondan sifətləri səlb etməkdir».** Allahda olan sifətlər məxluqlarda olan «sifət və sifətlənmə»[1] cəhətindən deyildir. Onun elm və qüdrəti eyni vücududur.

## ALLAHIN SİFƏTLƏRİNDƏ DƏ ŞƏRİKİ YOXDUR

Allahın zatı cəhətdən şəriki olmadığı kimi, Onun sifətlərinində şəriki yoxdur. Bütün məxluqarın varlığı zati olmadığı kimi, elm və qüdrətləri də zati deyildir. Hər bir mövcudun xilqətləri Allahdan olduğuna görə, onların qüdrət və elmləri də Allahdandır. Əsl varlığı özündən olmayan məxluqun, sifəti də özündən deyildir.

Müvəhhid «təkallahlı» xatircəm olmalıdır ki, aləmdə olan bütün qüdrətlər yalnız Allahdandır. Başqa ifadəylə desək, bu mübarək cümlənin «***La hövla vəla qüvvətə illa billah»*** mənasını başa düşməlidir. Burdakı ***«La»*** cinsliyi aradan aparıb, həqiqəti isbat etmək mənasındadır. Allahın güc və qüdrətindən başqa heç bir güc və qüdrət yoxdur.

1

## NİYƏ «LA HOVLƏ VƏLA QUVVƏTƏ İLLA BİLLAH» DEMƏK, CƏNNƏTİN AÇARIDIR

Məsumlardan (ə) nəql olunan şərafətli hədisdə buyurulur: **«La hovlə vəla quvvətə illa billah kəlməsi cənnətin açarıdır».** Bunun mənası, tövhidi-sifatini tanıyandan sonra, bütün qüdrətləri Allaha nisbət verməkdir. Bu məsələni dərk edən şəxs üçün behişt qapıları açıqdır. Çünki Allahdan başqa heç bir kəsdən qorxmur və ümidi də yalnız Onadır. Bu məqama çatan adam bu ayənin mənasını daha yaxşı dərk edir: *«**Əgər Allah sənə bir sıxıntı versə, səni Allahdan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir yetirsə, heç kəs Ona mane ola bilməz. Çünki O, hər şeyə qadirdir!**».*[1]

Bəndə yavaş-yavaş «Riza» məqamına çataraq, heç bir məxluqun müstəqil qüdrətinin olmadığını başa düşür. Bütün qüdrətlərin ancaq Allahın izni ilə zühur etdiyini dərk edir. Bütün mövcudların qüdrət və fəaliyyəti yalnız Onun izn və istəyi ilədir.

*«**O, artıq heç bir məxluqdan qorxmur. Əgər qorxusu varsa, o da Pərvərdigarının əmrindən çıxıb, günah etdiyinə görədir**».* [2] Belə insanların əsas qorxusu Allahın lütfündən uzaqlaşıb, Onun qəzəbinə düçar olmaqdadır.

«**La hovlə vəla qüvvətə illa billah**»ın həqiqətini dərk edən kəs mütləq onun mənasına şahid olub, yalnız Allaha təvəkkül edəcəkdir. *«**Əgər möminsinizsə, Allaha təvəkkül edin!**»*[3]

Əgər bütün qüdrət və izzətlərin yalnız Allaha aid olduğunu dərk etsəniz, artıq məxluqla işiniz olmayacaqdır.

---

[1] «Ənam» surəsi, ayə 17.

[2]

[3] «Maidə» surəsi, ayə 23.

## ALLAHDAN QEYRİSİNƏ SÖYKƏNMƏK NİFAQIN DƏRƏCƏLƏRİNDƏNDİR

Allah-Təala Quranda buyurur: ***«Ya Məhəmməd (s)! Münafiqlərə xəbərdarlıq et ki, onlardan ötrü axirətdə şiddətli əzab var».***[1]

***«O münafiqlər ki, möminləri qoyub kafirləri dost tutmuşlar. İzzət və qüdrəti onların yanındamı axtarırlar? Şübhəsiz ki, izzət və qüdrət tamamilə Allaha məxsusdur!»***[2]

Kafirlərin qüdrətinə arxalananlar nə müsəlman, nə də mömindirlər. Bəlkə münafiqdirlər. Onlar xəyal edirlər ki, Amerika və Avropa qüdətlidir və onların bütün istəklərini yerinə yetirməyə qadirdir. Küfrə söykənənlər islamdan bəhrələnə bilməyəcəklər. Bu nifaqın əlamətlərindəndir. Belə adamların dil və qəlbi hər gün bir rəngə düşür. Qəlbləri dilləri ilə uyğun gəlmir, diləri «La ilahə illəllah, təvəkkəltü ələllah», «La hövlə vəla qüvvətə illa billah» dediyi halda qəlbləri «təvəkkəltu əla Amerika» yəni, Amerikaya təvəkkül etdim, deyir.

Hər kim Allahdan başqasına ümid bağlasa ki, filankəs mənim işimi düzəldəcəkdir, şübhəsiz həmin kəslər münafiq və müşrikdirlər. Öz çətinliklərini həll etməkdə Allahdan başqasını qadir bildiklərinə görə müşrik hesab olunurlar.

***«Biharul-ənvar»***ın şirk fəslində belə bir hədis vardır. «Əgər filankəs olmasaydı, mən həlak olardım». İmam (ə) bunun şirk olduğunu qeyd edir. Ravi dedi: Bəs necə deməli idi? İmam (ə) buyurdu: «Əgər Allah-Təala filankəsin vasitəsilə mənə mərhəmət etməsəydi, mütləq həlak olardım».

---

[1] «Nisa» surəsi, ayə 138.
[2] «Nisa» surəsi, ayə 139.

Vay olsun o kəsə ki, əsl Şəfa verəndən qafil olub, həkim və dərmanı müstəqil şəfa verən hesab edir.

Elm və qüdrəti yalnız Allaha nisbət vermək lazımdır. İnsan bu mətləbləri əqlin nuru ilə başa düşüb qəlbin nuru ilə inanmalıdır. Əqlin nuru ilə, qüdrətli hesab etdiyi hər bir məxluqa diqqət etsin, onların qüdrətlərinin nə dərəcədə və haradan olduğu barədə fikirləşsin. Görəsən onların elm və qüdrətləri özlərindəndir və ya başqa yerdən?

Hər bir varlıq haqqında düşünəndən sonra, onların başdan ayağa Allaha möhtac olduqlarını dərk edəcəkdir. Məsələn, əvvəldə nütfə olan insana Allah qüdrət verməsə, onun əlindən heç bir şey gəlməz.

## SƏNƏTKARLARIN SƏNƏTLƏRİ DƏ ONDANDIR

Qüdrətli bir şəxsin yanına öz çətinliyini həll etməyə gedən adamlar niyyətlərini xalis saxlamalı, qəflət və ya cəvalətlə özünü müşriklik dərəcəsinə çatdırmamalıdır. Çünki Allah istəməsə onun əlindən heç bir şey gəlməz.

Görəsən bir kəs öz ölümünü bir an gecikdirə bilərmi? Deməli hər bir qüdrət və elm hamısı Ondandır. Oxumaqla əldə olunan elm və sənətkarların sənəti də Ondandır.

Sənətkar nə vaxt sənətkar olub?

Bu sənətkarlığı onun əti, dərisi və zehni düzəldib? Bir halda ki, illərlə çəkilən zəhmət və fikirdən sonra Allah onun hafizəsini əlindən alsa, onun əlindən bir şey gəlməyəcəkdir.

Allah-Təala buyurur: ***«Bil ki, bütün işlər axırda Allaha qayıdacaqdır!»***[1]

---

[1] «Şura» surəsi, ayə 53.

Əli (ə) bu barədə buyurur: ***«Hər bir şeyi görəndə, Allahı ondan qabaq, ondan sonra və onunla birlikdə gördüm».***[1] Əli (ə) hər bir mövcudu görəndə, Allahın qüdrətini də onunla birlikdə görür.

Bəşər, ona verilən elmin vasitəsiylə min milyon kilometrlərlə uzaqda olan ulduzları öyrənir. Görəsən bu elm və idrak ona nə vaxt verilib? Bu məlumatları necə əldə edib və elektrik cərəyanını nə vaxt bəşərin ixtiyarında qoyubdur? Bütün bu elm və qüdrəti əldə edib müxtəlif şeyləri kəşf etmək, hamısı Allahın izni ilədir. Qeyd etdiyimiz kimi, əgər Allahın icazəsi olmasa, nütfə və bir parça torpaq heç bir şeyə qadir deyildir. «Töhidi-sifatini» paklanandan və hicablar aradan gedəndən sonra öyrənmək lazımdır. Çünki bu anda ***«La hövlə vəla qüvvətə illa billah»***-ın həqiqətən də cənnətin açarı olduğunu dərk etmək olar.

Əgər insan həqiqətən də müvəhhid «təkallahlı» olsa, xoşbəxtlik və qəlb razılığı əldə edə bilər. Bütün ümidini Allaha bağlayıb, məxluqlardan kamil surətdə ehtiyatsız olar. Bu zaman keçmişin fəqirlik və kiriftarçılığından artıq qorxu olmaz.

Quran Allahın övliyaları barəsində buyurur: ***«Bilin ki Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər».***[2] Çünki bütün həqiqətlər onlar üçün açılaraq, Allahın mütləq şəkildə ***«hər bir şeydən ehtiyacsız»*** olduğunu dərk etmişlər. Allah bir kəsə ehtiyacsızlıq və izzət versə, sözsüz ki, o iman əhli olacaqdır. İzzət və qüdrəti Allahdan başqasında axtaranlar yalnız münafiqlərdir. Onlar elə xəyal edirlər ki, məxluqun əlindən bir iş gələ bilər. Quran münafiqlər barəsində buyurur: ***«Onlar: Əgər biz (Bəni-müstəliq vuruşundan) Mədinəyə qayıtsaq, ən güclülər, ən şərəflilər (münafiqlər) ən***

---

[1]

[2] «Yunus» surəsi, ayə 62.

***zəifləri, ən həqirləri (Peyğəmbəri və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar! deyirlər. Halbuki şərəf-şan da, qüvvət və qəlbə də yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər bunu bilməzlər!»***[1]

## QORXU ƏVƏZİNƏ İMANLARI DAHA DA ÇOXALDI

Müvəhhidin daha bir xüsusiyyəti, onun Allahdan başqa heç kəsdən qorxmamasıdır. Aşağıdakı ayəyə diqqət edin: ***«O kəslər ki, xalq onlara: «Camaat Əbu Süfyan və tərəfdarları sizə qarşı qüvvə toplamışdır, onlardan qorxun!» dedikdə, bu söz onların imanını daha və artırdı və onlar: «Allah bizə bəs edər. O nə gözəl vəkildir!» deyə cavab verdilər».***[2]

Bu zəmanəmizdə də bizi qorxudub dedilər ki, Amerika İrana hücuma hazırlaşır, öz əlaltılarının köməkliyilə bizi iqtisadi mühasirəyə alıb, nəticədə özünə təslim edəcəkdir. Nadan adamlar: ***«Çarəsiz qalacağıq, bədbəxt olacağıq!»*** dedilər. Amma imamın tərəfdarları qorxmayaraq: ***«Allah bizə kifayət edər!» deyə cavab verdilər».***

Qüdrət yalnız Allahın qüdrətidir. Onların əllərində olan imkanlar, Allahın onlara verdiyi hədiyyə və maldan başqa bir deyildir. Əgər Allah istəməsə, heç bir şey edə bilməyəcəklər. Allah-Təala sonrakı ayədə yalnız Ona təvəkkül etməyin nəticəsini belə buyurur: «***Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir».***[3]

---

[1] «Münafiqin» surəsi, ayə 8.
[2] «Ali-İmran» surəsi, ayə 173.
[3] «Ali-İmran» surəsi, ayə 174.

Neçə ki, İranın müsəlman milləti də imam Xomeyninin (r.ə) ilahi rəhbərliyi sayəsində iqtisadi mühasirinin və Amerikanın Təbəs səhrasına hərbi hücumunun qarşısında sarsılmadı.

Pərvərdigara! Qüdrət, izzət və elm yalnız Sənə məxsusdur, o nemətlərdən bizlərə də mərhəmət et, Özün bizə kömək ol! Hər kimdə hər nə varsa, Sənin mərhəmətlərin sayəsindədir!

## ON YEDDİNCİ DƏRS

## MƏXLUQLARIN TƏKVİNİ YARADILIŞDA KAMİLLİKLƏRİ YALNIZ ALLAHDANDIR

İnsan əqlin nuru ilə varlığın bütün mərhələlərinin Allah tərəfindən olduğunu bilәndən sonra, onların kamilliklərinin də, İlahi mənbədən olduğuna diqqət edir. Varlığın əsli Allahdan olduğu kimi, onun camalı da Pərvərdigar tərəfindəndir. Başqa ifadəylə desək, ilkin kamillik olan varlığın həqiqəti İlahi mənbədən olduğu kimi, sonrakı kamillik də, camal və gözəl sifətlər də Ondandır. Bu mənanı aləmdə olan yüksək təbəqəli varlıqdan tutmuş, aşağı təbəqəli varlıqlara qədər bütün mövcudlarda tapmaq olar. Bütün varlıqların hüsn və camalları da Allahdandır. Onların camal və hüsni-təkviniləri (əvvəl yaranışda gözəl xəlq olunmaları) çox məlum və aşkar şəkildədir.

Məsələn, bəşərin surətini bu gözəlliyə salan Allahdır. Onun camalı, məlahəti, gözəlliyi və ürəkləri valeh etməsi də Ondandır. Elə buna görə də məxluqa gözəlliyinə görə sitayiş etmək lazım deyil. Əksinə onu bu gözəl surətdə yaradan Allaha sitayiş etmək lazımdır.

Məsələn, üzümün şirinliyi və gül çiçəklərin ətrili olması da Pərvərdigar tərəfindəndir. Quran bu məsələyə işarə edərək buyurur: ***«Yerdə və göydə elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz ondan ancaq müəyyən qədər nazil edirik».***[1]

Əlbəttə bu ayə bütün aləmlərlə uyğun gəlir. Əgər aşağı təbəqəli mövcudları nəzərdən keçirsək, bu ayənin nümunəsini onlarda da görə bilərik. Onların əsas xəzinə və mənbələri də

[1] «Hicr» surəsi, ayə 21.

Allahdandır. Gülün ətri on, ya yüz addımlıqdan hiss olunur. Amma rəvayətdə vardır ki, behiştin ətri beş yüz illik yoldan gəlir. Başqa aləmlərdə atomun zühuru və daha da kamilliklər vardır.

Sözün qısası, bütün kamilliklər hamısı Allahdandır. Hər bir varlıqda olan təkvini kamilik də aşkar şəkildədir.

## SONRADAN ƏLDƏ OLUNAN KAMİLLİK DƏ ONDANDIR.

Sonradan ixtiyari şəkildə əldə olunan hüsn və camal da Allahdandır. Şəxsin kəsbi surətdə əldə etdiyi elm, hüsnü kamal, rəhm və kərəm başqa sifətlər də Pərvərdigar tərəfindəndir. Elm insaniyyətin kamal sifətlərindəndir. Görəsən zəhmətlə ələ gələn elm və onun səbəb və vasitələri Allahdan deyildir?

Təsəvvür edin ki, iki nəfər bir yerdə dərs oxuyur. Onlardan biri istedadlı olub, tez inkişaf edir, digəri isə geri qalır. İnsan Allah verdiyi istedad və düşüncədən gözəl şəkildə istifadə etməlidir. Bu da həmçinin Allahın tofiqi nəticəsində həyata keçir.

Bir şəxsdə yaranan rəhm sifəti də Allahdandır. İnsan bu kamal sifətinə malik olmaq üçün özünü hazırlamalıdır. Şiə və sünni ümumi şəkildə Peyğəmbərdən (s) belə bir hədis nəql edirlər: **«Allahın yüz rəhməti vardır. Onun birini dünya aləmində qərar vermişdir. Doxsan doqquzunu isə axirətə saxlamışdır. Ata və anaların övladlarına olan rəhməti, Allahın bu dünyada qərar verdiyi bir rəhmətidir».**[1]

Bəşərin ixtiyari şəkildə olan camal və kamalı da Allahdandır.

[1]

***«Bütün işlər də axırda Allaha qayıdacaqdır».*** [1] İnsan öz əliylə təkrar-təkrar infaq (öz malından bəxşiş etmək) etdiyinə görə, onun ruhunda bəxşiş etmək adəti əmələ gəlir. Görəsən onun infaq etdiyi şeylər kimin malındandır? Allahdan başqa bu aləmin maliki vardırmı? Bu əl, qüdrət və mal hamısı Allahındır. İnsan bu işlərdə ancaq iradə edir. Onun iradə etməsi də Allahın əta etməsi nəticəsindəndir. Elə buna görə də hər varlıqda olan bütün kamal, gözəllik, ixtiyari və qeyri ixtiyari olan camal da Allahdandır. Deməli həmd və sitayişə layiq olan varlıq yalnız Allahdır.

## MÜSTƏQİL HƏMD ETMƏYƏ ALLAHDAN BAŞQA HEÇ KƏS LAYİQ DEYİL

Camal və kamal sifətlərin müqabilində yerdən göyə qədər olan heç bir məxluq həmd və sitayişə layiq deyildirlər. Çünki onların özlərindən bir şeyləri yoxdur. Məxluqların nəyi varsa, hamısı Allahındır. Həqiqi həmd və sitayişə layiq olan da Odur.

***«Usuli-kafidə»*** belə bir rəvayət vardır: «**İmam Sadiq (ə)-ın qatırı itmişdi. İmam (ə) buyurdu: Əgər Allah-Təala onu mənə qaytarsa, ona elə şükr edərəm ki, razı qalar. Bir qədər arayıb, axtardıqdan sonra qatırı tapıb İmamın (ə) hüzuruna gətirdilər. İmam (ə) qatırı minəndən sonra buyurdu: Əlhəmdu lillah!**» Bu rəvayətin sonunda qeyd edilir ki, İmam (ə) buyurdu: «**Allaha həmd etdim, bütün həmdlərlə**».[2]

Hər bir varlıqdan baş verən xeyir və bərəkət də Allahdandır, harada sitayiş vardırsa, o özü də Allaha qayıdır. Yuxarıdakı rəvayətdə qatırı axtaranlar təşəkkürə layiqdirlər, amma həqiqi tərif yalnız Pərvərdigara məxsusdur. Çünki səbəb, vasitə və

---

1

2

düşüncəni onların ixtiyarında qoyan Odur. Allah-Təala qatırı axtarıb tapmaq və geri qaytarmaq qüdrətini də onlara verir. Bundan əlavə heyvanın özünü də onlara təslim edir. Bu məsəllərin hamısı Allaha qayıdır. Deməli həqiqi həmd yalnız Onun üçündür.

## SULTAN VƏ HAKİMLƏRİ TƏRİF EDƏNLƏRİN AĞIZLARINA TORPAQ TÖKÜN

Əvvəlki söhbətlərimizdə qeyd etdik ki, məxluqun müstəqil surətdə etdiyi həmd və səna düzgün deyildir. Elm əldə etmiş bir kəsi tərif etməyiniz o deməkdir ki, guya burada mütləq elm sahibi olan Allahın vasitəsi olmamışdır. Bütün elmlər də Allaha qayıdır. Bizim böyük peyğəmbərimiz Məhəmməd (s) də Pərvərdigardan təlim almışdır. Quran bu barədə buyurur: ***«O Rəbbin ki, insana bilmədiklərini öyrətdi»***[1]. Bu tərifin Allah-Təalanın bəxşişi cəhətindən olması yaxşıdır. Elə buna görə də rəvayətlərdə insanı müstəqil surətdə tərif etməyi qadağan etmişlər. «Biharul-ənvər»da nəql olunan rəvayətdə buyurulur: Təməlluq (Sulatan və hakimləri tərif edənlərin) deyənlərin üzlərinə torpaq tökün.[2]

Axı sultan və hakimlər kimdir ki, onları tərif də edəsən. Əslində heç tərifə layiq adam da deyillər. Əli (ə) «Nəhçül-bəlağə»nin «Həmmam» xütbəsində buyurur: «**Muttəqi (Allahdan qorxan) və Əli şiəsi o kəsdir ki, onu tərif edəndə, xoşhal olmasın, tərifdən də çox qorxsun**».

İnsan özünün yaxşı olmasına inandığı zaman, tövhiddən kənara çıxıb, səhv işlər görür. Nəticədə fikir verir. İnsan gərək özünü yaxşı olmasına heç vaxt inanmasın. Əgər belə bir şey baş

[1] «Ələq» surəsi, ayə 5.
[2]

versə, onun da Allah tərəfindən verildiyini dərk etməlidir. Elə buna görə də sitayiş və tərifə layiq yalnız Allahdır.

Əgər elmimiz, düşüncəmiz və qüdrətimiz varsa, hamısı Allahındır. Dəfələrlə təkrar etmişik ki, əgər bir nəfər skeleroz xəstəliyinə tutulub bütün hafizə və məlumatlarını əldən versə, onda məlum olacaq ki, onun elmi var idi yoxsa yox? Belə adamların işi o yerə çatır ki, hətta evlərinin qapısını belə tanıya bilmirlər. Övladlarının adını da yaddan çıxardırlar.

Belə adamlar haqqında çoxlu misallar çəkmək olar. Onlardan biri 50 il övladını adıyla çağırdığı bir halda, indi onun adını da unutmuşdur. Nə qədər çalışırsa da onun adını yadına sala bilmir. Bir halda ki, uşağın adını özü qoyub və 50 il də onu o, adla səsləyib. Amma indi hafizəsini əldən verdiyinə görə heç yadına gəlmir.

## TOHİDİ-SİFATİDƏ HƏDDİNDƏN ARTIQ EHTİYATLI OLUN

Əgər məddah (tərif edən) bir nəfəri müstəqil tərifə layiq bilsə, həmin anda o, Allahın sifətləri mərhələsində müşrik olmuşdur. Eləcə də əgər tərif olunan şəxs, məddahın tərifinə inanıb, özünü müstəqil tərifinə laiq bilsə, o, da Pərvərdigarın sifətləri mərhələsində müşrik hesab olunur.

Allah-Təalanın sifətləri barəsindəki tövhidin mənası, bütün kamal və gözəlliklərin Allah tərəfindən olduğunu dərk etməkdir. Bütün camal və kamallar, hətta kəsbi surətdə olan camal və kamallar da Allahdandır. Buna görə də mətləb çox incə və dəqiqdir. Çox vaxt adam diqqət etmədən, şirk mərtəbəsində kiriftar olur.

İnsan özünü aciz və yoxluq dərəcəsində bilməyənə qədər, Allahı tanıya bilməyəcəkdir. Bu varlıq ya mənim özümə

məxsusdur ya da ki, Allaha. Bu iki məsələ heç vaxt bir yerdə cəm ola bilməz. İnsan nə qədər ki, öz varlığını özünə məxsus hesab edir, heç vaxt onun Allahdan olduğunu bilməyəcəkdir.

Allah-Təala bizim hamımızı şirkə bulaşmağımızdan saxlasın!

## ON SƏKKİZİNCİ DƏRS

## HEÇ KƏSİN ZATƏN HƏMD OLUNMAĞA HAQQI YOXDUR

Qeyd etdik ki, bütün həmdlər yalnız Allaha məxsusdur. Çünki hər kəsin kamal və camalının müqabilində olan təriflər hamısı Allahdandır. Deməli bəşər üçün olunan səna və təriflər də Allaha aiddir. Amma bəşərin kəsbi yolla əldə etdiyi camalın müqabilində, Allahı nəzərdə tutmadan müstəqil sürətdə tərif etmək qəbahət hesab olunur.

Lakin bir nəfəri çox tərif edərək, siz elmdə içtihad dərəcəsinə çatmısınız demək, şəriət nəzərindən haram deyildir, məkrudur (bəyənilmir).

Bu mətləb doğru olduğuna görə, onun deyilməsinə icazə verilir. Əslində hər bir kəsin elm və qüdrəti Allaha qayıdır. Amma zahiri cəhətdən bu şəxs, kamal və camalı kəsb etməkdən ötrü zəhmət çəkmişdir. Elə buna görə də ona tərif demək caizdir (icazə verilir). Amma əslində həqiqi tərifə layiq olan Allahdır. Çünki kamal və camalı əldə etmək üçün bütün vasitə və tofiqələri insan üçün hazırlayan Odur.

Əgər bir kəs Allaha həmd etməsə, əqli bir vacibatı tərk etmişdir. Amma əgər məxluqun ixtiyari şəkildə əldə etdiyi camalın bərabərində həmd və tərif deməsə qəbahət hesab olunmaz. Çünki məxluqun müstəqil və zati surətdə həmd və tərif olunmağa haqqı yoxdur. Elm dalınca gedən şəxsi tərif etmək mənim üçün vacib deyildir və onu tərif etmyi də tərk etsəm qəbahət iş görməmişəm. Çünki həqiqi tərif ona aid deyildir. Amma aləmlərin Rəbbi zati və həqiqi tərifə layiqdir. Çünki bütün məxluq Onun mərhəməti sayəsindədir. Bütün məxluqlara

verilmiş camal və kamal sifətlərə görə, Allahın haqqı əda olunmalıdır. Amma başqa varlıqların belə haqqı yoxdur. Onlar nə qədər camal və kamal sifətləri kəsb etsələr də heç vaxt başqalarının üzərində haqq sahibi olmurlar.

## HƏQİQİ HAQLA MÜQAYİSƏLİ HAQQIN FƏRQİ

Bəzi təfsirçilər çox maraqlı bir misal çəkərək buyururlar: Borc verənin borc alan üzərində olan haqqı ilə fəqirin dövlətli üzərində olan haqqı arasında çox fərq vardır.

Əgər bir kəs başqasına borc pul veribsə, deməli onu geri almağa haqqı vardır. Fəqirin də həmçinin köməyə ehtiyacı vardır. Hər iki şəxsin eyni zamanda özlərinə məxsus haqları vardır. Lakin borc verənin haqqı həqiqi və vacib haqdır. Amma fəqirin haqqı müqayisədən başa düşülür. Yəni, ona kömək etmək yaxşıdır. Amma əgər kömək olunmasa dövlətini danlamaq olmaz. Əlbəttə bizim söhbətimiz ümumi şəkildədir. Mümkündür ki, bəzi vaxtlarda fəqirə kömək etmək vacib ola və bu vacibatı tərk etmək isə pislənə bilər.

Bütün camal və kamal sifətlərinin qarşısında Allaha həmd etmək vacibdir. Hər bir fərd bütün varlıq və kamalatın Allahdan olduğunu bilib, Ona həmd etməlidir.

Əgər bir nəfər əslində Allaha məxsus olan kamalatı zəhmət vasitəsi ilə ələ gətirə bilsə, ona tərif demək caizdir. Amma çox tərif deyilsə məkruh hesab olunur. Çünki bu tariflər ona qurur gətirə bilər. Yavaş-yavaş elə təsəvvür edər ki, bu kamillik müstəqil surətdə onun özündədir. Hətta həqiqi kamal sahibi olan Allahı yaddan çıxarmağa da səbəb ola bilər.

## MƏTLƏBİN XÜLASƏSİ, İRADLAR VƏ CAVABLAR

Mətləbin xülasəsi: Qeyd etdiyimiz kimi, həmdə layiq olan yalnız Allahdır. Hər bir kamal və camal sifətlərinin tərif olunması, yaxşı iş muqabilində tərif, pis işin isə məzəmmət olunması əqlin yaxşılıq və pislik qanunu əsasında məlum və sabitdir. Əqlin isbat olunmuş bu hökümünə əsasən, yaxşı iş görən şəxsin tərif olunmasını Allaha necə aid etmək olar?

Bunun cavabı çox aydındır. Əqlin hökümü əsasən həqiqi və zati həmdə layiq, yalnız Allahdır. Amma başqalarının camal və kamal sifətləri kəsb etdiklərinə görə tərif olunmaqları, müqayisəli tərifdir.Yəni tərif olunmaqları yaxşıdır. Lakin bu işin tərk olunmasının heç qəbahəti də yoxdur.

Biz məxluqun ixtiyari şəkildə etdiyi yaxşı işin tərif olunmasını demirik. Bizim məqsədimiz budur ki, bu işin tərif olunması vacib deyildir. Dediyimiz kimi, çox tərif etmək də, məkruhdur. Çünki şəxsin qurulmasına səbəb olur.

Belə bir rəvayət nəql edirlər: **«Əgər bir kəs sizə xeyir versə, ona təşəkkür edin. Çünki o, İlahi mərhəmətin vasitəçisidir».**[1]

Tövhidi-sifati haqıında bura qədər kifayətdir. Bundan sonra tövhidin-əfali haqqında söhbət edəcəyik.

## BÜTÜN QEYRİ-İXTİYARİ İŞLƏRİN QAYIDIŞLARI ALLAHA TƏRƏFDİR

***Tövhidi-əfali:*** Yəni, bilməliyik ki, varlıq aləmində iş görən, tənha Allahdır. Varlıq donu geyinən hər bir şeyin faili də (iş görən, yaradan) Odur. Vasitəli və vasitəsiz yaranan bütün

---

[1]

mövcudların varlıqları yalnız Allahdandır. Onları varlıq mərhələsinə çatdırıb var edən də Odur. Hər təsəvvür etdiyiniz iş, hətta bəşərin işləri də Onun tərəfindəndir.

Əvvəl bəşərin ixtiyarı olmadığı işlər haqqında, ağacda bitən hər bir yarpaq və odun yandırması kimi, hər bir təsir edənin təsir etməsi də Allahdandır. Aləmlərin Pərvərdigarı oda yandırıcı, suya isə rütubətlik xasiyyəti vermişdir.

Tikənin ağızdan aşağı gedib həzm olunaraq, bədənin bir hissəsinə çevirilməsi prosesi bəşərin ixtiyarında deyildir. Bu işlərin hamısı Allaha qayıdır. Hər bir mütəhərrikin hərəkəti Ondandır. Bunlar kamil şəkildə aşkar olan mətləblərdir.

Bəzi hallarda bəşər öz iradə və ixtiyarı ilə gördüyü işlərdə səhvə yol verir. Bu səhvlər «səbr» və «təfviz» məzhəbinin meydana gəlməsinə səbəb olur. Söhbət istər-istəməz Allahın ədaləti üzərində qurularaq, qəza və qədər məsələləri ilə rabitələnir.

## TƏFVİZİN HƏQİQƏTİ ŞİRKDİR

Əgər desək ki, bir kəs bir işi görməkdə kamil sürətdə müstəqildir və heç kəs onun o işi görməsinin nə qarşısını ala bilər, nə də ki, onu o işə məcbur edə bilər. Bu təfviz hesab olunur və bu cür təfviz şirkdir.

Amma əgər bir kəs öz varlığının Allaha bağlı olmadığını hesab edərək, **«mən bu işi mütləq yerinə yetirəcəyəm, mən belə edəcəyəm, mən elə edəcəyəm»** - desə, bu təfviz də səhv və şirk hesab olunur. Elə bil bu adamın varlığı öz əlindədir. Özü üçün heç bir varlıq mənbəyi və ilahi söykənəcək hesab etməyən kəs müşrikdir. Belə adamlar haqqa vacib olan şeyləri özləri üçün düşünərək, elə hey mənəm-mənəm deyirlər. Varlıqlarını müstəqil hesab edərək, özlərini Allahdan ehtiyacsız bilirlər.

Özünü ehtiyacsız hesab edən şəxs, şirk xəstəliyinə tutulmuşdur. Quran və hədislərdə şirk barəsində çoxlu nəhy və qadağanlar olunmuşdur.

Təfvizin müqabilində olan məsələ «cəbr» məsləsidir. Əgər bir kəs **«mənim heç iradəm yoxdur, ixtiyarsız alətdən başqa bir şey deyiləm, Allah nə istəsə, o da olacaqdır»** - desə, bu da cəbr hesab olunur. Bu mətləb əsil həqiqətin ziddinədir. Belə deyən adamlar yalan dediklərini öz vicdanlarıyla hiss edirlər. Çox vaxt olub ki, belə adamlar özlərinə sərf edəndə, «mən özüm etdim» - deyərlər. Amma elə ki, özlərinə sərf etməyir, hər şeyi Allahdan hesab edirlər. Məsələn, əgər bir işdə müvəffəq ola bilsə, «diribaş oldum, özüm hazırlamışdım, öz təcrübəmlə əldə etdim» - deyir. Amma elə ki, zərərə düşür, hər şeyi Allaha nisbət verərək ***«Allahın təqdiridir. Bilmirəm Pərvərdigar bizimlə niyə belə rəftar elədi?»*** deyir.

Hətta qəza və qədərə etiraz da edir. Belə adamlar həm cəbr, həm də təfvizi hesab olunurlar. Qurani-Kərim bu mətləbə işarə edərək buyurur: ***«Müsibət və zərər gördükləri halda, bu sənin tərəfindəndir»*** deyirlər. Sözün qısası, öz meyillərinə uyğun olanda «təfvizi», meyllərinə muxalif olanda isə «cəbri» olurlar. Allaha həmd etməməkdən ötrü, məsələnin doğruluq və yaxşılığını Ondan bilmirlər. Amma elə ki, xəstələnirlər, Allahı xəstələndirən hesab edib, özləri də «cəbri» olurlar.

## İRADİ İŞLƏRİMİZDƏ DƏ QEYRİ MÜSTƏQİL FAİLLƏRİK

«**Əmrun beynəl əmreyi**»[1] (cəbr və təfviz arasında olan orta mövqe) məsələsində çox dəqiq olmaq lazımdır. Bu məsələni bilməmək ya cəbrə, ya da təfvizə sürükləyir. Bu orta mövqe,

1

yəni «**Əmrun beynəl əmreyi**» o qədər dəqiq və lətifdir ki, onu başa düşüb yerinə yetirmək çox çətin məsələdir.

Camaatın işlərində bu məsələni yaddan çıxartmaq lazım deyildir. İnsan ixtiyari işlərində faildir, amma müstəqil fail deyildir. İnsan öz varlığını müstəqil hesab edib, ürəyi hər nə istəsə yerinə yetirə bilməz. Bir işi görəndə ona həyat və qüdrət lazımdır ya yox? «Mən sabah belə edəcəyəm» iddiasnı edənlər görəsən sabaha sağ qalacaqlarına əmindirlərmi? Bir halda ki, Allahdan olan mütləq və həyati asılılığımız bir an belə azalmır.

## HƏR AN BİZİ SAXLAYA BİLƏCƏK QÜVVƏYƏ EHTİYACLIYIQ

Lampanın yanmasından ötrü davamlı surətdə elektrik cəryanı gəlməlidir. Bu aləmdə heç bir şey davamlı və sabit deyildir. Onun davamlı olaraq hər an kəlməsinə ehtiyac vardır. (Elektrik mənbəyindən bir dəfə cərəyan göndərilməsi mühərriklərin daimi hərəkətinə səbəb ola bilməz və ani olaraq enerjinin kəsilməsi mühərriklərin dayanması ilə nəticələnər. İnsanların da vücudu belədir, onlara bir dəfə vücud bəxş olunmaqla iş bitmir. Fasiləsiz olaraq ilahi mənbədən onlara vücud feyz olunur və bir an bu feyzin kəsilməsi insanın məhvi ilə nəticələnər. *Red*)

Bizim varlığımız da belədir. Bu, **«bir dəfə yaranandan sonra, daha heç nəyə ehtiyacımız olmayacaqdır»**, mənasında deyildir. Varlıq mənbəyindən hər an bizə ifazə olunan vücud varlığımızın qalmasından ötrü zəruridir. Əgər bizim üçün bir an kömək kəlməsə, həmin anda aradan gedə bilərik. Elə buna görə də Qurani-Kərim buyurur:

***«Və heç bir şey barəsində: Mən onu sabah edəcəyəm – demə. Ancaq: İnşallah, əgər Allah istəsə, Allah qoysa***

***edəcəyəm - de».***[1] Bu məsələ mütləq, Allahın istəyi ilə birlikdə olmalıdır. Nə qədər qüdrətin olsa da bilməlisən ki, o qüdrət başqa yerdəndir. Hər bir işdə Allahın istəyi olmasa, o işin həyata keçməsi qeyri-mümkündür. Adətən möminlərin dediyi «İnşallah»lar, inşayi (bir işi yerinə yetirmək) deyildir. Bu iş təbərrükdən ötrüdür, bütün işlərdə Allahın istəyi şərt və qəsd olunmalıdır. Məsələn, **«Allah istəsə bu işi edəcəyəm, amma əgər istəməsə, mən necə edə bilərəm?»** demək lazımdır.

**«Misbahuş-şəriə»** kitabında belə bir rəvayət vardır: Əlinin (ə) səhabələrindən biri Əbu Dərdanın evinə gedib, xanımından onun harada olmasını soruşdu. Xanım dedi: Evdə yoxdur. Səhabə, nə vaxt qayıdacaq? deyə sual etdi. Xanım cavab verdi. Həyat və varlığımız əlində olan qüdrət, nə vaxt istəsə.

Müstəqil failin yalnız Allah olduğunu evin xanımı da bilməlidir. Çünki hər bir iş Pərvərdigarın istəyi ilə həyata keçir.

Deməli, təfvizin mənası, bəşərəi ixtiyari işlərində müstəqil fail hesab etməkdir.

Başqa cəhətdən baxanda bəşərin işləri «cəbr» də deyildir. Heç kəs deyə də bilməz ki, mən fail deyiləm, mənim əlimdən heç bir iş gəlmir, işlər yalnız Allahın iradəsi ilə həyata keçir.

Bütün işlərim məcburiyyət üzündəndir. Deməli bəşər faildir, amma müstəqil deyildir. Öz işlərində nə ixtiyarsızdsır, nə də ki, müstəqil. İxtiyarı vardır, işlərini öz iradəsi ilə görür, lakin bu ixtiyar və işinin baş verməsində müstəqil deyildir. **«Əmrun beynəl əmreyi»**in mənası, nə mütləq müstqillik, nə də ki, sırf icbariyyət deməkdir.

---

[1] «Kəhf» surəsi, ayə 23-24.

## ON DOQQUZUNCU DƏRS

## BƏŞƏRİN QEYRİ İXTİYARİ İŞLƏRİ

Töhidi-əfali mərhələsində müvəhhid şəxs yəqin etməlidir ki, varlıq aləmində olan hər bir şeyin yaradıcısı yalnız Allahdır. Allah hər şeyin Xaliqidir. O, mütləq faildir. Aləmdə olan kiçik və böyükdən tutmuş bütün məxluqlara qədər hamısı Ondandır. Bu məsələ bəşərin qeyri iradi işlərində çox aşkardır. Qeyd etdiyimiz kimi, insanın da iradəli və iradəsiz işləri vardır. İradəsiz işlər onun istəyi ilə rabitəsiz olmayıb, yalnız Allah tərəfindən baş verir. İnsan bədənində baş verən proseslər buna misal ola bilər. Xəstəlik və sağlamlıq, qüdrət və acizlik də həmçinin onun iradə və ixtiyarından kənardadır. Quran bu məsələyə toxunaraq buyurur: ***«Sizi zəif bir şeydən – nutfədən, bir qətrə sudan yaradan, gücsüzlükdən sonra qüvvətli cavan edən, qüvvətli olduqdan sonra yenidən taqətsiz və qoca edən Allahdır. O, istədiyini yaradır. O, hər şeyi bilən və hər şeyə qadirdir!»***[1] Bunlar bəşərin əli çatmadığı məsələlərdir ki, heç onun istəyinə də dəxli yoxdur. Ölüm məsələsinə gələndə isə, o mütləq surətdə ixtiyarsızdır. Bəşər və başqa məxluqların qeyri ixtiyari işlərində Allahın mütləq fail olması çox aydın şəkildə bilinir.

## İNSAN İXTİYARİ İŞLƏRİNDƏ MƏCBUR DEYİLDİR

Bunu bilmək lazımdır ki, bəşərin iradə və ixtiyarı ilə etdiyi yaxşı və pis işlər cəbr və təfviz qanun əsasında deyildir. Hər bir aqil, insanın iradəli işlərində ixtiyar sahibi olduğunu başa düşür.

---

[1] «Rum» surəsi, ayə 54.

Səbir və ixtiyar haqqında çox gözəl bir misal çəkirlər: İflic vurmuş adamın əl hərəkəti onun iradəsindən kənardır. Amma sağlam adamın əlinin hərəkətindən məlum olur ki, bunu öz iradəsiylə tərpədir. Heç bir kəs iradə və ixtiyarı inkar edə bilməz. İxtiyari işlərdə bəşər heç vaxt iradəsiz ola bilməz. Əgər belə olsa, bu bizim fərziyyəmizin ziddinədir. İxtiyarın mənası, bir işi yerinə yetirməyə, və ya tərk etməyə qadir olmaq deməkdir. İnsan ixtiyarlı olan zaman, bir işi yerinə yetirmək, və ya tərk etməyi özü seçir.

Amma qeyri ixtiyari işlərin insanın iradəsinə dəxli yoxdur. Bu işlər şəxsin iradəsindən asılı olmayaraq, ya yerinə yetirilir, ya da ki, heç baş tutmur.

Cəbrin mənası iradə və ixtiyarı mütləq şəkildə insandan alınması deməkdir. Əgər bir nəfər öz iradəsiylə iş görə bilirsə, burada cəbr məsələsi batil olur. İnsanın məscidə və ya fəsad mərkəzlərinə getməsi öz iradəsiylədir. Allahı zikr etməsi və ya pis söz danışması da iradə üzündəndir. Bu mətləbləri inkar etmək ən aydın məsələləri rədd etmək deməkdir. Bunlar dəlil və sübuta ehtiycı olmayan, hamının öz vicdanı qarşısında qəbul etdiyi məsələlərdir.

İnsan işlərini öz iradəsi ilə gördüyünə görə, özünü müstəqil hesab edir. Elə bu anda təfvizin təhlükəsi qarşıya gələrək, insanı şirkə giriftar edir, özünün Allaha ehtiyaclı olduğunu yaddan çıxardır. İnsan öz iradəsinin böyük bir qüdrətə möhtac olduğuna diqqət etməlidir. Görəsən o qüdrətsiz iradə edib, bir iş görə bilərmi? Ehtiyacın içində ehtiyac vardır, istər xeyir iş olsun, istərsə də şər iş. Təkcə insanın iradəsi kifayət etmir, mütləq bir qüvvəyə də ehtiyac vardır. Allahdan tofiq olmasa, bu səbəblər hasil olub necə yerinə yetər?

## HƏR BİR XEYİR ALLAHIN TOFİQİ İLƏDİR

Hər bir kəsdən baş verən xeyir iş, Allahın izni, qüdrəti və məşiyyəti nəticəsindədir. Əgər Onun istəyi olmasa, bu işin baş verməsi qeyri mümkündür. İnsan bu işin həyata keçməsini istəyir. Amma onun var olub, həqiqətə çevrilməsi yalnız Allahın istəyi ilədir. Mənim muradımın qəbul olunması, həqiqətdə Ona istinad olunur. Çünki bütün xeyirlər Allahın əlindədir. Hər bir şeyin həyata keçməsi üçün Onun köməyi lazımdır. Elə buna görə də xeyir iş görəndə mütləq Allaha şükür edilməlidir ki, bu işdə müvəffəqiyyət verən yalnız Odur. Bir halda ki, mənim Allah ilham etdiyi iradəmdən başqa heç nəyim yoxdur. Bu da Pərvərdigarın lütf və tofiqi nəticəsindədir. Allah-Təala Quranda buyurub: ***«Onu da bilin ki, aləmlərin Rəbbi olan Allah istəməsə, siz istəyə bilməzsiniz!»***[1] İradədən sonra bütün səbəblər hamısı Allaha qayıdır. Heç kəs öz iradəsinə arxalanaraq, işləri özündən hesab etməməlidir. Mən belə etdim, elə edəcəyəm deməklə, özünü şirk xəstəliyinə düçar edə bilər. Bu anda etdiyi əməlinin heç savabı da olmayacaqdır. Çünki onun gördüyü işlər elm və mərifətlə yanaşı olmamışdır. ***«Başa düşməklə bir yerdə olan xeyir, ən böyük xeyirdir. İnsan dərk etməlidir ki, bu xeyiri onun əlinə Allah-Təala vermişdir. Xoş belə insanların halına!»***

## XEYİR ƏMƏLƏ GÖRƏ QÜRRƏLƏNMƏ, O ƏMƏLİ BATİL EDİR.

***«Ləalil-əxbar»*** kitabında belə bir rəvayət nəql olunub: «Həzrəti İmam Səccad (ə) fəqirə bir şey verəndə öz əlini öpərək buyururdu: ***«Bu əl xeyir iş görmüşdür».*** Başqa bir rəvayətdə nəql edirlər ki, öz əlindən əlavə, fəqirində əlini öpürmüş. Bu ona

[1] «Təkvir» surəsi, ayə 29.

görədir ki, həqiqətdə sədəqəni Allah-Təala qəbul edir.[1] Zahiri cəhətdən sədəqəni fəqir alsa da o, özü də xeyir işin baş verməsinə səbəb olur.

***«Əmrun beynəl əmreyi»*** insanın gördüyü hər bir işdə öz iradəsilə yanaşı Allaha da möhtac olmağı deməkdir. Məğrur adamlar bir iş görəndə elə təcəvvür edirlər ki, o işi yalnız özləri yerinə yetirmişlər. Elə buna görə də bu cür adamlara ***«belə fikirləşməyinizlə öz əməlinizi batil edirsiniz!»*** demək haqdır.

İnsan nəinki adi işlərində, hətta ibadətlərində də Allahın tofiqi olmasa, heç bir şeyə müvəffəq ola bilməz. Ayağa durub oturmağımız da Allahın qüdrət və qüvvəsilədir. Bu qədər dəlil və sübutdan sonra insanın ibadətdə təfviz və məğrurluğa sürüklənməsi çox təhlükəlidir.

## GÜNAH ETMƏK, ALLAHIN İNSANI ÖZ BAŞINA BURAXMASI NƏTİCƏSİNDƏDİR

Bir kəsin günah etməsi onun iradəsindən asılıdır. İnsan üçün hazırlanmış əzab da onun günahı öz iradəsilə etməsinə görədir. İtaət etmək Allahın istəyi ilə olduğu kimi, günahın baş verməsi də Onun istəyi ilədir. Amma günah o vaxt baş verir ki, Allah-Təala həmin şəxsi öz başına buraxır.

Əmirəl-möminin (ə) buyurur: ***«Xeyir Allahın tofiqi ilədir, amma şər isə, Allahın bəndəni başlı-başına buraxmasının nəticəsidir».*** İnsan günahı öz təqsiri üzündən edir. Amma günahın aşkar olması Allahın izni ilədir. İnsana yetişən hər bir savab və əzabın hamısı onun iradəsinin vasitəsilədir. Allah göstərməsin, əgər bəşərin iradəsi geri alınsa, bu halda o neçə ibadət və ya günah edə bilər?

---

[1]

## BƏŞƏR İRADƏ VASİTƏSİLƏ KAMALA ÇATIR

***«Heyvanlar həmişə rükü halında, həşəratlar isə səcdə halındadır. Amma bu cür rükü və səcdənin qiyməti yoxdur. Allah göstərməsin! İnsan heyvan və həşəratlar kimi namaz qılsın».***[1] İnsan idarəsinin qarşısı heç vaxt alınmır. O, səadət və bədbəxtçiliyinə də öz ixtiyarı ilə gedir. Əgər onun ixtiyarının qarşısı alınsa, o heç vaxt kamala çata bilməz. Bu anda savab və əzab məsələsi də aradan gedər. Amma əgər şərait yarandıqda günahdan çəkinə bilsə, bu onun savab əldə edib, kamala çatmasına səbəb olar. Buradan belə bir nəticəyə gəlirik ki, insandan baş verən günah və savabın hər ikisi onun iradəsinin səyəsindəndir.

İnsanın kamala çatması da onun iradəsindən asılıdır. Yaxşı işlərdə onların həyata keçməsinə iradə etmək, pis işlərdə isə iradə ilə nəfsin qarşısını almaq onun kamilləşməsinə səbəb olur. İnsanın dili onun öz ixtiyarındadır. Yaxşı və pis sözləri öz idarəsilə danışır. Əgər pis söz demək qarşıya gələndə nəfsini cilovlaya bilsə, ola bilsin ki, bir il ibadət nəticəsində əldə etdiyi kamala qovuşa bilər.

İradə və günah insanın idarəsindən asılı olub, onun kamala catmasından ötrüdür. İnsan itaət və günahda müstəqil və iradəsiz olmayıb, Allahın istəyindən də ehtiyacsız deyildir. O, günah etdiyi anda da müstəqil deyildir. O, günah etməyə iradə edə bilər, amma onun həyata keçməsi Allahın istəyiilədir. Allah-Təala Quranda buyurur: ***«Onların və bunların hər birinə Rəbbin nemətindən veririk. Rəbbinin neməti istər dünyada,***

---
[1]

***istərsə də axirətdə heç kəsə qadağan deyildir».*** [1] Hər iki tayfa Pərvərdigarın köməyinə möhtacdır.

[1] «İsra» surəsi, ayə 20.

# İYİRMİNCİ DƏRS

## ALLAHIN SİFƏTLƏRİ ONUN ZATININ EYNİDİR

Əli (ə), söhbətimizin əvvəlində qeyd etdiyimiz xütbəni belə başlayır: ***«Həmd olsun o Allaha ki, tərif edənlər Onu layiqincə tərif edə bilməzlər, nemətlərini saymaq istəyənlər onu sayıb qurtara bilməzlər».***

Xütbənin başqa bir yerində buyurur: ***«O, elə bir məbuddur ki, dərin düşüncəlilər belə Onu idrak etməkdə acizdir. Əql və fikir dəryasına dalanlar onun zatının əslinə vara bilməz. Elə bir hüdud yoxdur ki, sifətlərini əhatə edə bilsin, bir vəsf yaradılmayıb ki, zatına laiq olsun. Onun üçün məhdud bir an yoxdur. Onun nəzərindən kənarda zaman da yoxdur».*** Bu yerə çatdıqda buyurur: ***«Xalisliyinin kamalı Onu sifətlərdən uzaq bilməkdir».***

Zahiri cəhətdən bu iki cümlə, «elə bir hüdud yoxdur ki, sifətlərini əhatə edə bilsin» və «xalisliyinin kamalı Onu sifətlərdən uzaq bilməkdir» bir-birinə ziddidir.

Amma əgər cümlələrin özlərinə diqqət edilsə, bu ziddiyyət aradan gedər.

İmamın (ə) «Allahın sifəti yoxdur» deməkdə məqsədi budur ki, Allahın zatına başqa yerdən bir sifət artırılmamışdır. Yəni, Pərvərdigarın müqəddəs zatı, eyni kamaldır.

Məxluqatlarda olan sifətlər onların zatına başqa yerdən əlavə olunmuşdır. Buna misal olaraq, məxluqlardan olan elmin adını çəkmək olar.

Elm nəfsani bir keyfiyyətdir ki, insanın ruhunda hasil olur.

Elm, qüdrət və başqa bu kimi sifətlər bəşər üçün arizi, yəni başqa yerdən əlavə olunmuş bir keyfiyyətdir. Yəni xüsusiyyət

əvvəldə olmayıb, sonradan əmələ gəlir. Sifətlərin ariz olması yalnız məxluq üçündür.

## ÇOXLUĞUN OLMASI TƏRKİBİN BAŞ VERMƏSİNƏ GƏTİRİB ÇIXARDIR

Allah üçün sifətlərin ariz olması səhv bir fikirdir. Çünki, onu heç bir sifətlə vəsf etmək mümkün deyildir. Sifət və ya bir kəsin müəyyən bir sifətlə sifətlənməsi iki şeydir. Sifət vəsf olunandan, ariz məruzdan, elm də alimdən fərqli şeylərdir. Elə buna görə də Allahı vəsf etmək istəyən onu başqa birisi ilə bərabər tutmuş olur. Başqasını ona bərabər sayan ilahi zatda çoxluğa qail olmuş olur. Əgər bir nəfər ***«Allahın elmi vardır»*** dəsə, Onu iki yerə böləçəkdir. Bu cür bölüm məxluqda ayrı-ayrılıqda olan zat və elmin bölümünə bənzəyir. Kim Allahı bu şəkildə vəsf etsə, Onu başqa birisi ilə bərabər tutmuş olacaqdır. Başqasını ona bərabər sayan da çoxluğa düşmüş olacaqdır. «Yəni sifət və sifətlənən», Allah barəsində çoxluğa etiqad bəsləyən isə, Onun hissələrə bölünə biləcəyinə qail olmuşdur. Onun hissələrə bölünməyinə qail olanlar daha artıq cəhalət və küfrə düçar olmuşlar. Bu nadanlar, Allahı mürəkkəb hesab edərək, Onun vücudunun vacib olduğunu dərk etməmişdir.

Əgər sifət və sifətlənən arasında tərkib olunmaq lazım gəlsə, bu açizlık əlamətidir. Çünki mürəkkəb bir şeyin hər bir hissəsi onu tərkib edənə möhtacdır. Deməli vacibəl-vücudu tərkib edən və parçalayan bir qüdrət də olmalıdır ki, onun özü mürəkkəb olmasın. Amma əgər Allahda sifət və sifətlənməyə, eləcə də çoxluğa qail olsaq, onda o, vacibəl-vücud deyildir.

Elə buna görə də Onu sifətlərdən uzaq bilmək lazımdır. Allah-Təalanın sifəti yoxdur.

Kəlam (Üsuliddindən bəhs edən elm) elmində sifətin ariz olmasına ***«Məani»*** deyirlər. Allahın məanisi yoxdur. Yəni heç bir sifət Allahın müqəddəs zatına başqa yerdən əlavə olunmamışdır.

Əli (ə), ***«Elə bir hüdud yoxdur ki, Onun sifətlərini əhatə edə bilsin»*** deyərək, sifəti Allahın zatı üçün isbat edir. Pərvərdigarın zatı eyni elimdir, eyni həyat, qüdrət və rəhmətdir. Bununla yanaşı Onun müqəddəs zatı həmin Allahdır.

Allah sifətləri zatının eyni olduğuna görə, onda məxluqun sifətlərində olduğu kimi vaxt, əcəl, hudud və digər keyfiyyətlər yoxdur. Zatı məhdud olmadığı kimi sifətləri də məhdud deyil. Əgər məhdudiyyət mövcud olsa həmin anda acizlik və yaranacaqdır. Allah bütün bunlardan pak və münəzzəhdir.

Elm və qüdrətt kimi kamal sifətlərini öz tutumuna görə müəyyən həddə qədər əldə etmək məxluqa aid olan xüsusiyyətdir. Lakin Allah məxluqu yaranmamışdan əvvəl də Alim idi.

İndi alim olduğu kimi, gələcəkdə də alimdir. Onun əvvəli, axırı, başlanğıcı və sonu yoxdur. Onun haqqında, ***«O, yalnız yaradılmışları və hal-hazırda yaradılanları bilir»*** demək, düzgün deyildir. Onu kəmiyyət və keyfiyyətlə məhdudlandırmaq olmaz.

Onun üçün heç bir vaxt zaman və məhdudiyyət yoxdur.

Söhbətimizi təsdiq etməkdən ötrü bir neçə rəvayət nəql edirik.

## ALLAHIN SİFƏTİNİN SONU YOXDUR

***«Üsuli-Kafi»***də İmam Hadidən (ə) belə bir rəvayət nəql edirlər. İmam (ə) buyurur: ***«Allahın elminin sonuna qədər - sözünü işlətməyin. Çünki Onun elminin sonu yoxdur».***

Məsələn, Pərvərdigara! Məhəmməd və Ali Məhəmmədə (s) öz elminin sonu qədər salavat və salam göndər demək, düzgün deyildir. Çünki Allahın elminin sonu və həddi yoxdur.

Başqa bir rəvayətdə Həzrət Səccad (ə) buyurur: ***«Allah-Təala sifətlə vəsf edilməkdən çox ucadır. Çünki Onun sifətinin hüdud və nəhayəti yoxdur».***[1]

Daha başqa bir rəvayətdə İmam Səccad (ə) buyurur: ***«Əgər bütün yer və göy əhli Allahı vəsf etmək istəsələr, əsla edə bilməzlər».***[2]

Allahın elmini vəsf etmək istəyənlər, yalnız özünün kiçik həddində vəsf edə bilər. Hər bir kəsin özünə məxsus düşüncə qabiliyyəti vardır. Məxluqun əqli məhdud olduğu halda, hədsiz bir varlığa neçə tərif edə bilər? Qurani-Kərim bu barədə buyurur: ***«Onlar: «Allah heç bir bəşərə bir şey, Quran nazil etməmişdir - deməklə Allahı layiqincə qiymətləndirmədilər».***[3] Əgər insanın əqli kamil olsa, Allahı layiqincə tərif etməyin qarşısında aciz olduğunu dərk edəçəkdir.

## MƏRİFƏT KAMALININ ƏN BÖYÜK NİŞANƏSİ HƏZRƏT PEYĞƏMBƏRMİZDİR (S)

Mərifətin ən uca zirvəsinə çatan əziz Peyğəmbərimiz (s) buyurur: ***«Pərvərdigara! Mən Sənə həmd-səna və tərif deməkdə acizəm».***

İnsanın dərk qabiliyyəti onun əhatə etdiyi şeylər həddindədir. Bəşərin nəyə əhatəsi varsa, yalnız onu dərk edə bilər. Öz düşüncəsində məhdud olan məxluq məhdudiyyəti

---

[1]

[2]

[3] «Ənam» surəsi, ayə 91.

yaradan Allahı necə əhatə edə bilər? İsanın bütün varlıq aləmindən xəbəri də olsa, yenə də Allaha nisbətdə məhduddur.

Peyğəmbərimiz (s) buyurur: **«Pərvərdigara! Sənə ən layiq olan tərifi Sən özün etmisən».** Özün buyurduğun:

***«Əssəmiul əlim ələzizul həkim, əla kulli şəyin qədirun, şəhidun»*** gəlmələri Sənin şənində olan ən gözəl təriflərdir.

İnsan Allahı yalnız öz kiçik düşüncə həddində başa düşdüyünü dərk etməlidir. Allah-Təala bir kəsin Onun zat və sifətlərini dərk etməsindən çox ucadır. Übudiyyət (Allaha ibadət etmək) və mərifətin kamiliyyi budur ki, insan Onu layiqincə tanımasında aciz olduğunu dərk etsin. Bu yerdə Peyğəmbər (s) buyurur: ***«Pərvərdikara! Səni layiqincə tanıya bilmədik və Sənə layiq olduğun qədər pərəstiş edə bilmədik».***

Bu cümlələr Peyğəmbərimizin (s) kamil mərifətə və sonsuz übidiyyətə malik olmasını isbat edir.

İbadətin bir cəhəti şükür etməkdir. Görəsən bizlər Allaha layiqincə şükür edə bilirik? Pərvərdigarın hər bir şəxsə verdiyi zahiri və batini nemətlərdən sonsuzdur. Allahın nemətlərini dərk etməyin özü bir təzə nemətdir. Bu neməti dərk etməyin özünün də şükrə ehtiyacı vardır.

Bəndə bunun öhdəsindən gəlməkdə çox acizdir. Lakin insanın Allah qarşısında ən böyük təvazökarlığın alnını torpağa qoyaraq, ona təsbih və həmd deməsidir.

## TƏQVA İNSANIN GÜCÜ MİQDARINDA OLMALIDIR

Allah-Təala Qurani-Kərimdə buyurur: ***«Ey iman gətirənlər! Allahdan lazımınca qorxun».***[1] Bəzi təfsirçilər deyirlər: Bu ayə ***«Təğabun»*** surəsində olan ***«Allahdan bacardığınız qədər***

[1] «Ali-İmran» surəsi, ayə .102

***qorxun»*** [1] ayəsini açıqlayır. Amma heç bir kəs Allahdan layiqincə qorxmağa qadir deyildir. Bizim nəzərimizə görə birinci ayə ikinci ayəni təfsir etmir. Bəlkə onların hər ikisində də Allahdan qorxmaq məsələsi qeyd olunmuşdur. İnsan bacardığı qədər duyğunu qəlbin nuru ilə dərk edir. Hətta bəşərin ixtiyari işlərinin baş verməsini də, Allahın qüdrət və məşiyyətin sayəsində olduğunu başa düşür. Belə insanlar bir iş görən anda da, o işə PərAllahı bu şəkildə vəsf etsə, Onu başqa birisi ilə bərabər tutmuş ənalarından məlum olur ki, həqiqi təqvanın öhdəsindən heç kim gələ bilməz. Lakin hər bir şəxs öz bacarığı miqdarında Allahdan qorxmalıdır.

Mətləbin xülasəsi budur ki, Əli (ə)-ın bütün sifətləri Allahdan inkar etməsinin məqsədi başqa yerdən heç bir sifətin Onun zatına əlavə olunmaması mənasındadır. Yəni, Allah-Təalanın bütün sifətləri Onun eyni zatıdır. Zatı sonsuz olduğu kimi, sifətləri də sonsuzdur. Məxluqun Allahın zatı əhatə etməsi mümkün olmadığı kimi, onun sifətlərini də əhatə etməsi qeyri mümkündür.

---

[1] «Təğabun» surəsi, ayə 16.

# İYİRMİNCİ BİRİNCİ DƏRS

## HƏR BİR ELM VƏ QÜDRƏT ALLAHDANDIR

Tövhidi-sifatidə lazım olan ən əhəmiyyətli mətləbi sizin yadınıza salırıq. Tövhidi-zatidə qeyd etdiyimiz kimi, Tövhidi-sifatidə də Pərvərdigarın bütün sifətlərinin Onun elm və qüdrətinə aid olduğunu əql vasitəsilə isbat etdik. İlahinin müqəddəs zatının şəriki olmadığı kimi, Onun sifətlərinin də şəriki yoxdur. Yəni, Allahın qüdrətinə bərabər olan heç bir qüdrət yoxdur. Pərvərdigarın zatı qarşısında heç bir müstəqil varlıq olmadığı kimi, Onun elminə də çatan bir elmin olması qeyri mümkündür. Allahın qüdrəti də sonsuzdur. Məxluqda olan qüdrət və elm Pərvərdigarın ifazəsinin nəticəsidir.

Bütün mövcudların varlığının əsli özlərindən olmadığı kimi, onların kimi, onların qüdrət və elmləri də özlərindən deyildir. Mühərrikin çarxlarını hərəkətə gətirən buxarın qüvvəsi də Allahdandır. Eləcə də buxar özü, Allahın yaratdıqlarındandır. Bütün enerji növləri, o cümlədən elektirik cəryanı və insanda olan qüdrətin hamısı Allahdandır.

İbn Sina buyurur: (Çox maraqlıdır! Camaat maqnitin bir misqal dəmiri özünə tərəf necə cəzb etdiyinə təəccübləndikləri halda, bəs niyə insanın ruhunun bu ağırıqda olan bədəni çəkdiyinə təəccüblənmirlər? Bir halda ki, insan öləndən sonra onun bədənini bir neçə nəfər çox böyük zəhmətlə çəkib apara bilir. Amma insanin ruhu səhərdən axşama qədər onun bədənini çox asanlıqla o tərəf bu tərəfə aparıb, gətirə bilir.

## TOHİDİ-SİFATİDƏ QƏLBİN TƏSDİQİ

Varlığın əsli Allahdan olduğuna görə, bütün ehtiyacsızlıqlar da ondandır. Bu yerdə də təkcə əqli dəlillər kifayət etmir. Bəlkə qəlbin təsdiq etməsinə də ehtiyac vardır. Keçən söhbətlərimizdə sifətin vəhdətinin əvvəl əqli dəlillərlə isbat olunmasını qeyd etdik. Bütün elm və qüdrətlərin Allaha aid olduğunu ilk növbədə əqli dəlillərlə sübut etmək lazımdır. Lakin təkcə əqli idrak kifayət etməyib, təsdiqə də ehtiyac vardır. Təsdiqin də yeri yalnız qəlbdir. Qəlb bütün elm və qüdrətlərin Allahdan olduğuna xatircəm olmalıdır. Öz nəfsini sevərək, bütün elm və qüdrətin özünə məxsus olduğunu hesab edən insanın Allahı və Onun elm və qüdrəti görməsi qeyri mümkündür. İnsan nə qədər ki, özünün heçliyinə inanmayıb, onun həqiqəti tapması mümkün deyildir.

Güzgüyə müstəqil nəzərlə baxan adam üçün haqq həmişə gizli qalacaqdır. (Bunun misalı əvvəlki söhbətlərdə qeyd olunmuşdur.) Hələ də mənəm-mənəmlikdən dəm vuran kəs, Allahın qüdrətini necə başa düşə bilər?

Bir halda ki, «mən» bir neçə il bundan əvvəl bir parça torpaq idim və bir neçə il bundan sonra da torpaq olacağam. Lakin insan öz qüdrətinin müstəqil olduğuna inandığına görə, bütün qüdrətlərin yalnız Allahdan olduğuna inana bilmir. Amma bunu bilməlidir ki, iradə edərək əl-ayağını tərpətməsi, dilinin hərəkət etməsi və bütün fəaliyyətlərin hamısı Allahın ona bəxş etdiyi nemətlərdəndir.

## MƏNƏM-MƏNƏMLİKLƏ EDİLƏN ALTI MİN İLLİK İBADƏT!!

Mənəm-mənəmlikdən uzaqlaşmaq üçün nəfs ilə cihad etmək lazımdır. İnsan nə qədər ki, «mənim elmim, mənim qüdrətim»

deyir, onun qəlbinin Allah qarşısında müti olması qeyri mümkündür. Öz varlığında zərrə qədər ehtiyacsızlıq hiss etməyən kəs, o qədər ehtiyacsızlıq hiss etməyən kəs, o qədər də Allahına tüğyan edəcəkdir. Quran bu barədə buyurur***: «Xeyir, insan azğınlıq edər, özünün dövlətli olduğunu, bir şey ehtiyacı olmadığını gördüyü üçün!»***[1] İnsanın dövlət və elmi çoxalan halda, mənəm-mənəmlik edərək tüğyan etməyə başlayır. Bir halda ki, onun özünü ehtiyacsız hesab etməsi boş xəyaldan başqa bir şey deyildir. Çünki elmlərin hamısı Allaha məxsusdur. Lakin iş hətta o yerə çatır ki, insan tuğyan edərək Allahla qarşı-qarşıya dayanır.

İblis altı min il ibadət edir. Bu ilin dünya və ya axirət ili olması məlum deyildir. Amma ona – Adəmə səcdə et! - əmri verildiyi zaman, nəfsində təkəbbür olduğuna görə, «mən ondan yaxşıyam» deyir. Allahın əmrinə itaət etməyib, Onunla qarşı-qarşıya dayanır.

Bütün nəfslər belədir. Tənha Şeytandır ki, təkəbbür edərək, haqqın qarşısında müqavimət göstərir. Amma öz vicdanının səsinə qulaq asan adam məsələnin belə olmadığını başa düşə bilər. Yalnız özünü və öz əlamətlərini görən adam, Allahı və Onun nemətlərini necə görə bilər? Həqiqətdə belə adamlar əsil məqsədə arxa çevirərək, heç vaxt ona çata bilməyəçəklər.

## DÖVLƏTLİLİK TUĞYANA SƏBƏB OLUR

Qarun elmi məlumatların sayəsində çoxlu xəzinə əldə edərək dövlətlənmişdi. Quran bu barədə buyurur: ***«Həqiqətən, Qarun Musa (ə) qövmündən idi. O, Bəni-israilə qarşı zülm etməkdə, Musanın (ə) üzünə ağ olmaqda və özünü yuxarı tutmaqla həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü***

---

[1] «Ələq» surəsi, ayə 6-7.

***adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik».*** [1] Qeyda edirlər ki, o, kimyagərlik edərək böyük xəzinələrə sahib oldu və onun anbarlarının açarlarını qırx nəfər güclə daşıyırdı.

Gövmü belə dedi: ***«Malınıa qürrələnib sevinmə. Şübhəsiz ki, Allah malına qürələnib sevinənləri sevməz!»***[2]

Musa (ə) ondan malının zəkatını tələb edəndə, Qarun dedi: ***«Bu var-dövlət mənə yalnız məndə olan elm sayəsində verilmişdir».***[3]

O, «Allahın elmi deyil, öz elmim» kəlməsini işlədərək dedi: «Bu var-dövlətdə heç kimin haqqı yoxdur, onun sahibi tənha mənəm». Bu vəziyyətdə olan şəxs, Quranın buyurduğu: ***«Göylədə və yerdə nə varsa, hamısı Allaha məxsusdur»*** [4] məsələsini necə dərk edə bilər?

Mənim elmim, mənim dəvlətim, mənim xəzinəm deyən adamın, Allahın malikiyyətini dərk etməsi qeyri mümkündür.

## QƏSAVƏT BAĞLAMIŞ ÖLÜMÜLƏ DƏ OYANA BİLMİR

Firon Misirdəki zahiri cah-cəlal və qüdrətini görərək deyir: «Ey qəvmüm! Məgər Misir səltənəti, saraylarımın altından axan bu caylar mənim deyilmi?! Məgər mənim qüdrətimi görmürsünüzmü?!» [5] Mənim səltənətim deyən adam, Allahın səltənətini necə dərk edə bilər? Bizim hamımızın Allahın qüdrəti qarşısında heç bir şey olduğumuz necə başa düşə bilər? Belə fikirləşmək həqiqəti dərk etməyin qarşısını alır. Amma bu anda iman gətirməyin daha faydası yoxdur. Qurani-Kərim bu barədə

---

[1] «Qəssas» surəsi, ayə 76.
[2]
[3]
[4] «Ali-İmran» surəsi, ayə 189.
[5]

buyurur: ***«Bəni-israili dəryadan sag-salamat keçirtdi. Firon və onun əskərləri vəhşiliklə onların arxasınca düşdülər. Firon batacağı anda: Bəni-İsrailin inandığı tanrıdan başqa tanrının olmadığına iman gətirdim. Mən artıq Ona təslim olanlardanam! - dedi»***[1] Bu anda dənizin dalğaları onun ağzını yumdu. Ölüm zamanı iman gətirənlər haqqında Allah-Təala buyurur: «***Əgər geri qaytarılsaydılar, yenə də onlar qadağan olunduqları şeyə - küfrə və günaha əl atardılar. Onlar, şübhəsiz ki, yalançıdırlar!***»[2]

Qəlb ölübsə, daha ona ümid yoxdur. Əgər qəlbin qarşısından hicab götürülsə, həqiqət aşkar olar. Əks halda hicablanmış qəlb, heç ölümlə də oyanmayacaqdır. Doğrudur ki, bu anda qəlb üçün həqiqət kəşf olur, lakin qəlb ölü olduğuna görə həqiqətə inana bilmir. Çünki əqli dəlillərlə kifayətlənən, qəlb iman gətirməmişdir. Belə qəlblər ölümdən sonra da hicablı və təkəbbürlü haldadır. Ölümdən qabaq oyanmayan qəlb, əbədi olaraq oyanmayacaqdır. Sözün qısası, nəfsi hicablı olan kəs, ölümdən sonra da hicablı olacaqdır. Yüz dəfə ölüb, dirilsə də yenə də iman gətirən deyildir.

Qəlbi bürüyən zülmət hicablarının götrülməsi ilə hər bir şeyin Allahın elm və qüdrəti qarşısında heç olduğu aşkara çıxır. İnsan bu aləmdə zühur edən hər bir şeyin yalnız Allahın elm və qüdrətinin nəticəsi olduğunu dərk edir. Deməli, əsil qüdrət sahibi olan Allahdan qorxub, Ona da ümid bəsləmək lazımdır. Həyati təcrübələr sübut edir ki, dünyanın ən qüvvətli adamları Allah istəməyənə qədər heç bir şey görə bilməyiblər. Eləcə də Allah istəyən şəxsə bütün dünyanın adamları zərbə vurmaq istəsələr belə, bacara bilməyəcəklər.

---

[1] «Qəssas» surəsi, ayə 4.

[2] «» surəsi, ayə 76.

## DANYALIN (Ə) YIRTICI ŞİRLƏ BİRLİKDƏ QUYUDA QALMASI

***«Həyatul-qulub»*** kitabında belə bir rəvayət vardır: Bəxtunnəsr adlı padışah Danyal (ə) peyğəmbəri ən ağır işgəncələrlə öldürmək istəyəndə, əmr verdi ki, dişi bir şiri dərin bir quyuya salsınlar. Peyğəmbəri də tutub həmin quyuya atdılar. Əgər adi insan olsaydı, o dəqiqə qorxudan ürəyi partlayıb ölərdi. Amma Danyal (ə) bilirdi ki, şirdə olan qüdrət də Allahın qüdrətidir. Əgər Allah izn versə şir onu parçalayacaqdır. Əksinə, əgər Pərvərdigarın izni olmasa, şirin onunla işi olmayacaqdır.

Rəvayət edirlər ki, şir torpaq yeyir, Danyal (ə) isə ölməməkdən ötrü şirin döyüşdən süd içirdi.

Amma mərhum Məclisinin (r.ə) «Həyatul-qulub»da nəql etdiyinə görə, Allah-Təala həmin dövrdə yaşayan digər bir zəmanə peyğəmbərinə Danyal (ə) üçün xörək aparmağı vəhy etdi. Danyal (ə) xörəyi görüb dedi:

Həmd olsun o Allaha ki, Onu yad edənləri heç vaxt yaddan çıxartmır.

Deməli tövhidi-sifatini dərk etməyin nəticəsi budur ki, insan yalnız Allahdan qorxaraq, ümidini də ancaq Ona bağlamış olsun. Bu halda insan fəqirlikdən də qorxmur. Çünki mütləq qüdrət sahibi olan Allah istəsə, onun ehtiyaclarını hətta təsəvvür etmədiyi yerdən təmin edəcəkdir.

## İYİRMİ İKİNCİ DƏRS

## ALLAHDAN QAFİL OLMAQ, MÜXTƏLİF ÇƏKİŞMƏLƏRƏ SƏBƏB OLUR

Qəlb inandıqdan sonra orada nurun yaranmasıyla insan bütün kamalların yalnız Allahdan olduğunu dərk edir. Bütün mövcudların zat və sifət cəhətindən müstəqil olmayıb, elm və qüdrətin Allaha məxsus olduğunu tövhidi-sifati barəsində etdiyimiz keçən söhbətimizdə qeyd etdik.

Tövhidi-əfalidə də mətləb bu şəkildədir. İnsan qəlbində olan hicabları aradan aparıb nəfsindəki təkəbbürü azaltdıqdan sonra, bütün işlərdə həqiqi failin yalnız Allah olduğunu qəlbin nuru ilə dərk edir. Hətta, bəşərin ixtiyari işlərinin baş verməsini də Allahın qüdrət və məşiyyətinin sayəsində olduğunu başa düşür. Belə insanlar bir iş görən anda da, o işə Pərvərdigarın idarə və istək nəzərilə baxırlar. İnsan nə qədər ki, özündə müəyyən bir qüdrət görür, dilində ***«La hövlə vəla qüvvətə illa billah»*** desə də heç vaxt tövhidi-əfali məqamına çata bilməyəcəkdir. Öz qüdrətini bir şey hesab edən kəs, əvvəldə qeyd etdiyimiz «təfviz» xəstəliyindəndir. Beləəri Allaha şərik qoşmaqdan qorxmalıdırlar. Çünki onlar öz qüdrətlərini Pərvərdigarın qüdrəti qarşısında qərar verərək, Onun əzəmətini unudurlar.

Bu təkəbbür insanı bütün səadətlərdən məhrum edib, hər cür bədbəxtliyə vadar edə bilər. Belə insanlar həmişə zəhmət içindədirlər. Bəşər arasında baş verən çəkişmələr də elə bunun nəticəsidir. Çünki özünü və rəqibini müstəqil hesab edib, onu aradan götürmək istəyir. Allahı öz işlərində mütləq fail hesab edən iki nəfərin bir-biriylə çəkişməsi qeyri mümkündür. Peyğəmbərlər və övliyalar arasında heç vaxt çəkişmə

olmamışdır. Çünki onlar islah olunmuş insanlardır, bütün qüdrətlərin yalnız Allaha məxsus olduğunu bilirlər.

Dünyada baş verən müharibələr həqiqətdə təkəbbür və cəhalət üzündəndir. Allah-Təala Quranda buyurur: ***«Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu, xeyirlərini başa düşməyən kimsələrə bənzəməyin! Onlar Allahın itaətindən çıxmış fasiqlərdir».***[1]

İnsan Allahın qüdrətini görə bilməsə, öz acizliyini də görə bilməyəcəkdir. ***«Onlar öz şübhələrində tərəddüd edib durarlar».***[2] Belə adamlar yalnız fəsada səbəb olurlar.

Peyğəmbərlər bəşəriyyətin təkəbbürünü aradan aparmaqdan ötrü zühur etmişlər. Onlar bir-birlərinin ardınca gələrək bəşərin zat, sifət və fel cəhətindən mümkünəl-vücud və aciz olduğunu insana başa salıblar.

Bizim zat və əslimiz Allahdandır. Sifət və bütün qüdrətlər də Ona məxsusdur. Peygəmbərlərin (s) proqramları insanları nəfs çirkinliklərindən pak etmək olmuşdur.

## ÇİLOVU BURAXMAQLA NƏFS, ƏMMARƏYƏ ÇEVRİLİR

***«Mütəhhir»***[3] Allahın ən gözəl adlarından biridir. Şirk və təkkəbür nəcasətini yeddi dəryanın suyu da pak edə bilməz. Onu ancaq Allah pak edə bilər. Təkəbbür insanın xeyir əmmallərdən saxlayaraq, onu bütün şər işlərə vadar edir. Əgər nəfsin cilovu boşlansa o, «əmarəyyə» (quduzluğa) çevrilər. Quran bu nəfs barəsində buyurur: ***«Nəfsi-əmmarə insana pis işlər görməyi, şəhvətə uymağı əmr edər».***[4]

---

[1] «Həşr» surəsi, ayə 19.
[2] «Tövbə» surəsi, ayə 45.
[3]
[4] «Yusif» surəsi, ayə 53.

Bu nəfs insanın vücudundan ayrı bir varlıq deyilir. O, həmin nəfsdir ki, insan ona itaət edib, onun əmirlərinə boyun əyməklə öz şəxsiyyətini, şərəf və ləyaqətini əldən verir. İnsan nəfsi əmmarədən yaxa qurtarmaq üçün şəriətin qoyduğu proqramlar əsasnda zəhmət çəkməlidir. Əmmarəni cilovlayıb təkəbbürlüyünü azaltmaqla başa düşməlidir ki, bütün qüdrətlər yalnız Allaha məxsusdur. Məğrurluq aradan gedəndən sonra, məqam, mal və başqa şeylər üçün olan çəkişmələr də aradan gedəcəkdir. Bu anda insan yalnız Allahın elm və qüdrətinin təhsirini görərək, Onun camalından başqa bir şeyə tamaşa etməz.

## SƏHİFƏYƏ-SƏCCADİYYƏDƏN MARAQLI CÜMLƏLƏR

İman Zeynəl-abidin (ə) «Məkarimuli-əxlaq» duasnını 24-cü bəndində çox əhəmiyyətli bir məsələyə toxunur: ***«Pərvərdigara! Məhəmməd və Ali Məhəmmədə salavat və salam göndər. İlahi! Məni həmişə asanlıqla qərar ver ki, məxluqdan bir şey istəməyim. Çünki əgər kimsə mənə bir şey versə, ona tərif etmək məcburiyyətində qalaram»***.

Məxluqa möhtac olmaq təhlükəli bir şeydir. Əgər insan məxluqu müstəqil hesab edib öz çətinliklərinin aradan qaldırması ümidi ilə ona müraciət etsə, elə həmin anda da Allaha şərik qoşaraq, töhvidi-əfali məqamından uzaqlaşacaqdır. İnsan belə anlarda çox ehtiyatlı olmalıdır. Bəndədən bir şey istəyəndə də bütün diqqəti Allahda olmalıdır. Yəni, ***«Pərvərdigara! Əgər sən istəsən, mənim çətinliyimi bu şəxsin vasitəsilə həll edə bilərsən».*** Əgər bu şəkildə olsa, tövhidi-əfalinin sınağından keçməyə ümidi vardır. Çünki tövhidi imtahan körpüsü tükdən nazik, qılıncdan isə itidir. İnsan kiçik bir səhv etməklə bu məqamdan süqut edə bilər.

Amma əgər o, bir kəsin yanına kömək istəmək və ya ruzi tələb etmək niyyətilə getsə və həmin şəxs də onun hacətini yerinə yetirə bilsə, bunun çox böyük təhlükəsi vardır. Çünki insan bu yerdə Allahdan qafil olub, onun hacətini yerinə yetirən şəxsi müstəqil tərifə layiq bilir. Halbu ki, Allah o şəxsə qüdrət və tofiq verməsəydi, heç vaxt bu çətinliyi həll edə bilməzdi.

Əgər həmin şəxs çətinliyi həll edə bilməsə, insan onu məzəmmət etməyə başlayır. ***«Pul istədim, ola-ola mənə vermədi».*** Belə deməklə, qəlbində o şəxsə qarşı düşmənçilik hissi yaradaraq, əvəzini çıxmaq fikrinə düşür. Bu halda da insan şirk etmiş olur. Deməli, insan hər iki vəziyyətdə böyük təhlükə ilə qarşılaşır. Çətinliyi həll edən şəxsi müstəqil tərifə layiq bilir, həll edə bilməyəndə isə onu məzəmmət etməyə başlayır.

Amma əslində insan onu çətinliyini həll edə bilməyən şəxsi məzəmmət etməməlidir. Bu anda əgər - «bu işdə Allahın istəyi olmamışdır» - desə, inşallah Pərvərdigari-aləm onun çətinliyini başqa bir yerdən həll edəcəkdir. Çünki həqiqi çətinliyi həll edən yalnız Allahdır. Bilmək lazımdır ki, Pərvərdigar sənin hacətini yerinə yetirmək üçün o şəxsə tofiq verməmişdir. Onun haqqında pis fikirləşib, pis danışmaq lazım deyildir.

Amma çox az adam vardır ki, bu vəziyyətdə şirkə düçar olmasın.

## MÜSTƏQİL TƏRİF VƏ MÜSTƏQİL MƏZƏMMƏTİN BƏLALARI

Bizim çətinliyimizi həll edən adamı tərif edir, həll edə bilməyəni isə məzəmmət edirik.

Bir halda ki, məzəmmət olunmalı həmin şəxsi özüdür ki, qarşı tərəfi müstəqil tərifə layiq bilmişdir. Lakin «Biharul-ənvar»da nəql olunan, ***«məxluqa təşəkkür etməyən kəs, Xaliqə də şükür etməyəcəkdir»*** hədisinə əsasən, tərif özü-özlüyündə

vacib bir işdir. Çünki xeyir işlərdə vasitəçi olan insanları tərif etmək lazımdır, amma tərif, misal üçün bu şəkildə olmalıdır: Allah bu xeyir işi sənin əlinlə məqsədə çatdırdığına görə, sənə əcr və əvəzin versin!

Lakin Allahı nəzər almadan şəxsin özünü müstəqil tərifə laiq bilərək, bu xeyir işi yerinə yetirdiyinə görə, sənə təşəkkür edirəm!-demək, çox təhlükəlidir.

Məzəmmət məsəli də belədir. Əgər Allah o şəxsə qüdrət verməsə, heç bir işi həll edə bilməz. Məgər ümidvar olduğunuz adamların, Allah istəmədiyi halda, ən asan işləri belə həll edə bilmədiklərini görməmisinizmi?

Əlbəttə bu anda insan, keçən söhbətlərimizdə qeyd etdiyimiz, cəbr və təfvizlə qarşılaşır.

Elə buna görə də yaddan çıxartmayaq ki, gündə bir neçə dəfə ***«İyyakə nəbudu və iyyakə nəstəin»*** deməklə, Allahdan kömək istəyirik.

Namazda yalnız Allahdan kömək istədiyin halda, bəs niyə məxluq sənə bir şey verəndə onu tərif edir, inkar edəndə isə məzəmmət edirsən?

Əgər Allahdan kömək istəyirdinsə, sənə bir şey bağışlayan məxluqu tərif etməyin nədən ötrüdür? Bir halda ki məxluqun sənə etdiyi yaxşılıq yalnız Allahın mərhəməti sayəsindədir. Lakin sən Allahı unudaraq, bu xeyir işdə tənha vasitəyə səbəb olan aciz bir şəxsdən yapışırsan.

O şəxs sənə bir şeyi verməkdən imtina etdikdə də, onu müstəqil hesab edib, məzəmmət etmə. Əksinə, belə fikirləşməlisən ki, Allah bu xeyir işdə ona tofiq verməmişdir. Allahı unudaraq, müstəqil tərif verməmişdir. Allahı unudaraq, müstəqil tərif və məzəmmət etmək yalnız nəfsin işidir. Nəfs hiyləgərlik edərək həm özünü, həm də başqalarını müstəqil hesab edir.

## PƏRVƏRDİGARA! BƏXŞ VƏ İMTİNA ETMƏK YALNIZ SƏNDƏNDİR!

Pərvərdigara! Mənə bir şey əta olunanda, yalnız Sənin qüdrət və vilayətin sayəsində olur, məndən bir şey inkar olunanda da Sənin tofiqinin olmamağı üzündən olur!

Demək olar ki, əksər müsəlmanlar, keçən söhbətimizdə qeyd etdiyimiz şirkə düçar olurlar. Özümüzü müvəhhid adlandırdırdığımıza baxmayaraq, məxluq bizə bir şey bağışlayanda və ya imtina edəndə onu bu işlərdə müstəqil hesab edirik. Görəsən niyə bu qədər cəhalət və nadanlıq bataqlığında qərq olmuşuq? Bütün məxluqları müəyyən bir qüdrətə malik bilib, Allahı isə yaddan çıxardırıq.

Vəzifə, məqam, pul və qüdrəti insanlara bəxş edən Allahdır. Əgər bundan başqa kimdəsə müəyyən güc və qüdrət görsən bil ki, onun da qüdrəti arizidir, yəni Allahın bəxş etdiyi nemətlərdəndir. Yəni, onda olan qüdrət zati deyildir. Pul və qüdrət bu gün onun, sabah isə başqasının əlində olacaqdır. Bunlar bəşərin özü üçün hazırladığı müvəqqəti qanunlar əsasındadır. Yəni, əslində bunların həqiqəti yoxdur. Pərvərdigara! ***«Şirki bizdən uzaq et ki, zat, sifət və feldə müşrik olmayaq!»***

## İYİRMİ ÜÇÜNC DƏRS

## MÜTLƏQ KAMAL SAHİBİ YALNIZ ALLAHDIR

Tövhidi-sifati və əfali islamın böyük əhəmiyyətə malik olan əqidəvi məsələlərindəndir. Bunu öyrənmək hamıya vacibdir. Özü də elə öyrənmək lazımdır ki, insan üçün qaranlıq bir yer qalmasın, əməl məqamında da onları həyata keçirə bilsin. Möminlərə nəsib olan bütün bərəkətlər, tövhidi-sifati və əfalinin bərəkəti sayəsindədir. Onların əldə etdiyi məqam, kamal və imanın dərəcələri yalnız bunun nəticəsindədir. Qurani-Kərimin mərifət fəslində aid olan ən əzəmətli ayələri tövhidi-sifati və əfalinin əsasındadır. Bütün təriflər Allah üçündür. Nə qədər kamal sifətlər varsa, hamısı Allahdandır. Varlıq aləmində olan bütün mülk və hökümət yalnız Ondandır. Həqiqi kamal Ona məxsus olduğu kimi, mütləq və həqiqi fail də Odur.

Əqli dəlillərə aid olan bir məsələni sizin diqqətinizə çatdırırıq. Varlıq ilkin yaranışda Allaha ehtiyaclı olduğu kimi, ikinci mərhələ olan kamillik mərhələsində də Ona möhtacdır. Əsil varlığında təpədən-dırnağa qədər ehtiyaclı olan məxluq, sifət və feyl mərhələsində də Allaha ehtiyaclıdır. Yəni işinin həyata keçməsində Allah-Təala ona qüdrət verməlidir. Məxluq zat, sifət və fel çəhətində mümkün və möhtacdır.

## MƏXLUQATIN TƏSİRİNİN HASİL OLMASI DA ALLAHDANDIR

Od əsil yaranışında Allaha möhtacdır. O hərəkətə səbəb olmasında da Pərvərdigara ehtiyaclıdır. Çünki mahiyyəti əsil varlıqdan qət etsək, o yoxluğa düçar olacaqdır. Allah bütün

mövcudlara həyat bağışladığı kimi, onların səbəblərinin hasil olması və Pərvərdigarın qüdrəti sayəsindəndir.

Odun yaranması və onun hərarətinin təsir etməsi də Allahdandır.

Odun yaranması, yandırması və yandırdığı şeyin yanması da Allahın izni və məşiyyəti sayəsindədir. Bütün varlıq donu geyən şeylər, onların təsir etməsi və təsirlərinin hasil olması İlahi qüdrətini nəticəsidir.

Bu məsələni müvəhhidlər üçün daha da aydınlaşdırmaqdan ötrü, Allah-Təala bir neçə misal zikr etmişdir:

Bu misallarla bütün səbəblərin olmasına baxmayaraq, onlar təsir göstərə bilmirlər. Yaxud da ki, təsir vardır, amma onun nəticəsi hasil olmur. Eləcə və fikirləşməyin ki, hər bir səbəb təsir göstərəndən sonra, daha Allaha ehtiyac duyulmadan onun nəticəsi mütləq hasil olmalıdır.

## İBRAHİM (Ə) ÜÇÜN ODUN GÜLÜSTANA CEVRİLMƏSİ

Qurani-Kərim İbrahim (ə) Nəmrudun adamları tərəfindən oda atılmasını zikr edir. Tarixdə yazılmışdır ki, çox əzəmətli bir od qalanmışdı. Hətta quşlar belə onun yaxınlığında uça bilmirdilər. Nəmrudun adamları İbrahimi (ə) oda atmaqdan ötrü nacar qalıb, mancanaqdan istifadə etdilər. Amma peyğəmbər (ə) oda düşən kimi nida gəldi: ***«Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!»***[1]

Pərvərdigarın özünün təkvini nidası və mücərrəd iradəsilə həmin anda yandırmaq xüsusiyyətini oddan geri aldı. Bu misal əsasən, müvəhhidlər bütün səbəblərin müstəqil olmamasını və

[1] «Ənbiya» surəsi, ayə 69.

onların təsir göstərməsini də Allahın məşiyyətinə bağlı olduğunu başa düşməlidirlər.

Baxın görün, aləmdə həyata keçməsi üçün bütün şəraitlərin hasil olduğu, amma heç bir şəkildə həyata keçməyən nə qədər işlər vardır. Bütün yaradılmışların Xaliqi yalnız Allahdır. Elə səbəblər də vardır ki, onların həyata keçməsinə zərrə qədər ümid olmadığı bir halda, nəticələr hasil olur. Bu misallar heç bir şeyin, hətta səbəblərin də müstəqil olmadığını müvəhhidə başa salmaqdan ötrüdür. O, bilməlidir ki, Allah-Təala səbəbləri hansı həddə qədər istəsə, həyata keçirə bilər.

## ƏSABİ-FİL NECƏ HƏLAK OLDU?

Allah-Təala «əsabi-fil»in başına gələnlər barəsində Quranda buyurur: ***«O quşlar onların başına gildən möhkəm xırda daşlar yağdırdı. Və Rəbbin onları həşarat tərəfindən yeyilmiş əkin yarpağına, saman çöpünə döndərdi».***[1]

Bu əhəmiyyətli tarixi hadisə ərəb tarixinin başlanğıcına səbəb oldu.

Əbrəhə fillərdən ibarət olan böyük bir ordunu Kəbəni dağıtmaq üçün göndərdi. Lakin bu ordu Kəbəyə çatmamış, Əbabil quşları tərəfindən məhv edildi.

Quşlar hər biri özləri ilə gətirdikləri noxuddan da kiçik üç ədəd daşla ordunun üç əsgər və üç filini öldürdülər.

Belə ki, hər bir quş, fili minmiş əsgərin başının üstündə dayanıb dimdiyindəki daşı onun başına atırdı. Daş əsgərin başından daxil olub, filin qarnından çıxırdı. Beləliklə də əsgər və fil hər ikisi həlak olurdu.

Allah-Təala bu hadisəni insanın ibrət almasından ötrü nəql edir.

---

[1] «Fil» surəsi, ayə 1-5.

Görəsən adam öldürmək qabiliyyəti olmayan bu kiçik daşa, öldürmək qabilliyyətini kim verdi? Necə oldu ki, bu daş onları dəlik-deşik etdi? Belə bir rəvayət nəql olunur: «Əgər Allah-Təala bir möminə xeyirli iradə verib, onun bəsirətini açmaq istəsə, ümid olmayan yerdən onun üçün xeyir göndərər».

Allah bu barədə Quranda buyurur: ***«Və ona gözləmədiyi yerdən ruzi verər».***[1]

## GÜLLƏ YAĞIŞI ALTINDAN SAĞ-SALAMAT ÇIXIR

Bu rəvayət və hadisələr möminin hər bir səbəbin təsirli olmasının yalnız Allah tərəfindən olduğunu bilməsindən ötrüdür. İraqın bizimlə etdiyi müharibədə bu cür hadisələr baş vermişdir.

Allah-Təala bizim əsgərlərin bizim imanlarını artırmaqdan ötrü belə hadisələri onlara çox göstərmişdir.

İslam fədaələrinin başçısı mənim üçün belə nəql edirdi: Müharibədə düşmənlə döyüşdə mühasirəyə düşmüşdüm. Hər tərəfdən məni gülləbaran edirdilər. Beş dəqiqə ərzində mənə otuza yaxın güllə atdılar. Amma elə bil mənim nə isə qoruyaraq güllələrin mənə dəyməsinin qarşısını alırdı. Sonradan dostlarım mənə dedilər ki, biz elə fikirləşirdik ki, elə birinci güllədən sənin işin bitdi.

Bunların hamısı Allahın lütfünün nəticəsidir. Pərvərdigar insanlara başa salmaq istəyir ki, səbəb və onların təsir etməsi Allah tərəfindəndir. Güllənin atılmasında insana aid olan şey yalnız onun iradəsidir. Amma güllənin atılması, onun hədəfə dəyməsi və təsir göstərməsi hamısı Allahdandır.

Pərvərdigar Ənfal surəsində buyurur: ***«Ey möminlər! Bədrdə kafirləri siz öldürmədiniz, Allah öldürür».***[2]

---

[1] «Talaq» surəsi, ayə 3.
[2]

Qətlin baş verməsi Allahın tərfindəndir. Sizin işiniz yalnız gülləni atmağa iradə etməkdir. Amma güllənin atılması, hədəfə dəyməsi və öldürməsi ancaq Allahdandır.

Pərvərdigar Peyğəmbərə (s) xitab edərək buyurur: «***Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq atdığın zaman sən atmadın, Allah atdı***».[1]

## QUM DƏNƏLƏRİ KAFİRLƏRİN GÖZÜNƏ GİRİR

Müharibələrin birində Həzrəti Peyğəmbər (s) bir ovuc torpaq götürüb kafirlərə tərəf ataraq buyurdu: «**Şahətil vücuh**».

Rəvayət edirlər ki, qum dənələri min nəfərə yaxın olan düşmənin hamısının gözlərinə daxil olub, onları narahat etdi. Düşmən bu ağrıya dözə bilməyib qaçmağa üz qoydu.

Allah-Təala buyurur: ***«Ya Peyğəmbərim! Düşmənin gözünə bir ovuc torpaq atdığın zaman, sən atmadın»***.[2] Ayənin zahiri mənası bu məsələni Peyğəmbər (s) haqqında həm inkar, həm də isbat edir. Amma əsil mənasına baxanda burada heç bir ziddiyyət yoxdur. «Sən atmadın» bu işin həyata keçib, təsir etməsi mənasındadır. «Sən atdığın zaman» isə Peyğəmbərin (s) iradə etməsinə işarədir. Yəni Həzrəti Peyğəmbər (s) bir ovuc torpağı düşmən tərəfə atmaqda yalnız iradə edir. Amma torpağın atılması, düşmənin gözünə təsir etməsi və onların qaçmaqları, hamısı Allahın işidir.

Bəndədən baş verən şey yalnız iradədir. İşin baş verməsi və təsir göstərməsi isə Allahdandır. Bu məsələdə heç bir icbar yoxdur. Çünki bütün işlər bəndənin öz iradəsilə baş verir. Buna görə də insanın savab qazanması və ya əzaba düçar olması, elə

---

[1]

[2] «Ənfal» surəsi, ayə 17.

həmin iradə üzündəndir. İşin həyata keçməsi və təsir göstərməsi isə iradəyə deyil, Allahın istəyinə bağlıdır.

Çünki çox müşahidə olunmuşdur ki, əksər məsələlərdə bütün səbəblərin hazır olmasına baxmayaraq, gözlənilən iş həyata keçməmişdir. Bəzi məsələlərdə də heç bir səbəb olmadığı bir halda, həmin məsələ gözlənilmədən həyata keçmişdir.

Bütün xeyir və kamallar hamısı Allahdandır. Hətta bəşərin sifət və əfalında da baş verən dəyişikliklər Ondandır. Birisi həkim olmaq istəyir. Tibb elmini öyrənməkdən ütrü ona düşüncə qabiliyyəti verən Allahdır. Elmi öyrənmək üçün iradə edən insandır. Amma onu insanın hafizəsində qoruyub saxlayan və mətləbləri bir-birindən düzgün ayırmaqda ona kömək edən Allahdır. Dərmanın təsir göstərməsi də Pərvərdigar tərəfindəndir. Sözün qısası hər bir hadisənin baş verməsi yalnız Allahdandır. Həmd və mülk Ona məxsusdur.

Hər bir kamal Ondan olduğu kimi, hər tərif də Onun üçündür. ***«Əlhəmdu lillah».***

Məxluq kamala səbəb olduğu üçün onu tərif etmək də lazımdır. Elə buna görə də Allah-Təala buyurur: ***«Xeyirə səbəb olan hər bir şey, tərif olunmalıdır».***[1]

---

1

## İYİRMİ DÖRDÜNCÜ DƏRS

## GÖRƏSƏN MÜHARİBƏYƏ GETMƏSƏYDİ, ÖLDÜRÜLMƏYƏCƏKDİ?

Hər bir fərd şirkə düçar olmamaqdan ötrü, çalışıb öz tövhid etiqadlarını qaydasına salmalıdır. Bir çox möminlər əsasən gizli şirkə - ***«şirki-xofi»***yə düçar olurlar.

Allah-Təala ***«Yusif»*** surəsinin axırıncı ayəsində buyurur: ***«Onların əksəriyyəti ancaq şərik qoşmaqla Allaha inanarlar».***[1]

Elə buna görə də sifət və əfalda şirkə yol verməməkdən ötrü, tövhid məsələsində çalışmaq lazımdır.

Əgər bir şəxs səbəb və təsiri müstəqil hesab etsə, həmin anda da şirkə düçar olacaqdır. Əsil varlığında başqasına möhtac olan kəs, təsir etməkdə necə müstəqil ola bilər?

Allah-Təala ***«Ali-imran»*** surəsinin 155-ci ayəsində buyurur: ***«Ey iman gətirənlər! Səfərə və ya müharibəyə getmiş, orada vəfat etmiş və ya öldürülmüş qardaşları barəsində: Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər, deyən kafirlər kimi olmayın!»*** Belə demək küfrdür. Çünki bu əqidənin sahibləri səbəbi müstəqil hesab edirlər. Onların kafir olmaqları Allah-Təalanın sonrakı cümləsində daha da aydın şəkildə görünür. ***«Halbuki, dirildən də, öldürən də Allahdır. Allah etdiyiniz işləri görəndir!»***[2] Bir kəsi güllə-baran etsələr də, əgər Allahın onun ölmünə istəyi olmasa, mütləq diri qalacaqdır. Lakin əgər bir kəsin ölümünə Allahın məsləhəti olsa, o ən kiçik səbəblə də ölə bilər. Ölümdən qorxub səfərə və ya müharibəyə

---

[1] «Yusif» surəsi, ayə 106.
[2] «Ali-İmran» surəsi, ayə 157.

getməmək düzgün deyildir, bu səbəblər ölümdən ötrü müstəqil amil deyillər. Bunları müstəqil səbəb hesab edən kəs kafirdir.

## CAN ALMAQ YALNIZ CANI VERƏNİN İŞİDİR

Əgər bütün aləm toplanıb bir kəsin canını almaq istəsə, ala bilməyəcəkdir. Çünki canı alan yalnız Allahdır. Məxluqun əlindən gələn şey, ancaq ölümün səbəblərini hazırlamaqdır. Amma ölümün və ya qətlin baş tutması isə Pərvərdigarın izni ilədir.

Əlbəttə qatilin məsuliyyəti öz yerində qalır. Çünki qətlin səbəblərinin hazırlayan odur. Amma bizim söhbətimiz qətlin və ya ölümün baş verməsindəndir ki, o da yalnız Allahın əlindədir. Xəstənin şəfa tapmasında əsil şəfa verici Allah olmasına baxmayaraq, xəstəni müalicə edən həkimi şəfa verən hesab edirlər. Əgər həkim özü əlacı olmayan bir xəstəliyə tutulsa, özü özünü müalicə edə bilərmi? Allah-Təala yuxarıda qeyd etdiyimiz atəşə buyurur: ***«Allah bunu, bu əqidəni onların ürəklərində qəm və həsrət olsun deyə yaratdı».***[1]

## ƏGƏR SƏBƏB TƏSİR GÖSTƏRMƏSƏ, NARAHAT OLMAYIN

Qeyd etdiyimiz məsələyə istinad edərək belə bir nəticəyə gəlmək olar ki, səbəbi təsir etməkdə müstəqil hesab edən kəs, həmişə zəhmət və narahatlıq içindədir. Çünki hər bir səbəbdən onun gözlədiyi nəticə ələ gəlmir.

Amma əgər müvəhhid olsaydı, elə əvvəldən heç bir səbəbi müstəqil hesab etməzdi. Səbəbin də nəticəsi olmayanda, narahat olmayıb Allah nə istəsə, o da olacaqdır deyərdi.

---

[1] «Ali-İmran» surəsi, ayə 157.

Məsələn, bir işdən ötrü gedəndə, Allaha ümid bəsləyib nəticənin hasil olmasını Ondan hesab etsək, iş baş tapmayanda da narahat olmayıb - yəqin ki, Allahın məsləhəti olmamışdır - deyərik.

Amma əgər Allaha təvəkkül və ümid etmədən - mən bu işi mütləq yerinə yetirəcəm- desə, iş baş tutmayanda narahat olub həsrət çəkəcəkdir. Elə yuxarıda qeyd etdiyimiz ayədə də kafirlər öz yoldaşları haqqında, - əgər səfərə və ya müharibəyə getməsəydilər, ölməyəcəkdilər - deyərək, onların səfərə və ya müharibəyə getməklərinə neçə də təəssüf edirlər.

Amma möminlərin arasında, xüsusilə də İran İslam İnqilabında olan şəhid ailələrində elə mömin adamlar vardır ki, övladlarının və ya qohum-əqrabalarının şəhid olmasına görə özlərini xoşbəxt hesab edirlər. Çünki onların əqidəsinə görə, övladları şəhadətə laiq olmuş və Allah-Təala da bu qurbanı onlardan qəbul etmişdir. Bu böyük insanlar Allaha şərik qoymayaraq, şadlıq edirlər. Çünki onların əqidəsinə görə, övladları şəhadətə laiq oluş və Allah-Təala da bu qurbanı onlardan qəbul etmişdir.Bu böyük insanlar Allaha şərik qoşmayaraq, şadlıq edirlər. Cünki yəqin bilirlər ki, Pərvərdigar onların övladlarını böyük səadətə çatdırmışdır. Allah-Təala bu barədə buyurur: ***«Ölsəniz də, öldürsəniz də axırda mütləq Allahın hüzuruna toplanacaqsınız!»***[1] Bir kəsin ki, çanını alan da, onu yenidən dirildəndə Allahdır, o kəsdən xoşbəxt adam vardırmı?

Sözsün qısası, mömin şəxslər bir işi görmək istəyəndə, əgər baş tutmasa heç vaxt narahat olmurlar. Çünki o başa düşür ki, bütün varlıqları yaradan Allah məxluqun ehtiyaclarını onların özlərindən yaxşı bilir. Elə buna görə də narahat olmur.

---

[1] «Ali-imran» surəsi, ayə 158.

İnsanların bir-birləri ilə düşmənçilikləri də elə buradan başlayır.

Bir nəfər başqasından bir şey istəyir və təvəqqə edir ki, qarşı tərəf bu şəxsə müsbət cavab verib ehtitacını ödəsin. Amma onun istəyini yerinə yetirə bilmədikdə, onu müstəqil səbəb hesab etdiyinə görə narahat olmağa başlayır. Ürəyində həmin adama qarşı kin-küdurət saxlayır.

Amma bu işlərdə diqqəti yalnız Allaha olduğu və məxluqu da müstəqil hesab etmədiyi halda, onların işlərinin həyata keçməsini və tədbirini Allahdan hesab edir, heç vaxt narahat olmur. Ümumiyyətlə bütün işlərdə «mən edəcəyəm» kəlməsini işlətmək düzgün deyildir.

## ALLAHI SEVMƏK ƏVƏZİNƏ XUDPƏSƏNDLİK EDİR

Bütün fəsadların mənbəyi bir növ şirk hesab olunan xüdpəsəndlik xislətidir. İnsan Allahı sevmək əvəzinə özünü sevir, elə bir daha dünyada bundan başqa adam yoxdur.

Bütün günahların əsas səbəbi hesab olunan «dünyasevərlik» nədir? Görəsən bu xüsusiyyət xörək, məskən və paltar sevməkdirmi? Bir halda ki, bunların hamısı bəşərin istifadəsindən ötrü yaradılıb və bu işə şəri baxımdan heç bir maneçilik də yoxdur. Diqqət etsək məlum olar ki, eyb və irad qeyd olunan şeylərdə deyil, adamın özündə və niyyətindədirki özünü müstəqil hesab edərək hər bir şeyi özü üçün istəyir.

Nəfsin istəklərini yerinə yetirmək istəyəndə, yerə-göyə sığmayıb hətta Allahın da qanunlarına riayət etmir. Beləliklə də ilk baxışda halal olan şeylər fəsad mənbəyinə çevrilir. Elə bunun özü dünyasevərlik deməkdir. Amma əgər bütün işlərində Allah və axirəti nəzərində saxlasa, daha dünyasevərlik və xüdpəsənlik

heç bir günahın mənşəyinə çevrilə bilməz. Əksinə belə olmaq çox yaxşıdır. Bütün varlıqları Allahın məxluqu hesab edərək, onları sevir və onlardan bəhrələnə də bilir.

Deməli, bütün çəkişmələrə və böyük səadətdən məhrum olmağa səbəb, özünü sevməkdir. Əgər insanın düşünçəsi olsa, boş-boş xəyallar yox olub, mənəmliyini və özünün var olmasını yalnız Allahdan bilər. Bu zaman nə inki özünü, bəlkə bütün mövcudları Allahın təcəlləsi hesab edər. Allahı sevmək, özünü sevməyin yerini tutar. Allah göylərin və yerin nurudur.

## ALLAHIN NEYMƏTLƏRİNİ YADA SALMAQ QƏLBİN RAHATLIĞINA SƏBƏB OLUR

Yuxarıda qeyd etdiyimiz fəsadlardan uzaq olmaqdan ötrü sadə yollar da vardır. İnsanın fitrəti yaxşılıq və mərhəmətin quludur. O həmişə xeyirxah işləri sevir, amma o yaxşılıqların mənşəyini düzgün təyin etməkdə səhvə yol verir. Əgər özünə və başqalarına əsil ehsan edənin yalnız Allah olduğunu başa düşsə, heç vaxt səhvə yol verməyəcəkdir. Bütün yaradılış və ehsanlar hamısı Allahdandır.

Bəşər üçün tövhidi-sifati və əfali aşkar olandan sonra, onun qəlbi rahatlıq tapır. Allah-Təala bu barədə buyurur: ***«Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapar».***[1]

Öz nemət sahibini daim öz yanında hiss edən kəs niyə iztirab keçirməlidir? Quran bu məsələyə toxunaraq buyurur: ***«Möminlərin inamı üstünə iman artırmaq üçün onların ürəklərinə öz dərgahından xatircəmlik, rahatlıq və mənəvi möhkəmlik göndərən Odur».***[2] Belə insanlar bütün işlərini Allaha məhəbbət bəsləməklə yerinə yetirirlər.

---

[1] «Rəd» surəsi, ayə 28.
[2] «Fəth» surəsi, ayə 4.

Həzrəti İmam Hüseyn (ə) Ərəfa duasında buyurur: **«Pərvərdigara! Öz sevgilisindən, Sənin dostluğundan bəhrələnə bilməyən kəs ziyandadır».**

Qurtuluş o müvəhhidlər üçündür ki, nəfslərinin ziddinə olaraq, Allah sevgisiylə hərəkət edib, yalnız Onun razılığını istəyirlər.

# İYİRMİ BEŞİNCİ DƏRS

## ALLAHIN NEMƏTLƏRİNİ ONUN RAZILIĞI OLMAYAN YERLƏRƏ NECƏ SƏRF EDİR

Hər bir aqil insan keçən söhbətlərimizdə qeyd etdiyimiz tövhidi-sifati və əfali məsələlərini düşünərək onları lazımınca dərk edə bilər. Lakin ən əhəmiyyətli olan şey bu mətləbləri qəlbin inanıb qəbul etməsindir. Əgər qəlb inana bilsə, orada iman nuru işıqlanmağa başlayacaqdır. Elə buna görə də Allahı tanımaqdan ötrü qəlbin təsdiqi lazımdır. Onu vahid bilməyin kamalı Ona qarşı xalisliyə yetirməkdir. Varlıq aləmində təsir edənin yalnız Allah olduğuna ürək inanmalıdır. «La hovlə vəla quvvətə illa billah, əl əliyyül əzim». Bütün səbəbləri insanın ixtiyarında qoyan Allahdır. Pərvərdigarı-aləm Quranda buyurur: ***«Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarımıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qovm üçün ibrətlər vardır!»***[1]

Bədən üzvlərini və xüsusilə də bu dili mənim üçün ram edən Allahdır. Dili hərəkətə gətirən Odur. Keçən məsələlərdə qeyd etdiyimiz kimi, burada heç bir içbar yoxdur. Elə bilməyin ki, bu dil sizin öz malınızdır və onun hərəkət etməsində müstəqil təsir göstərə bilərsiniz.

Əgər insan bu dilin də Allaha məxsus olduğuna inana bilsə, onunla heç vaxt pis sözlər danılmaz. Onun hər bir hərəkət və səkitliyində Allahın nəzarətini hiss edər.

Qəlbi təsdiq məqamına çatmış hər bir kəs, bədən üzvlərini heç vaxt onların Sahibinin razı olmadığı yerlərdə işlətməyəcəkdir. İnsandan baş verən günahların hamısı Allahın

[1] «Casiyə » surəsi, ayə 13.

nəzarətini öz üzərində görməsindən irəli gəlir. O, haqqı deyil, yalnız özünü görür. Əgər Onu görə bilsə, özünün və bədən üzvlərinin sahibinin hüzurunda neçə günah edə bilər?

İnsanın əli Allaha məxsusdur və onda olan qüdrət də Allahdandır. Bəşər bu mətləblərə diqqət edə bilsə, ismət məkanından bəhrələnə bilər. Bu məsələ aşağıdakı rəvayətə çox gözəl bəyan olunmuşdur: ***«Əgər zina etmək istəyən kəs mömin olsa, heç vaxt zina etməyəcəkdir və həmçinin oğurluq etmək istəyən şəxs mənim olsa, əsla oğurluq etməyəcəkdir».***[1] Mömim şəxslər günah etməyə lazım olan səbəblərin hazır olmasına baxmayaraq, heç bir günaha yol vermir. Çünki o, Allahı həmişə öz yanında hiss edir.

## ALLAHIN NƏZARƏTİNİ DAİM ÖZ ÜZƏRİNDƏ HİSS EDƏN ÇOBAN

Razı ***«Ləvamiul-bəyyinat»*** kitabında maraqlı bir əhvalat nəql edir:

Həcc səfərinə gedən bir karvan yolda bir qoyun sürüsünə rast gəlir. Karvanın üzvləri xörək hazırlamaqdan ötrü çobana deyirlər: Bizə bir qoyun sat. Çoban cavab verir: Bunlar mənim malım deyildir, sahibindən də satmaq haqqında icazəm yoxdur. O anda karvan üzvlərindən bir nəfər çobana dedi: Sən bu qoyunlardan birini bizə satıb, pulunu da özün üçün götür. Sahibinə də deyərsən ki, qoyunu canavar parcaladı. Birdən çoban qəzəblənərək dedi: Bəs Allah necə olacaq, məgər O, görmür?

Çoban çöldə yaşamasına baxmayarq qəlbi nurludur. Amma çox təssüf ki, əksər insanlar öz məğrurluqlarını günü-gündən

---

1

gücləndirirlər. Elə buna görə də onların qəlbi getdikcə daha da çox qaralır.

İnsanın və qədər ki, fürsəti, imkanı var, mənəmlik cahalətini aradan aparmağa çalışmalıdır. Ümumiyyətlə mənəmlik nə olan şeydir? Allahdan ayrı şəkildə təsəvür edilsə, mənəmlik heçdir. Allahın insana bəxş etdiyi varlığın özü də Pərvərdigarın təcəlli və zühurundan başqa bir şey deyildir. Əslində bu varlığın şəxsin özü ilə də heç bir rabitəsi yoxdur.

## SƏBƏBLƏRİN OLUB VƏ YA OLMAMASININ MÖMİN ÜÇÜN HEÇ BİR FƏRQİ YOXDUR

«**Harada olsanız da Allah sizinlədir**». Əgər qəlb bu mənaya inana bilsə, onun nəticələrindən biri Allaha təvəkkül etməkdir. İmanı olmayan kəs Pərvərdigara təvəkkül edə bilmız. Allah Quranda buyurub: ***«Əgər möminsinizsə, Allaha təvəkkül edin!»***[1]

Əgər belə olmasa, insan Allaha deyil, yalnız özünə etimad edəcəkdir. Bunun da nəticəsi bir növ narahatlığa səbəb olacaqdır. Təvəkkül edən möminin əldə etdiyi qeyri adi nəticələr haqqında az-çox söhbət etdik. O, istər quyunun dibində olsun istərsə də evində, onun üçün fərq yoxdur. Əgər səhər durub görsə ki, bütün varı-yoxu əlindən çıxıb, halı dəyişəməyəcəkdir. Çünki söykənəcəyi yer mal deyil, Allah idi. Allahla olan kəs üçün var-dövlətin olub-olmamağının heç fərqi yoxdur.

Sarayı zindana döndərən insanın «mənəmliyidir». Zahiri vasitələrin həmişə hazır olmasına baxmayaraq, qəlbin hicabı fikir və ruhun narahatlığına səbəb olur.

---

[1] «Maidə» surəsi, ayə 23.

# SİZİN ÜÇÜN ƏN ƏZİZ OLAN KİMSƏLƏRİN DADINA YETİŞİN!

Elə buna görə də nə qədər ki, vaxt keçməyib, zülmət hicablarını aradan aparmaq haqqında düşünmək lazımdır.

Əli (ə) «Nəhcül-bəlağə»də buyurur: **«Ey insan! Allaha xatir öz dadına yetiş ki, sən özün üçün hamıdan əziz və sevimlisən».** Qürur və təkəbbürü tərk et ki, qəlbin özün üçün yanıb-yaxılsın.

İnsan görəsən nə qədər cəhalətdə qalmalıdır? Görəsən, həqiqəti niyə dərk edə bilmir? Mehriban və alim Allahı buraxıb özündən yapışır.

İslam hüququnda vəkalət məsələsi haqda belə deyilir: Vəkilin üç şərti vardır: Birincisi alim, ikincisi qüdrətli və üçüncüsü isə mehriban olmalıdır. Hər kəs vəkil tutmaq istəsə, bu üç şərtə malik olan şəxsi vəkil tutmalıdır. Lakin deyin görüm, Allahdan alim, qüdrətli və mehriban olan bir varlıq vardırmı? Allah insana onun özündən də mehribandır. İlahinin rəhminə, lütfünə və ehsanına diqqət etmək lazımdır. Allah-Təala bu barədə buyurur: ***«Allah bizə bəs edər. O, nə gözəl vəkilidir!»***[1] Başqa bir yerdə buyurur: ***«İnsanların içərisində Ondan qeyrisini şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir».***[2] Mömin öz eşqini yalnız Allaha bağlayır.

Yəqin ki, hamınız eşitmisiniz. Həzrəti Peyğəmbər (s) azan vaxtı Bilala (r.ə) deyirmiş:

**«Ərihni ya Bilal!»** Ey Bilal! Bizi rahat et. Yəni azanı verməklə ruhumuz rahatlıq tapsın. Möminin rahatlığı Allahı zikr etməklədir.

---

1

2 «Bəqərə» surəsi, ayə 165.

## NƏFSİMİN İSTƏYİNDƏN ALLAHA ŞİKAYƏT EDİRƏM

Qəlbin hicablarını aradan aparan əməllərdən biri də münacatdır. Əlbəttə söhbət dillə gəlmələri qiraət etməkdən deyil, həqiqi razi-niyaz və münacatdan gedir. Yəni insan münacat edəndə Allahı öz yanında hazır və nazir bilməli, Onun qüdrət, elm və ucalığını tanımalı, özünü isə Onun qarşısında gücsüz və çarəsiz hesab etməlidir. O, artıq nəfsin caynağından qurtulmaq üçün Allahın köməyinə möhtac olduğunu başa düşməlidir.

«Məfatihul-cinan» kitabının haşiyəsində gecə namazından sonra oxunan belə bir dua yazılmışdır: **«Pərvərdikara! Mənə qələbə etmiş nəfsimdən qurtulmaq üçün dadıma yetiş. İlahi! İman və irfan xəzinəsindən məhrum etmiş bu düşmənin əlindən yaxa qurtarmaq üçün kim mənə çarə edə bilər?»**

**«Pərvərdikara! Sənin tofiqin olmasa, nəfsim məni çox pis şeylərə vadar edir və Sənin hidayətin olmasa, o batil və bəyənilməyən şeyləri ixtiyar edir».**

## KAMİL YƏQİNLİYİ ALLAHDAN İSTƏYİRİK

Həzrət Peyğəmbərimiz (s) «Üsuli-Kafi»də nəql olunan bir dua haqqında belə buyurmuşdur: Bu dua mənim və bütün peyğəmbərlərin duasıdır.

*«Pərvərdigara! Səndən elə bir iman istəyirəm ki, onun vasitəsilə qəlbim işıqlansın. Elə bir düzgün yəqin istəyirəm ki, bir şey mənə qismət olmayanda onun, Sənin tərəfindən mənim üçün belə təqdir olunduğunu başa düşüm. İlahi! Həyatımda mənim üçün qismət etdiyin ruziyə qane və razı olanlardan qərar ver. Ey mehribanların ən Mehribanı!*

*İlahi! Mənə od kimi (eşq və məhəbbətdən) yanan bir sinə ver: O sinədə də elə bir ürək ver ki , həmişə yanıb-yaxılsın».*

Dərdli və yanan qəlb ilə Allahla münacat edərək deyin: ***«Allahım! Mənə öz əlimdən və mənə həmlə edən nəfs və mənəmliyimin şərindən nicat ver!»***

## BÜTÜN HALLARDA ALLAHIN DOSTLUĞU

Əgər Allah lütf etsə, bu böyük hicab aradan gedər və insanın qəlbi genişlənər. O, məhz bu zaman öz Allahını tanıyar, Pərvərdigarın dostluğu İmam Səccadın (ə) inşa etdiyi Əbu Həmzeyi Somali duasındakı kimi, onun dilinin əzbəri olar: ***«İlahi! Əgər mənim o dünyada zəncirlərə burub, Öz mərhəmətindən məhrum etsən, camaatın yanında rüsvay edərək yaxşılardan ayırıb cəhənnəmə atsan da, mən yenə də Səndən ümidimi kəsməyib, dostluğunu qəlbimdən çıxarmayacağam! Mən Sənin nemət və ehsanlarını heç vaxt unutmayacağam».***[1]

Belə insanların bütün çətinliklərə baxmayaraq, qəlbləri həmişə Allahın məhəbbətilə çağlayır. Çünki o, Pərvərdigarın nemətlərini heç vaxt unutmayıb və bu lütf və mərhəmətlər həmişə onun gözlərinin qarşısındadır.

Məğrurluq aradan gedən kimi bütün çətinliklər asanlaşır. Əgər Allahın məhəbbəti qəlbdə yerləşə bilsə, əziyyət və rahatlığın insan üçün fərqi olmaz. Hər iki hal onun üçün xoş olar. Çünki o, artıq rıza məqamına çatmışdır. Nə qədər çətinlik olsa da qəlbinə yad hisləri buraxmır, Allahından həmişə razıdır.

Mümkündür ki, bu məsələləri bizim dar düşüncəmiz qəbul edə bilməsin, lakin bunlar həqiqətən də belədir.

---

1

Bu duaların həqiqətə çevrilməsindən ötrü var qüvvəmizlə çalışmalıyıq ki, bəlkə həyatımızda bu məqamlara çata bilək.

Əgər insanın şüuru inkişaf etsə, onun Allaha olan məhəbbəti daha da artacaqdır. Çünki əlaqəli olduğu hər bir şey varlığın özüdür, ya da ki Onun xüsusiyyətləridir. Hər bir şeyin vücudu da Allahdandır. Elə buna görə də Allahdan qeyrilərinə ümid bəsləməyir, qəlbi yalnız Ona tərəf olur.

## İYİRMİ ALTINCI DƏRS

## İXLAS NƏDİR?

İnsan tövhid məqamında ixlasa çatmalıdır. Allahı vahid bilməyin kamalı ixlasdır. İnsan mərifət məsələsində heç vaxt bir yerdə dayanmamalı, daim hərəkət etməlidir. Onun tövhiddə olan hərəkəti də ixlasa çatana qədər davam etməlidir.

Dinin məzmunu ixlasdır. Allah-Təala Qurani-Kərimin əksər ayələrində ixlasdan danışır: ***«Halbuki onlara əmr edilmişdi ki, Allaha dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!»***[1]

Dini Allah üçün xalis etmək, insaniyyətin ən uca məqamlarındandır.

Allaha olan ixlasın mənası, Onu naqislikdən, məhdudiyyətindən, müqəddəs zatının heç vaxt zavala uğramamasından, sifətlərinin çatışmamazlıqlardan uzaq olmasından və ümumiyyətlə hər bir şeydən xalis hesab etməkdir. Əgər insan Allahın zatını Onun eyni vücudu hesab etməsə, bir növ şirk etmiş olacaqdır.

Adətən həmd və təsbih bir yerdə zikr olunur: ***«Fəsəbbih bihəmdi rəbbik, sübhənəllahi və bihəmdihi».*** Həmd və təsbih bir-birlərinin lazim-məlzumudur. Muvəhhidlər, Allahın kamalını həmdlə sübut etdikləri kimi, Onu hər bir naqislikdən də pak və münəzzəh bilməlidirlər.

---

[1] «Bəyinə» surəsi, ayə 5.

## MƏNASIZ BİR ŞÜBHƏ VƏ ONUN CAVABI

Allahı pak bilmək məsələlərindən biri də Onun müqəddəs sifətlərini hər cür naqislikdən uzaq hesab etməkdir. İmam Sadiqin (ə) zamanında onun şagirdi Hişamdan belə bir sual soruşdular: Bu aləm kiçilmədən və yumurta da öz ölçüsündə qala-qala Allah-Təala aləmi yumurtanın içində yerləşdirə bilərmi? Hişam cavab verə bilmədi. Çünki əgər – yerləşdirə bilməz – desəydi, Allahı aciz hesab etmiş olardı ki, bu da küfürdür. Amma əgər – yerləşdirə bilərdi – desəydi, mümkün olmayan bir işi Allaha nisbət vermiş olardı.

Elə buna görə də İmam Sadiqin (ə) xidmətinə yetişib bu şübhənin cavabını ondan soruşdu. İmam da cavabında buyurdu: **«Bizim Allahımız acizliklə vəsf olunmaz. Yəni deyə bilməzsən ki, Allah bu işi görə bilməz. Amma bilmək lazımdır ki, Onun qüdrəti qeyri mümkün olan şeylərə aid deyildir. Çünki qeyri mümkün olan şeylərin vücuda gəlməyə şəraiti yoxdur».** [1] Naqislik Pərvərdikarın qüdrətində təsəvvür olunmazdır, hər hansı bir çatışmamazlıqla rastlaşsanız o xüsusiyyət əşyaların özündədir. Özündən böyük bir şeyin onun içində yerləşməsinə yumurtanın tutumu imkan vermir.

Elə buna görə də İmam (ə) Allahın qüdrətini ona başa salmaq üçün buyurdu: «Ətrafına bir nəzər sal, gör nə görürsən?

Hişam dedi: Yer, göy, dağlar, yaşıllıqlar, ağaclar, insanlar və başqa şeylər...

İmam (ə) buyurdu: Allah-Təala bu qədər şeyləri kiçik bir göz bəbəyindən necə yerləşdirmişdir».

Bu böyüklükdə olan aləmi də həmin göz bəbəyində qərar vermişdir. Bu özü elə Allahın qüdrətidir. Çünki təsvirin sahibi nə

---

[1]

qədər böyük olsa da onu qəbul edərək, əks etdirən göz bəbəyidir. Yəni göz bəbəyinin bu böyüklükdə təsviri əks etdirməyə qabiliyyəti vardır. Amma əvvəlki misalda, naqislik yumurtadadır ki, bu aləmi özündə yerləşdirməyi qəbul edə bilmir.

Allahin bütün kamal sifətləri Onun elm və qüdrətinə qayıdır və bunların hər ikisidə mütləq və nöqsansızdır. Allahın sifətlərini naqis hesab edən kəs, özü tövhid məqamında nöqsanlıdır.

## TÖVHİDİN MÖHKƏM OLMASININ ŞƏRTİ VİLAYƏTDİR

Şeyx Səduqun «Tövhid» və «Uyunul-əxbarur-riza» kitabında belə nəql olunur: Həzrəti İmam Rza (ə) Xorasana gələndə Nişapur şəhərində ***«Silsilətuz-zəhəb»*** hədisin nəql etmişdir: ***(La ilahə illəllahu hisni, fəmən dəxələ hisni əminə min əzabi)***

Tövhid Allahın möhkəm qalasıdır. Hər kəs bu qapıdan daxil olsa əzaba duçar olmayacaqdır. Sonra İmam (ə) buyurdu: (Bi şərtiha və ənə min şürutiha). Tövhidin möhkəm qala olmasının şərtləri vardır. Onun şərtlərindən biri də ixlasdır. Əgər bir kəs nübuvvət və imaməti inkar etsə onun tövhidi yoxdur. Əgər bir kəs aydın və aşkar məsələ olan nübuvvəti – Peyğəmbərlərin həqiqətini inkar edərək – Allah heç bir Peyğəmbər göndərməmişdir desə, deməli bu sözdən belə məlum olur ki, Allahın hikməti yoxdur. Bir halda ki, Allah-Təala bəşərin hidayəti üçün Peyğəmbər göndərməsə, belə çıxır ki, öz yaratdıqlarını başdı-başına buraxmışdır. Amma bizim əqidəmizə görə, bəşər çox uca və əbədi bir hədəfdən ötrü yaradılmışdır. Elə buna görə də Allah Qurani-Kərimdə buyurur: ***«Onlar***

***(yəhudilər), Allah bəşərə bir şey (Quran) nazil etməmişdir- deməklə Allahı layiqincə qiymətləndirmədilər».***[1]

Həkim və əlim olan Allah bəşərin hidayət edicilərə daim möhtac olduğunu bildiyi halda niyə Peyğəmbər göndərməməlidir?

Bu aşkar məsələni bəşər öz naqis əqli ilə dərk etdiyi halda Allah-Təala ***(əstəğfirullah)*** başa düşmür?

«Nübuvvəti» inkar etmək Pərvərdigarın sonsuz elm və hikmətini inkar etmək deməkdir. Elə buna görə də bunu iddia edənlər «tövhid» məqamında naqis hesab olunurlar.

## İMAMƏTƏ ETİQAD OLMASA TÖVHİD NAQİS HESAB EDİLİR

«İmamət» fəslində də mözu nübuvvətdə olduğu kimidir. Əgər bir kəs «imaməti» inkar etsə, o da «nübuvvəti» inkar edən kimdir.

İslam dini qiyamətə qədər davam edəcək ən kamil dindir. Allah-Təala Quranda buyurur***: «Hər kim islamdan başqa bir din ardınca gedərsə, o din heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!»***[2]

Görəsən cəmiyyətin nizam-intizamı, dinin qorunması və onun hökümlərinin icra olunması üçün imama ehtiyac yoxdurmu?

İslamı başa salmaq və onun hökümlərini həyata keçirmək üçün mütləq ilahi bir rəhbərə ehtiyac vardır. Əgər müsəlmanlar vəhdət təşkil etməsələr islamın hökümlərini icra etmək qeyri mümkün olar. Onların vəhdətə gəlmələri də yalnız rəhbər və imamın vasitəsi ilədir. Elə buna görə də «Silsilətuz-zəhəb»

[1] «Ənam» surəsi, ayə 91.
[2] «Ali-Imran» surəsi, ayə 85.

hədisində İmam Rza (ə) buyurur: (**Və ənə min şurutiha**) – yəni, «**Mən tövhid şərtlərindənəm**». Muvəhhədin «tövhid» məqamı naqis olmamaqdan ötrü o, «imaməti» də qəbul etməlidir. Əgər bir şəxs – imama ehtiyacımız yoxdur – desə, məlum olur ki, o, hələ də Allahın hikmətini anlamamışdır. Bir halda ki, bəşərin əqli islamın bütün hökümlərində dinin kamil olması üçün imamın varlığına ehtiyac olduğunu dərk edir. Əsil dinin qorunması elə «imamət» məsələsidir. Hər kim hansısa bir zamanda ilahi rəhbərin və məsum imamın varlığını inkar etsə, Allahın hikmət və qanununa xilaf çıxmış olur. Çünki o iddia edir ki, Allah-Təala insanları rəhbərsiz qoymuş və özbaşına buraxmışdır. Elə bua görə də bu şəxs «tövhid» məqamında naqis hesab olunur.

## İMAMI TANITDIRMAQ ALLAHDANDIR, ONA İTAƏT ETMƏK İSƏ CAMAATIN VƏZİFƏSİDİR

Allahın hikmətində vacib olan şeylərdən biri də inam və rəhbəri camaata tanıtdırmaqdır. Amma imamın hakimiyyətə kəlməsi, camaatın istəyi və ona itaət etməsi ilədir.

Əgər müsəlmanlar onun hakimiyyətini qəbul etsələr, bu zaman Allahın höccəti imam üçün tamam olur və bu anda müsəlmanlara hökumət etmək imama vacibdir. Necə ki, Peyğəmbərin (s) vəfatıdan 25 il sonra islam ümməti Həzrət Əlinin (ə) ətrafına toplanıb, Ona itaət etməyə hazır oldular. Buna görə də Əli (ə) onlara rəhbərlik etmək vəzifəsini qəbul etdi.

Amma əgər müsəlmanlar imamı qəbul etməsələr, özlərini bu böyük rəhmətdən məhrum etmiş olurlar. Allahın öhdəsinə olan məsələlərdən biri də imamı tanıtdırmaqdır ki, Allah-Taala da onu lazımınca yerinə yetirmişdir. Əgər İmam Mehdi (ə) qeybdə olduğu zaman, özlərini Əlinin (ə) şiəsi adlandıranlar – bizə

rəhbər lazım deyildir – desələr, «tövhid» məqamında naqisdirlər. Məgər İmam Zamanın (ə) qeybdə olduğu uzun illər boyu müsəlman ictiması rəhbərsiz ola bilərmi? Belə kəslər yəqin bilmədilər ki, onlar şiə məzhəbinin həqiqətindən xəbərsizdirlər. İmaməti qəbul etmədiklərinə görə «tövhid» məqamında da kamil surətdə naqisdirlər. Deməli, qiyamət gününə qədər davam edən «imaməti» qəbul etmək vacibdir.

## MƏADSIZ TOHİDƏ ETİQAD BƏSLƏMƏK OLMAZ

Əgər bir şəxs «məadı» (ölümdən sonrakı həyat) inkar etsə, Allahı əbəs və bihudə iş görməkdə ittiham etmiş olur. Allah-Taala Quranda buyurur: ***«Yoxsa sizi əbəs yerə yaratdığımızı və qiyamət günü dirilib haqq-hesab üçün hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?»***[1] Görəsən insan heyvan kimi yemək-içmək, şəhvətə qulluq etmək və narahatlıq keçirib sonra da ölərək tamamilə yoxluqa düçar olmaqdan ötrü yaradılmışdır? Bu böyüklükdə olan nizam-intizam bir neçə günlük zəhmətli dünya həyatından ötrüdürmü?

Belə kəslər Allahı qəbul etsələr də Onun hikmətini hələ də dərk etməmişlər.

Allahı bu əqidə ilə tanımaq Onun elmini inkar etmək deməkdir.

Sözün qısası, Allahın birliyi Onu bütün layiq olmayan şeylərdən münəzzəh və pak bilməkdir ki, o da «tövhid» məqamında xalis olmaqdır.

Müvəhhid olan şəxsin mütləq ixlası olmalıdır. ***«Sübhanəllah»*** zikri ***«Əlhəmdulillah»*** ilə bir yerdə gəlməlidir. Yəni, mən Allahı hər bir nöqsandan pak bilirəm. Bütün kamallar Ondandır və Onun sifətlərində də şəriki yoxdur.

[1] «Muminun» surəsi, ayə 115.

Müvəhhid bütün sifati-səlbiyyələri tanımalı və Allahı onlardan münəzzəh və pak bilməlidir.

Allah-Təala cism deyildir. Deməli, Onun zaman və məkanı da yoxdur. Onu maddi gözlə görmək qeyri mümkündür. Allahın keyfiyyət və xüsusiyyəti də yoxdur, əksinə bütün bu şeyləri yaradan O, özüdür. Deməli, «tövhid» məqamında ixlas, Allahı bütün nöqsan sifətlərdən uzaq bilmək deməkdir.

Allahın müqəddəs sifətləri Onun zatının eynidir. Pərvərdigarın müqəddəs zatı sonsuz olduğu kimi, Onun elm və qüdrəti də sonsuzdur. Eləcə də məxluqun Onun müqəddəs zatını əhatə etməsi qeyri mümkün olduğu kimi, Onun kamal sifətlərini də əhatə etməsi qeyri mümkündür.

Elə buna görə də Allahın haqq olan ulu məqamına çata bilməməyi etiraf etmək, insaniyyətin kamalı hesab olunur. Pərvərdigarın kamalı sonsuz olduğu kimi, Onun həmdi də sonsuz olmalıdır. Kim Allaha layiqincə həmd-səna edə bilər? ***(Əlhəmdu lillah kəma huvə əhluhu.)*** Kim Allah üçün ona layiq olan həqiqi həmdi yerinə yetirə bilər?

Mətləbin xülasəsi budur ki, Allahın zatında heç bir şəriki yoxdur, bütün mövcudların varlıqları arizi olub, Pərvərdigar tərəfindən onlara bəxş edilmişdir. Bütün məxluqlar Allahın varlığı ilə var olublar. İlahinin sifətlərində də şəriki yoxdur. Deməli, məxluqda olan elm və qüdrət də Allahın əta etdiyi elm və qüdrət nişanələridir.

## İYİRMİ YEDDİNCİ DƏRS

## MƏXLUQUN İXLASI BƏNDƏLİKDƏ XALİS OLMAQLADIR

Qeyd etdiyimiz kimi, müvəhhid şəxslər Allahı bütün nöqsan sifətlərdən xalis bilmələridir. Eləcə də məxluqun Allahın zat və ya sifətlərini əhatə etməsi qeyri mümkündür. İnsaniyyətin kamalı bundadır ki, o, özünü Allaha layiq olan mərifətə çatmaqda aciz bilsin. Pərvərdigar ucalardan uca olaraq, bütün məxluqları əhatə etmişdir.

Amma ixlasın bir növü də məxluqun özünə aiddir. Yəni, şəxs öz ibadətində xalis olmalıdır. O, Allahdan qeyrisinə ibadət etməməlidir. Öz əqidəsində yalnız Allahı Xaliq bildiyi kimi, Ondan başqalarına əlaqə, iman və məhəbbət bəsləyib, onları müstəqil hesab etməməlidir. Bəndənin ixlasının kamalı, Allaha xalis bəndəlik etmək və Ondan qeyrilərinə əlaqə bəsləyib onların qarşısında zəlil olmamaqdır.

Qeyd etdiyimiz kimi, Allah-Təala Qurani-Kərimdə buyurubdur ki, müvəhhid olan şəxslər Allaha bəndəlik etməkdə xalis olmalıdır. Pərvərdigarın şərafətli ayədə buyurduğu «müxlisin» kəlməsi bəndələrin halını bəyan etmək üçündür. Yəni, Allah bəndəsinin etimad etdiyi qüdrət yalnız Allahdır və sevdiyi şeyləri də ancaq Ondan ötrü sevir.

## BÜTÜN MÖVCUDLARI YALNIZ ALLAHDAN ÖTRÜ SEVİR

İnsan mal və övladını da Allaha xatir sevməlidir. Çünki, mal və övlad Allahın ona bəxş etdiyi nemətlərdəndir.

İnsan tənha öz bədən üzvlərini deyil, aləmdə olan bütün varlıqları da Allahın verdiyi əmanət kimi sevməlidir. Amma onun bu varlıqlara olan məhəbbəti, müstəqil olmayıb yalnız Allaha xatir olmalıdır.

İnsan elə bir yerə çatır ki, orada Allahdan başqa heç kəsi görmür. Bax gör insanlığın məqamı necə bir məqamdır, bəşər elə bir zirvəyə çata bilər ki, o məqamda Allahdan başqa heç bir varlığa meyil olmaz. Pərvərdigarı bütün işlərin tədbir edəni hesab edər. Əgər insan Allahı bütün çətinlikləri həll edən ən böyük tərbiyəçi, həyat bağışlayan və öldürən kimi tanıya bilsə, o müxlis (xalis) bəndəyə çevrilər. Belə insanlar «tövhidin» kəlamına çatanlardır.

## PAKLANMIŞ İNSAN ALLAHI PAK GÖRÜR

Qeyd etdiyimiz kimi, ixlasın əvvəll mərtəbəsi Allahı layiq olmayan şeylərdən münəzzəh və uzaq bilməkdir. Sonrakı mərtəbəsi isə şəxsin özünə aid olan, bəndəliyin bütün mərhələlərində xalis olmaqdır. Bu iki məsələni bir-birindən ayrı şəkildə təsəvvür edilməsi qeyri mümkündür. ***(Və kəmalu tövhidihi əl ixlasu ləhu) (Allahı bir bilməyin kamalı onun qarşısında xalisliyə yetişməkdir)*** cümləsində olan «ləhu» kəlməsinin şəxsin öz xalisliyinə aid olmasına baxmayaraq, bəziləri onu hər iki mənada ***«şəxsin özünün və onun Allaha olan ixlası»*** kimi təfsir etmişlər. Çünki, insan əqidədə Allahı xalis biləndə özü də xalis olur. Elə buna görə də özü xalis olmayan şəxsin Allahı xalis bilməsi qeyri mümkündür. Hələ də qəlbi Allahdan başqasını meyyili olaraq, həqiqətdə ona pərəstiş edən kəs, şirk xəstəliyinə düçar olmuşdur. Çünki o, qəlbində Allahdan başqasına yer vermişdir və Allahı mütləq xalis kimi tanımamışdır. Bu adam bütün kamalların Allaha məxsus

olduğunu hələ də dərk etməmişdir. Əksinə kamalı, qəlbini bağladığı kimsəyə nisbət vermişdir. Deməli, o, özü hələ də xalis olmamış və Allahı da xalis hesab etməmişdir.

Əgər bir kəs öz işinin həll olunmasında Allahdan başqasını qadir bilsə, deməli, onu müstəqil hesab edərək, Allahı kənara qoymuşdur. Belə adamlar qüdrət və işlərin tədbiri məsələsində xalis olmayıb, Allahı da xalis hesab etmirlər.

## RİYAKARLAR MÜŞRİKDİR

Bəziləri ***«Nəhcül-bəlağə»***nin əvvəldə qeyd etdiyimiz xütbəsində ki, «ixlas» kəlməsini Allahın xalis olması, digərləri bəndənin xalis olması və bəziləri isə riyanı tərk etmək mənasına təfsir etmişlər. Bəli, bu mənaların hamısı «ixlas» kəlməsində vardır, amma sizin diqqətinizi riya mövzusuna cəlb edirik.

Əgər bir kəs ibadəti başqasına nümayiş etdirməkdən ötrü yerinə yetirsə, həmin anda o, nə özü xalis olmuşdur, nə də Allahı xalis hesab etmişdir. Özü xalis olmadığına və Allahdan başqasına ibadətb edərək, Allahı xalis görmədiyinə görə müşrik hesab olunur. Çünki, onun Allahdan qeyrisinə olan ibadəti nümayiş etdirməkdən başqa bir şey deyildir.

Allahı həmişə hazır və nazir görən adamın Ondan başqasına ibadət etməsi qeyri mümkündür. Amma qəlbini məxluqa bağlayıb Allahı kənara qoyan şəxs nə özü ibadətində xalis olmuş, nə də ki, Allahı xalis tanımışdır.

## İXLASIN NƏTİCƏSİ ALLAHA QOVUŞMAQDIR

Allah-Təala «Kəhf» surəsinin axırıncı ayəsində buyurur: ***«Kim Rəbbi ilə qarşılaşacağına, qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda dayanacağına ümid bəsləyirsə,***

***yaxud qiyamətdən qorxursa, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətdə heç kəsi şərik qoşmasın!»***[1]

Bəziləri buyururlar ki, bu ayə ümid verən ayədir. Yəni, insan məyus olmadan Allahın yolunu tapa bilsə, «Liqaullaha» çatar, öz Rəbbinə qovuşar. Amma Pərvərdigarın yolunu tapmaq ixlasladır. Bəndə özünü xilas edə bilsə, mütləq «Liqaullaha» çatacaqdır. Çünki, özünü xalis edən kəs Allahı da xalis hesab edir. Artıq belə insanlar üçün «mənəmliyin» mənası yoxdur. «Mənəmlik» kənara gedən zaman, insan özünü daim haqqın hüzurunda görür. Belə şəxslər həmişə «Liqaullah»dadırlar. Əlbəttə Allahla olan bu görüş bizim təsəvvür etdiyimiz cisimani görüş deyildir.

Səduqun (r.ə.) «Tövhid» kitabında belə bir rəvayət vardır: Zələb Həzrət Əlidən (ə) soruşdu: «Ey Əli, Allahını görmüsənmi?»

İmam (ə) onun cavabında buyurdu: «Görmədiyim Allaha heç vaxt ibadət etmərəm. Həzrət bu sözlərin ardınca buyurdu: Allahı zahiri gözlə görmək qeyri mümkündür. Amma Onu qəlbdə olan imanın həqiqəti ilə görmək olar».[2]

## İXLAS OLAN ZAMAN QƏLB İLƏ GÖRÜŞMƏK

Gözün hiss qüvvəsi həmişə səhvə yol verə bilər. Bir şeyi görəndə onun yüz faiz düzgün olmasını təsdiq edə bilməz. Göz bəzən mövhumatı həqiqət kimi görür. Məsələn, yana atəşi surətlə hərəkət etdirsən, göz onu dairə şəklində müşahidə edəcəkdir. Amma bu həqiqi dairə deyildir. Müştərək hislərin sürəti nəticəsində göz atəşi dairə kimi görür.

[1] «Kəhf» surəsi, ayə .
[2]

Gözün xətaları çoxdur və onun hiss qüvvəsi Allahı görə bilməz. Göz bu vəziyyətdə yalnız cisimləri görür. Cismi yaradan Allah, belə xüsusiyyətlərdən münəzzəh və uzaqdır. Allahı gözlə görmək qeyri mümkündür. Onu yalnız qəlbin gözüylə görmək olar. Bəs görəsən qəlbin görməsi nə vaxt baş verir? İnsan öz məğrurluğunu unudaraq xalis olmayınca Allahı görə bilməz. Amma əgər xalis ola bilsə, ixlasın birinci mərtəbəsi olan «şühuda» çatar. Şühudun özünün də dərəcələri vardır. Xalis olan şəxs nəhayətdə elə bir yerə çatır ki, daim özünü ***«Liqaullah»***da görür.

Deməli, Übudiyyətin (bəndəçiliyin) ixlası Rübubiyyətin (Allahlığın) ixlası ilə yanaşı olmalıdır.

Amma nə qədər ki, təkəbbür götürülməyib, Allahı qəlbin gözüylə görmək qeyri mümkündür.

## GÜNAHDAN ÇƏKİNMƏK İXLASIN ƏLAMƏTİDİR

«Üsuli-kafi»də İmamlarımızdan (ə) belə bir hədis nəql olunur: ***«Bir kəs xalis və muxlis olduğu halda Allahın birliyinə şəhadət versə, behişt onun üçün vacib olur. Onun xalisliyinin səbəbi ondadır ki, tövhid onu Allahın haram buyurduğu şeylərdən çəkindirir»***.[1]

Rəvayətdə «mən qalə» (kim desə) deyil, «mən şəhidə» (kim şəhadət versə) ifadəsi işlənmişdir. Çünki şəhadət vermək «şühudun» dərəcələrindən hesab olunur. Yəni həmin kəs artıq qəlbin gözü ilə görmək mərtəbəsinə çatmışdır.

«Şəhidə» (şəhadət verdi) kəlməsinə çox diqqət etmək lazımdır.

Tövhiddə «elm» və «şühuda» çatan şəxs, artıq ixlaslı adamdır. O, Allahı hər bir naqislikdən xalis bildiyi kimi, özü də

1

bəndəliyində xalis olur. Elə xalis olduğuna görə də behişt ona vacib olur.

Hədisin bu yerinə çatanda İmam (ə) mətləbi daha da açıqlamqdan ötrü buyurur: İxlas o şeyə deyirlər ki, «tövhid» insanı hər bir günahdan çəkindirsin. Daim haqqın hüzurunu dərk edən şəxs necə günah edə bilər?

## ALLAHIN SÜBUTU YUSİFİ (Ə) QORUDU

Züleyxa Yusiflə xəlvət yerdə tək-tənha qalanda Yusifi günahdan saxlayan şey, Allahın sübutu oldu.

Əgər Pərvərdigarın dəlili olmasaydı. O, da pis əməli iradə edə bilərdi. Allah-Təala bu barədə Quranda buyurur: ***«Doğrudan da, qadın ona meyl salmışdı. Əgər Rəbbin dəlilini, xəbərdarlığını göstərməsəydi, Yusif də ona meyl edərdi. Biz pisliyi və biabırcılığı [zinanı] ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, bizim sadiq bəndələrimizdəndir!»***[1]

Burada işlətdiyimiz (Rəbbin dəlili) kəlməsi Rəbbin hüzuru və nəzarəti deməkdir. Belə insanlar Allahı hər yerdə hazır görürlər. Allahın hüzuru insanı günahdan çəkindirən ən yaxşı qoruyucudur. İnsanlar Allahdan qafil olduqlarına görə günah edirlər. Bu hadisə barəsində rəvayətdə belə yazırlar: Züleyxa öz örtüyünü açıb bir şeyin üstünə atdı. Yusif (ə) soruşdu: O nə idi? Züleyxa cavab verdi: Mənim bütüm idi. Onun hüzurunda günah etmək istəmədim. Yusif buyurdu: Sən öz əlinlə düzəltdiyin, görməyən və eşitməyən bütdən həya etdiyin halda, mən necə aləmlərin Rəbbindən həya etməyim?

Elə Onu günahdan saxlayan Pərvərdigarın bu dəlili idi.

[1] «Yusif» surəsi, ayə 24.

## İSMƏT DƏRƏCƏLƏRİNDƏN BİRİ MÜXLİSLƏR ÜÇÜNDÜR

İnsan «şühud» dərəcəsinə çatanda, həm özü bəndəlikdə müxlis olur, həm də Allahı bütün laiq olmayan şeylərdən xalis hesab edir. Bunun nəticəsində hər bir günahdan qoruna bilir. ***«Tövhid insanın cənnətə getməsinə səbəb olur»*** dedikdə məhz bu mətləb nəzərdə tutulur.

Şübhəsiz ki, ən uca məqam «Məsumlara» (ə) aiddir. Amma başqalarının da ismət mərtəbəsinə çatması mümkündür. Bu mərtəbələrdə baş verən xəta, yalnız təsadüf üzündəndir. «Məsumlar» (ə) isə nə kəbirə (böyük günahlar), nə səqirə (kiçik günahlar) və nə də xəyallarında belə günah etmirlər. Onlardan qeyrisinin xəyallarında və ya təsadüf üzündən günah etməkləri mümkündür. Amma günah edəndə tez tövbə edirlər və Allah da onların əməllərini islah edir.

İxlas mərtəbəsinə yetişmiş şəxslər məkruh əməllərdən də özünü qoruya bilir. Nəticədə bundan da yükcək məqama yetişərək, mübah əməlləri də Allah qarşısında ədəbsizlik hesab edir, onlardan da çəkinirlər.

Bu barədə Müqəddəs Ərdəbili (r.ə) və bəzi başqa alimlərin həyatını misal çəkmək olar. O, ömür boyu nə cəmiyyət arasında, nə də təklikdə Allahın hüzurunda olduğuna görə ayaqlarını uzatmadı.

***«Ləaliyul-əxbar»*** da belə yazırlar ki, o, yalnız ölüm anında ayaqlarını qibləyə tərəf uzadaraq belə dedi:

Pərvərdigara! Mən neçə müddətdir ki, Sənin qarşında ədəbsizlik etməmişəm. Amma indi Sənin öz əmrin olduğuna görə ayaqlarımı uzatmağa məcburam.

Bu şəxsin mərifətinin nəticəsidir. Şeyx Mürtəza Ənsari (r.ə) barəsində belə nəql edirlər: Ölüm anında onun ayaqlarını üzü

qibləyə uzatdılar. Şeyx ishal xəstəliyinə tutulduğuna görə, ayaqlarını qibləyə döndərdi. Orada olanlar şeyxin bu əməlinə təəccüb etdilər. Şeyx buyurdu: Siz öz təklifinizə əməl edin, mən də öz vəzifəmə əməl edirəm. Çünki, insanın sidik xaric olan anda üzü qibləyə olmaq haramdır.

## İYİRMİ SƏKKİZİNCİ DƏRS

## ALLAHA DAİM BƏNDƏLİK ETMƏK ƏN UCA MƏQAMLARDANDIR

Bundan əvvəl qeyd etdik ki, insan tövhidin kamalında ixlasa çatan kimi, qəlbi Allahdan başqa varlıqlardan uzaqlaşıb, yalnız Pərvərdigara bağlanır. Bu anda o, elə bir məqama çatır ki, həqiqətən də Allahı öz üzərində daimi olaraq hazır və nəzarətçi hiss edir, özünü də Onun qarşısında daim bəndəçilik və itaət halında saxlayır. Yəni dərk edir ki, əgər Allah nəzərini bir an onun üzərindən götürsə, yoxluğa düçar ola bilər. Həmçinin, özü də Ondan qeyrisinə bir an belə meylli olsa, bu uca məqamdan süqut edə bilər. Bu məqamda o, xeyirin yalnız Pərvərdigar tərəfindən olduğuna şahid olur. Deməli, Allahdan qeyrilərinə heç bir ümid bəsləməyir, qorxusu da yalnız Ondan olur.

***«Biharul-ənvar»***da Peyğəmbərdən (s) nəql olunan dua öz məsələyə aid olan aşkar bir misaldır: **«Pərvərdigara! Bir göz qırpımı qədər belə, məni öz başıma buraxma. Məndən uzaqlaşdırdığın pislikləri, bir daha mənim tərəfimə qaytarma. Mənə etdiyin yaxşılıqları, bir daha geri alma. Məni düşmənlərimin həsadətinə düçar etmə!»**

Bəndənin həqiqətən də heç bir şeyə qadir olmaması, bu dörd cümlədən məlum olur. Doğrudan da əgər Allah insanı bir an öz başına buraxsa, o həlak ola bilər. Elə buna görə də mərifətdə bu məqama çatanlar bir an da olsa öz diqqətlərini Allahdan yayındırmırlar. Çünki Pərvərdigardan qeyrisinə diqqət etmək, onlar üçün günah hesab olunur. Əlbəttə şühud məqamına nisbətdə, bir an bəndəlikdən süqut etmək, onlar üçün çox böyük günahdır. Bu məsələyə əsasən Məsumların (ə) oxuduqları bəzi

dualarda onların Allah qarşısında özlərini necə müqəssir bilmələrinin səbəbi məlum olur.[1] Onlar təkcə bizim etdiyimiz səgirə və kəbirə günahlardan deyil, hətta ən kiçik günahlardan belə, məsumdurlar.

Onlar gündüzlər müxtəlif işlərdə məşğul olduqlarına görə, gecələr etdikləri ibadətdə qərq olduqları kimi ola bilmirlər. Elə buna görə də bu işi özləri üçün günah hesab edib, Allaha qarşı xəta etdiklərinə iqrar edirlər.

## XÜSUSİ DƏRƏCƏ SAHİBLƏRİNİN TÖVBƏ MƏQAMI

Tövbənin üç dərəcəsi vardır. Birincisi «ümumi tövbə»dir, yəni, müqəddəs şəriətdə qeyd olunan böyük və kiçik günahlardan tövbə etməkdir. İkinci dərəcə tövbədir, yəni məxsus bəndələrin etdikləri tövbə. Buna başqa sözlə «tərki-övladan» tövbə etmək deyilir. Bu insanlar məkruh əməli yerinə yetirdiklərinə və ya müstəhəbbi əməlləri tərk etdiklərinə görə tövbə edirlər.

Üçüncüsü isə ən məxsus bəndələrin tövbə dərəcəsidir ki, bu onların ən yüksək dərəcəsidir. Bu məqamda olan şəxslərin tövbəsi bir an da olsa belə Allahdan qeyrisinə nəzər etdiklərinə görədir. Allahın övliyaları yalnız buna görə tövbə edirlər.

Əhli-beytin (ə) oxuduğu dualarda bunun nümunəsini görə bilərik. Məsələn, Əli (ə) öz münacatlarından birində buyurur: **«Pərvərdigara, qəflət məni bürüdüyü halda halımın neçə olduğunu kaş biləydim. Görəsən məndən üz döndərmisən, ya hələ də mənə nəzərin vardır?»**

Şühud məqamında olan qəflətin də özünə məxsus mərtəbələri vardır. Biz Məsumların (s) şühud dərəcəsində olan

---

1

qəflətlərini dərk etməkdə çox acizik. Məsum imamlar xörək yeyəndə, danışanda və başqa işlər görəndə onların Allaha olan diqqətləri, namazda olan diqqətləri kimi deyildir. Elə buna görədə bu çatışmamazlığı özləri üçün qəflət və günah hesab edirlər. Bütün namazlarında da onların halı eyni deyildir. Bəzi namazlarında Allahın hüzurunu elə dərəcədə hiss edirdilər ki, nəhayətdə qəşş edərək bihuş olurdular. Onlarda olan bihuşluq bizim bihuşluğumuz kimi deyildir. Bu onların öz məqamlarına münasib olan bihuşluqdur. Onların huşlarının çoxluğu nəticəsində qəşş etməkləri də ruhanidir.

Onlar hər bir böyük və kiçik günahlardan, məkruh və hətta tərki-övladan da məsumdurlar.

Şühud və bəndəçiliyin davamlı olması, Allaha məxsus şəkildə əbədi olmaq və bəşərin əldə edə bilmədiyi bəzi başqa məqamlar yalnız məsumlara məxsusdur. Elə buna görə də bu məqamlarda bir an belə, qəflət edəndə onu özlərinə günah hesab edirdilər.

## İXLASI SEVƏNLƏR ÜÇÜN MÜJDƏ

***«Misbahuş-şəriə»*** kitabının «Səcdə» fəslində İmam Sadiq (ə), bizim ümidvar olmağınıza səbəb olan müjdə verici bir rəvayət nəql olunur: «Kim ixlası sevsə...» Diqqətinizi bir şeyə cəlb etmək istəyirik ki, İmam (ə) bu hədisdə «kim ixlaslı olsa» deyil, məhz «kim ixlası sevsə» kəlməsini işlətmişdir. Allah eləsin, biz bəndəçilikdə xalis olmağı istəyək.

## EŞQ ELMİ KİTABLARDA YAZILMIR

Arzu edənlər üçün «Biharul-ənvar»ın birinci cildində, İmam Sadiqin (ə) bəndəçilik haqqında nəql etdiyi hədisin bəzi hissələrini qeyd edirik.

Ünvani Bəsri Həzrət Sadiqin (ə) hüzuruna gəldi, bir qədər, söhbətdən sonra İmam (ə) ona buyurdu: *«Elm, oxuyub-öyrənməklə ələ gəlməz. O bir nurudur ki, Allah-Təala onu hidayət etmək istədiyi kəsin qəlbinə daxil edər».*

Tövhid elmi, iman və Allah elmi, kəsb olunması deyildir. Bunları kitab oxumaqla əldə etmək olmaz. Oxumaqla ələ gələn şey, yalnız əqli dəlillərdir. İman və qəlbin inanması bir nurudur ki, Allahın qayğısı və tofiqin nəticəsində qəlbə daxil olur. Lakin bu nurun zəminəsini yaratmaq, insanın öz əlindədir.

İmam (ə) hədisin davamında buyurur: ***«Əgər bu elmi istəsən, əvvəl gərək bəndəçiliyin həqiqətini özündə axtarsan. Elmi əməl etməklə tələb et. Məsələləri başa düşməyi Allahdan istə ki, O da bunları sənə dərk etdirsin».***

Bu elm yalnız əməl ilə yanaşı olmalıdır, yəni əgər insan bildiyi şeyə əməl etsə, onun elmi daha da artacaq və Allah-Təala ona bilmədiyi şeyləri öyrədəcəkdir.

Bu hədisdə ən əhəmiyyətli məsələlərdən biri budur ki, əgər elmin həqiqətinə çatmaq istəyirsənsə, çalışıb bəndəliyin həqiqətini özündə yartamalısan. Yəni haqqın sübutu bəndənin eyni zatı olmalıdır.

## ÖZÜNÜ MALİK VƏ TƏDBİR EDƏN HESAB ETMƏK

Ünvani Bəsri soruşdu: Bəndəçiliyin həqiqəti nədir? İmam (ə) buyurdu: Üç şeydir: Birincisi, özünü əlində olan şeylərə malik hesab etməmək, yəni Allahın onun ixtiyarında qoyduğu

şeyləri bəxşişdən başqa bir şey bilməməkdir. O, həqiqətdə dil, əl, ayaq, mal-dövlət, övlad və başqa şeylərin müstəqil maliki deyildir. Özünü müstəqil malik hesab edən kəs yəqin bilsin ki, hələ bəndəçilik mərtəbəsinə çatmamışdır. Əksinə belə insanlar özlərini rəbb mərtəbəsində təsəvvür edirlər.

İkincisi, Allahı bütün işlərdə həqiqi tədbirçi kimi tanımaqdır. Amma əksər insanlar malın çoxalmasından, yüksək vəzifələrdə olmaqdan və gələcək həyatlarını təmin etməkdən ötrü müstəqil tədbirlər görürlər. Həqiqətdə onlar həqiqi tədbirçi olan Allahı yaddan çıxarıb, özlərini müstəqil hesab edirlər. İmam (ə) bu hədisdə yaşayışı təmin etməyi inkar etmir, əksinə insan öz işlərində diqqətli olmalıdır. Lakin o, məğrurluğunu kənara qoyub özünü həyatda müstəqil hesab etməməlidir. Bir işin baş verib-verməməsini Allahdan bilməlidir. Yəni bir işin ardınca gedəndə, «bu işin ardınca gedirəm, amma nəticəsi Allahdandır» deməlidir. Məsələn, xəstəlik zamanı həkimin yanına gedəndə onu bir vasitəçi hesab etməlidir. Həkimin verdiyi dərman xəstəlikdən şəfa tapmağa bir vasitədir. Amma dərmanın təsir etməsi əsil şəfa verici olan Allahın əlindədir.

## BÜTÜN MƏŞĞULİYYƏTLƏR ALLAHIN BUYURUĞU İLƏ OLMALIDIR

Üçüncü  bəndənin bütün məşğuliytətləri Allahla olmalıdır, yəni Onun buyurduğu əmrlərə itaət etməli, nəhy etdiyi şeylərdən isə çəkinməlidir. Ümumiyyətlə bəndə olmaq istəyən kəs, Allahın əmr və nəhylərinə təslim olmalı və Onun razılığını əldə etmək üçün Pərvərdigarın sevmədiyi şeylərdən uzaq olmalıdır. Bəndə olmaq istəyən və Allahı hazır və nazir bilər kəsin Allahın buyurduqlarının onlar etməsini görmüsünüzmü?

Əslində əmək iddianı təsdiq etməlidir. Başqa bir rəvayətdə İmam Hadi (ə) buyurur: **«İman odur ki, qəlb ona inanmalı və əməl onu təsdiq etməlidir».**

## BİŞRİ HAFİ BƏNDƏ OLMAQ İSTƏYİR

Əllameyi Hilli (r.ə) «Məcalisul-möminin» və başqa kitablarda belə bir rəvayət nəql edir: Həzrət Musa ibn Cəfər (ə) Bişrin evinin qarşısından keçirdi. Onun evinin daxilindən haram musiqi sədaları eşidilirdi. Elə bu anda onun kənizi eşiyə çıxdı. Həzrət (ə) kənizdən soruşdu: Bu evin sahibi hürrüdür (azad), ya bəndə? Kəniz dedi: Evin sahibi neçə-neçə qul və kənizlərin sahibi olduğu halda necə bəndə (qul) ola bilər? İmam (ə) buyurdu: Bəli, əgər bəndə olsaydı belə olmazdı. Kəniz evə qayıdanda Bişr ondan soruşdu: Kiminlə söhbət edirdin? Kəniz əhvalatı olduğu kimi danışdı. Bişr bu söhbətdən İmamı (ə) tanıdı. Elə həmin anda da ayaqyalın qaçaraq özünü İmama çatdırıb, Həzrətin vasitəsilə tövbə etdi və dedi: Ya İmam! Mən bəndə olmaq istəyirəm.

Bu hədisi nəql etməkdə məqsədimiz İmamın (ə) buyurduğu «əgər bəndə olsaydı, belə etməzdi» kəlməsidir. İnsanın günahkar olması onun bəndə olmamasına bir şahiddir. Əgər insan bəndə olsa Allahın razı olmadığı işləri yerinə yetirməkdə necə cürət edə bilər? İmam Sadiq (ə) əvvəldə qeyd etdiyimiz hədisdə bəndəliyin üç xüsusiyyətini zikr edərək buyurur: Bəndənin həqiqi malik olmamasının əlaməti budur ki, Allah yolunda ehsan etmək onun üçün asan olur.

Əgər bir kəs var-dövlətini Allah yolunda xərcləməkdə çətinlik çəksə, deməli o, hələ də var-dövlətinin Allaha məxsus olduğunu dərk etməmişdir.

## İYİRMİ DOQQUZUNCU DƏRS

Keçən söhbətlərimizdə, insanın töhid mərtəbələrində məqama çatmasının bəndəlik dərəcələrində hansı məqamda olması ilə sıx əlaqəli olduğunu qeyd etdik. Yəni insan töhid mərtəbələrindən nə dərəcədə bəhrələnə bilsə, elə həmin dərəcədə də bəndəlikdən bəhrələnəcəkdir. Tövhidi-əfalinin həqiqətinə varan şəxs, bəndəlikdə də həmin mərtəbənin həqiqətinə varmışdır. Bəndəliyin həqiqəti tövhidin həqiqəti ilə ayrılmaz tellərlə bir-birinə bağlıdır. Bu barədə Həzrəti Sadiqin (ə) Ünvani Bəsriyə buyurduğu hədisi nəql etdik. Bu hədisdən əldə etdiyimiz nəticəni sizin nəzərinizə çatdırmağı özümüzə vacib bilirik.

İnsan həyatda özünü müstəqil, malik hesab etməməlidir. Çünki almaq, bağışlamaq və irs aparmaqla onun əlinə gələn şeylər onun əlində əbədi qalan deyildir. Bu misalda qeyd etdiyimiz malik və onun əldə etdiyi şeylər zaman keçdikcə yoxluğa düçar olacaqdır. İnsanın əldə etdiyi var-dövlətin yalnız əql və şəriətin hesabına görə qiyməti vardır. Məsələn, bir kəs öləndə onun var-dövləti yaxın adamlarına yetişir, yəni həmin var-dövlət nisbi surətdə o adamların malına çevrilir. Amma həqiqətdə hər bir şey Allaha məxsusdur.

Allahın həqiqi bəndəsinin heç bir mal-dövləti yoxdur. O, bütün var-dövlətin yalnız Allaha məxsus olduğunu bilir. Elə buna görə də o, bunları Allahın buyurduğu və izn verdiyi yerlərdə sərf edir.

## İNSANIN ALLAHIN HƏQİQİ MALİK OLDUĞUNU BİLSƏ, YAXŞILIQ ETMƏK ONUN ÜÇÜN ASAN OLAR

İmamın (ə) buyurur: İnsan bütün var-dövlətinin yalnız Allaha məxsus olduğunu dərk edən kimi, yaxşılıq etmək onun üçün asanlaşır və artıq paxıllıq etmir. Çünki o, Allahın həqiqi bəndəsidir və var-dövlətdə Allah tərəfindən ona verilmiş bir bəxşişdir. Ona bu malı lazım olan yerlərdə sərf etməyə icazə vermişdir.

İkinci məsələ budur ki, həqiqi qulların bütün diqqəti öz ağalarındadır. Onlar mənzil, xörək və özlərinə həyatda lazım olan şeylərlə maraqlanmırlar. Özünü bəndə hesab edən və malikin onun işlərinin həqiqətən də idarə etməsini başa düşən kəsin artıq qəm-qüssəsi olmur. Əlbəttə bu sözdən məqsəd o demək deyildir ki, insan öz işləri üçün tədbir etməməlidir. Əksinə bu sözdən məqsəd onun özünün müstəqil tədbirçi hesab etməməsidir, yəni o, fikrini, əqlini və özünü bütün işlərdə müstəqil hesab etməməlidir. Bütün işlərini yalnız Allaha etimad etməklə yerinə yetirməlidir. Həqiqətən də insan həyatdakı işlərində Allahın ona bağışladığı düşüncə və əqlin vasitəsilə tədbir edir. Yəni insan öz işlərində tədbir etməsinə baxmayaraq, Allahın da nə edəcəyinə diqqət etməlidir. Amma əgər bir işə müstəqil surətdə tədbir edərək onun mütləq həyata keçəcəyini iddia etsə, elə həmin anda da bəndəlikdən süqut edəcəkdir.

## BƏZİ DUALAR DÜZGÜN DEYİLDİR

Günorta namazının arxasınca oxunan duada belə deyilir: ***«Pərvərdigara, Sənin razılığına səbəb olan və mənə məsləhət bildiyin dünya və axirət hacətlərini mənim üçün qərar ver».***

İnsan Allahdan istədiyi hacətlərini də hökmlə istəməməlidir. Hökmlə istəmək dua və hacət istəmək deyildir, yəni insan öz dualarında, Pərvərdigara, mənə elə gəlir ki, bu iş mənim xeyrimədir – deməməlidir. Amma əgər, «İlahi, əgər Sənin bu işdə məsləhətin varsa onu mənə əta et» - desə, daha ədəbli olar. Ümumiyyətlə insan bütün işlərini Allaha tapşırmalıdır. Allah bu barədə Quranda buyurur: ***«Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələri görəndir».***[1]

Allaha hökmlə əmr etmək dua deyildir. Əsil dua öz işlərini Ona tapşırmaqdır.

## BÜTÜN İŞLƏRİ ALLAHA TAPŞIRMAQLA ZƏHMƏTLƏR AZALAR

Böyük şəxsiyyətlərdən bəziləri buyururlar: Bəndəçiliyin ən yüksək mərtəbəsi, təfriz məqamıdır. Bu məqamda olan şəxs öz məsləhətlərini kənara qoyaraq, özünü kamil surətdə Allaha tapşırır. Aləmlərin Rəbbi onun üçün nə məsləhət eləsə, onu da qəbul edir.

Bu məqamda olan şəxsin xüsusiyyətlərindən biri də, dünya müsibətlərinin ona asan gəlməsidir. Başına gələn müsibətlərə etiraz etmir. Əgər malı əlindən çıxsa, narahat olmur, çünki bu malı özü üçün rəbb hesab etməyib. Əksinə, hər bir şeyi Allaha tapşıraraq, Onun məsləhəti ilə oturub-durur.

Bütün işləri Allaha tapşırmaqla, insan rahatlıq tapır. Belə insanlar övladları öləndə də narazılıq etmirlər. Əksinə, onu Allahın əmanəti hesab edib, ***«Pərvərdigara, bu övladı mənə əmanət vermişdin, indi isə məsləhət bilib apardın»*** - deyirlər.

Təslim məqamına çatan şəxsi dünyanın heç bir hadisəsi narahat edə bilməz.

[1] «Muminun» surəsi, ayə 45.

Şaban ayının on beşinci gününün duasında belə oxuyurur: **«Pərvərdigara! Bizə elə bir qorxu əta elə ki, Sənin əmrindən çıxmağa daha cəsarət etməyək. Bizə elə bir yəqin əta elə ki, o yəqinin səbəbi ilə dünyanın bütün müsibətləri bizim üçün asan olsun».**[1]

Bütün işləri Allahın əlində olduğunu və özümüzün isə o işlər haqqında nadan olduğumuzu bildikdən sonra, daha Ona etiraz etməyəcəyik.

O qədər işlər vardır ki, biz onları özümüz üçün yaxşı hesab edirik. Amma həqiqətdə onlar bizim zərərimizədir. Eyni zamanda bunun əksi də ola bilər. Bu barədə Allah-Təala buyurur: ***«Bəzən xoşlamadığımız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığımız bir şey sizin üçün zərərli ola bilər. Onu Allah bilir, siz bilməsəniz».***[2]

Deməli Allaha belə müraciət etməliyik: **«Pərvərdigara! Sən bizim üçün nəyi məsləhət edirsənsə, yalnız onu Səndən istəyirik. Çünki biz bütün hadisələrdən xəbərsizik. Sən bizim həqiqətən də Mövlamızsan».**

## NƏVSİN MEYLİ OLMASA, RAHATLIQ OLAR

Həqiqi bəndənin üçüncü əlaməti budur ki, Allah daim hazır və nazir olduğu kimi, o, özü də daim bəndəçilik məqamında olsun. Yəni bəndə bir iş görəndə nəfsinin ziddinə olaraq çalışmalıdır ki, Allah ondan razı qalsın. Belə insanlar həmişə Pərvərdigarın əmr və nəhylərini yerinə yetirməkdə və Onun qadağan etdiyi şeyləri tərk etməkdə çox diqqətlidirlər. Həqiqi bəndə olan şəxs artıq bütün çəkişmələrdən, mübahisələrdən və

---

[1]

[2] «Bəqərə» surəsi, ayə 216.

fəxr etməkdən uzaq olur. Çünki, yalnız Allahın razılığını düşünən şəxsin heç bir kəslə davası yoxdur.

Bir-bir ilə savaşan iki nəfərin hər ikisi də bəndəçilik mərtəbəsindən xaric olmuş adamlardır. Çünki onlar bir-birlərində özlərinə uyğun olmayan xüsusiyyətlər görmüş və bunun nəticəsində narahat olmuşlar. Buradan da məlum olur ki, onlarda hələ də nəfsani istəklər qalmaqdadır. Deməli, hələ həqiqi bəndə deyillər.

Bəzən çəkişmələr vəzifə üstündə olur. Bəndə hara, vəzifə tələb etmək hara? Bəndənin kiməsə əmr və nəhy etməklə işi yoxdur.

## BƏNDƏ OLMAMAĞIN NİŞANƏLƏRİNDƏN BİRİ DƏ FƏXR ETMƏKDİR

Həqiqi bəndə heç bir şeylə fəxr etmir. Çünki, onun fəxr etmək üçün özündən bir şeyi yoxdur. Məsələn, bəziləri elmlərinə görə fəxr edərək, mənim elmim daha çoxdur-deyirlər. Onlardan belə bir sual olunur: Sənin elmin nədən ibarətdir? Bir qədər dərs oxumusan, bir azda artıq kitab mütaliə etmisən. Bu elm sənin öz zatındandırmı?

Bu elm Allahın sənə verdiyi «Zaid əmrdən» (başqa yerdən əlavə olunmuş) başqa bir şey deyildir. Bunu da Pərvərdigarın sənə əta etdiyi göz, qulaq, hafizə və başqa vasitələrlə əldə etmisən. Məsələnin əslinə baxanda isə mən və sənin burada heç bir işi olmamışdır. Deməli, elmin çoxluğuna görə fəxr etmək lazım deyildir. Amma elə ki, insan «mənim elmim daha çoxdur» - dedi, həmin anda da bəndəçilikdən xaric olur. Var-dövlət, bəyan, dərs və başqa şeylərlə fəxr etmək, bəndə olmamağın nişanəsidir.

Amma insan məqama yetişib Allahın əmr və nəhylərinə itaət etməklə məşğul olsa, artıq çəkişmə, mübahisə və fəxr etməkdən uzaq olar.

## BƏNDƏÇİLİYİN ÜÇ XÜSUSİYYƏTİNİN TƏSİRİ

Allah-Təala bəndəni bu üç şeylə (özünü malik hesab etməmək, Allahı həqiqi tədbirçi bilmək və həmişə Allahın razılığını əldə etməyə çalışmaq) hörmətli edən kimi, bəndə kamil surətdə azad olaraq heç bir şeyə meyli olmur. Onun üçün dünyanın qiyməti aradan gedir. Daxilindəki mənəmlik aradan götürülür. Xalqın ondan razı olub-olmamasının, tərif və ya məzəmmət etməsinin onun üçün heç bir fərqi yoxdur. Çünki, artıq o, Allahın həqiqi bəndəsidir. Elə buna görə də pul yığmaq, izzət və şöhrət dalınca getmək və başqalarına qalib gəlmək kimi zəhmətli işlər onun üçün mənasız olur. O, artıq öz əziz ömrünü belə işlərdə hədərə vermək istəmir.

Elə buna görə də həqiqi bəndə çəkdiyi nəfəslərin və ömründən gedən saatların qədrini bilir.

## BEHİŞT YER ÜZÜNDƏ UCALIQ TƏLƏB ETMƏYƏN KƏSLƏR ÜÇÜNDÜR

Allah-Təala Quranda buyurur: ***«Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edirik. Gözəl aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!»***[1]

İmam (ə) bu ayəni şahid gətirərək buyurur: Yer üzündə üstünlük tələb etməmək təqvanın ilkin mərtəbəsidir. Yəni belə insanlar heç bir işdə özlərini irəli atmayıb gözə girmirlər. Amma

[1] «Qəssas» surəsi, ayə 83.

özlərini dünyadakı işlərdə irəliyə atanların əməllərindən məlum olur ki, onlar hələ də özlərini Allahı və eyni zamanda dünyanı da tanımayıblar. Dünyanı, onun var-dövlətini, cah-cəlal və şəhvətini istəyən kəs bəndəçilik yolundan azmış cahil adamdır.

Belə adamlar axirət məqamlarından məhrum qalacaqlar.

Yuxarıda qeyd etdiyimiz ayələrdəki, maraqlı nöqtələrdən biri, ***«La yuridunə»*** (istəmirlər) kəlməsidir. Yəni nə inki onlar belə deyillər, hətta, yer üzündə üstünlük tələb etməyi istəmirlər.

Dünyada şöhrət, məqam, vəzifə və var-dövlət istəyən adam təqva mərtəbəsindən xaric olmuşdur. Deməli, bəndəçiliyin həqiqətinə çatmaqdan ötrü çalışmaq lazımdır ki, nəticədə Alahın bəndələrə vədə verdiyi axirət məqamlarına çata bilək.

## İNSANI DƏHŞƏTƏ GƏTİRƏN AYƏ

Əli ibn İbrahimi Quminin təfsirində belə yazılır: İmam (ə) yuxarıda qeyd etdyimiz ayəni oxuyanda, göz yaşı tökərək buyurur: Bu ayəni oxuyanda bütün həvəs və arzular aradan gedir.

Yəni insan bu dünyada elə fikirləşir ki, səadətə çatıb, nicat tapacaqdır. Axirətdə böyük məqama çataraq, Salman dərəcəsində olacaqdır. Bəzi ağılsızlar uzun arzular və dünyada ucalıq tələb etməklə necə də özlərinə güvənirlər. Mən hacıyam, mən kərbəlayiyəm, mən məşhədiyəm, nə bilim mən Əli (ə) şiəsiyəm, seyyidəm, aliməm, şeyxəm, rəisəm, nazirəm və s... sözlər işlədirlər. Amma əslinə qalanda isə, təqva yer üzündə üstünlük tələb etməklə deyildir.

Pərvərdigara! Sən özün bizləri islah et! Bizim öz bəndələrindən qərar ver ki, bəndəliyi həqiqətini dərk edə bilək!

## OTUZUNCU DƏRS

## İMAMIN (Ə) ÜNVANİ BƏSRİYƏ ETDİYİ DOQQUZ NƏSİHƏT

İmam (ə) bəndəçiliyin hqiqətini zikr edəndən sonra, Ünvani Bəsri dedi: Ey mənim mövlam, mənə nəsihət və moizə edin. İmam (ə) buyurdu: Sənə və Allahın yolunda kamala çatmaq istəyən insanlara doqquz şeyi vəsiyyət edirəm. Onun üçü nəfsani istəklərin ziddinə gedib onu zəhmətə salmaq, üçü «helmə» və üçü isə «elmə» aiddir.

Nəfsin ziddinə aid olan üç vəsiyyət bu qaydadadır: Ən böyük hicab olan təkəbbürün azalmasına qədər, nəfsi ram etmək lazımdır. Birinci xörəkdə diqqətli olmaq lazımdır. Yəni, iştaha olmayan vaxt xörək yeyilməməlidir. Çünki, əgər insan ac olmadığı vaxtda xörək yesə, bu onun axmaqlığına səbəb olar.

## ÇOX YEMƏK DƏRİN DÜŞÜNCƏNİ AZALDIR

Çox yeməyin xarici təsirləri də ola bilər. İnsan tox olduğu və iştahası olmadığı halda xörək yesə, həzm prosesi çətinləşə bilər. Bu zaman ağır qazlar beyinə təsir edib idrak və düşüncə qabiliyyətinin qarşısını ala bilər. Əlbəttə bizim nəzərimiz heyvani idrak qabiliyyəti deyildir. Çünki, heyvani hislərin başlıca işi elə yemək, yatmaq və şəhvətlə məşğul olmaqdır.

Amma əksinə, insan əgər ac və ya iştahalı olduğu halda aclığını aradan aparmaqdan ötrü bir qədər xərək yesə, onda şadlıq və fəaliyyət hissi oyana bilər.

İkincisi budur ki, ac olmadığı halda xörək yeməyəsən. Bunun da hikməti yuxarıda qeyd etdiyimiz məsələ ola bilər.

Ümumiyyətlə, insan əgər bədənin sağlamlığını istəyirsə az yeməlidir. Çünki, çox yemək müxtəlif cür xəstəliklərin, o cümlədən ifrat dərəcədə kökəlmək, ürək xəstəliyi, qan təzyiqi və şəkər kimi xəstəliklərin yaranmasna səbəb olur. Həzrət Peyğəmbər (s) bu barədə buyurur: ***«Mədə bütün dərdlərin evidir».***[1]

## HALAL YEMƏK VƏ XÖRƏK YEYƏN ANDA ALLAHI YAD ETMƏK

Üçüncüsü budur ki, bir şey yemək istəyəndə onun halal olduğunu biləndən sonra ye. Yəni əgər bütün cəlb edici xörəkləri yeməkdən qorxmayıb onları yesən, yavaş-yavaş səndə heyvani hisslər oyanacaqdır.

Xörək yeməkdə ipə-sapa yatmayan kimsələrin nəfəsləri görəsən nə vaxt islah olunmaq fikrinə düşəcəkdir? Əgər bu gün nəfsini azad buraxsan, o günbəgün qüvvətlənib hicabı da çoxalacaq, bununla da Allahı tanımaqdan çox-çox uzaqlaşcaqdır. Çünki, Allahın yolu halal və az yeməklədir.

Xörək yeyən anda Allahı da unutmaq lazım deyildir. Allah-Təala Quranda buyurur: ***«Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin».*** [2] Əlbəttə bu ayə kəsilən heyvanların üzərinə Allahın adını çəkilməsinin vacib olması haqqındadır. Lakin bu ümumi məsələ olduğuna görə, ondan belə istifadə edirik ki, əgər hər bir tikə Allahın adı və Ona həmd və tərif etməklə yeyilməyə başlansa, insanın ruhu üçün bir nura çevrilir. Rəvayətlərdə bu məsələyə çox təkid olunmuşdur.

---

[1]

[2] «Ənam» surəsi, ayə 121.

Bu yerdə İmam (ə) buyurdu: Həzrət Peyğəmbərin (s) hədisini yadına sal ki, O, buyurubdur: **«İnsanın doldurduğu qablardan ən pisi, onun qarnıdır».**

Bəzi vaxtlarda hər donmuş qabın zərərli olması mümkündür. Lakin dolu qadının bədən və ruh üçün olan zərəri daha çoxdur.

«Zərur-rəbidə» belə bir rəvayət nəql olunur. Əgər qəbristanlıq əhlindən ölümlərinin səbəbi haqqında soruşurlar, onların əksəriyyəti «çox yediyimizə görə öldük» -deyə cavab verərlər. İnsan çox yeyəndə həzm prosesi qaydasınca getmədiyinə görə, onun bədən üzvləri qüvvətlənmək əvəzinə zəifləyir. Çox etmək eyni zamanda insanın ruhuna da təsir göstərərək onu alçaldır. Belə şəxs insaniyyət və Allah pərəstlik yolunda çıxmamalıdır? Rəvayətdə belə buyurulur: **«Allah-Təala hər bir çox yemək və çox yatmağı düşmən hesab edir».** Allahın nuru belə hicablanmış qəlbə neçə daxil ola bilər?

Allahın qəzəbinə düçar olmuş kəsin Onun dərgahına yolu yoxdur. Bacardığı qədər mədəni üç hissəyə böl. Onun bir hissəsini yeməkdən, ikinci hissəsini sudan və üçüncü hissəsini isə tənəffüs və istirahətdən ötrü saxla.

## İNSAN ACLIQ VƏ ORUC HALINDA ALLAHA DAHA YAXIN OLUR

İnsan aclıq halında Allaha yaxınlaşır. Şəhid öz «Qəvaid» kitabında belə bir rəvayət nəql edir: **«Oruc, Mənim üçündür və onun savabını da Mən verəcəyəm»** yəni oruc Allaha aid olduğu üçün, onun savabını da Allah verəcəkdir. Şəhid (r) bu barədə çox öncə bir məsələ zikr edərək buyurur: Orucun aclığı neçə Allaha yaxınlığa səbəb olə bilər? Bildiyiniz kimi, tox olanda insan idrak qabiliyyəti zəifləməyə başlayır. Yəqin ki,

təcrübə etmisiniz. İnsan yayda oruc olanda qurub vaxtı yaxınlaşarkən onun idrakı qüvvətlənir, insanda qeyri-adi bir xoşhallıq əmələ gəlir. İnsan bunun nəticəsində Allaha yaxınlaşaraq Onu daha yaxşı dərk etməyə başlayır.

## TÖHMƏT VƏ PİS SÖZLƏRİN QARŞISINDA SƏBR ETMƏK

İmamın (ə) həlm haqqında buyurduğu üç sifarişi bu qərarladır: Əgər bir kəs səninlə çəkişərək, «sən əgər mənə bir kəlmə pis söz desən, onun müqabilində on kəlmə ilə cavabını verəcəyəm» - desə, ona belə cavab ver. Sən mənə on dənə töhmət vursan da mən sənə heç cavab verməyəcəyəm. İnsan öz nəfsinə o dərəcədə hakim olmalıdır ki, pis əməlin qarşısında pis əməl etməməlidir. Çünki əgər mən töhmətə töhmətlə cavab versəm, mən də töhmət vuran adam kimi olaram. Töhmətin cavabı ya nəsihət etmək, ya da heç cavab verməməkdir.

Allah-Təala Quranda buyurur: ***«O kəslər ki, yalan yerə şahidlk etməz, faydasız bir şeylə rastlaşdıqları, zarafatyana bir söhbət eşitdikləri zaman onlardan üz çevirib keçər, özünü ləyaqətlə aparıb onlara əhəmiyyət verməz».***[1]

Allah-Təala başqa bir ayədə buyurur: ***«Rəhmanın əsil bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzər, cahillər onlara qarşı xoşagəlməz bir söz dedikləri zaman onlarla gözəl, mülayim danışarlar».***[2]

İmam (ə) buyurur: İkincisi budur ki, əgər bir kəs sənə pis sözlər deyib töhmət vursa, sən ona belə cavab ver: «Əgər mənə vurduğun töhmətlər doğrudursa, mən Allahdan günahımın

---

[1] «Furqan» surəsi, ayə 72.
[2] «Furqan» surəsi, ayə 63.

bağışlanmasını istəyirəm. Yox, əgər yalandırsa, mənə vurduğun töhmətə görə Allahdan sənin bağışlanmağını istəyirəm».

## XACƏ NƏSRƏDDİN TUSİNİN (R.Ə) AĞILSIZIN MƏKTUBUNA CAVABI

Axmağqlardan birisi Xacə Nəsrəddin Tusiyə (r.ə) söyüş və töhmətlərlə dolu olan bir məktub yazmışdı. Məktubdakı ifadələrdən biri də «sən itsən» sözləri idi. Mərhum Xacə məktubun cavabında salam və hal-əhval tutandan sonra belə yazır: Məktubda siz məni it adlandırdığınıza görə mən özümə fikir verdim. Amma bu mənanı başa düşə bilmədim. Çünki itin dörd ayağı, mənim isə iki ayağım vardır. İtin quyruğu var, mənim isə yoxdur. Onun dərisi başdan-başa tüklə örtülüdür, mən də isə belə deyildir.

Allahın xalis bəndələri həmişə İmamın (ə) vəsiyyətinə əməl edirlər.

İmamın etdiyi vəsiyyətin üçüncüsü budur ki, əgər bir kəs sənə qarşı təhqir və ya xəyanət edib, sənə əziyyət edəcəyəm desə, onun cavabında belə de: Mən isə sənə xeyirxahlıq edəcəyəm. Əgər bir işin varsa, sənin üçün yerinə yetirim. Əgər kömək istəyirsənsə, sənə kömək edim. Bu barədə çoxlu rəvayətlər vardır. Nümunə üçün onun birini nəql edirik.

## PİSLİYƏ YAXŞILIQLA CAVAB VERİR

Bəni-Ənam tayfasından olan bir nəfər İmam Səccada (ə) sahabələrinin yanında töhmət vuraraq ağır sözlər dedi. İmam Səccad (ə) da ona heç bir şey deməyib susdu. İmam (ə) sükut etdiyinə görə səhabələr də susdular. Sabahsı gün İmam (ə) öz

sahabələrinə buyudu: Qalxın ayağa, gedək əmimoğluma baş çəkək.

Həzrət bir neçə sahabəsi ilə həmin şəxsin evinin qarşısına gəldilər. İmam (ə) səhabələrinin o şəxsə əziyyət etməsindən qorxaraq, üzünü ona tutub buyurdu: Əmioğlu, əgər dünən dediyin xüsusiyyətlər məndə varsa, Allah mənim günahlarımı bağışlasın. Əksinə, əgər yoxdursa, onda mən Allahdan sənin bağışlanmağını istəyirəm. Bu anda həmin ələvi İmam (ə) əl və üzünü öpərək dünən etdiyi əmələ görə ondan üzr istədi.

Allaha bəndəçilik yolu elə budur, kim istəyirsə bu yolu saçə bilər. Həqiqi bəndə Allah yolunda belə əziyyətlərə dözməlidir. Yəni həqiqi bəndə söyüş və töhmətlərə dözərək onun qarşısında yaxşılıq etməlidir. Bəzən insan bir əmələ alçaqlıqdan çox yüksəklərə ucala bilər. Belə bir atalar məsəli vardır. «Uşaq yüz illik yolu bir gecəyə gedir». Nəfsin qiyməti daha çoxdur. Elə buna görə də onun hicablarını azaltmaq lazımdır.

## BİLMƏDİYİN ŞEYLƏRİ SORUŞ

İmam (ə) elmi öyrənmək haqqında üç vəsiyyət buyurmuşdur. Birincisi budur ki, bilmədiyiniz şeyi soruşub öyrənin, çünki soruşmayan şəxslər cəhalətdə qalır. Bəzən də cəhalət etiqadi məsələlərdə olur. Allah göstərməsin, şübhəli bir məsələ onun imanına təsir göstərib, əqidəsinin əslini xarab edə bilər. Sözün qısası soruşmaqda həya etmək, dində bəyənilmir.

İkincisi bir şeyi başa düşməkdən ötrü soruşmaq lazımdır. Amma bəzən insan bildiyi bir şeyi, alimi imtahan etmək üçün soruşur, onun yanında özünü elmli göstərməyə çalışır. Lakin belə olmamalıdır, soruşmaq başa düşməkdən ötrü olmalıdır.

Üçüncüsü budur ki, nəzərinə gələn hər bir şeyə əməl etmə, nə qədər bacarırsan ehtiyatlı ol. Fitva verməkdən, şirin

qarşısından qaçan adam kimi qaç. Əks halda qiyamət günü boynun camaatın keçməsindən ötrü körpü olacaqdır.

İnsan fitva və hökm verməkdə çox ehtiyatlı olmalıdır. Hökm verməyə qüdrəti olan hakim özü də deməməlidir ki, bu mənim rəyimdir. Heç kəsin öz nəzərini təhmil etməyə haqqı yoxdur. Çünki öz rəyinə əməl etmək özünün və başqalarının həlak olmasına səbəb ola bilər. Öz rəyinə əməl edən İblis idi ki, Allahın, Adəmə səcdə edin! Əmrinin müqabilində, məni oddan, Adəm isə torpadan yaratdığına görə, mən ondan üstünəm dedi.

İmam (ə) buyurduğu bu hədisə əməl etməkdə Allah-Təala bizi müvəffəq eləsin.

## OTUZ BİRİNCİ DƏRS

## ƏQL ALLAHIN BƏŞƏRƏ VERDİYİ BİR NEMƏTDİR.

Allah-Təala bəşərə varlıq aləmində heç bir məxluqa verməmdiyi xüsusi bir qüvvə veribdir. İnsanın kəramət və şərafəti həmin qüvvəylə bağlıdır. Ona başqa ifadə ilə «əql» deyirlər. Bu elə bir qüvvədir ki, bəşər onun gücüylə maddi və qeyri-maddi aləmlərin həqiqət və maarifini dərk edə bilir. Amma heyvanlar öz ətraflarında olan maddi şeylərdən başqa bir şey dərk edə bilmirlər. İnsan əqlin köməkliyi ilə maddi aləmdən başqa mənəvi aləmi də dərk edərək onların hikmətinə vara bilir.

## ELMİN GENİŞLİYİ İNSANIN TƏCƏRRÜDÜNƏ BİR SÜBUTDUR

Elmin geniş əhatəyə malik olması özü əql və ruhun qeyri-maddi olmasına bir dəlildir. Çünki, bizim bildiyimizə görə bir cism digər cismi əhatə edə bilmir. Yəni bir cismin başqa bir cismə elmi əhatəsi yoxdur. Bir daşın başqa bir daşı dərk etməsi qeyri mümkündür. Ümumiyyətlə, maddi varlıqlar özlərindən başqa olan maddi varlıqları əhatə edə bilməzlər. Yalnız insandır ki, özündən başqa varlıqları da əhatə etməyi bacarır. Elə buna görə də belə nəticəyə gəlirik ki, insanın ruhu mücərrəddir (qeyri-maddi). Materialistlər görəsən insanın maddi olmasına necə dəlil gətirirlər? Əgər bəşər maddi olsaydı heç vaxt bütün varlıq aləmini öz elmi ilə əhatə edə bilməzdi. Əşyaların tərkibini, dərmanlar və başqa şeyləri başa düşmək, yalnız əql qüvvəsinə aiddir.

## SƏBƏBLƏRİN TƏSİR ETMƏSİNİ DƏRK ETMƏK ƏQLİN XÜSUSİYƏTİDİR

Əqlin digər xüsusiyyətlərindən biri də onun illət və məlul (səbəb və nəticə) silsilələrini dərk etməsidir. Yəni bütün varlıq aləminin yaranışı bir illətə bağlıdır. Bəşər yalnız əqlin gücü ilə Allahın bütün varlıq aləmi ilə yanaşı illət və məlul silsilələrini yaratmasını dərk edir. Bu cümlədən məqsəd, onların Allaha laiq olan dərəcədə deyil, bəşərin öz istedad dərəcəsində dərk etməsidir. Bəşər Allahın verdiyi əqlin köməkliyi ilə bütün illətlərin Allah tərəfə qayıtdığını başa düşə bilər. Hər bir mövcudun səbəbi başqa bir mövcuddur. O başqa bir mövcud da digər bir mövcudun səbəbidir. Beləliklə də silsilə əmələ gəlir ki, bu da batildir. Elə buna görə də bütün varlıqların əslinin mütləq vücuda qayıtması zəruridir ki, artıq o vücudun səbəbə ehtiyacı yoxdur. Bütün səbəbləri yaradn, O, özüdür. Müsəbbibul-əsbabı (səbəblərin səbəbi) dərk edən yalnız əqldir.

## ƏQL MƏADI, XEYİR VƏ ŞƏRİ DƏRK EDİR

Allahın insana verdiyi əqlin xüsusiyyətlərindən biri də onun öz məadını dərk etməsidir. Böyük şəxsiyyətlərdən biri belə buyurur: «Əgər vəhy olmasaydı da insan əqli məadı dərk edə bilərdi». Çünki, əql dünyanın nəhayət bir hədəfə çatacağını dərk edir. İnsan nəhayətdə öz səadətinin kamilliyinə yetişməmişdir.

Əql xeyir və şər məsələlərini də dərk edə bilir. İnsan bu qüvvənin vasitəsi ilə özündə və ya başqalarında olan yaxşı və pis əməlləri bir-birindən ayıra bilir.

## ELMİ VƏ ƏMƏLİ ƏQLİN ÇOX VƏ YA AZLIĞI

Hikmət alimlərinin dediyiə görə əqlin iki şöbəsi vardır: Elmi və əməli əql. Elmi əql ümumi idraklara aiddir. Allah, Onun adları, kamal sifətləri, aləmdəki təsiri və əşyanın xüsusiyyətləri bu qəbildən olan elmlərdir. Əməli əql isə yaxşı və pis əməlləri bir birindən ayırıb dərk etməkdir. Yəni insan bu qüvvənin vasitəsi ilə yaxşı əməli müəyyənləşdirib ona əməl edir və pis işi tanıyaraq ondan uzaq olur. Ümumiyyətlə insan öz səadət və bədbəxtliyini bu qüvvənin vasitəsi ilə əldə edə bilir. Bu fitri bir məsələdir ki, Allah-Təala onu bəşərin mərifət dərəcəsinə görə, onlara əta etmişdir. Allah-Təala bu qüvvəni bəzilərinin xüsusiyyətlərinə görə onlara daha çox əta etmişdir. Lakin bəşər onu işlətməklə azaldıb və ya çoxalda bilər.

Deməli bu qüvvə əvvəldə hamıya eyni dərəcədə verilmişdir. Əgər onu yaxşı işlədə bilsələr, davamlı surətdə çoxalacaqdır. Əksinə onun qanunlarına əməl etməyib, ona təsir etməsələr yavaş-yavaş azalacaqdır. Allah-Təala Quranda buyurur: ***«Ya Məhəmməd! Ümmətinlə birlikdə batildən haqqa tapınaraq pak bir müvəhhid, xalis tək Allahlı kimi üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə - islama tərəf tut, Allahın dinini, Onun yaratdığı tövhid dini olan islamı heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti haqq dininin islam olduğunu bilməz. Allah bütün insaları xilqətcə müsəlman-təkkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşdur».***[1]

[1] «Rum» surəsi, ayə 30.

Bəşər bu qüvvənin vasitəsi ilə varlıq aləminin mənbəyini, məad, Allahı və Onun Peyğəmbər (s) və İmamlarını (ə) tanıya bilir.

## BÜTÜN ELİMLƏR İCMALİ ŞƏKİLDƏ BƏŞƏRDƏ VARDIR

Mümkündür, bəzilərinin qarşısında belə bir sual çıxsın. Sualın olmasının eybi yoxdur, biz sualı və onun cavabını qeyd edəcəyik. Amma sualdan əvvəl bir məsələni sizin nəzərinizə çatdırmaq istəyirik. Hikmət alimləri deyirlər: Elm insana xarici aləmdən hasil olmur. Bütün elmlər elə əvvəldən insanın əql və zatında vardır. Xarici aləmdə olan əşyalar qulaq, göz və başqa hiss orqanları vasitəsilə dərk olunaraq, əqlin oyanmasına səbəb olur. Əqlin oyanması nəticəsində insanın zatında mövcud olan elmlər təhsil almaq və müəllimlərin verdiyi dərslərin bərəkəti ilə işə düşməyə başlayır. Fikir qüvvəsi fəaliyyət göstərərək, insanın zatında olan elmləri yavaş-yavaş aşkara çıxarmağa başlayır. Qeyd etdiyimiz kimi, bütün elmlər insanın əqlində vardır, lakin onların fəaliyyət göstərməsindən ötrü müəllim və yada salana ehtiyac vardır. Əgər insanın əqli hərəkətə kəlsə, onun elmi aşkar olacaqdır. Əks halda isə onlar işlənməmiş halda qalacaqdır.

## BU MƏSƏLƏYƏ ƏSASƏN HAMI ALLAHI TANIMALIDIR

Əgər yuxarıda qeyd etdiyimiz nəzəriyyə doğru olsa, onda bütün bəşər Allahşunas olmalıdır. Hər bir kəs xeyrə doğru hərəkət edərək, ona verilən əqlin vasitəsi ilə xarici aləmdə olan əşyaları dərk etməlidir. Bu nəzəriyyəyə əsasən bütün insanlarda Allahı tanımaq elmi daha fəal olmalıdır. Amma bir halda ki,

əksəriyyətin Allahdan heç xəbərləridə yoxdur. Hətta bəzi alimlər Allahşünaslıqdan xəbərsizdilər. Bizim müşahidəmizə görə, hikmət alimlərinin əksəriyyəti yəqin mərhələsinə çatmamış Allah haqqında bülbül kimi örtürlər. Amma Allah haqqında gözəl danışmaqlarına baxmayaraq, onların əksəriyyəti öz danışıqlarına belə əks gedirlər. Əgər Allahı tanımaq elmi insanın zatında varsa, bəs niyə bəşər övladının idrak qabiliyyəti bir-birindən fərqlənir? Bəziləri elə bir həddə çatırlar ki, Allahı həmişə öz yanlarında hazır və nazir görürlər. Sədi bu məsələyə toxunaraq deyir:

***İnsan elə bir yerə çatır ki, orada Allahdan başqa heç kəsi görmür.***

***Bax gör ki, insaniyyətin məqamı necə bir məqamdır.***

Amma bu cür şəxslərlə bərabər elə insanlar da vardır ki, öz varlıqlarını isbat etdikləri halda, Allah haqqında həmişə şəkk edərək Onu inkar edirlər. Bir halda ki, bütün məxluqların varlığı hamısı Allahdandır. Bu, əvvəldə qeyd etdiyimiz bəzilərinin qarşısına çıxa bilən həmin sualdır.

## NƏ QƏDƏR Kİ, MANİƏLƏR ARADAN QALDIRILMAYIB, SƏBƏBLƏR KİFAYƏT ETMƏYƏCƏKDİR

Cavab: Əvvəldə qeyd etdiyimiz kimi, bütün elmlərin idrakı əqldə toplanmışdır. Amma bunlar «illəti-tammə» (tam səbəb) deyil, «müqtəzi» (müəyyən bir səbəb) şəkilindədir. Eyni zamanda yada salmaq lazımdır ki, bu səbəblərin həyata keçməsinin qarşısını alan maniələr də vardır. Səbəblərin (insanın fitrətindən olan elmlərin) aşkara çıxmasından ötrü maniələri aradan aparmaq lazımdır. Bütün elmlər insanın fitrətində vardır. Eyni zamanda xarici aləmdə onları aşkara çıxaran əşyalar da

vardır. Lakin bu elmlərin aşkara çıxmaqları maniələrin aradan götürülməsi şərti ilədir.

Məsələn, suyu qızdırmaq üçün onun səbəblərə ehtiyacı vardır. Yəni suyu bir qaba töküb, onu odun üstünə qoyuruq. Bunlar hamısı suyun qızmasından ötrü bir səbəbdir. Amma suyun qaynamasından ötrü bir səbəbdir. Amma suyun qaynamasından ötrü bu səbəblər kifayət etmir. Onun qaynamasının qarşısını alan maniələri də aradan aparmaq lazımdır. Yəni, əgər külək əsib və ya yağış yağıb odu söndürməsə, su qaynayacaqdır.

Bu misaldan məlum olur ki, insanın fitrətində olan elmlərin aşkara çıxmasının qarşısını alan maniələr vardır. Bu maniələr nəticəsində bəşər əqlinin nuru və zatının işığı aşkar olmur, o öz Allahşünaslıq elmini xatırlaya bilmir.

Bu məsələ barəsində ***«Üsuli-Kafi»*** kitabının **«Əl əqlu vəl cəhl»** fəslində Həzrəti Musa ibn Cəfər (ə) Hişam üçün nəql etdiyi çox nurani bir hədis qeyd olunmuşdur. Yaxşı olar ki, elm əhli bu hədisə daha da diqqət etsinlər. İmam (ə) rəvayətin sonunda əql və cəhalətin hər biri üçün yetmiş qoşun olduğunu zikr edir. Bizim bu hədisdən məqsədimiz, orada qeyd olunmuş maniələr haqqındadır.

## ƏGƏR MANİƏLƏRİ ÖZÜNDƏN UZAQ ETMƏSƏN.....

İnsanın zatında olan elmlərin aşkara çıxmasının qarşısını alan maniələr, bu hədisdə üç cümlə ilə qeyd olunmuşdur.

İmam (ə) buyurur: Allahın insanın əqlində qərar verdiyi elmlərin aşkara çıxmasının qarşısını alan üç maniə vardır.

Bəşər illərlə dərs oxuyaraq, müxtəlif dəlilləri ələ gətirməsinə baxmayarq, maniələr onun zatında gizlənmiş, elmlərin aşkara çıxılmasının qarşısını almışdır.

Birinci, insanın özündə olan və onun vasitəsilə Allah verdiyi əqlini xarab edən maniədir. Nəticədə insan idrak qabiliyyətini itirərək, heyvan səviyyəsinə alçalır.

## UZUN-UZADI ARZULAR İNSANI KOR VƏ KAR EDİR

Üç maniədən birincisi uzun-uzadı arzular və nəfsin istəkləridir. Nəfsin bu istəkləri insanın gündəlik heyvani yaşayışında olan, yemək, içmək, evlənmək, ev, paltar və başqa maddi şeyləri əldə etməyi aiddir.

İnsan bütün səyini maddi zinnətlərə, pul yığmağa, rəis olmağa və ümumiyyətlə, şöhrət qazanmağa, sərf edərək uzun-uzadı arzularla ömrünü puç edir. Bu arzuların hər birinin uzun bir zamana ehtiyacı vardır. Yəni, hər biri üçün plan çəkmək lazımdır. Maddi arzular, nəfsin istəklərinin bir növüdür ki, həqiqətdə boş xəyaldan başqa bir şey deyildir. Allah-Təala Quranda buyurur: ***«Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Lakin bütün bunlar dünaya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır».***[1] Əgər bir kəs öz əqlini Allahın nur və nur gətirən işlərinə sərf etsə, həqiqətən də onun əqli nurani olacaqdır. Amma əksinə, bir kəs bu nuru tərk etsə, zülmətə düşəcəkdir. Dünya və onun yaşayışı doğrudan da zülmətdir. Maddi şeylərə məftun olan adamın varlıq və vücud dərəcəsi də aşağı düşür. Nəticədə insan Allah verdiyi istedadı korlayır. Sözün qısası, maddi arzular insanın həqiqəti dərk etməsinin qarşısını alaraq, onun idrakını kar və kor edir.

---

[1] «Ali-İmran» surəsi, ayə 14.

# OTUZ İKİNCİ DƏRS

## DÜNYA ZÜLMƏTDİR VƏ ONUN ARZULARI DA ZÜLMƏT GƏTİRƏNDİR

Keçən söhbətimizdə Həzrəti Musa ibn Cəfərin (ə) Hişama nəql etdiyi hədisi qeyd etdik. Hədisin bəzi hissələrini təkrar etmək yerinə düşər. İmam (ə) buyurur: Hər kəs üç şeyi başqa üç şeyə müsəllət etsə öz əqlini əldən verərək, bir daha səadət üzü görməyəçəkdir. Bunu da unutmaq olmaz ki, tövhidi-əfali və sifatidə təfəkkür etmək özü bir nurdur. Bunun müqabilində fani şeylər haqqında təfəkkür etmək isə heç vaxt nurun yaranmasına səbəb ola bilməz. Yəni yeyib-içmək, evlənmək, ev əldə etmək, var-dövlət yığmaq, cah-cəlal və vəzifə sahibi olmaq, çəkişmələr, müharibələr və ümumiyyətlə dünyanın maddi şeyləri haqqında uzun arzular etmək, zülmətdən başqa bir şey deyildir. Əgər maddi arzular uzun-uzadı olsa, insan nəticədə öz əqlini əldən verə bilər.

## BƏZİLƏRİ HƏDƏFƏ ÇATMAQ ŞÜARINI BELƏ YOZURLAR

***«Tuhəful-üsul»*** kitabında Həzrət Əmirəl-möminin Əli (ə)-dan belə bir rəvayət nəql olunur. İmam Əli (ə) «Dibac» xütbəsində belə buyurur: **«Bilin, ey Allahın bəndələri! Arzular əqli aradan aparır. Uzun arzular insanı qafil edərək, onu həsrətə düşməsinə səbəb olur».** İmam (ə) başqa bir cümlədə buyurur: **«Uzun arzu edən kimsənin işləri də xarabdır».**[1]

1

Öz nəfsani istəklərinə yetişmək istəyən şəxs, heç bir şeydən çəkinmir. Münafiqlərin şüarları yəqin ki, eşitmisiniz. Onlar hədəfi vasitə kimi yozaraq belə deyirlər: Hökumətə çatmaq və onu idarə etmək üçün hətta qüdrətli dövlətlərin bütün istəklərini yerinə yetirmək lazımdır. Bu arzuya yetişmək istər böyük şəxsiyyətləri təror etməklə, istərsə və bomba qoyub günahsız insanları öldürmək və ya onların mallarını yandırmaqla olsun, fərq yoxdur. Əsas məsələ hədəfə çatmaqdır.

Əli (ə) bu məsələyə toxunaraq buyurur: **«Uzun arzu edən kimsənin, işləri də xarabdır».** Çünki onun hədəfi şeytanı bir hədəfdir. O, hökumətə çatmaq arzusundan ötrü hansı cinayətə deyirsən, əl ata bilir.

## ƏN DƏHŞƏTLİ ŞEY NƏFSİN İSTƏKLƏRİNƏ UYMAQ VƏ UZUN-UZADI ARZU ETMƏKDİR

«Nəhcül-bəlağə»nin başqa bir xütbəsində Həzrət Əli (ə) çox maraqlı bir kəlməsi vardır. İmam (ə) buyurur: **«Sizin haqqınızda daha çox iki şeydən qorxuram. Biri nəfsinizin istəklərinə uymağınız, digəri isə uzun arzulu olmağınızdır».** Hər kəs öz meyli və nəfsani istəklər ilə iş görsə, heç vaxt haqqa çatmayıb, həmişə batildə qalacaqdır.

Amma uzun arzulu olmaq insanın axirəti unutmasına səbəb olur. Çünki məsəl var deyərlər: İnsan bir oxla iki həfəfi vura bilməz və ya bir əldə iki qarpız tutmaq olmaz. Ümumiyyətlə insan ya dünyanı fikirləşməlidir, ya da axirəti. Çünki bütün ömrünü nəfsani arzulara və heyvani həvəsləri sərf edən kəs, heç vaxt qərb, bərzəx, axirət və qiyamətin fikrində ola bilməz. Onun bütün fikiri, filan vəzifə və ya var-dövlət ələ keçirib, şöhrətli olmaqdır.

# ALLAHA VƏ PEYĞƏMBƏRƏ TABE OLDUQLARINA GÖRƏ QİYAMƏTDƏ MƏŞHUR OLMAQ, ƏMƏLİ-SALEH BƏNDƏLƏRƏ AİDDİR.

***«Minhəcus-sadiq»in*** təfsirində belə rəvayət nəql olunur: Bir gün Həzrət Peyğəmbər (s) namazdan sonra minbərə çıxmaq istəyəndə, mübarək gözləri səhabələrinin arasında olan tamamilə arıqlamış və üzünün cöhrəsi saralmış bir cavana sataşdı. Həzrət Peyğəmbər (s) onun hal-əhvalını soruşdu: Cavan cavab verdi: Ya Rəsuləllah (s) dünəndən bu günə qədər qəm-qüssə məndən əl çəkmir. Fikirləşirəm ki, qiyamət günündə mən sizinlə bir yerdə olacam ya yox?

Bu cavan, Peyğəmbəri (s) çox sevdiyini görə, ondan ayrılmaq onun üçün çox çətin idi. Ona görə də Peyğəmbər (s) müraciətlə dedi: Mən özümü sizin məqamınız olan, Məhmud məqamına laiq bilmirəm. Bəs sizdən ayrılmağıma necə düzəcəyəmmi?

Həzrət Peyğəmbər (s) cavab verməyib, Allahın vəhyini gözlədi. Elə bu anda belə bir ayə nazil oldu: ***«Allah və peyğəmbərə itaət edənlər axirətdə Allahın nemətlər verdiyi nəbilər, peyğəmbərlər, siddiqlər, tamamilə doğru danışanlar, etiqadı düzgün olanlar, peyğəbərləri hamıdan əvvəl təsdiq edən şəxlər, şəhidlər və yaxşı əməl sahiblərilə bir yerdə olacaqlar, Onlar isə necə də gözəl yoldaşdlardır».***[1]

Bun yə nazil olandan sonra həmin cavan çox sevindi. İnsan öz əməlinin bərəkəti və itaəti ilə Peyğəmbərlə (s) bir yerdə ola bilər. Amma dünyada uzun arzular edən kəs, bu məsələlər haqqında nə vaxt fikirləşə bilər? Nə vaxt sirat korpüsündən keçməyin fikrində ola bilər?

---

[1] «Nisa» surəsi, ayə 69.

Rəvayətlərdə sitat körpüsü haqqında belə nəql edirlər: Camaat siratin üstündən keçəndə, gecə həşaratı işığın ətrafına neçə düşürsə, camaat da siratdan elə dəyib, süqut edir.[1] İndi özünüz fikirləşin, görəsən biz siratdan kecə bilərikmi? Bir halda ki, uzun arzu etməklə, axirəti tamamilə unutmuşuq.

Buna bənzər bir məsələni sizin yadınıza salırıq. Ömər ibn Sədin hədəfi Rey şəhərinə hökumət etmək idi. Elə buna görə də İmam Hüseyni (ə) öldürməli idi. Bu məsələni öz aləmində belə yozaraq fikirləşdi: Əgər behişt və cəhənnəm doğrudan da olsa, onda mən tövbə edəcəyəm. Amma hal-hazırda mənim üçün nəqd olan Rey şəhərinin hökumətini ələ keçirməliyəm. O, belə deyərək, bu məsələni - hədəf bir vasitədir - deyən münafiqlər kimi yozurdu. Çünki axirət onun üçün nağıldan başqa bir şey deyildi. Uzun arzular onu kor və kar etmişdir.

## YSAMƏ İKİ AYLIQ BİR KƏNİZ ALDI

***«Biharul-ənvar»***ın yeddinci cildində belə bir rəvayət vardır. Peyğəmbər (s) xəbər verdilər ki, Üsamə nəqd pulu olmadığına görə nisyə yüz dinara iki aylıq bır kəniz almışdır. Peyğəmbər (s) buyurdu: Şübhəsiz ki, Üsamə uzun arzularla məşğuldur.

Yəni öz ömrünə zəmanət verərək iki ay sonra yaşayacağının fikirləşib, bu işi görür. Amma mömin sabah gələn günü öz ömründən hesab etməməlidir. İki ay sonra sağ qalacağına və borcunu ödəyə biləcəyinə əminsənmi?

Sözün qısası, əksər bədbəxtliklər və məhrumiyyətlər uzun arzulu olmağın nəticəsindəndir.

---

1

## BİR QOCA KİŞİ YER ŞUMLAMAQLA MƏŞĞUL İDİ

***«Səfinətul-bihar»***ın birinci cildinin ***«Arzu»*** fəslində belə bir rəvayət nəql olunur: İsa (ə) yol gedərkən beli bükülmüş şəkildə yer şumlayan bir qoca kişiyə rast gəlir. O, əlindəki beli çətinliklə qaldıraraq yeri qazırdı. Həzrət bu qocaya baxıb fikirləşdi: Bu adam bu yaşda evin bir güncündə oturub istirahət etməli və dincəlməlidir. Onun çətinlik çəkməsinin əvəzinə uşaqları və qohum-əqrabaları onun yaşayışını təmin etməlidirlər. Həzrət bu fikirlərlə Allaha dua edərək buyururdu: Pərvərdigara! Arzu etməyi bu adamdan geri al. Elə həmin anda qoca əlindəki beli kənara atıb bir güşədə əyləşdi. Suyun qarşısını almağa bir kəs olmadığına görə axıb getməyə başladı. Həzrət Məsih (ə) əkinin getdikcə xarab olduğunu görüb, yenidən Allaha dua eylədi: Pərvərdigara! Öz məsləhətin nədirsə, elə də buyur. Elə bu anda qoca ayağa qalxıb beli götürdü və suyun axınını qaydaya salıb, yenidən öz işi ilə məşğul olmağa başladı.

Həzrət Məsih (ə) irəliyə gədib kişidən soruşdu: Mən sənə baxıb, sənin iki müxtəlif iş görməyini müşahidə etdim. Əvvəl iş görməklə məşğul idin, sonra beli kənara atıb dincəlməyə başladın. Birdən ayağa qalxıb, yenidən işlə məşğul oldun?!

Qoca dedi: İşlədiyim vaxtda birdən ölüm yadıma düşdü. Fikirləşdim ki, mən bu gün-sabah ölərəm.Əgər öləcəyəmsə niyə bu qədər özümə əziyyət edirəm. Elə buna görə də bir kənara çəkilərək oturdum. Lakin birdən fikrimə gəldi ki, diri adama yaşayış lazımdır və bəlkə yaxın vaxtlarda ölməyəcəyəm.

Bəziləri bu rəvayəti eşidib belə deyə bilərlər: Əgər hər bir kəs bir küncdə oturub işləməsə, bu aləmin nizamı bir-birinə qarışa bilər, yəni insan uzun arzu etməsə bu aləmin nizamı dağıla bilər. Əgər uzun arzulu olmaq bəyənilmirsə onda nə etmək lazımdır?

## QƏFLƏT İÇİNDƏ DÜNYANIN ARDINCA GETMƏK BƏYƏNİLMİR

Kecən bəhsimizdə olan bu sualı Quranın bir ayəsi ilə həll etmək olar. Bu məsələdə söhbət iş görməkdən deyil, qafil olmaqdan gedir. Allah-Təala Quranda buyurur: «***Və heç bir şey barəsində: Mən sabah edəcəyəm!-demə!***»[1]

Ancaq, inşallah, əgər Allah istəsə, Allah qoysa edəcəyəm! de. İnşallah deməyi unutduğun zaman Allahı yada salıb: Ola bilsin ki, Allah məni bundan, Əshabi-kəfin əhvalatına dair xəbərlərdən haqqa daha yaxın olan bir yola yönəltsin, peyğəmbərliyimə daha çox dəlalət edən bir möcüzə versin! –de.[2]

Əgər insan bir şey alanda, mən bunun pulunu iki aydan sonra verəcəyəm desə, bu uzun arzu etmək deməkdir. Bildiyiniz kimi, uzun arzulu olmaq insanı həlakətə aparır.

Amma işi Allahı yad etməklə yerinə yetirsə, eybi yoxdur. Ümumiyyətlə, hər bir kəs iş dalınca gedən də Allahı yad edib getməlidir. Çünki, əgər insan bir işi görəndə Allaha zikr edərək görsə, işi baş tutmayanda da narahatlıq keçirməyəcəkdir.

İnsanı həlak edən şeylərdən biri Allahadan və axirətdən qafil olmaqdır. Belə insanlar heç vaxt ölümü yadlarına salmayırlar. Elə buna görə də həmişə dünyanın ardınca gedirlər. İnsanı həlak edən şey iş deyil, qəflətdə olmaqdır.

İş körmək və ailə qurmaq dünyanın ardınca getmək deyildir. Əgər insan Allahdan qafil olsa, həmişə zülmətdə olacaqdır. Buna misal olaraq əvvəldə qeyd etdiyimiz rəvayəti çəkmək olar. Əgər kənizi nisyə alıb – mən bunu pulunu iki aydan sonra verəcəyəm – desə, Allahdan qafil olmuş və uzun arzularla məşğul olmuşdur.

---

[1] «Kəhf» surəsi, ayə 23.

[2]

Amma əgər – Allahın köməkliyi ilə və ya Allah məni öldürməsə və tofiq versə, onun pulunu iki aydan sonra verəcəyəm – desə, eybi yoxdur. Ümumiyyətlə insan bütün işlərində İnşalah kəlməsini qeyd etməlidir.

## İŞSİZ CAVAN ALLAHIN QƏZƏBİNƏ SƏBƏB OLUR

Şübhəsiz hər bir insan, xüsusilə də cavan adam müəyyən bir işlə məşğul olmalıdır. Rəvayətdə vardır ki, Allah-Təala işsiz cavanı düşmən hesab edir.[1]

İşsiz cavan şeytanın hədəflərindəndir. Onun hər an fəsada düşmək təhlükəsi vardır. Elə buna görə də necə olursa-olsun, o, ya oxumaqla yada bir işlə məşğul olmalıdır. Gördüyü bütün işlər də Allahı və ölümü yad etməklə olmalıdır. Çünki, Allah-Təala işsiz adamı özünə düşmən hesab edir.

***«Üsuli-kafi»*** kitabında belə bir rəvayət vardır. Ravi belə nəql edir: İmam Məhəmməd Baqir (ə) qızmar günəşin altında əkin sahəsində tər tökərək işləyirdi. Sufilərdən birisi İmama (ə) yaxınlaşaraq dedi: Ağa, siz bu yaşınızda özünüzə bu qədər əziyyət edirsiniz? Bəs qorxmursan ki, işlədiyin vaxt ölümün yetişə bilər? (Bəs belə halda Allaha necə cavab verə bilərsən?)

İmam (ə) buyurdu:

Bəli, ölümün axırı olduğuna görə bu işlə məşğul oldum ki, öləndə də öz vəzifəmə əməl edərək ölüm.

Sözün qısası, bu qədər söhbətdən məqsədimiz insanın öz vəzifəsinə əməl etməsidir. Yəni dünyanın işlərini tərk etmək lazım deyildir, əksinə hər bir işi Allahı və ölümü yad etməklə yerinə yetirmək lazımdır. Əgər belə olsa, insan heç bir vəzifə və var dövlət ardınca qacmaz. Bütün fəsad və pozğunluqlar qəflət və uzun arzulu olmağın nəticəsindədir.

---

1

# HARADAN BİLİRSƏN Kİ, SABAH SAĞ QALACAQSAN

*«Biharul-ənvar»*-ın 9-cu cildində belə bir rəvayət vardir. Həzrət Əmirəl-möminin (ə) özünün xilafət zamanında Beytul-malı bölərkən qürub vaxtı olduğuna görə işi yarımçıq qalmışdı. Həzrətə (ə) dedilər:

Ey Əmirəl-mömin! İşin yarısını sabaha saxlayın.

İmam (ə) buyurdu:

Siz mənim sabaha qədər sağ qalacağıma zəmanət verə bilərsinizmi?

Ölümün hər an yaxın olduğunu görən kəs heç vaxt səbəb və vədələrə fikir vermir. İnsan gərək – mən sağlamam, cavanam, məni qoruyan vardır – kimi sözlər deməsin. Çünki, hər bir kəsin müəyyən olunmuş əcəli vardır. Ölüm hər an insanı hədələyir. Əli (ə) buyurur: Ölüm kölgə kimi insanın arxasınca gəzir!

Bəli, əgər insan həqiqətən də Allahı və ölümü yad etsə, daha uzun arzularla məşğul olmayacaqdır. Deməli, uzun arzular işləməklə deyil, qəflətin nəticəsindəndir. Çünki insanın nə qədər gücü varsa əməli-saleh işlərlə məşğul olmalıdır. Əməli-saleh işdən məqsəd, yalnız bir küncdə oturub zikr etməklə məşğul olmaq deyildir. Əksinə, iş dalınca getmək, ailənin yaşayışını təmin etmək və Allahın insan üçün müəyyən etdiyi vəzifəyə əməl etmək elə özü əməli-saleh iş hesab olunur.

## OTUZ ÜÇÜNCÜ DƏRS

## İNSAN İKİ YOL AYRICINDADIR

Kecən bəhslərimizdə Həzrəti Musa ibn Cəfərin (ə) hədis barəsində söhbət etdik. Yəni, Allah verən əqlin insanın öz əliylə necə aradan apardığı haqqında danışdıq. Ümumiyyətlə insan bu böyük nemətin vasitəsilə yaranmış, məad və Allahın gözəl adları haqqında elm əldə edib, haradan gəldiyini, niyə gəldiyini və nəhayət hara dönəcəyini dərk etməlidir. Allah rəhmət eləsin o kəsə ki, bu məsələləri dərk edib, öz səadət və xöşbəxtliyinin əldə edə bilir. Elə insanın insaniyyətinin həqiqəti də bununla aşkar olur.

İnsanın heyvandan fərqlənməsi də elə əqlinin olmağına görədir. İnsan öz əqlinə nəqədər çox etimad etsə, onun insaniyyət aləminə ucalması bir o qədər də çoxalacaqdır. İmam (ə) öz kəlamında əqlin qarşısını alan üç maniəni zikr etmişdir. Yəni insan nə qədər fani işlərdə çalışsa, özü də getdikcə fəna və zavala uğrayacaqdır. Mərhum Molla Saleh Mazadarani bu rəvayəti gözəl şəkildə izah edir:

Dünyanın şəhvət və gözəllikləri insanın fikir və düşüncəsini nə qədər özünə məşğul etsə, bir o qədər də onun axirəti unutmasına səbəb olacaqdır. Dünyada saraylara malik olmaq fikrində olan şəxs, necə kövsər hovuzunun yanında Əliyə (ə) qovuşmaq arzusunda ola bilər? Belə insanlar dünyadan başqa hər bir şeyi yaddan çıxarıblar. Allah-Təala da onları öz başlarına buraxır.

Sözün qısası, kim dünyanın fani işlərinin ardınca getsə, mütləq axirətin işlərini geri atıb onu yaddan çıxaracaqdır. Bunun nəticəsində insanın zat və fitrətində olan istedadlar bütövlükdə

aradan gedir. Belə olan halda insanın imansız ölməyi də mümkündür.

Rəvayətdə dünya və axirəti şərq və qərbə bənzədirlər. Bunlar arasında olan fasilə çox uzundur. Əgər insan öz fikrini dünya ilə məşğul etsə, axirəti fikirləşə bilməyəcəkdir.

Başqa bir rəvayətdə dünya və axirəti, od və suya bənzətmişlər.

Bizim bütün səyimiz dünyamızı qaydasına salmaqdan ötrüdür. Lakin bir də baxıb görürük ki, dünyanın çox yeri hələ də düzəlməmişdir. Bəs heç fikirləşmədiyimiz axirət necə olacaqdır?

## AXİRƏT ÜÇÜN NƏ HAZIRLAMISAN?

İnsan burada axirət üçün ev düzəltməsə, orada onun üçün ev yoxdur. Özü də bu evi yaxşı düzəlməkdən çox şey asılıdır.

Əgər xeyirli və əməli-saleh bənna olsan, xoş sənin halına. Öz qəbri üçün gül-çiçək hazırlayan şəxs, özü də ondan bəhrələnəcəkdir. Amma qəbrinə od göndərən kəsin oradakı geyimi, çörəyi, mənzili də od olacaqdır.

## HİKMƏT NƏDİR VƏ ONUN TƏSİRİ NƏDƏN İBARƏTDİR?

Hiss aləminin fövqündə olan həqiqətləri dəqiqliklə dərk etməyə hikmət deyilir. İnsan gözü, qulağı və başqa maddi hissləri vasitəsilə bəzi şeyləri dərk edə bilir. O, maddi hisslərə malik olmasında heyvanlarla şərikdir. Lakin onun bəzi idrakları yalnız özünə məxsusdur.

Məsələn, dünya bəşər üçün mütləq xoşbəxtlik gətirə bilməz. Bu mətləb çox dəqiqdir. Dünyada yaxşı yaşayış və mütləq

rahatlıq əldə etmək istəyən kəs, onu burada əldə edə bilməyəcəkdir.

Bu məsələni çoxları başa düşə bilmir. Elə buna görə və var-dövlət və vəzifə əldə etməkdən ötrü həmişə çalışırlar.

Amma həkim olan şəxs, dünya malının ehtiyacları aradan qaldırmaq üçün lazım olduğunu və artığının isə baş ağrısı və həsrətə səbəb olacağını bilir. Eyni zamanda əksər var-dövlət sahiblərinin və vəziyyətdə olduğunu da dərk edir.

Var-dövlət və vəzifə insan üçün xoşbəxt həyat yarada bilmir. İnsan vəzifəyə keçən andan axıra qədər zəhmət və narahatlıq içində olur. Həsəd və paxıllıqdan yaxa qurtara bilmir. Amma əgər bu vəzifə Allah və Onun xalqına xidmət etməkdən olsa, insan bütün zəhmətlərin bərabərində böyük savab əldə edə bilər.

Sözün qısası həkim, vəzifənin zəhmətə səbəb olmasını dərk edir. Ümumiyyətlə dünyanın faniliyini və axirətin əbədi olmasını ya əqlin, ya da ki, tövhid-əfalinin vasitəsi ilə dərk etmək lazımdır. Bunları dərk etməyin özü, elə bir böyük hikmətdir.

## ÇOX DANIŞMAQ İNSANI HİKMƏTDƏN UZAQLAŞDIRAR

«Təraif» sözü tərifənin cəmidir. Hər kəsin əli çatmayan və insanı təəccübləndirən təzə bir şeyə tərifə deyilir. Rəvayətdə belə nəql edirlər: Öz hikmətinin qeyri adiliyini çox danışmaqla aradan aparan kəs, hikmətdən məhrum olacaqdır. Yəni öz vaxtını boş-boş söhbətlərə sərf edən insan öz hikmətini məhv etməkdən başqa bir iş görmür. Allah-Təala Quranda buyurur: ***«Onların gizli səhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq sədəqə verməyə, yaxud yaxşılıq etməyə və ya insanlar arasında sülh yaratmağa əmr edən şəxsin söhbətindədir.***

***Allahın razılığını qazanmaq üçün belə işlər görən şəxsə axirətdə böyük mükafat verəcəyik».*** [1]

Həqiqətən fitnə yaratmaq bir iş deyildir, kişi o şəxsə deyirlər ki, fitnəni yatırda bilsin.

Hikmət hər bir insanın daxilindədir. Lakin çox danışmaq onun aşkar olmasının qarşısını alır.

İnsanın qəlbi hikmətin qaynamasından ötrü bir çeşmədir. Həzrət Peyğəmbər (s) bu barədə buyurur: «Kim özünü Allah üçün 40 gün xalis etsə, onun qəlbindən dilinə hikmət çeşməsi axar». [2]

## SÖHBƏT ALLAHA XATİR OLMASA, QƏLB ÇEŞMƏSİNİN QARŞISINI TUTAN DAŞ-QALAQDAN BAŞQA BİR ŞEY OLMAYACAQDIR

İnsan qəlbi hikmət yeridir. Amma çox təəssüf ki, bəziləri boş-boş danışmaqla bu hikmət çeşməsinin qarşısında daş-kəssək tökürlər. Bunu da bilin ki, insanın danışdığı söz mütləq onun qəlbinə təsir göstərir. Əgər insan boş-boş sözlərlə qəlb çeşməsini xarab etsə, heç vaxt hikmətin üzünü görməyəcəkdir. Belə insanlar dini təbliğ edəndə əsas məqsədləri camaatın diqqətini özlərinə cəlb etmək olur ki, camaat onlara bərəkəllah desin.

Bu gözəl cümləni heç vaxt yaddan çıxartmayın: Əzizim hey fikirləşirsən ki, görəsən nə yeyim ki, camaatın məndən xoşu gəlsin və nə danışım ki, camaata xoş getsin. Amma bunu da bil ki, sən bu məqsədinə heç vaxt çata bilməyəcəksən.

Əgər bütün fikrin camaatı özünə cəlb etmək olsa, heç vaxt bu məqsədinə çata bilməyib nakam qalacaqsan. Bu niyyətinin zərbəsi də özünə deyəcəkdir. Yəni qəlbinin hikmət çeşməsinin

---

[1] «Nisa» surəsi, ayə 114.

[2]

qarşısını daş-kəssəklə dolduracaqsan. Əlbəttə yalan, qeybət və töhmətin bəlaları daha çoxdur. Lakin bizim məqsədimiz boş-boş danışmaq nəticəsində hikmət çeşməsinin necə məhv olmasını bəyan etməkdir. Boş-boş danışmaq qəlbin mənəviyyatını yuyub aparan damcılara bənzəyir. Heç vaxt haqq ilə batil bir yerdə cəm ola bilməz. Əgər batil əməl qəlbə daxil olsa, haqq mütləq aradan gedəcəkdir. Əgər gilabın üzərinə çirkli su tökülsə, bu çirkin su özü miqdarında təravəti aradan aparacaqdır. Hər danışılan batil kəlmə hikməti də o cür aradan aparır.

## DİLİN BƏLASI ÜRƏYİN XARAB OLMASININ NƏTİCƏSİDİR

Əgər dil düz danışan olmasa, öz təsirinin mütləq qəlbə göstərəcəkdir. Yuxarıda qeyd etdiyimiz misal diqqət edin, «çirkli su gilaba tamamilə təsir göstərməsə də onun yarısını aradan aparır». Yəni artıq gilaba xilis gilab demirlər. Yersiz danışıqlar da qəlbdə olan hikmətin xalisliyini aradan aparır. İnsanın qəlbinə daxil olan batil şeylər həqiqətlə qarışaraq onun xalisliyinə zərər vurur. Əksər insanlar qəlblərinin xarablığına görə əqidə məsələlərində şəkkə düşürlər. Qəlbin xarabalığı da dilin əyri olmasının nəticəsidir. Öz danışıqları ilə camaatın nəzərini cəlb etmək istəyən təbliğatcılar özlərini çox böyük təhlükəyə atırlar. Belə insanlar yalnız camaatın nəzərini cəlb etmək üçün çalışırlar. Hətta iş o yerə çatır ki, camaatın xoşuna gəlməkdən ötrü dinin ziddinə olan sözlərdən də istifadə edirlər. Buna nümunə olaraq münafiqlərin söhbətlərini qeyd etmək olar. Onlar özlərinin kommunizim məramlarını həyata keçirməkdən ötrü Quran və «Nəhcül-bəlağə»ni təhrif edərək öz əqidələrinə uyğun təbliğ edirdilər. Bunun nəticəsində qondarma bir məslək yaradıb cavanların əksəriyyətini də yoldan çıxarırlar. Camaatı öz sözləri

ilə özünə cəlb etmək istəyən şəxsin məbudu yalnız camaatdır. Belə insanların qəlblərində həqq necə zühur edə bilər?

## SƏLTƏNƏT TAXTI VƏ TAHİR

Şah zamanında «Came» məscidində «səltənət taxtının axırı tabutdur» mövzusunda etdiyim söhbət, bir neçə müddət dövlət tərəfindən mənim təqiblərə məruz qalmağıma və həbsxanaya düşməyimə səbəb oldu. Mən «axırı tabutla nəticələnən səltənət taxtı uğrunda bu qədər çalışmağım heç bir faydası yoxdur» deyəndə, hökumət adamları mənə dedilər ki, sən şahın ölümünü arzulayırsan. Amma bir halda ki, mən onlara nəsihət etmək istəyirdim.

## OTUZ DÖRDÜNCÜ DƏRS

## İBRƏT NURU ŞƏHVƏT QARANLIĞI VASİTƏSİLƏ SÖNDÜRÜLÜR

Bizim söhbətimiz Həzrəti Musa ibn Cəfərin (ə) nəql etdiyi hədis barəsində idi. İmam (ə) buyururdu: **«Kim üç şeyi digər üç şeyə müsəllət etsə, öz əqlinin xarab edərək, daha ondan bəhrələnə bilməyəcəkdir».** Qeyd etdiyimiz kimi, birincisi öz düşüncə nurunu uzun arzularla zülmətə çevirən, ikincisi hikmət və elmini yersiz danışıqlarla məhv edən və üçüncüsü isə ibrət nurunu nəfsin şəhvətlərilə söndürənlər haqqında idi. Burada şəhvət və ibrətin mənalarını bəyan etməyi və şəhvətin ibrət almağa necə mane olmasını açıqlamağı özümüzə lazım bilirik.

## GÖRƏSƏN ŞƏHVƏT BƏYƏNİLMİR?

Yemək, içmək, geyinmək, mənzil əldə etmək, minik, evlənmək, var-dövlət toplamaq və dünya vəzifələrinə meyl etmək kimi nəfsani istəklərə və heyvani ləzzətlərə şəhvət deyilir.

Şübhəsiz ki, bunlar insanın yaşayışı üçün zəruri olan işlərdir. Yəni əgər bunlar olmasa, insanın yaşayışı qeyri mümkündür. Bir tərəfdən Allah-Təala bunları insan üçün zəruri qərar vermiş, digər tərəfdən də bu şeyləri məzəmmət etmişdir. Bunu necə başa düşmək olar? Sözün qısası, bunlar bəşərin zatına qoyulmuş təbii, fitri və hətta onun ixtiyarından kənarda olan işlərdir. Eyni zamanda insanın nəfsani meyllərinə aid olduğlarına görə, onların ixtiyarı bəşərin öz əlində deyildir. Belə olan halda bunlar insanın təklifinə necə aid ola bilər?

## BU ƏMRLƏRDƏ MƏZƏMMƏT VƏ QADAĞAN OLUNAN ŞEY, ONLARI İSTİFADƏ ETMƏKDƏ QAYDA-QANUNA RİAYƏT ETMƏMƏKDİR

Bu işlər heç vaxt məzəmmət və nəhy olunmur, bunların hamısı İlahi şəriətin bəyənilmiş qanunları əsasındadır. Amma məzəmmət və nəhy olunan şey, bunlardan istifadə etməkdə ifrat və təfritə varmaqdır. Yəni, bu işlərdə halal və harama riayət etməməkdir.

Əgər insan bu şeyləri qəlbinə salıb onları özü üçün hədəf qərar versə, Allah və axirəti sevməkdən əl çəkib, insaniyyət kamalına çatmaqdan qafil olacaqdır.

Bəyənilməyən və məzəmmət olunan şey, məhz elə budur. Yəni, məzəmmət və nəhy olunan şey, insanın bu şeylərə qarşı tutduğu düzgün olmayan mövqeyidir.

## MADDİYYAT MƏNƏVİYYATA ÇATMAQ ÜÇÜN BİR VASİTƏDİR

Amma insan əqlinin nuru ilə, ölümün həyatın sonu olmadığını, özümün başqa bir aləm üçün yaradıldığını və əbədi qərargahının ölümdən sonra başqa aləmdə olduğunu biləndən sonra, artıq dünya işlərinə ürək bağlamayıb, onları özü üçün hədəf seçməyəcəkdir. Əksinə onları əbədi həyata çatmaqdan ötrü bir vasitə hesab edəcəkdir.

Elə buna görə də öz təkamülündən ötrü bu işləri mötədil edib, şəhvəti ilə qarşılaşanda təqva və şəriətin qanunlarına riayət edərək, onlardan istifadə etməkdə israfdan çəkinəcəkdir.

Belə insanlar dünyada yaşamaqlarına baxmayaraq, bütüm səyləri kamala çatmaq və əbədi həyatlarını təmin etməkdən

ibarət olur. Əgər saleh əməl etsələr, şad və əgər günah və məkruha yol versələr qəmgin olurlar.

## MÖMİNİN SEVİNC VƏ QƏMGİNLİKLƏ QARŞILAŞMASI

Hər bir şəxs nəfsani istəklərinə yetişəndə özünü xoşhal hiss edir. Amma, əksinə, öz meylinin ziddinə olan şeylərlə qarşılaşanda qəmgin olur.

Bu mömin və kafir üçün eyni olan təbii bir məsələdir. Amma bu məsələdə möminin kafirdən fərqli olan cəhəti budur ki, o, qəlbini bu cür şeylərə bağlamayıb, çətinliklərdə narahat olmur. Sevinc içində olanda da bu hiss onun Allahdan qafil olmasına səbəb olmur. Yəni, çətinlikdə iman qüvvəsilə səbr edərək, Allaha və əbədi axirətə bağlandığı kimi, sevincində də cənnətin əbədi ləzzətlərini yad edərək, onlara çatmağı arzu edir. Belə insanlar dünya şəhvətlərinə bel bağlayıb, qəlbləri necə aram ola bilər? Allah-Təala Quranda buyurur: ***«Bizimlə qarşılaşacağlarına, qiyamət günü dirilib hüzurumuzda duracaqlarına, cəzamıza yetişəcəklərinə ümid etməyən, axirətdən vaz keçərək dünyanı bəyənib ona bel bağlayan və ayələrimizdən qafil olanların, məhz onların qazandıqları günahlara görə düşəcəkləri yer Cəhəənnəmdir!»***.[1]

Dünyanı axirətin çətinlik və əzabından qorxan kimsəni necə qorxuda bilər? İlan sancmış adamı ağcaqanad sancsa, onun nə təsiri olacaqdır?

---

[1] «Yunus» surəsi, ayə 7-8.

## ALLAHI YAD ETMƏKLƏ, ÇƏTİNLİKLƏR ASANLAŞIR

Dünyanın çətinlikləri möminin qəlbinə deyil, nəfsinə təsir göstərir. Çünki onun qəlbi yalnız Allaha bağlanır. Bütünn məhəbbətini Allah və axirətə bağlayan şəxs üçün fani dünya həmişə qiymətsizdir.

Allah-Təala bu barədə buyurur: ***«Bu sizin əlinizdən çıxana gədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, özü ilə fəxr edən heç bir kəsi sevməz!»***[1]

Dünyanın kədəri möminin nəfsinə təsir edə bilər. Lakin Allahı yad etmək və Onun sonsuz savablarına nail olmaq arzusuyla yaşamaq, bu kədərə səbr edib, dözməyi asanlaşdırır. Elə buna görə də, Kərbalada südəmər Əliəsgər Həzrəti Seyyidüş-şühədanın (ə) qolları üstünə oxlananda, İmam (ə) buyurdu: **«Pərvərdigara! Bu müsibət Sənin hüzurunda olduğuna görə, ona səbr etmək, mənim üçün asandır»**[2] Həmçinin rəvayət edirlər ki, Aşura günündə İmam Hüseyn (ə) hər bir təzə müsibətlə qarşılaşanda, onu mübarək çöhrəsi daha da nuraniləşirdi.[3]

## İBRƏT GÖTÜRMƏK, NƏSİHƏTİ QƏBUL ETMƏYİ BACARMAQ DEMƏKDİR

Lazımlı məsələlərdən biri də, ibrətin mənasını başa düşməkdir. Nəsihət qəbul etməyi bacarmağa ibrət deyilir. Yəni əgər insan bir şey eşidəndə və ya bir hadisə ilə qarşılaşanda, ondan özü üçün ibrət götürməlidir. Məsələn, bir zülmkarın elə

---

[1] «Hədid» surəsi, ayə 23.
[2]
[3]

bu dünyada ikən bəzi əməllərinin cəzasına çatdığını eşidəndə, ondan özü üçün ibrət götürüb, zülm etməkdən tamamilə pəhriz etməlidir. Başqa bir misal, həris bir şəxsin ömrü boyu əziyyət çəkərək dünya malı toplaması və nəhayətdə ölüb getməklə bu malın onun əlindən çıxmasından ibrət götürüb, hərisliyi tərk etməlidir. Həmçinin, dünya əhlinin etibarsızlığından ibrət alıb dünyanın fani olmasını unutmamalı və heç vaxt belə bağlamamalıdır. Eyni zamanda başına gələn xəstəliklərdən, kasıbçılıqdan və məhrumiyyətdən narahat olmamalıdır, çünki bunlar da müvəqqəti olduğu kimi tez aradan gedəndir.

Artıq şəhvət və ibrətin mənası bizim üçün açıqlandı. Bu məsələlərin mənalarını anlamaqla İmamın (ə) nəql etdiyi «insan öz nəfsinin şəhvətinə itaət etməklə özünün ibrət nurunu söndürür» hədisin mənası bizim üçün aydın oldu.

## HƏR BİR ŞEYİ SEVMƏK İNSANI KOR VƏ KAR EDİB, ONUN EYBLƏRİ GÖRMƏSİNƏ MANE OLUR

Nəfsani şəhvətlərin qəlbi istəklərinə çevirən şəxs, artıq dünyanın faniliyini və onun başqa eyblərini görə bilir. Əgər insan bir şeyə məhəbbət bağlasa, o şey onu kor və kar edər. Əmirəl-Möminin (ə) buyurur: **«İbrət almaq üçün səbəblər çox, amma ibrət alanlar azdır».**

İbrət götürmək yalnız insaniyyətə aid olan bir məsələdir. Bu məsələ heyvanlara aid deyildir. Məlum olduğu kimi, heç bir heyvan başqa bir heyvandan ibrət götürmür. Eyni zamanda insan da əgər heyvan səviyyəsinə ensə, o da heyvan kimi ibrət götürməyəcəkdir.

***Diqqət edin, əcəl qurdu bu sürünü bircə-bircə aparmaqda,***
***Bu sürüyə bir nəzər sal, qəflət edib otlamaqda.***

## BƏSİRƏT HƏQİQƏTLƏRİ GÖRMƏK ÜÇÜNDÜR

Allah-Təala Quranda buyurur: ***«Ey bəsirət sahibləri! İbrət alın!»*** [1] Bəsər zahiri əşya və cisimləri görməkdən ötrüdür. Bəsirət isə, hadisələrin batini həqiqətlərini görüb, dərk etmək üçündür. Zahiri göz qaranlıqda bir şey görmədiyi kimi, qəlbin gözü olan bəsirət də şəhvətə aludə olduğuna görə əşyaların həqiqətini görə bilməyib, dünyanın faniliyindən ibrət ala bilmir.

## ƏQLİN XARAB OLMASI DİN VƏ DÜNYANIN FASİD OLMASINA SƏBƏB OLUR

Əqlini xarab edən kəs din və dünyasını da xarab etmişdir. Əvvəldə qeyd etdiyimiz kimi İmam (ə) buyururdu: «Heç kəs uzun-uzadı arzular edərək öz dilini saxlaya bilməsə, nəfsani şəhvətinə itaət eləsə, öz əqlini xarab edəcəkdir. Amma burada İmam (ə) buyurur: ***«Əqlini xarab edən kəs din və dünyasını xarab etmişdir».***

## DİNDARLIQ UZUN-UZADI ARZULARLA BİR YERƏ SIĞMIR

Dinin xarab olması nə deməkdir?

Dinin həqiqəti, qəlbin Allah və islam övliyaları üçün təvazökar olması və insanın dünya çətinliklərindən nicat tapıb, ölümdən sonra axirətin əbədi ləzzətlərinə yetirməsidir. Deməli, qəlbin maddi şeylərə bağlayan və uzun arzulara məşğul olan şəxs, dindar olə bilməz. Eyni zamanda dindarlıq günahdan çəkinib bütün hallarda təqvalı olmaq deməkdir. Elə buna görə də Allahın əmrlərindən böyün qaçıran şəxs, təqvalı olmaq

[1] «Həşr» surəsi, ayə 2.

deməkdir. Elə buna görə də Allahın əmrlərindən böyük qaçıran şəxs, təqva sahibi ola bilməz. Təqvasızlıq üzündən insanlığını əldən verib, ibrət götürməyən şəxslər, axirət səfəri üçün kamalata çatmaq və saleh əməllər etməyin fikrində neçə ilə bilər?

## NAKAMLIQ İNSANIN YAŞAYIŞINI ACINACAQLI EDİR

Dünya xarab olması nə mənadadır?

Dünyada heç bir şeyə ehtiyaclı olmamaq və heç bir şeydən qorxmamaq xarircəm yaşamağa xoşbəxt yaşamaq deyilir. Lakin məlum olduğu kimi, həmişə uzun-uzadı arzular edərək nəfsani istəklərini həyata keçirmək üçün çalışan şəxs heç vaxt rahat ola bilməz. Çünki o, bəlkə də yüz arzusundan birinə də çata bilməyib, həmişə həsəd və paxıllıq içində yanır. Bu bədbəxlik həmişə onu narahat edib, sonu olmayan nakamlıqlarla qarşılaşdırır. Nəticədə, dünya istəklərinə çata bilmədiyindən həmişə şəhvətin qulu olacaqdır.

**Allah-Təala bizi nəfsin şərindən saxlasın, bizlərə bəndəçilik və mərifət kəsb etməkdə tofiq versin! AMİN!**